Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 85 (7812) ÇƏRŞƏNBƏ AXŞAMI, 17 aprel 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik






# 3 394 898

## seçicinin etimadı ilə MSK İlham Əliyevi rəsmən prezident seçkilərinin qalibi elan etdi

**Aprelin 15-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda 2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinə yekun vurulması və MSK-nın seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə təqdim edilməsi məsələsi müzakirə olunub.

MSK sədri Məzahir Pənahov qeyd edib ki, cari il aprelin 11-də Azərbaycan Respublikası Prezidentinin seçkiləri azad, ədalətli və şəffaf şəkildə keçirilməklə ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyət kəsb edən tarixi hadisəyə çevrilib. Seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün MSK və aidiyyəti dövlət qurumları tərəfindən Seçki Məcəlləsində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərin icrasına xüsusi diqqətlə yanaşılıb. Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki prosesi iştirakçılarının maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan geniş seçkiqabağı təşviqat imkanının yaradılması, müşahidəçilər və kütləvi informasiya vasitələri nümayəndələrinin azad və sərbəst fəaliyyəti üçün tam maneəsiz şəraitin yaradılması və bütün digər addımlar MSK-nın hazırlayıb təsdiq etdiyi Təqvim Planına əsasən atılıb.

Hər bir ölkə üçün prezident seçkilərinin xüsusi əhəmiyyət daşıdığını vurğulayan Məzahir Pənahov deyib: “900-ə yaxın beynəlxalq müşahidəçinin, habelə nüfuzlu 51 beynəlxalq kütləvi informasiya vasitəsindən KİV təmsilçilərinin izlədikləri seçkilər Azərbaycanın şanlı səhifəsi kimi tarixə düşdü. Ən əsası odur ki, cəmiyyətimizin bütün tərəfləri seçkilərə böyük maraq göstərirdi. Namizədləri qeydə alınmış siyasi partiyalarla yanaşı, digər siyasi partiyalar da seçkiləri müşahidə edirdilər. Həmçinin fərdi olaraq öz istəyi ilə seçkiləri izləmək istəyənlər müşahidəçi kimi qeydiyyatdan keçmişdilər. Yəni bütün bunlar cəmiyyətin seçkilərə olan marağının göstəricisi idi. Çox sevindirici haldır ki, seçkiləri izləyən beynəlxalq müşahidəçilərin, demək olar, əksəriyyəti seçkilərin yüksək səviyyədə hazırlanıb keçirildiyini qeyd etdi”.

*Ardı 2-ci səh.*

## Konstitusiya Məhkəməsi seçkilərin nəticələrinə bu gün baxacaq

2018-ci il aprelin 11-də keçirilmiş Azərbaycan Respublikasının Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunun təsdiq edilməsi və seçkilərin nəticələri ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası aprelin 17-də saat 15:00-a təyin edilib.

## Yüz yaşlı müstəqil Azərbaycanın Prezidenti

**Aprelin 11-də Azərbaycan xalqı böyük həvəs və ruh yüksəkliyi ilə səsvermə məntəqələrinə gələrək özünün sınanmış və dünyaca məşhurlaşmış liderinə - möhtərəm İlham Əliyevə səs verdi.**

**Bununla da yüz yaşlı müstəqil Azərbaycana növbəti yeddi il ərzində cənab İlham Əliyevin rəhbərlik etməsini öz iradəsi ilə qanuniləşdirdi.**

**Bu, həm də tale qismətidir!**

**Belə bir şərəfə - yüz yaşlı müstəqil dövlətə rəhbərlik etmək missiyasına İlham Əliyev ötən 15 ildə gördüyü çoxcəhətli və rəngarəng işlərlə, yaşı yüzə çatsa da, özü gənc olan dövlətin inkişafına, dünyada tanınmasına və sayılıb fərqlənməsinə verdiyi çoxsaylı töhfələrlə layiq görülmüşdür!**

**Həmişə belə güclü, iradəli, vətənsevər və xalqsevər olasan, mənim PREZİDENTİM!**

**Azərbaycan xalqı səninlə fəxr edir!**

❖ ❖ ❖

**İnsanın gücü onun intellekti və qaldıra biləcəyi yükün çəkisi ilə ölçülür.**

**Dövlətin gücü isə il ərzində istehsal etdiyi ümumdaxili məhsulun həcmi, reallaşdırdığı layihələrin sayı və miqyası, ordusu və onun silahlanma vəziyyəti, vətəndaşlarının maraqlarını və rahatlığını təmin etməsilə bağlı həyata keçirdiyi tədbirlər, habelə xalqın bütün sosial qruplarının rifahının yaxşılaşdırılması üçün gördüyü işlərlə müəyyən edilir.**

Layihələr adətən iki mühüm istiqamətdə olur: beynəlxalq transmilli layihələr və ölkə daxilində gerçəkləşdirilən layihələr.

*Adətən beynəlxalq layihələr dövlətin iqtisadi maraqlarının təmininə xidmət edir. Lakin onlar məxsus olduqları ölkəyə siyasi dividendlər də qazandıra bilirlər. Bu tip layihələrin reallaşdırılması təkcə böyük vəsait yox, üstəlik xüsusi istedad və bacarıq, uzaqgörənlik və diplomatik məharət, bəzən isə müəyyən riskli addımlar atılmasını da tələb edir. Onları işə salanda isə əsrlər boyu xalqa xidmət göstərir, dövlətə gəlir gətirir, müəllif və qurucusunu əbədi ehtiram və minnətdarlıq ünvanına çevirir!*

### Azərbaycanı dünyada məşhurlaşdıran transmilli layihələr

Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinə qədər Azərbaycan öz tarixində heç zaman bu qədər investisiyatutumlu, nəhəng tikinti-quraşdırma iş həcmli, mühəndis-texnoloji həllinin mürəkkəbliyi baxımından unikallığı ilə seçilən layihə həyata keçirməmişdi. Ən maraqlısı isə budur ki, heç zaman öz təbii sərvətini müstəqil şəkildə dünya bazarına çıxararaq əldə etdiyi vəsaiti sərbəst şəkildə dövlətin və xalqın ehtiyaclarına sərf etməmişdi!

*Bu, ilk növbədə dövlət müstəqilliyinin nəticəsi idi! Buna qədər isə neft-qaz ehtiyatlarının istismarında “adı sənin, dadı mənim” prinsipi başlıca amil kimi götürülmüşdü.*

**Ulu öndər Heydər Əliyevin inadlı zəhməti, qətiyyət və prinsipiallığı nəticəsində baş tutan bu layihə həm də Azərbaycanın həqiqi dövlət müstəqilliyinə nail olduğu barədə dünyaya mesajı, milli maraqlarının təmini baxımından mühüm addım idi.**

“Əsrin müqaviləsi” neft kontraktı əsasında çıxarılan neftin dünya bazarına ixracı, oradan götürülən gəlirlərin ölkə iqtisadiyyatına sərfi ötən əsrin doxsanıncı illərinin əvvəllərində yaranmış dərin iqtisadi böhrandan qurtulmağa, iqtisadiyyatın digər sahələrinin inkişafı üçün sərmayələr yatırmağa, ölkə əhalisinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yüksəltməyə, habelə vaxtı çatmış digər problemləri uğurla həll etməyə şərait yaratdı. “Əsrin müqaviləsi” müstəqil Azərbaycanın dünyaya inteqrasiyasını da xeyli sürətləndirdi. İlkin proqnoza görə, “Azəri-Çıraq-Günəşli” yataqlar blokunda ən azı 500 milyon ton neft var idi və müqavilə 2024-cü ilədək imzalanmışdı. Lakin aparılan kəşfiyyat işləri neft ehtiyatlarının bundan iki dəfə artıq olduğunu sübuta yetirdi. Beləliklə, tərəflər “Əsrin müqaviləsi”ni 2050-ci ilədək uzadaraq əməkdaşlığı davam etdirmək barədə razılığa gəldilər.

**Cənab İlham Əliyevin imzaladığı təzə kontrakt isə “Yeni əsrin müqaviləsi” adını aldı. İlk layihə olan Bakı-Tbilisi-Ceyhanın uğuru və davamı isə cənab İlham Əliyevin xidməti sayılır.**

Bakı-Tbilisi-Ərzurum ixrac qaz boru kəməri də böyük zəhmət və vəsait hesabına başa gəldi. Bu kəmər Azərbaycanı dünyaya həm də təbii qaz ixracatçısı kimi tanıtdı. Hazırda bizim yeddi ixrac kəmərimiz var. Onlardan üçü ilə neft nəql olunur.

*İlham Əliyevin qətiyyət və prinsipiallığı, iradəsi və diplomatik məharəti sayəsində “Cənub qaz dəhlizi” layihəsinin icrası müvəffəqiyyətlə davam edir.*

TANAP və TAP adlandırılan yeni kəmərlər İtaliyaya qədər uzanacaq, ilkin olaraq altı ölkəyə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya Azərbaycan qazı veriləcəkdir.

*Bakı-Tbilisi-Qars dəmir yolunun bütün “yükünü” isə lap əvvəldən İlham Əliyev özü çəkdi.*

Maraqlı dövlətlər dəmir yolu xəttinin Ermənistan ərazisindən keçməsini və beləliklə, onun blokadadan çıxmasını istəyirdilər. Azərbaycanın dövlət başçısı qətiyyətli mövqeyindən dönmədi! Belə olan halda bəzi “dostlarımız” bizə kredit verməkdən imtina etdilər. Hər cür “dilətutma”, təsir və təzyiq cəhdləri də cənab İlham Əliyevi fikrindən döndərə bilmədi! Bütün məsuliyyəti və maliyyə xərclərini üzərinə götürən Prezident İlham Əliyev layihənin uğurla başa çatmasını və təntənəli açılışını təmin etdi!

**Əslində Bakı-Tbilisi-Qars həm də İlham Əliyevin şəxsi qələbəsidir! Çünki o, bu layihəni gerçəkləşdirməklə onun əleyhinə olan güclərə də qalib gəlməyi bacardı! Beləliklə, Londondan Pekinə uzanan ən qısa dəmir yolu xəttinin müəllifinə çevrildi!**

*“Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin işə salınması, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilməsi, beləliklə, ölkə paytaxtının qitələrin kəsişdiyi məkanda logistik mərkəzə çevrilməsi də Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin bəhrəsidir.*

**Həm də bütün bunlar yüzillər boyu Azərbaycan xalqına və Azərbaycan dövlətinə xidmət göstərəcək, xeyir verəcək nəhəng layihələrdir!**

Cənab İlham Əliyev ölkə daxilində də əsrlər ərzində işləyərək iqtisadiyyata, insanlara və bütövlükdə dövlətə gəlir və fayda gətirəcək çoxsaylı layihələrin gerçəkləşdirənidir!

*Ardı 9-cu səh.*

## Prezident İlham Əliyev Ramiz Mehdiyevi “Şöhrət” ordeni ilə təltif etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik edib, onu Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə “Şöhrət” ordeni ilə təltif edib.

Ramiz Mehdiyev bu təltifə və onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Administrasiya rəhbəri ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsində Prezident İlham Əliyevin müstəsna xidmətlərini vurğulayıb və qeyd edib ki, məhz dövlət başçısının rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə çox yüksək nailiyyətlər əldə olunub. O, bir daha dövlət başçısına minnətdarlıq edib.

***Prezidentin Mətbuat Xidməti***



## R.Ə.Mehdiyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə Ramiz Ənvər oğlu Mehdiyev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2018-ci il*



## Altay Həsənov: “Avropa çempionatı Bakıda yüksək səviyyədə təşkil olunub”

“Milli Gimnastika Arenasında keçirilən batut, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatı Azərbaycanın və Avropanın idman həyatında növbəti mühüm hadisədir. Turnirə 25 ölkədən 400-dən çox idmançı qatılıb. Bizim artıq belə turnirləri keçirmək təcrübəmiz var. İdmançılarımızın nəticələri ilə bağlı deməliyəm ki, qarşımıza qoyduğumuz əsas məqsədə çatmışıq. Belə ki, idmançılarımız Avropa Oyunlarına lisenziyalar qazanıb. Azərbaycan millisinin üzvü Mixail Malkinin qızıl medal qazanması isə hamımızı çox sevindirir. Bizim sinxron tullanmalar üzrə idmançı qızlarımız Veronika Zemlanaya və Svetlana Makştareva da çox yaxşı çıxış etdilər və gümüş medal qazandılar. Hesab edirik ki, Avropa çempionatı Bakıda yüksək səviyyədə təşkil olunub”.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov deyib.

Federasiyanın yeniliklərə daim açıq olduğunu bildirən Altay Həsənov deyib: “Biz də öyrənirik. Belə turnirlərin keçirilməsində yenilikləri də nəzərə alırıq. Bu il yeniliklər daha çox idi. Belə ki, Avropa çempionatının maskotu ABŞ-dan dəvət olunmuş professionallar idi. Bu bizim federasiyanın kreativliyindn xəbər verir. Görürsünüz ki, tribunalar doludur. Burada valideynlərlə yanaşı, xarici qonaqlar və turistlər də çoxdur. Bu bizim arzularımızın reallaşmasıdır. Artıq medallara sevinirik. Bunlar hamısı son 15 ildə gerçəkləşdirilən düzgün fəaliyyətin nəticəsidir. Burada, əlbəttə, Bakıda 2015-ci ildə keçirilmiş ilk Avropa Oyunlarının da rolu var”.

Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidentinin sözlərinə görə, bu il onları daha iki mühüm turnir gözləyir. Belə ki, bu ay növbəti dəfə Bədii Gimnastika üzrə Dünya Kuboku və Junior Trophy yarışları keçiriləcək. Həmçinin Bakıda Beynəlxalq Gimnastika Federasiyasının Konqresi baş tutacaq.

## Ermənistanda vətəndaş müharibəsi başlayır

### İşğalçı ölkədə xalq üsyana qalxdı



**Bu gün Ermənistanda baş nazir seçkiləri keçiriləcək. Sabiq prezident Serj Sarkisyanın yenidən hakimiyyəti qəsb etmək niyyətinə düşməsi və bu fonda baş nazir postunu tutmağa hazırlaşması bu ölkədə ictimai-siyasi müstəvidə gərginliyi əhəmiyyətli dərəcədə artırıb.**

Hətta bəzi siyasi təhlilçilər bu gedişlə Ermənistanda yeni vətəndaş qarşıdurmasının yaranmasını istisna etmirlər. Qeyd edək ki, artıq hakim Respublika Partiyası Serj Sarkisyanın baş nazir vəzifəsinə namizədliyini rəsmən irəli sürüb. “Daşnaksutyun” partiyası da Sarkisyanın baş nazirliyə namizədliyini dəstəklədiyini bildirib. Müxalifət isə prosesi boykot edərək diqqəti daha çox etiraz aksiyasına yönəldib.

### Parlamentdə “azadlıq məşəli” yandırılıb

Ermənistan parlamenti isə indilikdə tək namizəd olan Sarkisyanın məsələsini aprelin 17-də müzakirə edəcək. Amma bir neçə gündür ki, buna qarşı etiraz aksiyaları keçirilir. Xalq Serj Sarkisyanın yenə güc yolu ilə hakimiyyəti qəsb etməsinə qarşı çıxır. Bundan əvvəl isə Ermənistan parlamentinin iclasının gedişində müxalifətçi “Yelk” fraksiyasının nümayəndələri Serj Sarkisyanın baş nazir postuna namizədliyinin irəli sürülməsinə qarşı “məşəl şousu” təşkil ediblər.

*Ardı 16-cı səh.*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# 3 394 898 seçicinin etimadı ilə MSK İlham Əliyevi rəsmən prezident seçkilərinin qalibi elan etdi

*Əvvəli 1-ci səh.*

Namizədlərin Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq qeydə alındığını bildirən komissiya bildirib ki, prezidentliyə 6-sı siyasi partiyalar, 1-i öz təşəbbüsü ilə, 1-i isə seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülməklə 8 nəfərin namizədliyi qeydə alınıb və bütün namizədlərə seçkiqabağı təşviqat dövründə bərabər şərait və eyni imkanlar yaradılıb. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, ölkə üzrə 84-ü açıq, 84-ü qapalı olmaqla, ümumilikdə 168 daimi görüş yeri ayrılaraq namizədlərin ixtiyarına verilib və prezidentliyə namizədlər, sadəcə, dairə seçki komissiyalarını məlumatlandırmaqla həmin yerlərdən ödənişsiz istifadə edərək öz seçicilərinə sərbəst şəkildə seçkiqabağı platformalarını sərgiləyiblər. Namizədlərin seçkiqabağı təşviqatı üçün bütün seçki məntəqələrini əhatə edən 10 mindən çox böyük ölçülü lövhə quraşdırılıb. Seçki Məcəlləsinə əsasən prezidentliyə namizədlərə geniş və səmərəli seçkiqabağı təşviqat imkanı yaradılması məqsədilə İctimai Televiziya və Radio Yayımları Şirkətində qanunvericilikdə nəzərdə tutulduğundan 2 dəfə artıq - həftəlik 6 saat (3 saat televiziyada, 3 saat radioda) pulsuz efir vaxtı, "Azərbaycan" qəzetində, "Xalq qəzeti"ndə və "Bakinski raboçi" qəzetində dərc üçün ödənişsiz yer ayrılıb və bütün namizədlər bu imkanlardan səmərəli şəkildə istifadə ediblər. Bununla yanaşı, ödənişli təşviqat üçün 34 kütləvi informasiya vasitəsi tərəfindən namizədlərə təklif olunan qiymətlər MSK-ya təqdim olunub, bu məlumatlar namizədlərin tanış olmaları üçün komissiyanın internet səhifəsində yerləşdirilib. Bütün namizədlər üçün şərtlərin bərabərliyi prinsipi daim nəzarətdə saxlanılıb. Martın 19-dan start götürmüş seçkiqabağı təşviqat kampaniyası aprelin 10-dək davam edərək ümumilikdə sivil və müasir tələblərə cavab verən şəraitdə keçirilib.

Məzahir Pənahov deyib: "Prezident seçkiləri ilə əlaqədar seçki prosesinin, demək olar ki, bütün iştirakçıları ilə yanaşı, seçicilər üçün də geniş maarifləndirmə kampaniyası keçirilib. Seçkilərin keçirilməsi tarixi, səsvermə qaydaları, eləcə də istiqamətverici və çağırış xarakterli 52-dən artıq müxtəlif növdə yüz minlərlə plakat çap edilərək bütün yaşayış məntəqələrinin ərazisində asılıb, oxşar mövzulara həsr edilən çoxsaylı reklam çarxları səsvermə günü də daxil olmaqla, mütəmadi şəkildə hər gün televiziya və radio kanallarında nümayiş etdirilib".

Qeyd edilib ki, seçkilərdə bütün seçici qrupları ilə yanaşı, görmə və hərəkət qabiliyyəti məhdud olan seçicilərin də sərbəst səs vermələrinin təmin olunması üçün müxtəlif layihələr gerçəkləşdirilib. Gözdən əlil seçicilər onlar üçün hazırlanmış və seçki bülletenindəki məlumatların Brayl əlifbası ilə əks olunduğu trafaretdən istifadə etməklə seçki günü azad və sərbəst şəkildə istədikləri namizədə səs veriblər. Hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin sərbəst şəkildə seçki məntəqəsinə gələrək səs vermələri üçün isə daşına bilən pandusIardan istifadə olunub. Respublika üzrə aparılan araşdırmalar nəticəsində 1455 məntəqədə hərəkət qabiliyyətində məhdudiyyətlər olan seçicilərin olduğu müəyyən edilib, həmin məntəqələrdə hərəkət qabiliyyəti məhdud olan seçicilərin maneəsiz hərəkəti üçün şərait yaradılıb və mobil pandusIar quraşdırılıb. Beləliklə, bütün seçki məntəqələri bu qəbildən olan seçicilər üçün də əlverişli hala gətirilib. Eşitmə qabiliyyəti məhdud olan seçicilərin məlumatlandırılması məqsədilə MSK-nın seçici maarifləndirmə proqramı çərçivəsində hazırlanmış alt yazılı videoklipdə bütün səsvermə prosedurları geniş izah olunub və bu, eşitmə qabiliyyəti məhdud olan seçicilərin maarifləndirilməsinə əhəmiyyətli töhfə verib.



MSK sədri bildirib ki, prezident seçkilərinin müşahidəsinə 61 beynəlxalq təşkilat və 59 ölkəni təmsil edən 894 beynəlxalq müşahidəçi qatılıb. Habelə nüfuzlu 51 beynəlxalq kütləvi informasiya vasitəsindən olan 118 xarici KİV təmsilçisi MSK tərəfindən müvafiq lövhəciklə təmin olunaraq seçkiləri izləyib. Bütün bunlarla yanaşı, 4 təşkilat tərəfindən seçkilərdə "exit-poll" keçirilib ki, onlardan da 2-si öz fəaliyyətlərini ABŞ və Fransadan olan təşkilatlarla birgə qurublar. "Exit-pol"ların nəticələri MSK-nın rəsmi nəticələri ilə, demək olar ki, üst-üstə düşüb. Respublikada fəaliyyət göstərən yerli kütləvi informasiya vasitələrinin nümayəndələri isə heç bir əlavə qeydiyyat və sənəd tələb olunmadan seçki marafonunun əvvəlindən axırınadək sərbəst və maneəsiz şəkildə seçkilərdə iştirak ediblər. Seçkilərin müşahidəsində həmçinin çoxsaylı siyasi partiyaları, vətəndaş cəmiyyəti institutlarını, qeydə alınmış namizədləri təmsil edən, eyni zamanda, öz təşəbbüsləri ilə seçkilərə qatılmış 58 min 175 yerli müşahidəçi iştirak edib.

Ümumiyyətlə, seçkilərə hazırlıq, səsvermə günü və ondan sonrakı dövrlərdə istər yerli və beynəlxalq müşahidəçilərə, istərsə də yerli və beynəlxalq KİV nümayəndələrinə öz fəaliyyətlərini sərbəst və maneəsiz həyata keçirmələri üçün bütün imkanlar yaradılıb.

Məzahir Pənahov bildirib ki, prezident seçkilərində aşkarlığın təmin olunması üçün qeyd olunanlarla yanaşı, işğal edilmiş ərazilər istisna olmaqla, respublikanın bütün ərazisini əhatə edən 1000 seçki məntəqəsində (seçki keçirilən məntəqələrin təqribən 20 faizində) internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralar quraşdırılıb. "Mən məmnuniyyətlə qeyd edirəm ki, onların fəaliyyətində heç bir xoşagəlməz hal qeydə alınmadı. Səsvermə başlayandan seçkilər başa çatana qədər olan bütün prosesləri fasiləsiz olaraq onlayn rejimdə izləmək mümkün idi. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan, real zaman rejimində seçki məntəqələrində səsvermə günü baş verən bütün prosesləri əvvəldən axıradək izləmək imkanına malik olublar. Düşünürəm ki, Azərbaycanın tətbiq etdiyi seçki standartları beynəlxalq aləmdə nümunə ola bilər", - deyə komissiya sədri vurğulayıb.

Qeyd olunub ki, səsvermə günü seçki məntəqələri bağlandıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib. Yerli və beynəlxalq ictimaiyyətin seçkilərin nəticələri ilə tanış olmaları üçün səsvermə başa çatdıqdan 4 saat sonra - saat 23:00-da ölkə üzrə 5641 seçki məntəqəsinin 3675-dən (65,15 faiz), aprelin 12-də saat 01:00-da 5201 seçki məntəqəsindən (92,20 faiz), saat 12:00-da isə bütün seçki məntəqələrindən daxil olmuş məlumatlar əsasında səsvermənin ilkin nəticələri ictimaiyyətin diqqətinə çatdırılıb. Səsvermənin nəticələrinə dair yekun protokollar və digər seçki sənədləri qanunla müəyyən olunmuş müddətdə məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına, oradan isə MSK-ya çatdırılıb.

Məzahir Pənahov deyib: "Prezident seçkilərində seçicilər azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə edib və ümumilikdə ölkə üzrə seçicilərin ümumi sayının 74,30 faizi səsvermədə iştirak edib. Seçki günü və ondan sonrakı günlər də daxil olmaqla, bütün seçki kampaniyası boyunca MSK-ya və aşağı seçki komissiyalarına heç bir şikayət daxil olmayıb. Səsvermə günü seçicilər tərəfindən seçki məntəqələrinin ünvanları, seçici siyahıları və digər bu kimi məsələlərlə bağlı komissiyanın 115 saylı və elektron qaynar xətlərinə daxil olmuş sorğu xarakterli müraciətlərə isə dərhal reaksiya verilərək, operativ şəkildə lazımi addımlar atılıb".

MSK-nın sədr müavini Natiq Məmmədov iclasda çıxış edərək bildirib ki, komissiya seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün lazım olan bütün addımları atıb. O deyib: "Bütün beynəlxalq təşkilatlar, hətta ən qərəzli qurumlar da Mərkəzi Seçki Komissiyasının peşəkarlığına şübhə etmirlər. Bu peşəkarlıq fonunda aparılan araşdırmalar göstərir ki, sağlam seçki mühitinə kölgə salmaq üçün bəzi cəhdlər olub. Daxil olmuş bütün protokollar, internet resurslarında yayımlanan bütün informasiyalar araşdırıldı. Azərbaycanın öncül təcrübəsi kimi qəbul olunan veb-kameralar bu işdə də böyük yardımçı oldu. Aparılan 5 günlük araşdırmalar zamanı bir neçə seçki məntəqəsində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən pozuntular aşkar edilib".

Bununla əlaqədar N.Məmmədov 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin 26 saylı, 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını, həmçinin 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının və 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının tam tərkibdə buraxılmasını təklif edib.

İclasda prezident seçkilərinin yekunlarının müəyyən edilməsi ilə əlaqədar işlər başa çatmış hesab edilib, səsvermənin nəticələrinə dair MSK-nın protokolu tərtib olunub və komissiya üzvləri tərəfindən imzalanaraq təsdiqlənib.

Seçki Məcəlləsinin tələbinə uyğun olaraq MSK-nın protokolunun müvafiq sənədlərlə birlikdə seçkilərin yekunlarının təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunması qərara alınıb.

Həmçinin 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin 26 saylı, 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunub, eyni zamanda, 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı və 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı məntəqə seçki komissiyaları tam tərkibdə buraxılıb.

Sonra çıxış edən komissiya üzvləri atılmış addımları və həyata keçirilmiş layihələri seçkilərin azad, ədalətli və şəffaf keçirilməsini şərtləndirən vacib və təqdirəlayiq hal kimi yüksək qiymətləndirib, səsvermənin nəticəsinin xalqın iradəsini əks etdirdiyini bildiriblər.

Seçkilərin yüksək səviyyədə hazırlanıb keçirildiyini qeyd edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov buna görə Mərkəzi Seçki Komissiyasına minnətdarlığını ifadə edib. Bildirib ki, seçki prosesi qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirildi. MSK seçkilərin şəffaf və ədalətli keçirilməsi üçün bütün addımları atdı.

MSK-nın iclası yerli və xarici kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

---

### NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİ

**11 aprel 2018-ci il**

**SƏSVERMƏNİN NƏTİCƏLƏRİ HAQQINDA**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ**

## PROTOKOLU

**Bakı şəhəri**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək respublika üzrə səsvermənin nəticələrini **müəyyən etmişdir:**

Seçki dairələrinin sayı
*Bir yüz iyirmi beş* — 125

Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı
*Bir yüz iyirmi beş* — 125

Seçki məntəqələrinin ümumi sayı
*Beş min altı yüz qırx bir* — 5 641

Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı
*Dörd* — 4

Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı
*Sıfır* — 0

1. Seçicilərin ümumi sayı
*Beş milyon üç yüz otuz iki min səkkiz yüz on yeddi* — 5 332 817

a) seçici siyahılarında olan seçicilərin sayı *
*Beş milyon iki yüz doxsan üç min beş yüz altmış bir* — 5 293 561

b) əlavə seçici siyahısında olan seçicilərin sayı
*On səkkiz min dörd yüz əlli iki* — 18 452

c) qeydiyyatdan çıxma vəsiqəsi almış seçicilərin sayı
*İyirmi min səkkiz yüz dörd* — 20 804

2. Mərkəzi Seçki Komissiyası tərəfindən dairə seçki komissiyalarına verilmiş seçki bülletenlərinin sayı
*Beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç* — 5 347 803

3. Seçki bülleteni almış seçicilərin sayı **
*Üç milyon doqquz yüz altmış iki min yüz iyirmi üç* — 3 962 123

4. İstifadə edilmədən ləğv olunmuş seçki bülletenlərinin sayı
*Bir milyon üç yüz səksən üç min yeddi yüz doxsan iki* — 1 383 792

a) məntəqə seçki komissiyaları tərəfindən
*Bir milyon üç yüz on iki min üç yüz qırx dörd* — 1 312 344

b) dairə seçki komissiyaları tərəfindən
*Yetmiş bir min dörd yüz qırx səkkiz* — 71 448

5. Korlanmış seçki bülletenlərinin sayı
*Bir min səkkiz yüz səksən səkkiz* — 1 888

* Qeydiyyatdan çıxma vəsiqəsi alanlar istisna olmaqla
** Seçicilərin fəallığı: 74.30 % [seçicilərin ümumi sayına nisbətən faizlə]

6. Seçki qutularında olan seçki bülletenlərinin sayı
*Üç milyon doqquz yüz əlli səkkiz min səkkiz yüz əlli iki* — 3 958 852

7. Etibarsız hesab edilmiş səslərin sayı
*On iki min dörd yüz on üç* — 12 413

8. Etibarlı hesab edilmiş səslərin sayı
*Üç milyon doqquz yüz qırx altı min dörd yüz otuz doqquz* — 3 946 439

**9. Etibarlı hesab edilmiş səslərin prezidentliyə namizədlər arasında bölünməsi:**

| Seçki bülleteninə daxil edilmiş prezidentliyə namizədlərin soyadı, adı, atasının adı (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | | |
|---|---|---|---|
| | sözlə | rəqəmlə | faizlə |
| **ƏLİYEV İlham Heydər oğlu** | *Üç milyon üç yüz doxsan dörd min səkkiz yüz doxsan səkkiz* | 3 394 898 | 86.02 |
| **ƏLİZADƏ Araz Məmməd Mübariz oğlu** | *Əlli dörd min beş yüz otuz üç* | 54 533 | 1.38 |
| **HACIYEV Hafiz Ələmdar oğlu** | *Əlli doqquz min doqquz yüz iyirmi dörd* | 59 924 | 1.52 |
| **HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu** | *Bir yüz on doqquz min üç yüz on bir* | 119 311 | 3.02 |
| **QULİYEV Fərəc İbrahim oğlu** | *Qırx beş min doqquz yüz altmış yeddi* | 45 967 | 1.17 |
| **MƏMMƏDOV Sərdar Calal oğlu** | *Bir yüz on doqquz min altı yüz iyirmi bir* | 119 621 | 3.03 |
| **NURULLAYEV Razi Qulaməli oğlu** | *İyirmi doqquz min iki yüz iyirmi doqquz* | 29 229 | 0.74 |
| **ORUC Zahid Məhərrəm oğlu** | *Bir yüz iyirmi iki min doqquz yüz əlli altı* | 122 956 | 3.12 |
| *Cəmi:* | *Üç milyon doqquz yüz qırx altı min dörd yüz otuz doqquz* | 3 946 439 | 100.00 |

**Mərkəzi Seçki Komissiyasının sədri** — *PƏNAHOV Məzahir Məhəmməd oğlu* ____________

**Komissiya sədrinin müavini** — *MƏMMƏDOV Natiq Seyfulla oğlu* ____________

**Komissiyanın katibi** — *MUXTAROVA Arifə Ağaverdi qızı* ____________

**Komissiyanın katibi** — *RƏHİMOV Mikayıl Rəhman oğlu* ____________

**Komissiyanın üzvləri:**
*CAVADOV Fuad Musa oğlu* ____________
*ƏLİYEV Şaitdin Sərdar oğlu* ____________
*İBRAHİMOV Ramiz Hilal oğlu* ____________
*KAZIMOVA Validə Faiq qızı* ____________
*PAŞAYEV Hüseyn Məmməd oğlu* ____________
*MƏMMƏDOV İlham Sabir oğlu* ____________
*NADİROV Nizami Hüseyn oğlu* ____________
*ORUCOV Qabil Əhməd oğlu* ____________
**M.Y.** *TAĞIYEV Azər Cabir oğlu* ____________
*ƏSGƏROV Bəxşeyiş Məmməd oğlu* ____________
*HƏSƏNOV Tofiq Eldar oğlu* ____________
*QƏHRAMANLI Almas Əlisultan qızı* ____________
*QULİYEV Etibar Cəfər oğlu* ____________
*ŞAHBAZOV İlkin Zaur oğlu* ____________

Protokol 2018-ci il aprelin 15-də saat 12:30-da tərtib edilmişdir.

Komissiyanın həlledici səs hüquqlu üzvünün xüsusi rəyi haqqında qeyd:

____________________

*(soyadı, adı, atasının adı)* ____________ *(imza)*

**Q e y d :**
Protokol Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və imzalanır. Mərkəzi Seçki Komissiyasının protokolla bütövlükdə və ya onun ayrı-ayrı hissələri ilə razılaşmayan üzvü protokola xüsusi rəyini əlavə edə bilər və bu barədə protokolda müvafiq qeyd aparılır.

---

**Qərar № 16/90**

### 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinə yekun vurulması və Mərkəzi Seçki Komissiyasının seçkilərin nəticələrinə dair protokolunun müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə əsasən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini 2018-ci il fevralın 5-də elan edərək, seçkilərin 2018-ci il aprelin 11-nə təyin olunmasını və qanunvericiliklə müəyyən olunmuş qaydada keçirilməsinin təmin edilməsini Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına həvalə etmişdir.

Mərkəzi Seçki Komissiyası 2018-ci il 6 fevral tarixli qərarı ilə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179.2-ci maddəsinə uyğun olaraq seçkiləri 2018-ci il aprelin 11-nə təyin etmişdir. Bununla yanaşı, cari ilin əvvəlindən başlayaraq respublika üzrə daimi seçicilər siyahısının Seçki Məcəlləsinin 207-ci maddəsinin tələbi nəzərə alınmaqla tərtib edilməsi, dəqiqləşdirilməsi və ictimailəşdirilməsinə birbaşa rəhbərlik edən Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanıb keçirilməsi ilə əlaqədar bütün tədbirləri qanunvericiliklə müəyyən olunmuş qaydada vaxtında və keyfiyyətlə həyata keçirmişdir.

Aidiyyəti qurumların iştirakı da təmin edilməklə maddi-texniki bazası möhkəmləndirilmiş aşağı seçki komissiyaları üzvləri üçün geniş maarifləndirmə proqramları təşkil edilmiş, seçicilər və digər çoxsaylı seçki subyektləri bu məqsədlə müxtəlif proqramlara cəlb edilmişlər.

Seçkilərə start verildikdən sonra qeydə alınmış 8 nəfər prezidentliyə namizədin öz platformalarını sərbəst surətdə seçicilərə çatdırmaları üçün, internet resursları və sosial şəbəkələr də daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş bütün imkanlar və istisnasız bərabər şərait yaradılmış, seçkiqabağı təşviqat subyektləri yaradılmış imkanlardan heç bir maneə olmadan sərbəst şəkildə istifadə etmişlər.

İşğal olunmuş ərazilər istisna olmaqla, respublikanın bütün coğrafiyasını əhatə edən 20%-dək məntəqələrdə quraşdırılmış (1000 seçki məntəqəsində) veb-kameralar vasitəsilə səsvermə prosesini əvvəldən axıra kimi heç bir məhdudiyyət olmadan online izləmə imkanları təmin olunmuşdur. Seçkilərdə iştirak edən namizəd və siyasi partiyalar, habelə səsverməni izləyən 59 000-ə yaxın yerli müşahidəçinin, 59 ölkəni, 61 nüfuzlu beynəlxalq qurumu təmsil edən 894 müşahidəçinin, habelə 51 nüfuzlu beynəlxalq KİV-i təmsil edən 118 nəfər jurnalistin daxil olduğu on minlərlə müşahidəçi ordusu ümumilikdə seçki mühitini azad, ədalətli, sivil və müasir tələblərə cavab verən səviyyədə qiymətləndirmişdir.

Seçicilərin yüksək fəallıq nümayiş etdirdiyi səsvermə günü və seçki prosesində hər hansı qanun pozuntusu ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına heç bir şikayət daxil olmamış, seçkilər ümumən azad, ədalətli, şəffaf və geniş aşkarlıq şəraitində keçirilmiş, səsvermənin ilkin nəticələri vaxtında müəyyən edilərək elə həmin gün ictimaiyyətə çatdırılmışdır.

Seçkilərin nəticələrinin rəsmi qaydada müəyyən edilməsi üçün qanunda nəzərdə tutulmuş bütün müvafiq sənədlər aşağı seçki komissiyaları tərəfindən Mərkəzi Seçki Komissiyasına vaxtında təqdim edilmiş, dairə seçki komissiyalarının hamısının səsvermənin nəticələrinə dair protokolları və onlara əlavə edilmiş sənədlər obyektiv və hərtərəfli araşdırılmışdır. Bu zaman səsvermə günü fasiləsiz fəaliyyət göstərmiş veb-kameraların görüntüləri, internet resursları, habelə sosial şəbəkələrdə yayılmış məlumatlar da nəzərdən keçirilərək seçkilərin qanunvericiliyə uyğun keçirilməsinə və mövcud beynəlxalq standartlara cavab verməsinə xələl gətirə biləcək ən kiçik məqamlar belə araşdırılmışdır. Nəticədə 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsinin 26 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı və 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyən edilməsinə imkan verməyən qanun pozuntuları aşkar edildiyindən həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi və 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının, habelə 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının tam tərkibdə buraxılması üçün əsaslar müəyyən edilmişdir.

Ona görə də qeyd edilənlərlə bağlı müvafiq tədbirlər görülərək dairə seçki komissiyaları protokollarındakı məlumatlar ümumiləşdirilməklə seçkilərin nəticələri barədə Mərkəzi Seçki Komissiyasının protokolu tərtib edilməlidir. Bununla yanaşı, protokol təsdiq edilərək seçkilərə yekun vurulmalı, imzalandıqdan sonra dərc edilmə tələbinə də əməl edilməklə müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası qanunvericilikdə nəzərdə tutulmuş müddətdə prezident seçkilərinə yekun vurur və seçkilərin nəticələrinin təsdiq olunması üçün müvafiq sənədləri Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edir.

Seçki Məcəlləsinin 203.5-ci maddəsinə əsasən, prezident seçkilərinin nəticələri haqqında protokol imzalandıqdan sonra 24 saat müddətində dərc edilir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikası Konstitusiyasının 102-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 203.1-ci və 203.5-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərinə yekun vurulması ilə əlaqədar aparılmış araşdırmalar nəticəsində 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı, 69 saylı Cəlilabad - Masallı - Biləsuvar seçki dairəsinin 26 saylı, 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı və 74 saylı Lənkəran kənd seçki dairəsinin 12 saylı seçki məntəqələri üzrə seçicilərin iradəsinin müəyyən olunmasına imkan verməyən qanun pozuntuları aşkar edildiyindən həmin seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. 57 saylı Kürdəmir seçki dairəsinin 2 saylı və 73 saylı Lənkəran şəhər seçki dairəsinin 10 saylı məntəqə seçki komissiyaları tam tərkibdə buraxılsın.
3. Yuxarıdakılar nəzərə alınmaqla seçkilərin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasının protokolu tərtib edilsin.
4. Seçkilərin nəticələrinə dair protokol təsdiq edilməklə seçkilərə yekun vurulsun.
5. Protokol müvafiq sənədlərlə birlikdə seçkilərin nəticələrinin təsdiq olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilsin.
6. Protokol imzalandıqdan sonra 24 saat ərzində dərc edilsin (Əlavə edilir).
7. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

***15.04.2018***

# Prezident İLHAM ƏLİYEVİN iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

**"İnsanların həyat şəraitini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm"[1].**

**İlham ƏLİYEV**



**Ramiz MEHDİYEV,**
**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki**

*Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı təməl üzərində qurulmasından asılıdır. Bu gün ölkəmizin regionda əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusilə də onun dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.*

*Azərbaycanda müstəqil dövlətçiliyin qorunması ənənəsinin yaradılması ulu öndərin, dövlətimizin modernləşməsi və daha da güclənməsi, milli iqtisadiyyatımızın sürətli inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır.*

*Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüşə nail olmaq mümkün deyil. Ötən 15 il ərzində Prezident İlham Əliyev ulu öndərin qurduğu təməl üzərində Azərbaycanın bir dövlət kimi dayaqlarını möhkəmləndirdi.*

*Dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.*

*Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri İlham Əliyevin 2003-2018-ci illərdə imzaladığı çoxsaylı fərman və sərəncamlarda, dövlət proqramlarında öz əksini tapmışdır.*

*Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi quruculuq prosesi geniş vüsət aldı. Azərbaycan regionun ən perspektivli ölkəsinə çevrildi. Hər bir Azərbaycan vətəndaşı ölkəmizin iqtisadi gücü və qüdrətinin ilbəil artmasının şahidi oldu, iqtisadi inkişafın nəticələrini özünün həyat səviyyəsinin yüksəlməsində hiss etdi.*

## Heydər Əliyev iqtisadi strategiyasının dönməzliyi

Hər bir xalqın, millətin xoşbəxtliyi, ilk növbədə, onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heç şübhəsiz, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir. Bu müddət ərzində dövlətimizə və onun müstəqilliyinə qarşı qəsdlər olsa da, onların qarşısı qətiyyətlə alınmışdır.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır.

Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrün siyasi və iqtisadi aspektlərinin öyrənilməsi hər zaman öz aktuallığını saxlayır. Bu, gələcək inkişafımızın əsas istiqamətlərini müəyyən etmək və bir daha dəqiqləşdirmək baxımından zəruridir. Heydər Əliyevin "İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir" fikri bir daha təsdiq edir ki, ümummilli lider milli iqtisadiyyatımızın inkişafına dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi hər zaman böyük önəm vermişdir.

Keçmiş İttifaq daxilində Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsi olsa da, özünəməxsus inkişaf yolu keçmiş, Heydər Əliyevin rəhbərliyi ilə həmin dövrdə genişmiqyaslı iqtisadi quruculuq prosesinə start verilmişdir.

Hələ Sovet İttifaqı dağılmamışdan əvvəl ekspertlər siyasi müstəqilliyə iqtisadi cəhətdən hazır olan iki respublikadan biri kimi, məhz Azərbaycanı qeyd edirdilər. Çıxarılan belə bir nəticə ölkəmizin təkcə təbii sərvətlərinin zənginliyinə deyil, həm də milli iqtisadiyyatımızın inkişaf perspektivlərinə əsaslanırdı. Belə ki, keçmiş Sovet İttifaqı dövründə Azərbaycanın büdcə gəlirləri xərclərindən bir qayda olaraq çox olurdu. Həmçinin istehsal olunan milli gəlirlə istehlak olunan milli gəlir arasında birincinin xeyrinə böyük fərq əmələ gəlirdi.

Keçmiş İttifaqın tərkibində olan "müttəfiq" respublikalardan biri kimi, mövcud maneələrə, müstəqil iqtisadi siyasət yürütmək imkanlarının məhdud olmasına baxmayaraq, Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə öz iqtisadi potensialını, milli iqtisadi maraqlarını reallaşdıra bilmişdir. Respublikamız iqtisadiyyatın bütün sahələrində güclü iqtisadi və kadr potensialı yaratmağa nail olmuşdur. Bir çox məhsulların istehsalına görə Azərbaycan keçmiş SSRİ-də qabaqcıl yerlərdən birini tuturdu. Bu dövrdə yeni sənaye müəssisələrinin açılması, maşın və avadanlıqların alınması digər respublikalara nisbətən Azərbaycanda əsas fondların daha sürətlə artmasına səbəb olmuşdur.

Heydər Əliyev 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən və iqtisadiyyatın liberallaşdırılmasından başlayır.

1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldilmişdir.

Milli iqtisadiyyatımızın inkişafı üçün strateji və siyasi xarakterli mühüm addımlardan biri 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi oldu. Yeni Konstitusiya dövlət idarəçiliyinin formasını, vətəndaşların və dövlətin hüquq və vəzifələrini müəyyən etməklə yanaşı, həm də iqtisadi sistemin əsaslarını, dövlətin iqtisadi strategiyasının başlıca prinsiplərini də özündə əks etdirmişdir.

Ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və onun regionda güc mərkəzinə çevrilməsi ulu öndər Heydər Əliyevin dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımların nəticəsində mümkün olmuşdur. Xüsusilə də 1990-cı illərin ortalarından başlayaraq görülmüş tədbirlər milli iqtisadiyyatın sabitləşdirilməsində və inkişafında həlledici rol oynamışdır.

Xatırladaq ki, 1990-1995-ci illərdə ÜDM-in həcmi hər il orta hesabla 15 faiz azalırdı. İqtisadi artım tempinin aşağı düşməsi inflyasiya ilə müşayiət edildiyinə görə ölkədə 1990-cı illərin əvvəllərində staqflyasiya müşahidə edilirdi. Azərbaycanda 1991-ci ildən başlayan iqtisadi tənəzzülün qarşısı yalnız makroiqtisadi sabitləşdirmə proqramlarının həyata keçirilməsindən sonra - 1996-cı ildə alındı.

1990-cı illərin əvvəllərində ölkədə qiymət artımı hiperinflyasiya həddinə çatmışdır. Belə ki, inflyasiyanın səviyyəsi 1992-ci ildə 1174 faiz, 1993-cü ildə 1081 faiz təşkil etmişdir. Yalnız Heydər Əliyevin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli Fərmanın icrasından sonra inflyasiyanı 1995-ci ildə 85 faizə, 1996-cı ildə isə 2,5 faizə endirmək mümkün olmuşdur. Sərt pul-kredit və maliyyə siyasətinin həyata keçirilməsini nəzərdə tutan bu fərmanla ölkədə ardıcıl antiinflyasiya tədbirlərinə başlanıldı. Artıq 1996-cı ildən etibarən inflyasiya tədricən azalaraq 2002-ci ildə 2,8 faizə enmişdir.

1990-cı illərin əvvəllərində inflyasiya tempinin əməkhaqqının artım tempini əhəmiyyətli dərəcədə qabaqlaması əhalinin alıcılıq qabiliyyətini kəskin şəkildə aşağı salırdı. Əhalinin sosial müdafiəsi hər şeydən əvvəl maliyyə sabitliyinin təmin olunmasını tələb edirdi. Yüksək inflyasiya şəraitində isə həyat səviyyəsini nəinki yüksəltmək, hətta qoruyub saxlamaq mümkün deyildi. Yalnız 1996-cı ildən etibarən inflyasiyanın cilovlanması əhalinin həyat səviyyəsinin pisləşməsinin qarşısını aldı.

Heydər Əliyevin milli iqtisadiyyatımızın inkişafı üçün əsas xidmətləri bir tərəfdən ictimai-siyasi sabitliyin təmin edilməsindən, digər tərəfdən də iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstəyin verilməsindən ibarət olmuşdur. Belə bir siyasi impuls olmadan iqtisadi quruculuq sahəsində böyük uğurlar əldə etmək mümkün olmazdı.

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusion təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi ümummilli liderin fəaliyyəti, onun bu sahədə atdığı strateji addımların nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyevin söylədiyi bir fikri xatırlatmaq istərdim: "Beş ildən sonra Azərbaycan dünyəvi dövlət, daha yüksək sürətlə inkişaf edən, kifayət qədər güclü iqtisadiyyata və yaxşı həyat səviyyəsinə malik respublika olacaqdır. Bu, həddən çox "əgər"lərdən asılıdır..."[2]. Bəli! ümummilli liderin qətiyyətlə söylədiyi nikbin fikirlər artıq özünü doğrultmaqdadır. Fikrimizcə, bu şərtlərdən ən əsası bazar "relsləri" üzərinə keçirilmiş Azərbaycan iqtisadiyyatının inkişaf sürətinin artırılması, ölkənin mövcud iqtisadi potensialından daha səmərəli istifadə edilməsidir.

Konkret strategiya olmadan nə iqtisadi transformasiyanı, nə də milli iqtisadiyyatın formalaşdırılması prosesini uğurla həyata keçirmək mümkündür. Strategiya sosial-iqtisadi inkişafın əsas oriyentirlərini müəyyən edir. Genişmiqyaslı islahatlar aparmadan, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində köklü dəyişikliklər etmədən müəyyən edilmiş iqtisadi strategiyanın reallaşdırılmasına nail ola bilməzdik. Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi islahatları yalnız güclü siyasi iradəyə və qətiyyətli mövqeyə malik olan dövlətlər uğurla həyata keçirə bilir. Bu baxımdan Azərbaycanın siyasi rəhbərliyinin qəbul etdiyi radikal qərarlar islahatların dönməzliyinin təmin edilməsində həlledici rol oynamışdır.

Siyasi dəstək olmadan yeni iqtisadi münasibətlərin təşəkkül tapması qeyri-mümkündür. Bu baxımdan iqtisadiyyatın liberallaşdırılmasına, sahibkarlığın inkişaf etdirilməsinə Heydər Əliyevin ardıcıl siyasi və ideoloji dəstəyi iqtisadi yeniləşmə prosesinin dönməzliyini təmin etmişdir. Belə ki, ulu öndərin təşəbbüsü ilə yeni iqtisadi sistemin formalaşdırılması üçün bir sıra fərman və sərəncamlar imzalanmış, mühüm dövlət proqramları qəbul edilmişdir. Ölkədə sahibkarlığın dəstəklənməsi özəl sektorun güclənməsi üçün geniş perspektivlər açmışdır. 1990-cı illərin ortalarından etibarən həyata keçirilən özəlləşdirmə proqramı özəl sektorun təşəkkülü prosesinə zəmin yaratmışdır.

Ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli fərmanlar özəl sektorun inkişafında mövcud olan problemlərin kompleks və sistemli həllini, sahibkarlığın sürətli inkişafı üçün əlverişli iqtisadi və institusional mühitin yaradılmasını, müxtəlif dövlət orqanlarının nəzarət funksiyalarının məhdudlaşdırılmasını nəzərdə tuturdu.

Azərbaycanda iqtisadiyyatın idarə edilməsinin təşkilati strukturunun təkmilləşdirilməsinə, islahatların kadr təminatı ilə bağlı problemlərin həllinə ümummilli lider xüsusi diqqət yetirirdi. Onun tərəfindən "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" 1998-ci il 29 dekabr tarixli Fərmanın imzalanması institusional islahatların konseptual əsaslarının hazırlanması və bu prosesin geniş miqyasda həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Müasir dövrün tələblərinə cavab verən dövlət qulluğu sisteminin formalaşdırılması istiqamətində də mühüm addımlar atılmışdır. Belə ki, "Dövlət qulluğu haqqında" qanun qəbul edilmiş, dövlət orqanlarında müsabiqə yolu ilə işə qəbul prosesinə başlanılmış, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılmışdır.

Ulu öndər Azərbaycanın iqtisadi inkişaf tarixinə həm də radikal torpaq islahatlarının müəllifi kimi imzasını atdı. 1996-cı ildə qəbul edilmiş "Torpaq islahatı haqqında" qanuna əsasən, MDB məkanında ilk dəfə olaraq, torpaq üzərində xüsusi mülkiyyətçiliyin əsası qoyuldu. Bu, torpaq bazarının və kənddə yeni iqtisadi münasibətlərin formalaşması üçün hüquqi baza yaratdı.

Heydər Əliyev aqrar islahatların gedişi və onun perspektivləri barədə çox aydın strateji baxışlara malik idi. Ümummilli lider qeyd edirdi: "Aqrar bölməni keçmiş sistem əsasında, keçmiş prinsiplər əsasında idarə edib istənilən nəticəyə nail ola bilmərik... İslahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir... Gərək kəndli torpağın sahibi olsun və bilsin ki, bütün bunlar onundur və istədiyi kimi istifadə edə bilər... İslahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir. Əks təqdirdə, islahatlar səmərəsiz ola bilər... Bu islahatların aparılmasında mühafizəkarlığa qətiyyən yol vermək olmaz, eyni zamanda, islahat şüarları altında aqrar bölmədə əldə olan potensialımızın dağılmasına da yol vermək olmaz"[3].

Həyata keçirilmiş aqrar islahatların nəticəsidir ki, hazırda kənd təsərrüfatı istehsalının 99 faizi özəl bölməyə əsaslanır. Bu isə aqrar sektorun inkişafına müsbət təsir göstərən həlledici amildir. 1992-1995-ci illərdə kənd təsərrüfatında istehsal həcmi ildə orta hesabla 12 faiz, təkcə 1992-ci ildə isə 23,8 faiz aşağı düşmüşdür. Aqrar sahədə tənəzzülün qarşısı yalnız 1998-ci ildən alınmış və həmin dövrdən başlayaraq, istehsal artan dinamika ilə davam etmişdir.

1999-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad olunmuşdur. Həmin güzəştlər davamlı olaraq bu günə kimi tətbiq edilməkdədir.

İqtisadi islahatların həyata keçirilməsi sahəsində beynəlxalq maliyyə təşkilatları ilə sıx əməkdaşlıq münasibətləri qurulmuşdur. Azərbaycan Respublikası Dünya Bankına və Beynəlxalq Valyuta Fonduna (BVF) üzv dövlət kimi 1992-ci ildə qəbul edilsə də, həmin təşkilatlarla intensiv əməkdaşlığa, birgə hazırlanmış iqtisadi proqramların və layihələrin həyata keçirilməsinə, kredit tranşlarının açılmasına əsasən 1995-ci ildən başlanılmışdır. Bu, hər şeydən əvvəl, onunla izah olunur ki, həmin dövrədək ölkəmizdə siyasi vəziyyətin qeyri-sabitliyi şəraitində beynəlxalq maliyyə təşkilatları Azərbaycanla fəal əməkdaşlığa meyil etmir və kreditlərin ayrılmasında gözləmə mövqeyi tuturdular. Birgə iqtisadi proqram və layihələrin həyata keçirilməsinə ictimai-siyasi vəziyyətin sabitləşdirilməsindən sonra başlanılmışdır.

Heydər Əliyev iqtisadi strategiyası hələ uzunmüddətli dövr üçün Azərbaycanda əsas götürüləcək. Prezident İlham Əliyev 2003-cü ildə seçkiqabağı çıxışlarında ulu öndərin müəyyən etdiyi ümumi iqtisadi kursun davam etdiriləcəyini bəyan etmişdir. Çünki bu kurs dünya sivilizasiyasının qəbul etdiyi bazar iqtisadiyyatı prinsiplərinə, azad sahibkarlığa, beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşməsinə, sosialyönümlü iqtisadi siyasətin həyata keçirilməsinə əsaslanır.

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi səlahiyyətlərinin icrasına yenicə başladığı dövrdə jurnalistlərə verdiyi ilk müsahibəsində bildirmişdir: "Artıq Azərbaycanda ölkəmizi inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda, həyat yerində durmur. Qarşımıza yeni tələblər, yeni vəzifələr çıxır"[4].

Bu gün islahatların gedişi prosesində yeni iqtisadi şəraitin reallıqları nəzərə alınır, iqtisadi siyasətin ayrı-ayrı istiqamətləri müasir dövrün tələblərinə uyğunlaşdırılır və daha da təkmilləşdirilir.

## Prezident İLHAM ƏLİYEVİN hökumətin iqtisadi blokuna ilk tapşırıqları

"Bütün planlarımızın həyata keçirilməsi üçün başlıca şərt iqtisadi potensialdır"[5]. Bu, Prezident İlham Əliyevin səsləndirdiyi əsas tezislərdən biridir. Təsadüfi deyildir ki, hazırda Azərbaycanda dövlət idarəçiliyi əsas etibarilə "güclü iqtisadiyyat-güclü dövlət" prinsipinə əsaslanır. İqtisadi diplomatiyanın imkanlarından maksimum istifadə edilməsi də bu prinsipin reallaşdırılmasına xidmət edir.

Hələ 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladığı çox qısa bir müddətdə İlham Əliyev ölkəmizin inkişaf prioritetlərini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı, az sonra davamlı və tarazlı inkişafın təmin edilməsinə yönəldilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004-2008-ci illər) təsdiq etdi.

*Ardı 4-cü səh.*

[1] İlham Əliyev "İnkişaf - məqsədimizdir", 1-ci kitab, Azərnəşr, Bakı 2008, səh. 44
[2] Ümummilli lider Heydər Əliyevin "Literaturnaya qazeta"nın xüsusi müxbirləri ilə 12 avqust 2000-ci il tarixli müsahibəsindən, "Azərbaycan" qəzeti, 14 avqust 2000-ci il
[3] Heydər Əliyev "Müstəqilliyimiz əbədidir", 3-cü kitab, Azərnəşr, Bakı 1997, səh. 336
[4] İlham Əliyev "İqtibaslar və təhlil", Azərbaycan nəşriyyatı, Bakı 2006, səh. 97
[5] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş 31 yanvar 2006-cı il tarixli iclasındakı nitqindən, "Azərbaycan" qəzeti, 1 fevral 2006-cı il

# Prezident İLHAM ƏLİYEVİN iqtisadi

*Əvvəli 3-cü səh.*

Prezident İlham Əliyev neft gəlirlərinin artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq, “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında” 2005-ci il 31 may tarixli Fərman imzalamışdır. Milli iqtisadiyyatımızın neft bumu mərhələsinə hazırlığını təmin edən bu fərmanda dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarə olunması və istifadəsi ilə bağlı məsələlər öz əksini tapmışdır.

Davamlı inkişaf neft gəlirlərinin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsindən asılıdır. Bu baxımdan 2004-cü ildə “Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya”nın (2005-2025) dövlət başçısı tərəfindən təsdiqi xüsusi olaraq qeyd edilməlidir. Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin qorunması, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması, onlardan əhalinin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbul edilməsini zərurətə çevirmişdir. Bu strategiya neft və qaz gəlirlərindən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi.

Prezident İlham Əliyev “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 2003-cü il 24 noyabr tarixli Fərmanı ilə hökumətin iqtisadi blokuna ilk tapşırıqlarını vermişdir. Ölkəmizin sosial-iqtisadi həyatının ən aktual problemlərini özündə əks etdirən bu fərmanı dövlət başçısının iqtisadi komandaya ilk tapşırıqlarının məcmusu kimi qiymətləndirmək olar.

Şərti olaraq, fərmanda əks olunan məsələləri məzmun və xarakterinə görə 5 əsas blok üzrə - institusional, sosial, sənaye, sahibkarlığın inkişafı və bazar mühitinin yaxşılaşdırılması və dövlət maliyyə sisteminin təkmilləşdirilməsi istiqamətləri üzrə qruplaşdırmaq olar.

İnstitusional blok qəbul edilmiş dövlət proqramlarının icra vəziyyətinin araşdırılması, iqtisadiyyatın idarə edilməsində islahatların başa çatdırılması, vətəndaşların ərizə və şikayətlərinə vaxtında baxılmasının təmin edilməsi, mərkəzi icra hakimiyyəti orqanlarında intizamın gücləndirilməsi, beynəlxalq və regional iqtisadi qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, bank sistemində və kommunal sektorda islahatların aparılması kimi məsələləri əhatə edirdi.

Sosial bloka işsizliyin azaldılması, qaçqın və köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, regionların sosial-iqtisadi inkişafı, əməkhaqqı sisteminin təkmilləşdirilməsi, pensiya sistemində və sosial sahədə islahatların sürətləndirilməsi və məşğulluğun təmin edilməsi məsələləri daxil edilmişdir.

Sənaye bloku qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sektora investisiyaların cəlb olunmasının stimullaşdırılması, yeni emal müəssisələrinin yaradılması, ixracın stimullaşdırılması və alternativ enerji mənbələrindən istifadə edilməsi məsələlərini nəzərdə tuturdu.

Sahibkarlığın inkişafı və bazar mühitinin yaxşılaşdırılması bloku özəl sektorun inkişafı ilə bağlı qərarların icrasının təmin edilməsi, dövlət müəssisələrinin özəlləşdirilməsinin və idarəetməyə verilməsinin sürətləndirilməsi, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması, kreditlər üçün girov təminatının təkmilləşdirilməsi, aqrar sektorda islahatların ikinci mərhələsinin başlanılması ilə bağlı tapşırıqları əhatə edirdi.

Dövlət maliyyə sisteminin təkmilləşdirilməsi bloku dövlət büdcəsi xərclərinin strukturunun təkmilləşdirilməsi, dövlət büdcəsi vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə edilməsi, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi, dövlət müəssisələrində maliyyə intizamının möhkəmləndirilməsi və ödəmələr probleminin aradan qaldırılması ilə bağlı tapşırıqları ehtiva edirdi.

Sistemli və kompleks xarakter daşıyan bu fərman biri digərinin reallaşmasına şərait yaradan istiqamətləri özündə birləşdirmişdir. Məsələn, inhisarçılığı aradan qaldırmadan sahibkarlığı inkişaf etdirmək, idarəetmə sistemini yeniləşdirmədən iqtisadi islahatları sürətləndirmək, qeyri-neft sektorunun və regionların inkişafını təmin etmədən işsizlik problemini həll etmək mümkün deyildir.

Adından da göründüyü kimi, fərman sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirlərini əhatə edir. Doğrudur, 2000-ci illərin ortalarında Azərbaycan iqtisadiyyatı artıq inkişaf “relsləri” üzərinə keçirilsə də, iqtisadi proseslərə impuls, dinamizm verməyə ehtiyac var idi. Bu baxımdan Prezident İlham Əliyevin ilk iqtisadi fərmanı inkişafın sürətləndirilməsinə yönəldilmişdir. Ulu öndər də 1994-cü ildə “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında” ilk genişmiqyaslı fərman imzalamışdır. Məhz həmin fərmanla makroiqtisadi sabitliyin əsası qoyulmuşdur.

Prezident İlham Əliyevin ölkənin iqtisadi həyatında reallaşdırdığı mühüm təşəbbüslərdən biri denominasiya ilə bağlı olmuşdur. Ölkədə pul dövriyyəsini daha da yaxşılaşdırmaq, məzənnə və qiymətlər miqyasını optimallaşdırmaq, uçot və hesablaşma sistemini sadələşdirmək məqsədi ilə 2005-ci ildə “Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalandı. 2006-cı il yanvarın 1-dən milli valyutanın - manatın denominasiyası həyata keçirildi. 1 yeni manat 5000 köhnə manata bərabər tutuldu. Denominasiyanın həyata keçirilməsi ölkəmizdə makroiqtisadi sabitliyi bir daha təsdiq etdi.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra keçmiş Sovet İttifaqından miras qalmış problemlərdən biri 1990-cı illərin əvvəllərində yüksək inflyasiya səbəbindən vətəndaşlarımızın keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankında olan əmanətlərinin kəskin şəkildə ucuzlaşması olmuşdur. Bu əmanətlər Azərbaycan dövləti tərəfindən bir neçə dəfə indeksləşdirilmiş və onlara görə kompensasiyalar verilmiş (1993-1997-ci illərdə), əmanətçilərin bir qismi qeyd olunan kompensasiyanı almış, böyük bir hissəsi əmanətləri və onlara görə verilən kompensasiyaları almaq hüquqlarından istifadə etməmiş və keçən müddət ərzində həmin əmanətlərin dəyəri xeyli azalmışdır. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti 2012-ci ildə həmin əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsi barədə fərman imzalamışdır. Belə bir qərarın qəbul edilməsi Azərbaycanda iqtisadi siyasətlə sosial siyasətin birbiri ilə uzlaşdırıldığını açıq-aydın nümayiş etdirir.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmədən, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarını hazırlamadan həyata keçirilən hər hansı bir tədbir ölkənin sosial-iqtisadi həyatında əsaslı dönüş yarada bilməz. 2003-2017-ci illər ərzində Prezident İlham Əliyevin məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir.

## Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsində

Son 15 il sosial-iqtisadi inkişafın sürətləndirilməsi ilə xarakterizə edilməklə Azərbaycan iqtisadiyyatı üçün olduqca uğurlu olmuşdur. Əldə olunan uğurları, ilk növbədə, ölkə rəhbərliyinin siyasi iradəsi və qətiyyətli addımları, ictimai-siyasi sabitliyin qorunub saxlanılması, dövlət idarəçiliyinin səmərəli təşkili, vahid dövlət siyasətinin həyata keçirilməsi, iqtisadi inkişafda əsas hədəflərin dəqiq müəyyən edilməsi, islahatların davamlı xarakter daşıması, cəmiyyətin real ehtiyaclarının ödənilməsinə yönəldilmiş dövlət proqramlarının reallaşdırılması təmin etmişdir. Bu müddət ərzində Azərbaycan vətəndaşları ölkəmizin iqtisadi gücü və qüdrətinin getdikcə artmasının şahidi olmaqda və iqtisadi sahədə müşahidə edilən mütərəqqi dəyişiklikləri özünün həyat səviyyəsində, rifahında hiss etməkdədirlər.

Hazırda islahatların texnologiyası da təkmilləşməkdədir. İqtisadi siyasətdə çevikliyin təmin edilməsi, struktur dəyişiklikləri ilə institusional islahatların paralel aparılması, konkret hədəflərə və maliyyə mənbəyinə əsaslanan proqramlı idarəetmə bunu bir daha təsdiq edir. Son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 konsepsiya, 12 milli strategiya, 12 strateji yol xəritəsi, 94 dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 tədbirlər planı, 21 tədbirlər proqramı, 17 milli plan və proqramlar qəbul edilmişdir.

Hazırda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, mühüm nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm əsaslar yaradır. Strateji əhəmiyyətə malik bu cür genişmiqyaslı işlər milli və iqtisadi maraqlarımızın qorunması, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edilməsi, iqtisadiyyat və siyasətin bir-biri ilə uğurlu bir şəkildə uzlaşdırılması ilə tamamlanır.

Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, dövlət başçısı ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın təşkili, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi məqsədi ilə “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nı təsdiq etmiş, 2014-cü ili “Sənaye ili” elan etmişdir.

Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişikliyi baxımından yeni yanaşmadır. Odur ki, son dövrlərdə ölkədə bu cür təsisatların yaradılması istiqamətində xeyli iş görülmüşdür.

Kimya sənayesinin inkişaf etdirilməsi məqsədi ilə 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına qərar verilmişdir.

Ölkə başçısının iştirakı ilə 2017-ci ildə Balaxanı Sənaye Parkının açılış mərasimi keçirilmişdir. Sənaye parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı, əldə edilmiş xam material və ya istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına şərait yaradır.

2016-cı ildə təməli qoyulmuş Mingəçevir Sənaye Parkında isə yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması nəzərdə tutulur. Pambıqçılığın sürətlə inkişafı qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilini tələb edir. Mingəçevir Sənaye Parkının ərazisində yaradılmış “Mingəçevir Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik istehsalı müəssisəsi - “Ring” üsulu ilə istehsal edilən pambıq-poliester fabriki və “Open End” üsulu ilə iplik istehsal edən fabrik belə müəssisələrdəndir. Prezident İlham Əliyev 2018-ci ilin fevral ayında hər iki fabrikin açılışında iştirak etmişdir.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə yaradılan bu cür müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına imkan verəcəkdir.

Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında Bakı gəmiqayırma zavodu fəaliyyət göstərir və zavodda yüksək yükgötürmə qabiliyyətinə malik tanker, dəniz təchizat gəmisi və digər təyinatlı gəmilərin istehsalı həyata keçirilir.

Əczaçılıq məhsullarının istehsalı üzrə ixtisaslaşmış Pirallahı Sənaye Parkında artıq təməli qoyulmuş dərman zavodlarının tikintisi istiqamətində müvafiq tədbirlər görülür. Ölkəmiz üçün yeni sahə olan əczaçılıq sənayesinin yaradılması məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynamaqla yanaşı, həm də yerli istehsal hesabına əhalini keyfiyyətli əczaçılıq məhsulları ilə təmin edəcək, idxaldan asılılığı azaldacaq və ixrac potensialını yüksəldəcəkdir.

2017-ci ildə isə Prezident İlham Əliyev ölkədə ilk dəfə yaradılmış Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak etmişdir. Hazırda Neftçala Sənaye Məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə rezident kimi qeydiyyata alınmışdır.

2016-cı ildə yaradılmış Masallı Sənaye Məhəlləsində həyata keçiriləcək layihələr əsasən mebel, tikinti materialları, plastik tara, süfrə suyu, qida məhsulları, xalça istehsalı və kənd təsərrüfatı məhsullarının emalı sahələrini əhatə edir.

Bundan başqa, 2017-ci ildə Hacıqabul və Sabirabad sənaye məhəllələrinin yaradılmasına başlanılmışdır. Hacıqabul Sənaye Məhəlləsində fəaliyyət göstərəcək rezidentlərin ağır maşınqayırma, xüsusi vaqonqayırma, avtomobil ehtiyat hissələri və kompozit materialları istehsalı sahələrində ixtisaslaşması nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsində isə yun tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və logistika mərkəzinin fəaliyyət göstərməsi planlaşdırılır. Hazırda İqtisadiyyat Nazirliyi tərəfindən dövlət başçısının tapşırığına uyğun olaraq, növbəti sənaye məhəllələrinin yaradılması istiqamətində işlər davam etdirilir.

Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə edən sənaye sahələrinin yaradılmasında, istehsal prosesinin təşkili zamanı infrastruktur xərclərinin azaldılmasında, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsində, məşğulluğun təmin edilməsində sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir.

İqtisadiyyatın sürətlə inkişafı, dünya ölkələri arasında nüfuzunun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olmuş, respublikamıza gələn əcnəbilərin ildən-ilə çoxalmasına, turizm fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2011-ci il ölkəmizdə “Turizm ili” elan edilmişdir. Ötən müddətdə Bakı ilə yanaşı, regionlarda da hotellərin və istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına geniş imkanlar yaratmışdır. 2003-cü ildə ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı cəmi 96 olduğu halda, 2004-2017-ci illər ərzində belə obyektlərin sayı artaraq 550-yə çatmışdır ki, bunun da 400-ü regionlarda yerləşir.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan “Cənub qaz dəhlizi”nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin “Şahdəniz-2” layihəsi üzrə yekun investisiya qərarının imzalanması xüsusi olaraq qeyd edilməlidir. Bu layihələr üzrə işlərin çox hissəsi artıq icra olunmuşdur.

İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna iri həcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilmişdir.

Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilmiş, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilmiş, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olmuş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Ölkənin tranzit potensialından daha səmərəli şəkildə yararlanmaq məqsədi ilə dövlət səviyyəsində institusional islahatların aparılmasına ehtiyac yaranmışdır. Məhz bu siyasətin davamı olaraq, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmışdır. Ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin təşviqi, özəl şirkətlərlə dövlət orqanlarının əlaqələndirilməsi, tariflərin optimallaşdırılması və tranzit prosedurlarının sadələşdirilməsi istiqamətində işlərin aparılması Koordinasiya Şurasına həvalə edilmişdir. Ölkənin tranzit cəlbediciliyinin artırılması istiqamətində Koordinasiya Şurası tərəfindən bir sıra mühüm tədbirlər görülmüşdür. Belə ki, dəhlizin rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə region ölkələri arasında koordinasiya gücləndirilmiş, tranzit müddətləri qısaldılmış və prosedurlar təkmilləşdirilərək optimallaşdırılmış tarif siyasətinə başlanmışdır.

İqtisadiyyatın şaxələndirilməsi və sənayenin modernləşdirilməsi istiqamətində mühüm layihələrdən biri telekommunikasiya və Yer səthinin müşahidəsi peykləri olan “Azerspace” və “Azersky”ın istismara verilməsi olmuşdur.

Neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan və son illər ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan rabitə və informasiya texnologiyaları sahəsinin inkişafında 11,3 dəfə artıma nail olunmuşdur. Son 15 ildə regionlarda 1600-dən çox ATS, 1000-dən çox poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir. 2013-cü il ölkəmizdə “İnformasiya-kommunikasiya texnologiyaları ili” elan edilmişdir.

Əhalinin dərman vasitələri ilə optimal qiymətlərlə etibarlı təchizatı sosial və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Dərman vasitələri bazarında yaranmış xaotik vəziyyətin aradan qaldırılması və bu sahəyə nəzarətin gücləndirilməsi ilə bağlı ölkə başçısının müvafiq tapşırıqlarından sonra qanunvericiliyə dəyişikliklər edilmiş və 2015-ci ilin ortalarından etibarən ölkədə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsinə başlanılmışdır. Tənzimləmə prosesi intensiv şəkildə davam etdirilmiş, dövlət qeydiyyatına alınmış 11 minə yaxın dərman vasitəsinin qiymətləri təsdiq edilmişdir. Nəticədə süni qiymət artımının və dərman vasitələrinin qiymətləri ilə manipulyasiyaların qarşısı alınmış, dərman vasitələri bazarında şəffaflıq, ictimai və dövlət nəzarəti təmin edilmişdir.

Ölkə başçısının tapşırığına uyğun olaraq, 2017-ci ildən etibarən icbari tibbi sığorta sisteminin tətbiqi ilə əlaqədar pilot layihənin icrasına başlanılmış və sığortanın baza zərfinə 1800-dən çox tibbi xidmət daxil edilmişdir.

Azərbaycanda iqtisadi inkişaf bazar münasibətlərinə əsaslansa da, o həm də sosial ədalət prinsipi ilə tamamlanır. Yeni pensiya və sosial müdafiə sisteminə keçid, ölkə vətəndaşlarının ipoteka kreditləri ilə təmin edilməsi və 2016-cı ildə yaradılmış Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) xətti ilə sosial mənzillərin tikilərək ehtiyacı olanlara verilməsinin nəzərdə tutulması dövlətin sosial siyasətində keyfiyyət dəyişikliklərini əks etdirir.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi və institusional islahatlara beynəlxalq təşkilatların verdiyi yüksək qiymətdir.

“Doing Business” hesabatına əsasən, Azərbaycan 2017-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun “Qlobal Rəqabətədavamlılıq” hesabatında isə 35-ci pillədə qərarlaşmışdır. Eyni zamanda, sonuncu hesabata əsasən, “Siyasətçilərə ictimai etimad” adlanan indikator üzrə Azərbaycan dünyada 20-ci pilləyə yüksəlmişdir. Bu isə iqtidara xalqın böyük etimadını səciyyələndirən mühüm göstəricidir.

İndi ölkəmizdə iqtisadi liberallaşmanın, struktur islahatlarının yeni mərhələsi başlanır. Bu mərhələdə əsas vəzifə səmərəli iqtisadiyyatın qurulmasından, daha sağlam iqtisadi bazaya əsaslanan təsirli sosial siyasətin həyata keçirilməsindən ibarətdir. Nəzərə almalıyıq ki, “Ən yaxşı sosial siyasət düzgün iqtisadi siyasətdir” tezisini əsas götürmüş Azərbaycan bir çox Şərqi Avropa ölkələri kimi iqtisadi transformasiya dövrünü uğurla başa çatdırmışdır.

“Bundan sonra bizim qarşımızda duran əsas məsələ qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın səmərəliliyinin təmin edilməsidir” fikrini Prezident İlham Əliyev heç də təsadüfən qeyd etməmişdir. Bəli! Sosial siyasət yalnız səmərəli iqtisadiyyata əsaslandıqda uzunmüddətli təsir gücünə malik olur. Bu baxımdan son illər həyata keçirilən liberallaşdırma tədbirləri, xüsusilə də institusional islahatlar ölkə iqtisadiyyatında ciddi keyfiyyət dəyişiklikləri kimi qiymətləndirilməlidir.

Bazar iqtisadiyyatı yolunu seçmiş ölkələr öz rəqabətqabiliyyətliliyini davamlı dövlət proteksionizmi, ucuz enerji resursları hesabına təmin edə bilməz. Bütün bunlar idman yarışlarında olduğu kimi, iqtisadiyyat üçün də qısamüddətli “dopinq effekti” verir. Biz iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyini yalnız struktur dəyişiklikləri, texnoloji yeniləşmə vasitəsilə artıra bilərik.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Eyni zamanda, regionlarımız inkişaf etdirilir və bu da əyalətlərdə iqtisadi fəallığın yüksəlməsi ilə müşayiət olunur. Dövlət investisiyaları vasitəsilə infrastruktur obyektlərimiz modernləşdirilir. Xidmət, tikinti, rabitə və informasiya texnologiyaları, nəqliyyat, turizm, emal sektoru qeyri-neft sektorunun potensial sahələri kimi inkişaf etməkdədir. Kənd təsərrüfatının dövlət tərəfindən dəstəklənməsi siyasəti davamlı xarakter daşıyır.

Yeniləşmənin bütün istiqamətlər üzrə uğurla reallaşdırılması ölkənin inkişafı ilə bağlı konkret hədəflərin müəyyən edilməsindən bilavasitə asılıdır. Azərbaycan özünün perspektiv inkişaf xəttini artıq müəyyən edib. Bu, qəbul edilmiş dövlət proqramlarında, strateji yol xəritələrində bir daha öz əksini tapır. Həmin sənədlər ölkəmizdə proqramlı idarəetməni səciyyələndirməklə yanaşı, həm də Prezident İlham Əliyevin siyasi, sosial-iqtisadi və institusional inkişafla bağlı hədəflərini özündə ehtiva edir.

Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası qəbul edilmişdir. Konsepsiya çərçivəsində qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, ətraf mühitin qorunması və s. məsələləri əhatə edən 53 sənəd təsdiq edilərək icrası təmin olunmaqdadır.

Yeni mərhələdə iqtisadi siyasəti müəyyən edərkən müasir dövrün çağırışları nəzərə alınmalı, yerli istehsalın stimullaşdırılması istiqamətində tədbirlər görülməli, dövlət xərcləri restrukturizasiya edilməli, gəlirlərin yenidən bölgüsünün səmərəli mexanizmi yaradılmalıdır. 2016-cı ildə yaradılmış Maliyyə Sabitliyi Şurası makroiqtisadi sabitliyin təmin edilməsi üzrə tədbirləri səmərəli koordinasiya etməlidir.

Makroiqtisadi göstəricilərin yaxşılaşdırılması 1990-cı illərin əvvəllərində itirdiyimiz iqtisadi potensialın bərpa edilməsi baxımından əhəmiyyətli olsa da, o, iqtisadi siyasətin son məqsədi və əsas hədəfi kimi qəbul edilməməlidir.

# inkişaf strategiyasının əsas istiqamətləri

İqtisadi islahatların indiki mərhələsində qarşıda duran əsas vəzifə iqtisadiyyatda kəmiyyət dəyişikliklərindən keyfiyyət dəyişikliklərinə keçidi təmin etməkdən ibarət olmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

## Azərbaycanın iqtisadi inkişaf vektoru: 2003-2017-ci illər

2003-2017-ci illərdə ümumi daxili məhsul (ÜDM) nominal ifadədə 9,8 dəfə, real ifadədə 3,2 dəfə artmışdır. Bu dövrdə ölkədə orta illik iqtisadi artım 9,4 faiz, o cümlədən qeyri-neft sektorunda 8,2 faiz təşkil etmişdir. Sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər iqtisadi artımın iqtisadi inkişaf amilinə çevrilməsinə yönəldilmişdir.

İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun fəaliyyətində əhəmiyyətli canlanma hiss olunur. 2003-2017-ci illərdə sənaye istehsalı 2,6 dəfə, qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır.

İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi nəticəsində özəl sektorun rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, ÜDM-də özəl bölmənin payı 2003-cü ildə 74 faiz təşkil edirdisə, 2017-ci ildə bu rəqəm 84 faiz olmuşdur.

Maliyyə imkanlarının artması iqtisadi inkişafın yeni mərhələsinin xarakterik xüsusiyyətlərindən biridir. Bu, özünü dövlət büdcəsinin, strateji valyuta ehtiyatlarının həcmində göstərir. Son 15 il ərzində dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq, 2003-cü ildəki 1,2 mlrd manatdan 2018-ci ildə 20,1 mlrd manata çatmışdır. Qeyri-neft sektorunun inkişafı büdcə gəlirlərinin formalaşmasına da öz təsirini göstərməkdədir. Belə ki, 2017-ci ildə dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri 8,6 mlrd manat olmuşdur ki, bu da 2003-cü illə müqayisədə 11,4 dəfə çoxdur.

Əsas kapitala yönəldilmiş vəsaitlər 2003-2017-ci illər ərzində 3,8 mlrd manatdan 16,8 mlrd manata çatmışdır. Bu isə real ifadədə 3 dəfə artım deməkdir. Təcrübə göstərir ki, neftlə zəngin olan bir çox ölkələr əldə olunan gəlirlərdən investisiya təyinatlı deyil, cari istehlak məqsədləri üçün istifadə etdiklərinə görə rəqabətqabiliyyətli və səmərəli iqtisadiyyat qura bilməmişlər.

2003-cü illə müqayisədə 2018-ci ildə dövlət büdcəsi xərclərinin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu xərcləri 55,5 dəfə artaraq, 86,9 milyon manatdan 4,8 mlrd manata çatmışdır. Bu isə genişmiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsi deməkdir.

Dünyada investisiya layihələrinin bahalaşdığı bir şəraitdə neft dollarlarının yalnız depozit şəklində saxlanılması təklifi populizmdən başqa bir şey deyil. İnfrastruktur xərcləri neft gəlirlərinin yenidən bölgüsünü təmin etməklə, eyni zamanda, təkcə bugünkü deyil, həm də gələcək nəsillər üçün yatırılan kapital kimi dəyərləndirilməlidir.

Strateji valyuta ehtiyatları 26,2 dəfə artaraq, 2002-ci ildəki 1,6 mlrd ABŞ dollarından 2017-ci ildə 42 mlrd ABŞ dollarına yüksəlmişdir ki, bu da ÜDM-in həcmini üstələyir. 1990-cı illərin əvvəllərində Azərbaycanın valyuta ehtiyatlarının 90-95 faizi əsasən BVF və Dünya Bankının kreditləri hesabına formalaşırdısa, indi bu ehtiyatlar əsasən ixracdan əldə edilən valyuta gəlirlərindən ibarətdir. Ölkəmizin ixrac imkanlarının artması valyuta ehtiyatlarının formalaşmasında həlledici rol oynayır.

Azərbaycanın xarici dövlət borcunun ÜDM-ə nisbəti 25 faizdən azdır ki, bu da dünyada ən yaxşı göstəricilərdən sayılır. Qeyd edək ki, iqtisadi təhlükəsizlik baxımından kritik hədd 40 faizdir.

2003-2017-ci illərdə iqtisadiyyata kredit qoyuluşları 670 milyon manatdan 11,7 mlrd manata çatmışdır.

Biz son 15 ildə qazandığımız uğurlarla kifayətlənməməliyik. Əksinə, nailiyyətlərimiz yaxın gələcəkdə daha miqyaslı işlərin həyata keçirilməsi üçün baza rolunu oynamalıdır. İlk növbədə, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi artırılmalı, insan inkişafı indeksi yüksəldilməli, ölkəmizin innovasiyalı inkişafı təmin edilməli, modernləşmə prosesinə əngəl ola biləcək institusional maneələr aradan qaldırılmalıdır.

## İqtisadiyyat və siyasət

Hər bir ölkədə iqtisadi inkişaf siyasi amillərdən bilavasitə asılıdır. Azərbaycanda mövcud siyasi mühit iqtisadi inkişaf üçün müsbət təsirə malikdir. Belə ki, güclü dövlət və güclü siyasi hakimiyyət milli iqtisadiyyatını formalaşdıran bir ölkə üçün prinsipial əhəmiyyət kəsb edir. İctimai-siyasi sabitliyin qorunub saxlanılması ölkəmiz üçün bu gün də imkanlar pəncərəsi kimi çıxış edir. Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir. Balanslaşdırılmış uğurlu xarici siyasət iki və çoxtərəfli iqtisadi əlaqələri genişləndirməyə əlverişli şərait yaradır.

Kommunizm barədə utopiyaların hökmran olduğu dövrdə “Siyasət iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir” tezisi sovet ideoloqları tərəfindən tez-tez səsləndirilsə də, əslində, o, reallığı əks etdirmirdi. Belə ki, siyasət iqtisadiyyatın deyil, əksinə, iqtisadiyyat siyasətin təmərküzləşmiş ifadəsinə çevrilmişdir. Sosializm dövründə iqtisadiyyat büsbütün siyasiləşdirilmiş və ideologiyalaşdırılmışdı. SSRİ kimi nəhəng dövlətin iqtisadiyyatı, o cümlədən sənayesi, sosial təminat sistemi, büdcəsi, xarici ticarəti sovet ideologiyasının başlıca ehkam və oriyentirlərinə tabe etdirilərək formalaşdırılırdı. Əsas məqsədi dünyanın ayrı-ayrı ölkələrinə sosializm “ixrac” etməkdən ibarət olmuş bu “super” dövlətin iqtisadi dayaqlarını isə hərbi-sənaye kompleksi və “müttəfiq” respublikaların təbii ehtiyatları təşkil edirdi. Belə bir halda siyasi və iqtisadi sərhədlərin bir qayda olaraq “bağlı” olması İttifaq dövləti üçün heç bir problem yaratmırdı. Keçmiş SSRİ-nin dünya təsərrüfat sistemindən təcrid olunması və beynəlxalq əmək bölgüsündə iştirak etməməsi nəticəsində yaranan çətinliklər “müttəfiq” respublikaların hesabına aradan qaldırılırdı...

Tarixi inkişafın indiki mərhələsində siyasətlə iqtisadiyyatın bir-birindən ayrılması və ya onların qarşı-qarşıya qoyulması yolverilməzdir. Çünki siyasətlə iqtisadiyyat arasında sıx əlaqə mövcuddur. Belə ki, indiki dövrdə siyasətimizə iqtisadi, iqtisadiyyatımıza isə siyasi prizmadan yanaşıb qiymət verməliyik. Azərbaycanın keçdiyi tarixi inkişaf yolu, bu dövrdə iqtisadiyyat və siyasət arasında əlaqənin forma və xüsusiyyətləri də bunu bir daha təsdiq edir. Siyasət iqtisadiyyatın fövqündə dayanmadığı kimi, iqtisadiyyat da siyasətin fövqündə dayana bilməz.

Nəzərə almalıyıq ki, dünyanın inkişaf etməkdə olan bir sıra ölkələri, o cümlədən Asiya “pələngləri” iqtisadi tərəqqiyə bazar iqtisadiyyatına keçməklə nail olmuşlar. Lakin bu ölkələrdə azad iqtisadiyyatın inkişafına yönəldilmiş radikal iqtisadi islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyətin sayəsində mümkün olmuşdur. Azərbaycanda da iqtisadi transformasiya prosesinin dönməz xarakter almasında və uğurla başa çatmasında siyasi hakimiyyətin gücü və iradəsi həlledici rol oynamışdır.

Ölkə rəhbərliyinin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın dövlət maraqlarının qorunmasında mühüm rol oynamış, ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmişdir. Müəyyən edilmiş strategiya isə Azərbaycanın müstəqil dövlət kimi iqtisadi dayaqlarını möhkəmləndirmişdir.

Əgər ilkin mərhələdə ölkə rəhbərliyinin siyasi kursu və diplomatik fəaliyyəti iqtisadi maraqlarımızın reallaşmasına xidmət edirdisə, indi iqtisadi sahədə əldə edilən uğurlar, həyata keçirilən iqtisadi diplomatiya ölkəmizin siyasi-strateji maraqlarına xidmət etməkdədir. Bu gün Azərbaycanda iqtisadiyyat və siyasət bir-birindən ayrılmazdır və çox uğurlu bir şəkildə tamamlanır. Prezident İlham Əliyevin iqtisadi quruculuq sahəsindəki fəaliyyəti strateji xarakter daşıyır və Azərbaycanın sosial-iqtisadi inkişafı üçün uzunmüddətli perspektivlər açır.

Dövlət quruculuğunun və iqtisadi islahatların ardıcıl həyata keçirilməsinin başlıca şərti ölkədə ictimai-siyasi sabitliyin qorunub saxlanılmasıdır. Biz hesab edirik ki, ölkə vətəndaşlarının böyük əksəriyyəti həm də sabitliyin qorunub saxlanılması naminə öz seçimini davamlı olaraq İlham Əliyevlə bağlayırlar. Ötən 15 il bu seçimin doğru olduğunu bir daha təsdiq edir.

Prezident İlham Əliyev 2018-ci il martın 19-da Novruz şənliyindəki çıxışında sabitlik məsələsinə toxunaraq demişdir: “Azərbaycan Novruzu gözəl nəticələrlə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Aparılan quruculuq işləri ölkəmizi gücləndirir, Azərbaycanın beynəlxalq nüfuzunu artırır. Daxili vəziyyət sabitdir. Bu sabitliyin əsas təminatçısı Azərbaycan xalqıdır. Xalq-iqtidar vəhdəti sabitliyin əsas təminatçısıdır. Daxili siyasətlə bağlı görülən işlər, aparılan islahatlar öz gözəl nəticələrini verməkdədir. Dünyada gedən proseslər bir daha onu göstərir ki, ancaq sabit olan ölkələr uğurla inkişaf edə bilər. Ancaq sabit olan ölkələrə xarici sərmayə qoyulur, insanlar rahat, təhlükəsizlik şəraitində yaşayırlar. Bu gün dünyanın müxtəlif yerlərində sabitlik pozulur, qanlı toqquşmalar baş verir, müharibələr alovlanır, yeni risklər yaranır. Bu gün dünya gündəliyinin əsas məsələsi məhz təhlükəsizlik məsələləridir. Azərbaycan bu istiqamətdə apardığı siyasətlə dünyada böyük rəğbət qazanmış ölkələrdən biridir. Ölkəmizdə daxili risklər üçün heç bir mənbə yoxdur. Xarici risklərdən isə biz özümüzü qoruyuruq və bundan sonra da qoruyacağıq, Azərbaycan xalqının rahat yaşamasını təmin edəcəyik”[6].

Xarici ekspertlər, dünyanın aparıcı siyasi təhlil mərkəzləri Azərbaycanda müşahidə edilən sabitliyi, dövlətimizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətinin genişlənməsini, ölkənin siyasi rəhbərliyinin çevik və tarazlı diplomatiyaya malik olmasını hər zaman “imkanlar pəncərəsi” kimi dəyərləndirmişlər.

Həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi quruculuq işləri, dövlət proqramlarının vaxtında icrası, strateji layihələrin uğurla başa çatdırılması İlham Əliyevin dövlət başçısı kimi yaranmış imkanlardan səmərəli istifadə edə bilmə bacarığını və məharətini nümayiş etdirdi.

Əsaslı iqtisadi dəyişikliklər hər şeydən əvvəl cəsarətli siyasi qərarların qəbul edilməsindən, siyasi və ideoloji oriyentirlərin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasından asılıdır. Siyasi impuls olmadan iqtisadi və institusional islahatları həyata keçirmək mümkün deyil.

İqtisadiyyat və siyasətin qarşılıqlı əlaqəsinə dair Prezident İlham Əliyevin fikirləri xüsusi olaraq maraq doğurur: “İqtisadi inkişaf, siyasi inkişaf, cəmiyyətin demokratikləşməsi prosesi - bunlar hamısı paralel getməlidir... İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və bu gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir... İndi dünyada gedən proseslər onu göstərir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələr dünyada öz yerini daha da möhkəm tuturlar, öz siyasətini daha da cəsarətlə aparırlar... İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyinə öz töhfəsini verir. İqtisadi cəhətdən heç kimdən asılı olmayan ölkə öz siyasətini də müstəqil şəkildə apara bilər və Azərbaycanın timsalında biz bunu görürük...”[7].

Dünya təcrübəsi də göstərir ki, azad iqtisadiyyatın inkişafına yönəldilmiş islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyətin sayəsində mümkün olur. Burada güclü hakimiyyət dedikdə güclü dövlət mexanizmi ilə yanaşı, həm də vətəndaşların ölkə rəhbərliyinə inam və etimadı başa düşülür. Ölkəmizdə də iqtisadi transformasiya prosesinin dönməz xarakter almasında Heydər Əliyevin qətiyyəti, sonrakı mərhələdə isə Prezident İlham Əliyevin iradəsi və prinsipiallığı, xalqın ona inamı və davamlı dəstəyi həlledici rol oynamışdır.

Keçmiş İttifaq respublikalarının əksəriyyətindən fərqli olaraq, Azərbaycanda siyasi hakimiyyətin sabitliyi və onun davamlı xarakteri təmin edilmişdir. Bir tərəfdən dövlət idarəçiliyi sahəsində sabitliyin qorunub saxlanılması, digər tərəfdən də Azərbaycan Respublikası Prezidentinin iqtisadi islahatların həyata keçirilməsinə verdiyi siyasi dəstək iqtisadi transformasiya prosesinin sürətləndirilməsi və dövlət idarəetmə aparatında radikal dəyişikliklərin aparılması üçün əlverişli zəmin yaratmışdır.

İqtisadi diplomatiyanın hansı imkanlara malik olduğunu peşəkar bir səviyyədə qiymətləndirən Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının inkişafı məsələlərinə böyük önəm verməsi heç də təsadüfi deyil. Cənab Prezident müsahibələrinin birində bildirmişdir: “Hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır”[8]. Dövlət başçısının iqtisadi məsələlərə peşəkar və kompetent yanaşması, milli maraqlarımızı hər zaman önə çəkməsi iqtisadi diplomatiyanın təsir gücünü daha da artırır.

Azərbaycan Prezidentinin ötən dövrdəki fəaliyyətinə ümumi nəzər yetirsək, ölkəmizin strateji xarakterli bir çox problemlərinin həllində onun iqtisadi diplomatiyanın imkanlarından səmərəli istifadə etdiyini görərik. İlham Əliyev bu zaman Azərbaycanın potensialını, cəlb olunduğu strateji layihələrin əhəmiyyətini, gözlənilən inkişaf perspektivlərimizi nəzərə alır.

Fikrimizcə, Azərbaycanda iqtisadi diplomatiyanın əsası neft strategiyasının hazırlanması və “Əsrin müqaviləsi”nin imzalanması ilə qoyuldu. Neft strategiyasının ardıcıl həyata keçirilməsi isə iqtisadi diplomatiya ənənələrinin inkişafına xidmət etdi. Bu sahədə Prezident İlham Əliyevin xüsusi rolunu qeyd etmək lazımdır.

Müasir dünya dövlətləri bir-birləri ilə artıq hərbi deyil, çox hallarda məhz iqtisadi üsul və vasitələrlə mübarizə aparırlar. Azərbaycanın iqtisadi cəhətdən geniş manevretmə imkanları ona gələcəkdə bəzi dövlətlərə öz şərtlərini diktə etmək üçün şərait yaradır. Prezident İlham Əliyevin müasir dünya düzəninin iqtisadi və siyasi “oyun qaydaları”na dərindən bələd olması ölkəmizin maraqlarının bütün səviyyələrdə etibarlı şəkildə qorunmasına təminat verir.

## İqtisadi güc Dağlıq Qarabağ probleminin həllində təsirli vasitə kimi

Təxminən 30 ildir ki, müstəqil Azərbaycan Respublikası keçmiş İttifaq dövlətinin miras qoyduğu Dağlıq Qarabağ münaqişəsinə cəlb edilib. Separatizm meyilləri keçmiş İttifaqın başqa respublikalarını da əhatə etsə də, bu proses Azərbaycanda olduğu kimi, ağrılı və uzunmüddətli xarakter daşımamışdır. Artıq imperiya buxovundan azad olmuş müstəqil dövlətimiz hazırda bütün səylərini təkcə dövlət quruculuğunun həyata keçirilməsinə və milli iqtisadiyyatımızın formalaşdırılmasına deyil, həm də Dağlıq Qarabağ probleminin həllinə yönəldir.

Bu problem ümummilli məsələ olduğuna görə, siyasi mənsubiyyətindən, tutduğu vəzifədən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını düşündürür və narahat edir. Artıq onilliklərdir ki, münaqişənin həllində Ermənistan qeyri-konstruktiv mövqe tutur, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə məhəl qoymur və münaqişənin həllinə əngəl yaradır.

Keçmiş SSRİ-nin rəhbərliyi anlamalı idi ki, Ermənistanın “səpdiyi” separatçılıq və işğalçılıq toxumu İttifaqın digər respublikalarını və regionlarını da əhatə edəcək və bu, gələcəkdə idarəolunmaz prosesə gətirib çıxaracaq. Lakin İttifaq rəhbərliyinin, şəxsən Qorbaçovun Dağlıq Qarabağ probleminin həllində qətiyyətli və ədalətli mövqe tutmaması nəticəsində separatizm meyilləri dərinləşdi və münaqişə zəncirvari prosesə çevrildi.

Ermənistan ayrı-ayrı xarici dövlətlər tərəfindən “bəslənildiyi” və himayə olunduğu halda, Azərbaycan heç bir xarici dəstək olmadan inkişaf edərək özünü müstəqil bir dövlət kimi təsdiq etməkdədir. Ölkəmizdə dövlət quruculuğu Ermənistandan fərqli olaraq, həmişə milli xarakter daşıyıb. Yəni, Azərbaycan öz müstəqil dövlətini yalnız öz gücü və daxili potensialı hesabına qurub və bu gün də ölkənin siyasi rəhbərliyi müstəqil dövlət quruculuğunu milli əsaslar üzərində və milli maraqlarımıza uyğun olaraq həyata keçirir.

2016-cı ilin aprel döyüşləri göstərdi ki, Ali Baş Komandandan sıravi ölkə vətəndaşlarınadək hər bir kəs ən son anda hərbi güc tətbiq etməklə torpaqlarımızın erməni işğalından azad edilməsinə hazırdır. Bu döyüşlər xalqımızda mübarizlik və vətənpərvərlik ruhunun nə qədər yüksək olduğunu bir daha təsdiq etdi.

Prezident İlham Əliyev işğal olunmuş torpaqlarımızı erməni təcavüzkarlarından azad etmək üçün istənilən vaxt hərbi gücdən istifadə ediləcəyini bildirir. O həm də Ermənistanı işğalçı mövqedən çəkindirmək üçün iqtisadi təzyiq üsullarından geniş istifadə edilməsi fikirlərini də səsləndirir. Bu, o deməkdir ki, Dağlıq Qarabağ probleminin həllində hərbi güclə yanaşı, iqtisadi gücdən, iqtisadi diplomatiyanın imkanlarından bundan sonra da maksimum istifadə ediləcəkdir.

Milli iqtisadiyyatımızın inkişafı və dövlətin maliyyə imkanlarının artması fonunda ordumuzun maddi-texniki bazası da möhkəmləndirilir, hərbi xərclərimiz ilbəil artır. Ali Baş Komandan ordu potensialımızın gücləndirilməsini suveren hüququmuz olaraq dəyərləndirir və dövlətimizin ərazi bütövlüyünü bərpa etmək naminə bu hüquqdan istifadə ediləcəyini açıq şəkildə bəyan edir.

İqtisadi müharibədə Azərbaycanın mövqeyinin getdikcə güclənməsini nəzərə alaraq, onun daha sərt və sistemli bir şəkildə davam etdirilməsini zəruri hesab edirik. Artıq dünyada əks mövqedə dayanan ölkələr bir-birlərini silahla deyil, əsasən iqtisadi vasitələrlə zəiflətməyə üstünlük verirlər.

Prezident İlham Əliyev öz çıxışlarında Ermənistanla Azərbaycan iqtisadiyyatının müqayisəsini heç də təsadüfən aparmır: “Ərazilərimiz azad olunmayınca, Ermənistanla heç bir əməkdaşlıq etməyəcəyik. Ermənistan belə bir əməkdaşlığı çox arzulayır, buna çalışır... Biz Ermənistanla əməkdaşlıq etmədən də uzun illər, on illərlə gözəl yaşaya bilərik. Kommunikasiyaların açılmaması, regional proseslərdən kənarda qalması isə Ermənistana baha başa gələcəkdir. Onlar diasporun köməyinə, hər hansı başqa xarici mənbələrin maliyyələşdirməsinə nə qədər ümid bəsləyə bilərlər? Ölkə özü-özünü dolandıra bilmir. O, həmişə xaricdən gələn hansısa maliyyə mənbələrindən asılıdır. Azərbaycan isə ərazilərinin işğal edilməsinə, bir milyon qaçqının olmasına baxmayaraq, inkişaf edir və edəcəkdir”[9]. Xatırladaq ki, Ermənistan əvəzsiz yardımlardan və ya ianələrdən asılı vəziyyətdə olan ölkələrin siyahısında hər il bir qayda olaraq “liderlər” sırasında yer alır.

Ekspertlərin təxmini hesablamalarına əsasən, Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində ölkəmizin iqtisadiyyatına yüz milyardlarla ziyan vurulmuşdur. Hazırda Ermənistan işğal etdiyi ərazidə kənd təsərrüfatı və sənaye potensialından, yerüstü və yeraltı təbii sərvətlərdən maksimum faydalanmağa çalışır.

MDB məkanında iqtisadi diplomatiya sahəsində Azərbaycan qədər geniş manevretmə imkanlarına malik olan ikinci ölkə yoxdur. Biz bu imkanlardan hərbi münaqişənin həllində maksimum istifadə etməliyik. İqtisadi diplomatiya və iqtisadi gücün tətbiq edilməsi bir çox hallarda siyasi diplomatiyadan və hərbi gücün tətbiqindən daha təsirli və dağıdıcı olur. Məhz bu baxımdan ölkəmizin iqtisadi siyasətində Ermənistanla hərbi münaqişə amili nəzərə alınır, işğalçı ölkəyə qarşı iqtisadi təzyiqin müxtəlif forma və üsullarından istifadə edilir.

Hərbi münaqişənin həllində iqtisadi diplomatiyanın imkanlarından istifadə edilməsi həm də böhran məngənəsində sıxılmaqda olan Ermənistanın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq təhlilini tələb edir. Fikrimizcə, Ermənistan iqtisadiyyatının ən zəif nöqtələri müəyyənləşdirilməli, işğalçı dövlətə qarşı iqtisadi gücün tətbiq edilməsinin cari və strateji istiqamətləri müəyyən edilməlidir.

Azərbaycan sovet imperiyası buxovundan azad olmaqla öz sərvətləri üzərində mülkiyyət hüququ əldə etdi. Bu isə iqtisadi potensialımızın dövlətçiliyimizin gücləndirilməsi və milli tərəqqi üçün istifadə edilməsinə zəmin yaratdı. Ermənistanda isə əksinə, sosial-iqtisadi problemlərin kəskinləşməsi dövrü başlandı.

Ermənistan digər keçmiş İttifaq respublikaları kimi dövlət müstəqilliyi əldə etsə də, iqtisadi cəhətdən buna hazır deyildi. Keçmiş sovet məkanında “ələbaxan” respublikalardan biri olan Ermənistanın birdən-birə müstəqillik qazanması onun üçün ciddi sosial-iqtisadi problemlərlə nəticələndi. Məlum olduğu kimi, SSRİ-nin vahid xalq təsərrüfatı kompleksindən daha çox Ermənistan faydalanırdı. Belə ki, onun ucuz enerji, xammal və ilkin emal məhsulları ilə təchizatı, istehsal edilən sənaye məhsulları üçün təminatlı və sabit satış bazarına malik olması, respublika büdcəsinin İttifaq büdcəsi hesabına subsidiyalaşdırılması Ermənistanın problemlərinin həllində əhəmiyyətli rol oynayırdı.

Keçmiş İttifaq respublikaları tərəfindən 1991-ci ildən etibarən qiymətlərin liberallaşdırılması Ermənistanı həm də ucuz xammal və yanacaq-enerji bazarından məhrum etdi. Məlum olduğu kimi, işğalçı ölkənin sənayesinin 50 faizi keçmiş SSRİ-nin hərbi sənaye kompleksindən asılı idi. Bir tərəfdən İttifaq büdcəsindən hərbi-sənaye kompleksi üçün mərkəzləşdirilmiş büdcə xərclərinin azaldılması, digər tərəfdən də Rusiyada hərbiyönümlü sənaye müəssisələrinin tədricən konversiya edilməsi, yəni, istehsal yönümünün dəyişdirilməsi Ermənistandakı müəssisələrin əksəriyyətinin fəaliyyətinin tamamilə dayanmasına, bəzilərinin öz istehsal gücünün 15-20 faizi səviyyəsində işləməsinə səbəb oldu. Bu prosesin nəticəsində Ermənistan təkcə 1993-cü ildə 1992-ci illə müqayisədə sənaye məhsulu istehsalının 60 faizini, ərzaq məhsulları istehsalının isə 50 faizini itirdi.

Nə qədər təzadlı olsa da, keçmiş sovet məkanına daxil olan digər respublikalardan fərqli olaraq, Ermənistanda dövlət müstəqilliyinin əldə edilməsi onun tərəqqisindən daha çox, tənəzzülünə xidmət etdi. Başqa sözlə, Ermənistanın siyasi “azadlığı” ona iqtisadi fəsadlar gətirdi. Bu, bir daha işğalçı ölkənin “müstəqil dövlətçiliyi”nin dərin tarixi köklərə malik olmadığını göstərdi.

Ermənistan dünyaya yaydığı informasiyalarda Azərbaycan və Türkiyə tərəfindən blokadaya alındığını bəyan edir. Bu, o deməkdir ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf 7 rayonunu işğal etməsinə, Naxçıvanı blokadada saxlamasına baxmayaraq, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərindən istifadə etmək iddiasındadır.

Erməni separatizminə cavab olaraq, Azərbaycan Ermənistana gedən nəqliyyat dəhlizi vasitəsilə yükdaşımalarını 1989-cu ildən etibarən dayandırmışdır. Sovet İttifaqı dövründə Ermənistanın yük dövriyyəsinin 90 faizi Azərbaycanın nəqliyyat infrastrukturu hesabına təmin edilirdi. Təkcə Ermənistanın idxal etdiyi malların 85 faizi Azərbaycandan keçən dəmir yolu vasitəsilə daşınırdı. Yanacaq ehtiyatlarının 80 faizini isə işğalçı ölkə ərazimizdən keçən qaz kəməri və dəmir yolu vasitəsilə idxal edirdi.

Ermənistanın Azərbaycandan asılılığını xarakterizə edən bu rəqəmlərə nəzər saldıqda erməni separatçılarının öz ölkələri üçün nə qədər ciddi problem yaratdığı bir daha aydın olur. Ermənistan “xarici dəstəkdən” istifadə edərək Azərbaycan ərazisinin 20 faizini işğal etməklə, əslində, çox şey itirdi.

*Ardı 6-cı səh.*

[6] “Azərbaycan” qəzeti, 20 mart 2018-ci il
[7] İlham Əliyev “İnkişaf - məqsədimizdir”, 26-cı kitab, Azərnəşr, Bakı 2015, səh. 277
[8] İlham Əliyev “İnkişaf - məqsədimizdir”, 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 19
[9] İlham Əliyev “İnkişaf - məqsədimizdir”, 1-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 36

# Prezident İLHAM ƏLİYEVİN iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

Əvvəli 5-ci səh.

Hər şeydən əvvəl, neftin və qazın nəqlinə görə əldə edə biləcəyi sabit valyuta gəlirlərindən məhrum oldu. Gürcüstan kimi Ermənistan da Azərbaycanın həyata keçirdiyi transmilli enerji və nəqliyyat layihələrindən faydalana bilərdi...

Yeni ərazi davası aparan qonşumuzun sosial-iqtisadi problemlərinin kəskinləşməsi hər şeydən əvvəl, onun regional iqtisadi inteqrasiya prosesində iştirak etməməsi ilə bağlıdır. Əgər Ermənistan ərazi iddialarından əl çəksəydi və Azərbaycanla Gürcüstanın, o cümlədən Türkiyənin birgə həyata keçirdiyi strateji iqtisadi layihələrə qoşulsaydı, xarici dövlətlərdən topladığı "ianələrdən" dəfələrlə artıq gəlir əldə edə bilərdi.

Ermənistan özünün neftə və qaza olan tələbatını bütünlüklə idxal hesabına ödəyir. Yəni, bu ölkənin xaricdən enerji asılılığı var. Azərbaycanla sərhədlərin bağlanması isə həmin enerji resurslarının nəqlini çətinləşdirir və xərcini artırır.

Azərbaycan işğalçı dövlətlə həm də iqtisadi gücün dili ilə danışır və Ermənistan bunun acı nəticələrini görməkdədir. Təsadüfi deyildir ki, erməni iqtisadçılar öz iqtisadiyyatlarının təhlili ilə bağlı hesabatların hər abzasında Azərbaycanın iqtisadi təzyiqinin doğurduğu nəticələrdən geniş bəhs edirlər.

Hər bir dövlətin başlıca vəzifəsi ölkə vətəndaşları üçün layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir. Lakin Ermənistan hökuməti bu vəzifəni yerinə yetirmək əvəzinə, işğalçı və separatçı mövqeyi ilə öz vətəndaşlarını məhrumiyyətlər qarşısında qoyur. Vaxtilə "Dağlıq Qarabağ uğrunda mübarizə"yə qalxmış ermənilər, indi öz fiziki mövcudluğunu qoruyub saxlamaq üçün mübarizə aparırlar. Sosial vəziyyəti kəskinləşməkdə olan ermənilər vaxt gələcək özləri Ermənistan rəhbərliyini işğalçı və separatçı mövqedən çəkindirməyə məcbur edəcəklər. Əks halda, Azərbaycan tərəfdən Ermənistana qarşı iqtisadi gücün tətbiqinin davam etdirilməsi işğalçı ölkəni sosial partlayış həddinə gətirib çıxaracaq. Bunun da acı nəticələrini həm Ermənistan rəhbərliyi, həm Ermənistan vətəndaşları, həm də Qarabağ erməniləri hiss edəcək...

Müstəqillik əldə etdikdən sonra Ermənistanın iqtisadi problemləri təkcə Azərbaycanın iqtisadi təzyiqlərinin nəticəsində deyil, həm də bu ölkənin iqtisadi dayaqlarının zəifliyi ilə əlaqədar olaraq kəskinləşmişdir. Təsadüfi deyildir ki, beynəlxalq iqtisadi təşkilatlar öz analitik hesabatlarında işğalçı ölkənin iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələr qrupuna daxil edirlər.

Statistik məlumatların təhlili göstərir ki, Azərbaycan bir sıra makroiqtisadi göstəricilərə görə Ermənistanı dəfələrlə qabaqlayır. Hər bir dövlətin maliyyə təminatı onun büdcəsinin vəziyyəti ilə müəyyən edilir.

Ermənistanda vergi bazasının ilbəil məhdudlaşması dövlət büdcəsinin icrası sahəsində ciddi problemlər yaratmaqdadır.

Dövlət büdcəsindəki gərginliyin nəticəsidir ki, Ermənistanın xarici borcu 2017-ci ildə kritik həddə - 5,4 mlrd ABŞ dollarına çatmışdır. Bu, ÜDM-in təxminən 60 faizini təşkil edir. Müqayisə üçün qeyd edək ki, iqtisadi təhlükəsizlik baxımından kritik hədd 40 faiz hesab olunur.

Azərbaycanda və Ermənistanda xarici borcu təhlil edərkən bir cəhəti də nəzərə almaq lazımdır. Belə ki, beynəlxalq maliyyə təşkilatları borc vəsaitlərini ölkəmizə kredit qabiliyyətli olmasına, yəni, bu borcu qaytarmaq üçün potensial valyuta ehtiyatlarına malik olduğuna görə ayırırlarsa, Ermənistan bu kreditləri xarici ölkələrdə fəaliyyət göstərən lobbisi hesabına əldə edir.

Milli iqtisadiyyatımızın xarici investorlar üçün daha cəlbedici olması Cənubi Qafqaz regionuna yatırılmış sərmayənin əsasən ölkəmizdə cəmləşməsinə şərait yaradır. Artıq Azərbaycan Qafqazın əsas ticarət və investisiya mərkəzinə çevrilməkdədir. Neft kapitalı da daxil olmaqla indiyə kimi Azərbaycana cəlb edilən xarici investisiyaların həcmi 2003-2017-ci illərdə 117,8 mlrd ABŞ dolları təşkil etmişdir. Təsadüfi deyildir ki, ölkəmiz xarici investisiyaların adambaşına düşən həcminə və ÜDM-dəki payına görə bir çox ölkələri qabaqlayır.

Hər bir ölkənin iqtisadi təhlükəsizliyini xarakterizə edən əsas göstəricilərdən biri valyuta ehtiyatlarının həcmidir. Ermənistanda bu göstərici 2017-ci ildə 2,3 mlrd ABŞ dolları təşkil etdiyi halda, Azərbaycanda bu rəqəm təxminən 42 mlrd ABŞ dollarına çatır. Bu isə Ermənistanla müqayisədə 18 dəfə çoxdur.

Azərbaycan təkcə valyuta ehtiyatlarının həcminə görə deyil, həm də onun strukturuna və artım tempinə görə əlverişli mövqeyə malikdir. Valyuta ehtiyatlarının strukturunun təhlili göstərir ki, Ermənistan öz valyuta sərvətlərini əsasən xarici dövlətlərin ianələri və beynəlxalq maliyyə təşkilatlarının kreditləri hesabına formalaşdırır. Başqa sözlə, o, sabit valyuta gəlirlərinə malik deyil. Azərbaycan isə öz valyuta ehtiyatlarını əsasən qazanılmış, yəni, ixracdan əldə edilən valyuta gəlirləri hesabına formalaşdırır.

İqtisadi təhlükəsizliyi xarakterizə edən başqa bir göstərici ölkənin enerji ilə təchiz olunma səviyyəsidir. 1989-cu ilədək Ermənistanın qazla təchizatını əsasən Rusiya, Türkmənistan və Azərbaycan həyata keçirirdi. Ermənistanın separatçı fəaliyyətinə qədər Azərbaycan Transqafqaz Enerji Sistemi çərçivəsində bu ölkənin enerji təchizatında həlledici rol oynayırdı. İndi isə işğalçı Ermənistanın enerji təminatının aşağı səviyyədə olması artıq bu ölkəni iqtisadi uçuruma yaxınlaşdırıb...

Hər hansı bir ölkənin sosial vəziyyətini və perspektivini əhalinin sayının artım tempi, başqa sözlə, demoqrafik meyillər müəyyən edir. BMT-nin statistik məlumatlarına əsasən, əhalinin orta illik sayı Azərbaycanda artdığı halda, Ermənistanda əksinə, hər il azalmışdır. Ermənistan üçün ciddi təhlükə doğuran bu meyil həm də on minlərlə Ermənistan vətəndaşının ölkəni tərk etməsi ilə müşayiət edilir.

Hazırda Azərbaycan dünyanın qabaqcıl dövlətlərinin iqtisadi maraqlarını özündə birləşdirən regional strateji-iqtisadi mərkəzə çevrilib. Belə bir mövqenin qorunub saxlanılmasını ölkəmizin milli dövlətçilik maraqları tələb edir. Bu gün bizim başlıca məqsədimiz Azərbaycan Respublikasının bir dövlət kimi gücünü və qüdrətini daha da artırmaqdan, onun iqtisadi dayaqlarını möhkəmləndirməkdən ibarətdir. Bu, ona görə lazımdır ki, güclü Azərbaycan dövləti həm işğal olunmuş torpaqlarımızı azad etməyə, həm də ölkəmizin ərazi bütövlüyünü qorumağa qadir olmalı və bunun üçün özünün hərbi və iqtisadi potensialını daha da artırmalıdır.

## Dövlət idarəçiliyinin prinsipləri və institusional islahatlar

"Biz Azərbaycan xalqı üçün işləyirik. Onlar bizə bu etimadı göstəriblər və biz də bu etimadı doğrultmalıyıq..."[10]. Bu fikirlərlə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti olaraq dövlət idarəçiliyi sahəsində əsas prinsipini bəyan etmiş oldu.

Prezident İlham Əliyevin "Vətəndaşlar dövlətə deyil, dövlət vətəndaşlara xidmət etməlidir" prinsipini rəhbər tutması həyata keçirilən idarəetmə islahatlarında, ilk növbədə, ölkə vətəndaşlarının maraq və mənafelərinin önə çəkilməsini bir daha təsdiq edir. İnstitusional islahatlar dövlət məmurları tərəfindən ölkə vətəndaşlarına göstərilən xidmətin daha da təkmilləşməsinə və yaxşılaşdırılmasına yönəldilmişdir.

Ölkə rəhbərliyi tərəfindən tətbiq edilən idarəetmə texnologiyasının əsas cəhətlərindən biri hər bir məmurun fəaliyyətinin əldə edilmiş konkret nəticələr əsasında qiymətləndirilməsidir. Fəaliyyətin nəticələrə görə qiymətləndirilməsi prinsipi bir qayda olaraq, dövlət məmurlarının öz işinə daha məsuliyyətlə yanaşması ilə nəticələnir, digər bir tərəfdən də dövlət idarəetmə aparatının daha səmərəli və məhsuldar işləməsinə zəmin yaradır.

Prezident İlham Əliyev 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında yeni təsdiq etdiyi hökumət üzvlərinə müraciət edərək demişdir: "Mən bildirmək istəyirəm ki, hər birinizin gələcək fəaliyyəti nəticələrdən asılı olacaqdır. Bütün sahələrdə nəticələr olmalıdır... Hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin"[11].

Bu gün idarəetmə sistemində aparılan dəyişikliklər idarəetmə texnologiyasında müasir üsul və formaların tətbiq edilməsinə, bəzi dövlət orqanlarında mövcud olan süstlük və ətalətin aradan qaldırılmasına, onların koordinasiyasının daha səmərəli və çevik təşkil edilməsinə, dövlət qulluğunun müasir tələblərə uyğun qurulmasına yönəldilmişdir.

Dövlət başçısı artıq ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı təxirəsalınmaz vəzifələr müəyyən edib. Bunu əslində, iqtisadi quruculuq prosesinin yeni mərhələsinin vəzifələri də hesab etmək olar. Bu vəzifələrin dövlət orqanları tərəfindən uğurla yerinə yetirilməsi ölkə vətəndaşları qarşısında nə qədər şərəflidirsə, bir o qədər də məsuliyyətlidir.

Müəyyən edilmiş hədəflərə çatmaq üçün görülən işlərə peşəkar yanaşmadan başqa, həm də komanda prinsipinə ciddi riayət edilməsi tələb olunur. Komanda prinsipi heç də hər bir dövlət məmurunun eyni cür düşünməli olduğunu deyil, ölkənin inkişafının strateji istiqamətləri ilə bağlı vahid mövqe nümayiş etdirmələrini, qarşıya qoyulan məqsəd və vəzifələrin reallaşdırılması naminə bütün səylərini səfərbər etmələrini nəzərdə tutur.

Öz fəaliyyətini siyasi müstəvidəki konyunktur dəyişiklikləri üzərində quran, daha çox qeyri-səmimiliyi, süst və ətalətli fəaliyyəti ilə seçilən, komanda prinsipini qətiyyən gözləməyən məmurlarla Azərbaycanın inkişafı naminə müəyyən edilmiş ali məqsədlərə çatmaq üçün vaxt baxımından çox böyük itkilərə yol verə bilərik. Bu baxımdan Prezident İlham Əliyev yerli sahibkarlarla görüşü zamanı dövlət məmurlarının vahid komanda şəklində çalışmasının vacibliyini heç də təsadüfən söyləməmişdir: "Azərbaycanın gözəl gələcəyi var. Azərbaycanda sabitlik var. Azərbaycanda gözəl insan potensialı var, çox peşəkar insanlar var. Əlbəttə, siyasi iradə də var. Əgər biz hamımız hərə öz yerində bu istiqamətdə vahid bir komanda kimi çalışsaq, əminəm ki, yaxın zamanlarda Azərbaycanda sahibkarların qarşısında heç bir problem olmayacaqdır"[12].

Prezident İlham Əliyevin çıxışları və söylədiyi fikirlər əsasında onun kadr siyasətinin konturlarını da görə bilərik. Cənab Prezident müsahibələrinin birində qeyd edir: "Hesab edirəm ki, Azərbaycanda çox güclü kadr potensialı yaranıbdır. Bu potensialı, peşəkar insanları qorumaq lazımdır. Sizə deyim ki, onlar Azərbaycanda o qədər də böyük sayda deyillər. Əlbəttə, hər bir məmura, hər bir vəzifəli şəxsə eyni gözlə baxıram. Mən ayrı-seçkilik eləmirəm və hesab edirəm, kim öz vəzifə borcunu ləyaqətlə yerinə yetirirsə, əlbəttə, öz işinə davam etməlidir".

Hər bir məmur kadr məsələsində dövlət maraqlarına uyğun meyarları əsas götürməli və öz fəaliyyəti ilə kadr siyasətinə kölgə salmamalıdır. Ayrı-ayrı məmurların kadrlara münasibətdə özbaşınalığı, cılız və subyektiv yanaşması nəticəsində kadr potensialının itirilməsinə imkan vermək olmaz.

Azərbaycanda institusional islahatların mahiyyətinin, onun məqsəd və vəzifələrinin düzgün qiymətləndirilməsi struktur dəyişikliklərinin uğurla aparılmasının həlledici şərtlərindən biridir. Lakin müşahidələr göstərir ki, idarəetmə islahatlarının "fəlsəfəsi" ilə bağlı bir-birindən fərqli təsəvvürlər mövcuddur.

İdarəetmə islahatları bir qayda olaraq, yalnız azad iqtisadiyyatın inkişafına və bürokratik meyillərin aradan qaldırılmasına, çevik idarəçiliyə və koordinasiyaya şərait yaratdığı halda iqtisadi və təşkilati baxımdan müsbət nəticələr əldə olunur. Ümumiyyətlə, dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. Lakin siyasi hakimiyyəti güclü və sabit olan ölkələrdə iqtisadi islahatlar və struktur dəyişiklikləri rəvan bir şəkildə həyata keçirilir. Çünki hakimiyyətin siyasi gücü həmin islahatların aparılması yolunda qarşıya çıxan "maneələri" asanlıqla dəf etməyə imkan verir.

Bütün postsosialist ölkələri və keçmiş İttifaq respublikaları kimi Azərbaycan da bazar iqtisadiyyatına keçid prosesinə qəbul edilmiş ümumi "reseptlər" əsasında başlamışdır. Bu mənada transformasiya dövrünü yaşayan ölkələrdə iqtisadi islahatların gedişi və onun mərhələləri bir-birindən demək olar ki, fərqlənmirdi. Başlıca fərq həmin ölkələrin seçmiş olduğu tənzimləmə və idarəetmə modelindədir. Sözsüz ki, iqtisadi potensialı, sənaye strukturu, milli iqtisadi maraqları, geopolitik mövqeyi, yeni iqtisadi münasibətlərin formalaşması sürəti bir-birindən fərqli olan ölkələrin tənzimləmə modeli və idarəetmə sistemi də eyni ola bilməz. Buna görə də Prezident İlham Əliyev tərəfindən Azərbaycanda sosial-iqtisadi inkişafın spesifik xüsusiyyətlərini və mövcud reallıqlarını nəzərə alan iqtisadi tənzimləmə modeli və idarəetmə sistemi qurulmuşdur.

Dövlət idarəetmə sisteminin yenidən qurulması prosesində diqqət yetirilməli mühüm məsələlərdən biri idarəetmə islahatlarının iqtisadi islahatların tempi ilə düzgün əlaqələndirilməsidir. Yəni, idarəetmə sisteminin restrukturizasiyası ilə yeni iqtisadi sistemin formalaşması bir-birini tamamlamalıdır. Bu baxımdan ölkəmizdə idarəetmə sisteminin təkmilləşdirilməsi iqtisadi islahatların gedişi ilə sinxronlaşdırılır və bu da öz növbəsində, iqtisadiyyatın səmərəli tənzimlənməsinə əlverişli şərait yaradır.

Dövlət idarəetmə sistemində islahatların yeni mərhələsi artıq reallaşmaqdadır. Struktur islahatlarının uğurla nəticələnməsi dövlət orqanlarının hüquq və səlahiyyətləri ilə məsuliyyətlərinin balanslaşdırılmasından, idarəetmə sistemində şəffaflığın, iqtisadiyyatda isə debürokratizasiyanın təmin edilməsindən asılıdır.

Bu isə son nəticədə dövlət qurumları ilə biznes sektoru arasında münasibətlərin daha sağlam əsaslar üzərində qurulmasına şərait yaradır.

İqtisadiyyatın liberallaşdırılması və yeni iqtisadi münasibətlərin formalaşması, dövlət sektoru ilə xüsusi sektor arasında nisbətin dəyişməsi öz-özlüyündə dövlətin iqtisadi funksiyalarını müəyyən etmir. İstər Qərbi, istərsə də Şərqi Avropa ölkələrinin təcrübəsi göstərir ki, bu ölkələrin iqtisadi inkişafı eyni prinsiplərə əsaslansa da, dövlətin iqtisadiyyatdakı rolu bir-birindən fərqlənir. Belə bir fərq hər şeydən əvvəl hər bir dövlətin öz qarşısına qoyduğu vəzifələrin və bu vəzifələrin həyata keçirilməsi üçün seçilmiş olan üsul və vasitələrin müxtəlifliyindən irəli gəlir.

Dövlət idarəetmə aparatının yenidən təşkili Azərbaycan Respublikasının Konstitusiyasına və ölkəmizin dövlət quruculuğu sahəsində əldə etdiyi uğurlara əsaslanaraq, yeni iqtisadi düzənin prinsiplərini, müstəqil dövlətimizin qloballaşan dünyaya inteqrasiyasının bugünkü reallıqlarını, milli iqtisadiyyatımızın inkişaf meyillərini, nəhayət, formalaşmaqda olan iqtisadi sistemin tələblərini nəzərə almaqla həyata keçirilir.

İdarəetmə sistemində islahatları ayrı-ayrı dövlət orqanlarının ləğvi və ya birləşdirilməsi, yaxud da yeni strukturların yaradılması kimi xarakterizə etmək olmaz. İnstitusional islahatlar birinci növbədə dövlət strukturlarının tənzimləyici rolunun gücləndirilməsini və onların fəaliyyətinin səmərəliliyini təmin etməlidir. Bu, heç də bürokratik meyillərin dərinləşdirilməsi demək deyil. Əksinə, idarəetmə sistemində aparılan islahatlar dövlət idarəetmə orqanlarının debürokratizasiyasına, iqtisadiyyatda dövlət inhisarçılığının aradan qaldırılmasına şərait yaratmalıdır.

İdarəetmə islahatları ayrı-ayrı dövlət orqanlarının əsasnamələrinə yenidən baxılmasını və onların ciddi şəkildə ekspertizadan keçirilməsini tələb edir. Belə ki, iqtisadi yönümlü dövlət orqanlarının bir çoxunun fəaliyyətində bir-birini təkrarlayan funksiyalar və vəzifələr mövcuddur. Qüvvədə olan əsasnamələrin yenidən hazırlanması iqtisadiyyatın idarə edilməsi sahəsində təkrarçılığı aradan qaldıra bilər. Dövlət orqanlarının təşkilati strukturunu vahid meyar və prinsiplərlə formalaşdırmaq məqsədi ilə nazirlik və komitələr, agentlik və xidmətlər üzrə yeni nümunəvi əsasnamənin hazırlanması da məqsədəuyğundur.

Azərbaycanın dövlət idarəetmə aparatında nəzərdə tutulan dəyişikliklər ölkənin mövcud reallıqlarına cavab verməklə yanaşı, həm də Əsas Qanunumuzun tələblərinə uyğun olaraq həyata keçirilir. Konstitusiyaya əsasən, ali icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Dövlət idarəetmə aparatı da bu prinsipə uyğun olaraq fəaliyyət göstərməli və təkmilləşdirilməlidir.

Hesab edirik ki, Azərbaycanda prezidentli respublika üsuli-idarəsinin seçilməsi iqtisadi sistemin transformasiyasının və radikal iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi baxımından özünü doğrultmuşdur. Təsadüfi deyildir ki, bir çox ekspertlər keçid mərhələsində olan ölkələr üçün prezidentli respublikaya əsaslanan dövlət idarəçiliyini daha məqsədəuyğun hesab edirlər.

Azərbaycan Respublikasının Konstitusiyası iqtisadi idarəçilik sahəsində ali hakimiyyət və dövlət orqanlarının hüquq və səlahiyyətlərini, əsas vəzifələrini dəqiq müəyyən etmişdir. Belə ki, ali icra hakimiyyəti - Azərbaycan Respublikasının Prezidenti dövlətin iqtisadi və sosial proqramlarını təsdiq etməklə sosial-iqtisadi siyasəti müəyyən edir. Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı kimi dövlət proqramlarının icrasını, yəni, ölkə başçısı tərəfindən müəyyən edilmiş iqtisadi siyasətin həyata keçirilməsini təmin edir. Mərkəzi icra hakimiyyəti orqanları isə öz səlahiyyətləri daxilində müvafiq proqramların reallaşdırılmasında iştirak edir, dövlətin ayrı-ayrı sahələr üzrə müəyyən edilmiş siyasətini həyata keçirir.

Məlum olduğu kimi, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir. Konstitusiya islahatları çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri institutu yaradılmışdır. Xüsusilə də Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi ölkəmizin dövlət idarəçiliyi tarixində yeni mərhələnin əsasını qoydu. Bu təyinat ali dövlət idarəçiliyinin təkmilləşdirilməsi və daha da gücləndirilməsi, hüquqi dövlət quruculuğu prosesinin sürətləndirilməsi, dövlət idarəetmə orqanlarında qərarların operativ qəbulu, sosial-humanitar sahədə dövlət siyasətinin uğurla həyata keçirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Ölkə iqtisadiyyatının sürətlə yeniləşdiyi bir vaxtda iqtisadi yönümlü dövlət orqanlarının fəaliyyətinin səmərəli koordinasiyasının təmin edilməsi xüsusi aktuallıq kəsb edir. Dövlət idarəetmə sistemində islahatlar hər şeydən əvvəl, iqtisadi idarəetmə və tənzimləmə "yükü"nün dövlət orqanları arasında "səmərəli" və "ədalətli" bölgüsünə yönəldilməlidir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən iqtisadi məsələlərə sistemli və kompleks şəkildə baxılması islahatların gedişinə mane olan amillərin, iqtisadiyyatımızın zəif nöqtələrinin vaxtında aşkar edilməsində həlledici rol oynayır. Belə bir yanaşma iqtisadi siyasəti hazırlayan və koordinasiya edən strukturlara daha səmərəli işləmək üçün əlverişli şərait yaradır.

İnstitusional islahatların mühüm istiqamətlərindən biri antikorrupsiya tədbirlərinin həyata keçirilməsidir. 2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu sahədə hüquqi bazanı formalaşdırmaqla yanaşı, həm də hakimiyyətin korrupsiya ilə mübarizədə siyasi iradəsini nümayiş etdirdi.

Həmin ildə Prezident İlham Əliyev "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nı (2004-2006-cı illər) təsdiq etdi. Proqramda korrupsiyanın qanunun aliliyinə, dövlət idarəçiliyinin səmərəli fəaliyyətinə, iqtisadi inkişafa təhlükə yaratdığı qeyd olundu və korrupsiyaya qarşı mübarizədə ümumi dövlət siyasətinin həyata keçirilməsinin vacibliyi bir daha bəyan edildi.

Dövlət proqramının icra müddəti bitdikdən sonra Prezident İlham Əliyev 2007-ci ildə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nı və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planını təsdiq etmişdir. Bu strategiyaya əsasən, korrupsiyaya qarşı mübarizənin institusional mexanizminin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və bu sahədə dövlət siyasətinin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulurdu.

Şəffaflığın artırılması ilə bağlı beynəlxalq təşəbbüslərə öz töhfəsini verə bilmək üçün ölkəmiz 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına qoşulmuşdur. Prezident İlham Əliyev dövlət idarəçiliyində şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədi ilə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nı təsdiq etdi.

Bu çərçivədə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmək üçün 2016-2018-ci illəri əhatə edən yeni fəaliyyət planı da qəbul edildi.

Açıq hökumət prinsiplərindən biri olan ictimai iştirakçılığın genişlənməsi üçün qanunvericilik bazasını təmin edən "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu dövlət orqanları yanında ictimai şuraların yaradılmasını, ictimai əhəmiyyət kəsb edən qanun və qərar layihələrinin müzakirəsində və dövlət orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakına şərait yaratmışdır.

İdarəetmə sistemində şəffaflığın təmin edilməsi üçün dövlət idarəçiliyində müasir informasiya texnologiyalarının imkanlarından maksimum istifadə edilməsi tələb olunur. Son illər inzibati prosedurlar və dövlət orqanlarının göstərdikləri xidmətlərin elektronlaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. 2017-ci ildə 91 qurum elektron hökumət portalı vasitəsilə 438-dək elektron xidmət göstərmişdir.

Dövlət idarəçiliyində şəffaflığın təmin edilməsində "ASAN xidmət"in yaradılması xüsusi əhəmiyyət kəsb edir. "ASAN xidmət" - Azərbaycan Respublikasında dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən mərkəzdir. 2013-cü ildən fəaliyyətə başlayan "ASAN xidmət" BMT-nin 2015-ci ildə "Dövlət Xidmətləri Mükafatına" layiq görülmüşdür. "ASAN xidmət"ə indiyə qədər edilən müraciətlərin sayı 20 milyonu keçib.

İdarəetmə islahatları, ilk növbədə, hökumətin iqtisadi blokunu əhatə edir. Bu isə tamamilə təbii qəbul edilməlidir. Belə ki, iqtisadi yönümlü dövlət orqanlarının təşkilati strukturu və funksiyaları yeniləşməkdə olan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmalıdır. Yeni iqtisadi şəraitdə iqtisadiyyatın idarə edilməsi və tənzimlənməsi köhnə idarəçilik prinsiplərinə əsaslana bilməz.

## Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi

Hər bir ölkədə idarəetmə və dövlət nəzarəti sisteminin xüsusiyyətlərini mövcud iqtisadi münasibətlərin xarakteri müəyyənləşdirir. Bu mənada ölkəmizdə bazar münasibətlərinin tədricən formalaşması, iqtisadiyyatın liberallaşması dövlət idarəetmə və nəzarət sistemində keyfiyyət dəyişikliklərinə səbəb olmuş və onun fəaliyyətinə yeni məzmun vermişdir.

İstənilən iqtisadi sistem özünə uyğun idarəetmə və tənzimləmə mexanizminin yaradılmasını tələb edir. Nəzarət sistemi isə dövlət idarəetmə sisteminin tərkib hissəsi və onun bir qolu olduğuna görə hüquqi dövlət, demokratik cəmiyyət və azad iqtisadiyyat kimi prinsiplər bu sistemdə də nəzərə alınmaya bilməz.

Ardı 11-ci səh.

[10] İlham Əliyev "İnkişaf - məqsədimizdir", 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 54
[11] İlham Əliyev "İnkişaf - məqsədimizdir", 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 54
[12] İlham Əliyev "İnkişaf - məqsədimizdir", 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 181

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyinizi eşidəndə çox sevindim. Sizə ən səmimi təbriklərimi çatdırmağı özümə şərəf bilirəm.

Çin ilə Azərbaycan əməkdaşlıq sahəsində ənənəvi dost tərəfdaşlardır. Diplomatik münasibətlər qurulduqdan sonra hər iki tərəfin siyasi etimadı daim möhkəmlənir, bütün sahələrdə praqmatik əməkdaşlıq dərinləşir, iki ölkənin münasibətləri davamlı inkişaf edir. Mən Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Bütün sahələrdə əməkdaşlığı Sizin ilə birlikdə xalqlarımızın rifahı naminə yeni səviyyəyə yüksəltmək istəyirəm.

Bu yaxınlarda Azərbaycan tərəfi Şanxay Əməkdaşlıq Təşkilatına müşahidəçi dövlət kimi üzv olmaq üçün ərizə verib. Çin tərəfi Azərbaycan tərəfinin ərizəsinə böyük əhəmiyyət verir və ŞƏT-in iştirakçısı olan digər ölkələrlə birlikdə onu vahid razılıq əsasında nəzərdən keçirəcək.

Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyət, ali dövləti vəzifənizdə daim böyük uğurlar qazanmağı arzu edirəm.

Dövlətinizə tərəqqi, xalqınıza firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

---

Hörmətli cənab Prezident!

Böyük səs çoxluğu ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Vyetnam dövləti, xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Vyetnam Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın son vaxtlar əldə etdiyi nailiyyətləri daim müşahidə edir və buna sevinir. Əminəm ki, Sizin təcrübəniz sayəsində Azərbaycan uğurlu inkişafını davam etdirəcək, beynəlxalq arenada öz mövqeyini yüksəldəcək.

Şadam ki, Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətləri son vaxtlar dinamik inkişaf edir. Bizim münasibətlərimizin inkişafında Sizin mühüm rolunuzu qeyd etməmək olmaz. Cənab Prezident, xalqlarımızın mənafeyi naminə iki ölkə arasında çoxtərəfli əməkdaşlığın istiqamətlərini və onun daha da inkişaf etdirilməsi tədbirlərini müzakirə etmək və razılaşdırmaq üçün Sizin Vyetnama rəsmi səfərinizi səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək, Sizə və ailənizə möhkəm cansağlığı arzulamaq istərdim. Sizə öz nəcib vəzifənizdə yeni böyük uğurlar diləyirəm.

Qoy, Azərbaycan xalqı Sizin rəhbərliyinizlə ölkənin inkişafı işində sanballı nəticələr əldə etsin.

*Dərin hörmətlə,*

***Çan Day KUANQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizin inamlı qələbəniz Azərbaycan Respublikasının davamlı və hərtərəfli inkişafına yönəlmiş siyasi xəttinizə Azərbaycan xalqının etimadının parlaq sübutudur.

İnanıram ki, qarşılıqlı hörmət və etimada əsaslanan Qırğızıstan-Azərbaycan münasibətləri birgə səylərimizlə bundan sonra da möhkəmlənəcək və dərinləşəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Sooronbay JEENBEKOV,***
***Qırğız Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə Fələstin Dövləti və xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram. Sizə xalqınızın rifahı naminə qarşıya qoyduğunuz hədəflərə çatmaqda uğurlar arzulayıram. Ölkələrimiz və xalqlarımız arasında mövcud olan, onlar üçün xeyirli və müştərək maraqlara əsaslanan birgə əlaqələndirmə və əməkdaşlıq yollarının gücləndirilməsi üçün daimi istəyimizi bildirir, ölkəmizdə münaqişənin sona çatması və paytaxtı tolerantlıq, birgə yaşama və sülh şəhəri Şərqi Qüds olmaqla müstəqil dövlətimizin yaradılması üçün xalqımıza və onun mübarizəsinə bütün beynəlxalq dairələrdə verdiyiniz dəstəyinizi və mövqeyinizi yüksək qiymətləndirirəm.

Zati-aliləri, ən xoş arzularımı qəbul edin. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti,***
***Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan ilə İsrail bir çox sahələrdə etimad və qarşılıqlı anlaşmaya əsaslanan yaxşı münasibətlərə malikdir. Əlbəttə, müdafiə məsələləri ilə bağlı birgə işlərimiz möhkəm münasibətlərimizin önəmli hissəsini təşkil edir. Mən bu əlaqələrin daha da inkişaf etməsini və genişlənməsini arzu edirəm.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı bildirir, xoşbəxtlik, möhkəm cansağlığı və uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Aviqdor LİBERMAN,***
***İsrail Dövlətinin müdafiə naziri***

---

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Dağıstan Respublikasının Xalq Məclisi adından Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizə göstərilmiş etimad Sizin yüksək nüfuzunuzu və yürütdüyünüz, ölkənin siyasi və sosial-iqtisadi inkişafına yönəlmiş xəttin bütün xalq tərəfindən dəstəklənməsini təsdiq edir. Sizin şəxsi səyləriniz, Azərbaycan vətəndaşlarının əməksevərliyi və zəhməti sayəsində ölkədə həyat səviyyəsinin yüksəlməsi, onun gücünün möhkəmlənməsi böyük hörmətə layiqdir. Siz dövlət xadimi və siyasi xadim kimi təkcə doğma ölkənizdə deyil, həm də onun hüdudlarından kənarda böyük hörmət qazanmısınız. Siz atanızın - görkəmli dövlət xadimi, Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin şanlı işlərini ləyaqətlə davam etdirirsiniz.

Sizin Rusiya-Azərbaycan tərəfdaşlığının və müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığının inkişafına yönəlmiş prinsipial mövqeyinizi Rusiyada yüksək qiymətləndirirlər. Dağıstanlılar əmindirlər ki, xalqlarımız arasında tarixən yaranmış qardaşlıq münasibətləri bundan sonra da konstruktiv və səmərəli şəkildə inkişaf edəcək və möhkəmlənəcək.

Dağıstan Respublikası Xalq Məclisinin deputatları Azərbaycan Respublikasının Prezidenti seçkilərində MDB-dən olan müşahidəçilər missiyasının tərkibində ənənəvi şəkildə iştirak edərək seçkilərin beynəlxalq hüququn normalarına uyğun və yüksək səviyyədə təşkil olunmasını qeyd ediblər.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və firavanlıq, ali dövləti fəaliyyətinizdə və təşəbbüslərinizdə yeni uğurlar diləyirəm. Azərbaycan xalqına sülh və xoşbəxt gələcək arzulayıram.

*Dərin hörmətlə,*

***Xızrı ŞIXSƏİDOV,***
***Rusiya Federasiyası Dağıstan Respublikası***
***Xalq Məclisinin sədri***

---

Möhtərəm cənab Prezident!

Bu məktubla Sizə öz dərin hörmətimi və Moldova Respublikası Qaqauz Yeri Muxtar Ərazi Qurumuna göstərdiyiniz diqqətə görə xüsusi minnətdarlığımı bildirirəm.

Zati-aliləri, Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində layiqli qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikasının əhalisi öz vətəndaş borcunu yerinə yetirərək firavan və suveren gələcəyə səs verdi, Sizə etimad göstərib bu gözəl ölkəyə rəhbərliyi yenidən Zati-alinizə həvalə etdi. Siz dövlətin siyasi, iqtisadi və sosial sahələrinin inkişafı üçün yeni layihələr reallaşdırmaqla, vətəndaşların həyat səviyyəsinin daha da yüksəlməsi və milli maraqların müdafiəsi naminə yorulmadan çalışırsınız.

Əminəm ki, Sizin bilik və bacarığınız, təcrübə və müdrikliyiniz ölkəni əmin-amanlığın, sabitliyin bərqərar olduğu daha gözəl gələcəyə aparacaq və Siz Azərbaycan Respublikasının Prezidenti kürsüsündə hələ uzun müddət məhsuldar fəaliyyət göstərəcəksiniz.

Çox hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, Qaqauz Yeri Muxtar Ərazi Qurumuna və Çadır-Lunqa şəhərində Mədəniyyət-Təhsil Mərkəzi binasının tikintisinə göstərdiyiniz hərtərəfli dəstəyə görə Sizə öz minnətdarlığımızı bildiririk.

Ümidvarıq ki, bizim qardaş xalqlarımız arasında məhsuldar əməkdaşlıq bundan sonra da davam edəcək və biz yeni-yeni sosial və iqtisadi layihələri gerçəkləşdirməyə müvəffəq olacağıq.

*Dərin hörmətlə və ən xoş arzularla,*

***İrina VLAX,***
***Moldova Respublikasının Qaqauz Yeri Muxtar***
***Ərazi Qurumunun Başçısı***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Krans Montana Forumunun idarə heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizin seçkilərdəki qələbəniz xalqın Azərbaycanın gələcək inkişafına inamının və Zati-alinizə bəslədiyi ümidlərin ifadəsidir. Bu, həm də Sizin xalqınız üçün gördüyünüz işlərin nəticəsidir.

Uzun illər ərzində Krans Montana Forumu Sizin gözəl ölkənizlə mehriban və səmərəli əlaqələri davam etdirib. Əminəm ki, bu əməkdaşlıq qarşıdakı illərdə də uğurla davam edəcəkdir.

Cənab Prezident, ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, ailə xoşbəxtliyi, Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***səfir Jan Pol KARTERON,***
***Krans Montana Forumunun təsisçisi və fəxri prezidenti***

---

Zati-aliləri!

Sizi aprelin 11-də keçirilmiş Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM adından və şəxsən öz adımdan təbrik edirəm.

GUAM-ın müşahidə missiyasının üzvü qismində Bakı, Sumqayıt şəhərlərində və ətraf qəsəbələrdəki seçki məntəqələrində olarkən seçicilərin yüksək fəallığına, seçki prosesinin qüsursuz təşkilinə və ölkə vətəndaşlarının öz iradələrini sərbəst ifadə etmələri üçün hər cür şərait yaradıldığına şahid oldum.

Sizin inamlı qələbəniz ölkənin inkişafına və xalqın rifahının yüksəlməsinə yönəlmiş siyasi xəttinizə Azərbaycan xalqının böyük etimadının göstəricisidir.

Sizin rəhbərliyiniz ilə Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edərək beynəlxalq arenada mühüm tərəfdaşa, sabitliyin və məhsuldar əməkdaşlığın önəmli amilinə çevrilmişdir.

Qurucularından biri dahi Heydər Əliyevin olduğu Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM çərçivəsində regional əməkdaşlığın inkişafında Azərbaycanın yerini və rolunu, Sizin şəxsi töhfənizi biz yüksək dəyərləndiririk.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək, güclü, müstəqil, inkişaf etmiş və demokratik Azərbaycanın tərəqqisi yolunda Sizə möhkəm cansağlığı, yeni-yeni uğurlar və nailiyyətlər arzulayıram. Ümidvaram ki, regionda sülh, sabitlik, dost ölkələrimizin və xalqlarımızın tərəqqisi və rifahı naminə GUAM çərçivəsində sıx qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

*Dərin hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın baş katibi***

*Ukrayna, Kiyev şəhəri*

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar arzulayıram.

Siz 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildiniz və Heydər Əliyev dəyərlərinə yeni nəfəs verərək ölkəmizin inkişafına böyük uğurlar gətirdiniz. Azərbaycanın iqtisadi, sosial, mədəni həyatında və digər sahələrdə böyük dəyişikliklər baş verdi. Azərbaycan regionun lider dövlətinə çevrildi, qüdrətli və bir çox ölkələr üçün nümunə oldu.

Sizin aprelin 11-də keçirilən prezident seçkilərində inamlı qələbəniz və seçicilərin mütləq əksəriyyətinin səsini qazanmağınız Azərbaycanın inkişafı üçün həyata keçirdiyiniz siyasətə xalqın böyük dəstəyidir.

Əminik ki, Sizin növbəti prezidentliyiniz dövründə Azərbaycan yeni uğurlara və qələbələrə nail olacaq. Bu qələbələr sırasında Dağlıq Qarabağ münaqişəsinin həllini, Azərbaycan bayrağının Qarabağda dalğalanmasını da görəcəyik.

Sizə möhkəm cansağlığı, ailə səadəti və ölkəmizin inkişafı naminə fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Akademik Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı***
***Parlament Assambleyasının baş katibi***

---

Möhtərəm Prezidentimiz çox hörmətli İlham Əliyev!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə Mərmərə Qrupu Vəqfinin üzvləri adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi bildiririk.

Siz Azərbaycanı dünəndən bu günə, dünyada qəbul edilən müasir və modern səviyyəyə sülh və sabitlik içində çatdırmısınız. Xidmətləriniz Azərbaycanın rifahı, əmin-amanlığı və inkişafı ilə bərabər, bölgədə sülhə, təhlükəsizliyə və sabitliyə də töhfə verir.

Yenidən Prezident seçilməyinizdən duyduğumuz böyük sevincimizi təbriklərimizlə ali diqqətinizə çatdırırıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik diləyirik.

*Dərin ehtiramla,*

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar***
***Vəqfinin baş direktoru***

*Türkiyə Respublikası, İstanbul şəhəri*

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvarıq ki, yeni prezidentliyiniz müddətində Azərbaycana uğurlu rəhbərliyiniz davam edəcək və qlobal enerji sistemindəki mühüm keçid dövründə Azərbaycan dünyanı etibarlı və təhlükəsiz şəkildə enerji ilə təmin edən əsas beynəlxalq tərəfdaşlardan biri olaraq qalacaq.

"Statoil" Azərbaycan Respublikasının şirkətimizə olan inamına əsaslanan tərəfdaşlığımıza böyük dəyər verir.

Zati-aliləri, prezident seçkilərindəki qələbəniz münasibətilə təbriklərimi və ən dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Eldar SAETRE,***
***Norveçin "Statoil" şirkətinin baş icraçı direktoru***

---

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Sizin seçkilərdə inamlı qələbəniz respublikada yüksək nüfuzunuzu sübut edir. Seçkilərin nəticəsi təkcə Sizin şəxsi keyfiyyətlərinizə verilən dəyər deyil, həmçinin Azərbaycanda dinc, xoşbəxt, rahat həyatı təmin etmək səylərinizə dəstəkdir. Azərbaycan Respublikası Sizin rəhbərliyiniz ilə sosial-iqtisadi inkişafda, beynəlxalq arenada mövqelərinin möhkəmlənməsində diqqətəlayiq uğurlar əldə edib. Energetika sahəsində Rusiya-Azərbaycan münasibətləri, həmçinin "Rosneft" Neft Şirkəti PSC ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) arasında əlaqələr dinamik inkişaf edir.

Azərbaycanın tanınmış maarifçi-yazıçısı Mirzə Fətəli Axundzadə yazırdı: "Vətənpərvər - Vətəninin yüksəlişi naminə canından keçməyə hazır olan insandır".

Əminəm ki, Azərbaycan xalqı düzgün seçim edib.

Hörmətli İlham Heydər oğlu, atanız - Azərbaycanın ümummilli lideri və Rusiyanın səmimi dostu Heydər Əlirza oğlu Əliyevin nəcib işinin davam etdirilməsində Sizə yeni nailiyyətlər diləyirəm.

*Ən xoş arzularla və hörmətlə,*

***İqor SEÇİN,***
***"Rosneft" Neft Şirkəti Publik Səhmdar***
***Cəmiyyətinin baş icraçı direktoru***

---

Möhtərəm cənab Prezident!

Prezident seçkilərində qazandığınız inamlı və möhtəşəm qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Vətəndaşların Sizə göstərdiyi bu böyük etimad indiyədək Azərbaycan dövlətinin və xalqının rifahı üçün istər beynəlxalq, istərsə də yerli miqyasda gördüyünüz misilsiz işlərə verilən ən layiqli qiymətdir.

Azərbaycan xalqı növbəti dəfə Sizə etimad göstərməklə ölkəmizin parlaq gələcəyinə, davamlı və hərtərəfli inkişafına, siyasi, iqtisadi, hərbi və sosial sahələrdə gücünün artmasına dəstək verdi. Şübhəsiz ki, bu dəstək bütün fəaliyyətiniz boyu Sizi müşayiət edəcəkdir.

Hər zaman olduğu kimi, yeni prezidentlik dönəmində də "Palmali" Şirkətlər Qrupu və onun kollektivi Sizin həyata keçirdiyiniz islahatlardan bəhrələnəcək, öz fəaliyyətini dəyərli tövsiyə və göstərişlərinizə əsaslanaraq təşkil edəcək, Sizin rəhbərliyiniz ilə əldə edilən inkişafa qürurla töhfə verəcəkdir.

Sizi qələbəniz münasibətilə bir daha təbrik edir, Sizə uzun ömür, cansağlığı diləyir, hər bir işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Mübariz MƏNSİMOV,***
***"PALMALİ" Şirkətlər Qrupunun prezidenti***

---

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır və yenidən dövlət başçısı vəzifəsinə seçilməyinizdən çox məmnun olduğumu bildirirəm.

Aprelin 11-də keçirilən seçkilərin nəticələri Azərbaycan xalqının Sizə böyük etimadının və ölkənin inkişafı yolunda həyata keçirdiyiniz siyasi kursunuzla həmrəyliyinin bariz nümunəsi oldu. Seçicilərin böyük əksəriyyəti tərəfindən namizədliyinizin dəstəklənməsi son illərdə həyata keçirilən dövlət proqramlarının səmərəliliyinin, paytaxtda və eləcə də regionlarda dinamik inkişafa nail olunması üçün göstərdiyiniz şəxsi xidmətlərin yüksək qiymətləndirilməsinin parlaq sübutudur.

Əminəm ki, dövlət başçısı kimi şərəfli və məsuliyyətli vəzifədə xidmətləriniz bundan sonra da Azərbaycanda sabitliyin və firavanlığın möhkəmlənməsinə, ölkənin iqtisadi potensialının artmasına və beynəlxalq nüfuzunun daha da yüksəlməsinə təkan verəcəkdir.

Hörmətli cənab Prezident, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edir, qarşıdakı illərdə Azərbaycan dövləti və xalqı naminə fəaliyyətinizdə yeni uğurlara imza atmağı arzulayıram. Tanrı Sizi qorusun!

*Hörmətlə,*

***Osman GEZEKER,***
***Türkiyənin "Özkaya Group" şirkəti İdarə Heyətinin sədri***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının Sizin rəhbərliyinizlə nail olduğu sabitliyə və inkişafa, Sizin uğurlarınıza biz də heyranıq.

Biz Moldova Respublikasına Sizin dəstəyinizi yüksək qiymətləndirir və ümid edirik ki, ölkələrimiz arasında əməkdaşlıq daha geniş vüsət alacaq. Bizi möhkəm dəyərlər və xalqlarımızın rifahını təmin etmək məqsədi birləşdirir. Partiyamızın üzvləri əmindirlər ki, ümumi maraq doğuran çoxsaylı məsələlərdə dialoqumuz davam edəcək.

Zati-aliləri, Sizə səmimi uğur arzularımı və xanım Mehriban Əliyevaya çox dərin hörmət və ehtiramımı çatdırıram.

*Səmimiyyətlə,*

***Vlad PLAXOTNYUK,***
***Moldova Demokratik Partiyasının sədri***

---

Hörmətli cənab Prezident!

Çox xoşbəxtəm ki, mənə 2007-2012-ci illərdə Litva Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsində işləmək səadəti nəsib olmuşdur. Həmin müddətdə Azərbaycanın iqtisadi inkişafını və yüksəlişini mütəmadi izləmişəm.

Bu günlərdə isə ölkənizdə böyük siyasi kampaniyanı - prezidentliyə namizədlərin seçki marafonunu şəxsən müşahidə etmişəm.

Bu seçkilərdə qazandığınız möhtəşəm qələbə münasibətilə Sizi və xalqınızı Azərbaycanın etibarlı dostu kimi səmimi-qəlbdən təbrik edirəm.

Sizə fəaliyyətinizdə uğurlar, cansağlığı, uzun ömür diləyir, Sizin rəhbərliyiniz ilə Azərbaycana sülh, əmin-amanlıq, sabit dinamik inkişaf və firavanlıq arzulayıram.

Hörmətlə, Sizin dostunuz

***Kyestutis KUDZMANAS,***
***Litva Respublikasının Azərbaycan Respublikasındakı***
***sabiq səfiri, Litva Seymi sədrinin xarici***
***siyasət məsələləri üzrə müşaviri***

---

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Rusiya Müsəlmanları Ruhani Məclisi adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan nəhəng potensialı olan bir ölkədir və ona yalnız güclü lider rəhbərlik etməlidir. Bu gün Azərbaycan xalqı öz taleyini, övladlarının, nəvə-nəticələrinin və valideynlərinin taleyini məhz Sizə etibar edir. Azərbaycan vətəndaşları öz gələcəyini məhz Sizin rəhbərliyiniz altında görürlər.

Rusiya müsəlmanları milli birliyin, sülhün və qardaş xalqlar arasında dostluğun möhkəmləndirilməsinə yönəlmiş ədalətli qərarlarınızı alqışlayır və dəstəkləyirlər.

İnanırıq ki, vətəndaşların firavanlığının daha da yaxşılaşması və yüksəlməsi üçün cəmiyyət həyatının bütün sahələrində Azərbaycanın rifahı naminə uğurlu fəaliyyətinizi var qüvvənizlə davam etdirəcəksiniz.

Heç də asan olmayan bu fəaliyyətinizdə Sizə güc-qüvvət, ruh yüksəkliyi, tükənməz enerji, müdriklik və səbir arzulayırıq.

Allah-Təala haqq işinizdə köməyiniz olsun, səmimi dualarınızı və ibadətlərinizi qəbul etsin, xeyirli əməllərinizin mükafatını versin.

*Hörmətlə və xeyir-dualarla,*

***Albir KRQANOV,***
***Rusiya Müsəlmanları Ruhani Məclisinin müftisi,***
***Rusiya Federasiyası İctimai Palatasının üzvü***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi Kabardin-Balkar müsəlmanları, Kabardin-Balkar Respublikası Müsəlmanları Dini İdarəsi adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının Sizə göstərdiyi etimad, heç şübhəsiz, Sizin xidmətlərinizin və nailiyyətlərinizin, ölkənizin iqtisadi qüdrətinin möhkəmləndirilməsinə, onun mədəni intibahına, beynəlxalq arenada nüfuzunun yüksəldilməsinə, eləcə də dövlət-din münasibətlərinin nizamlanmasına, dini etiqad azadlığının təmin edilməsinə, dini-mənəvi dəyərlərin qorunub saxlanılmasına yönəlmiş siyasi kursunuzun doğru olduğunun sübutudur.

Sizin müdrik rəhbərliyiniz bu gün ölkənizdə bir çox dinlərin və millətlərin nümayəndələrinin dinc və rahat yaşamasını təmin edir. Sizin bütün dünya müsəlmanları birliyinə ünvanlanmış İslam həmrəyliyinə çağırışınız isə dinlərarası münasibətlərin keyfiyyətinin yüksəldilməsində və İslamın həqiqi dəyərlərinin geniş yayılması yolunda mühüm mərhələdir. Bu prosesdə Kabardin-Balkar Müsəlmanları Dini İdarəsi Sizin təşəbbüsünüzü tam dəstəkləyir və bundan sonra da sıx, məhsuldar əməkdaşlığa hazırdır.

Mən Uca Allahdan diləyirəm ki, cəmiyyətə xidmət etdiyiniz bu çətin yolda bütün xoşməramlı təşəbbüslərinizdə öz lütfünü və mərhəmətini Sizdən əsirgəməsin. Ali dövləti vəzifənizdə Sizə tükənməz həyat enerjisi, möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram.

Bütün xeyirli əməllərinizdə Allah-Təala köməyiniz olsun.

*Hörmətlə,*

***Müfti Həzrətəli DZASEJEV,***
***Rusiya Federasiyasının Kabardin-Balkar Respublikası***
***"Kabardin-Balkar Müsəlmanları Dini İdarəsi"***
***Mərkəzləşdirilmiş Dini Təşkilatının sədri***

---

Mərhəmətli və Rəhmli Allahın adı ilə.

Hörmətli İlham Heydər oğlu!

Sizə və yaxınlarınıza dərin ehtiramımı bildirir, sülh, rifah və Ulu Tanrının rəhmini diləyirəm.

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi "Beynəlxalq İslam Missiyası" Mərkəzləşdirilmiş Dini Təşkilatı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Ürəkdən gələn səmimi təbriklərimizi qəbul edin. Əminəm ki, zəngin təcrübəniz, enerjiniz, idarəçilik və təşkilatçılıq istedadınız Sizə Azərbaycan Respublikasının və bütün Qafqazın sakinlərinin gələcəyi naminə başladığınız kursu bundan sonra da davam etdirməyə imkan verəcək.

Allaha üz tutaraq səmimi qəlbdən Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar nəsib etməsini diləyirəm.

*Hörmətlə,*

***Şafiq PŞİXAÇEV,***
***Rusiya Federasiyası "Beynəlxalq İslam Missiyası"***
***Mərkəzləşdirilmiş Dini Təşkilatının sədri***

---

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu şərəfli və məsuliyyətli vəzifədə Sizə uğurlar və müvəffəqiyyətlər arzulayıram.

Bilirəm ki, məqsədlərinizdən biri də ölkədə köklü və ciddi sosial islahatların həyata keçirilməsidir. Bu vacib işdə mən və mənim komandam - Azərbaycana Birgə Yardım (UAFA) təşkilatı Sizin gözəl ölkənizə dəstək olmaq niyyətindəyik.

UAFA 1998-ci ildən bəri həm Azərbaycanda, həm də beynəlxalq aləmdə sosial siyasət sahəsində tanınmış bir QHT-yə çevrilib. Bizim məqsədimiz Azərbaycanda sosial həyatın uzunmüddətli inkişafı ilə bərabər, cəmiyyət üçün bilik mübadiləsi məsələlərində davamlı bir resurs olmaqdır.

Əminəm ki, gücümüzü, imkan və resurslarımızı səfərbər edərək qarşıya qoyduğumuz məqsədlərə Sizin dəstəyinizlə tez bir zamanda çatacağıq.

Bir daha Sizi təbrik edir və gələcək işlərinizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***xanım Qven BÖRÇEL,***
***Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının rəhbəri,***
***beynəlxalq ekspert***

*Bakı şəhəri*

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Skandinaviya ölkələrində yaşayan çoxminli azərbaycanlılar adından təbrik edirik.

Biz - Skandinaviya ölkələrində yaşayan azərbaycanlılar siyasi baxışlarımızdan asılı olmayaraq, hər birimiz azərbaycanlı kimliyimizlə, bir millətin övladları olmağımızla fəxr edir, siyasi təlatümlərin baş verdiyi dünyamızda var olan dövlətimiz və dalğalanan bayrağımızla qürur hissi keçiririk. Azərbaycandan kənarda yaşasaq da, Ana Vətənin kədəri kədərimiz, sevinci isə sevincimizdir. Hesab edirik ki, damarlarında azərbaycanlı qanı axan hər bir kəs bu hisslərlə yaşamalıdır.

Siz Prezident kimi ölkəyə başçılıq etdiyiniz ötən illər ərzində Azərbaycan dünya birliyində siyasi və iqtisadi çəkisinə görə regionun mühüm dövləti kimi öz yerini möhkəmləndirmiş, mürəkkəb coğrafi məkanda yerləşməsinə, Ermənistan tərəfindən təcavüzə məruz qalaraq 20 faiz torpaqlarının işğal olunmasına və bu işğal nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkün probleminin olmasına baxmayaraq, Vətənimiz inanılmaz dərəcədə dəyişmiş, gözəl Bakımız isə yaşadığımız Avropa şəhərlərindən heç də geri qalmır. Avropa ölkələrinin 100 ilə keçdiyi inkişaf yolunu Azərbaycan müstəqil dövlət kimi var odluğu bu illər ərzində məharətlə adlaya bilmişdir. Biz hər il Vətənə gələndə dəyişmiş, daha da gözəlləşmiş bir Azərbaycanın şahidi oluruq.

Möhtərəm cənab Prezident!

İnanırıq ki, növbəti prezidentlik dövründə də Siz bütün bilik və bacarığınızı sərf edərək dövlətimizin siyasi, iqtisadi və hərbi sahədə inkişafını, xalqın rifah halının daha da yüksəldilməsini təmin edəcək, Azərbaycanı təkcə bizim and yerimizə deyil, həmçinin dünya dövlətlərinin və xalqlarının cazibə mərkəzinə çevirə biləcəksiniz.

Allah yardımçınız olsun!

Skandinaviya ölkələrində yaşayan azərbaycanlılar adından dərin hörmətlə,

***Vasif MURADLI - Finlandiya Azərbaycanlıları Assosiasiyasının sədri***

***Təranə NƏZƏROVA - Finlandiya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

***Səttar SEVGİN - Azərbaycan Federasiyasının (İsveç) sədri***

***Səməd FƏRTAŞ - Azərbaycan Mədəniyyəti Cəmiyyətinin (İsveç) sədri***

***Rasim CABBAROV - Min rost (Mənim səsim) Cəmiyyətinin (İsveç) sədri***

***Vəfa BABAYEVA - Xatun Cəmiyyətinin (İsveç) sədri***

***Nadir HOLENBRAT - Azərbaycan Naminə Cəmiyyətinin (İsveç) sədri***

***Dadaş ASLANZADƏ - Savalan Cəmiyyətinin (İsveç) sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyinizdən çox məmnun oldum.

Sizi ürəkdən təbrik edirəm. Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına möhkəm cansağlığı və xoşbəxtlik diləyir, uğurlu illər arzulayıram.

*Dərin hörmətlə,*

***Cemail BAKINDI,***
***Türkiyə Otel və İstirahət yerləri İşçiləri Həmkarlar İttifaqının sədri***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizi Beynəlxalq Türk Akademiyasının rəhbərliyi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan xalqının Sizə yüksək etimad göstərməsi bir daha sübut edir ki, zəngin təcrübəniz, yorulmaz fəaliyyətiniz və müdrik siyasətinizlə dövlətçiliyin möhkəmlənməsi, xalqın rifahının yüksəldilməsi yolundakı şərəfli missiyanız vətəndaşların qəlbində böyük rəğbət hissi formalaşdırmışdır.

Zati-aliləri, Azərbaycanda sabitliyin, sülhün qarantı kimi elm və təhsilin inkişafına, türkdilli dövlətlər və xalqlar arasında bu istiqamətdə əməkdaşlığın dərinləşməsinə Sizin dəstəyinizin davam edəcəyinə dərin inamımı ifadə etməkdən şərəf duyuram.

Sizin Beynəlxalq Türk Akademiyasının fəaliyyətinə verdiyiniz dəstək və göstərdiyiniz diqqəti böyük məmnunluq hissi ilə qeyd edir, təşkilatın bundan sonra da türkdilli dövlətlərin elmi əməkdaşlığı və inteqrasiyasına daha böyük həvəslə xidmət göstərəcəyinə sadiq qalacağını bildirmək istəyirəm.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək, Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz enerji, qardaş Azərbaycan xalqına sülh, sabitlik və əmin-amanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Darxan KIDIRƏLİ,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

*Qazaxıstanın Astana şəhəri*

---

Hörmətli cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Rusiya Federasiyasındakı Azərbaycan icmaları birliyi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Biz Sizin bu qələbənizi Azərbaycan xalqının və xaricdə yaşayan həmvətənlərimizin ümumi qələbəsi, müdrikliyin qələbəsi, sülh və sabitlik şəraitində yaşamaq eşqinin qələbəsi kimi dəyərləndiririk.

Təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulan dövlət quruculuğu əsasında Sizin rəhbərliyiniz ilə güclü və inkişaf edən dövlət qurulub.

Sizin sadə insanlara, onların ən zəruri problemlərinə qayğınız, xoşbəxt gələcək naminə saf insani səmimiyyətiniz hansı ölkədə yaşamağından asılı olmayaraq, bütün azərbaycanlılarda qürur, məhəbbət və minnətdarlıq hissləri doğurur.

Rusiyanın bütün Azərbaycan icması Sizə cansağlığı və Vətənimizin, xalqımızın tərəqqisi naminə gələcək işlərinizdə uğurlar arzulayır.

Rusiya Federasiyasındakı 68 Azərbaycan icması adından səmimi və dərin hörmətlə,

***Fazil QURBANOV,***
***AMEA-nın akademiki, Rusiya Xalqlar Dostluğu Universitetinin professoru***

*Moskva şəhəri*

---

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Rusiya Notariuslar Assosiasiyası adından və şəxsən öz adımdan təbrik edirəm.

Sizin qələbəniz qanunauyğundur. Bu, ölkənin iqtisadi və mədəni inkişafında, beynəlxalq nüfuzunun möhkəmlənməsində Sizin siyasi kursunuza xalqın yüksək dəstəyini bir daha göstərdi.

Sizi dəstəkləmək üçün verilən səslərin yüksək faizi haqqında təkcə rəsmi rəqəmlər deyil, həm də Azərbaycandan olan həmkarlarımızın və dostlarımızın seçkilərdə seçicilərin fəallığının artması, nikbinlik və əminlik mühiti barədə zəngləri və məlumatları, sosial şəbəkələrdə geniş informasiya mübadiləsi və qarşılıqlı təbriklər buna əyani sübutdur.

Çox hörmətli İlham Heydər oğlu, Azərbaycan xalqının rifahı naminə böyük səylər tələb edən fəaliyyətinizdə Sizi səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram. Qoy, həmişə olduğu kimi, Sizin bütün işləriniz və təşəbbüsləriniz həmvətənləriniz, dostlarınız və silahdaşlarınız tərəfindən dəstəklənsin.

Əminik ki, Sizin siyasi xadim və dövlət xadimi, yüksək intellektə, mədəniyyətə və zəngin biliyə malik diplomat kimi təcrübəniz Sizə gələcəkdə də ən mürəkkəb daxili və beynəlxalq problemləri həll etməyə kömək edəcək.

*Dərin hörmətlə,*

***Natiq AĞAMİROV,***
***Rusiya Notariuslar Assosiasiyasının sədri, professor***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Belçikadakı Azərbaycan diasporu adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Siz Azərbaycanın inkişafı üçün çox iş görmüsünüz və əminik ki, bundan sonra daha çox iş görəcəksiniz.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, ölkəmizin tərəqqisi naminə yorulmaz fəaliyyətinizdə uğurlar diləyir və Sizi dəstəklədiyimizi bildiririk.

*Dərin hörmətlə,*

***Bülənt GÜRÇAM,***
***"Belçika Azərbaycan Evi"nin sədri***

*Brüssel*

---

Çox hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Rusiyanın "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Sizin müdrik rəhbərliyiniz və səyləriniz sayəsində Azərbaycan Respublikası gündən-günə inkişaf edir, sosial, iqtisadi və dini-mənəvi sahələrdə yeni-yeni uğurlar qazanır. Siz Azərbaycanın gələcək maraqlarına cavab verən mühüm dövlət islahatlarını uğurla həyata keçirirsiniz.

Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə Sizin verdiyiniz töhfələri yüksək dəyərləndiririk. Azərbaycan Respublikası ilə Ulyanovsk Vilayəti arasında dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına göstərdiyiniz diqqət və dəstəyə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***İslam HÜSEYNOV,***
***Rusiya Federasiyasının "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Şimali Osetiya-Alaniya Respublikasının Azərbaycan diasporu adından ürəkdən təbrik edirəm.

Sizə bu ali dövləti vəzifədə Vətənimizin beynəlxalq nüfuzunun gücləndirilməsi və Azərbaycan xalqının rifahının yüksəldilməsi yolunda yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Fuad KAZIMOV,***
***Rusiya Federasiyası Vladiqafqaz şəhərindəki Heydər Əliyev adına "Azəri" Azərbaycan Milli-Mədəni Cəmiyyətinin rəhbəri, Şimali Osetiya-Alaniya Respublikası Parlamentinin deputatı***

---

Çox hörmətli cənab Prezident!

Ümumxalq etimadını qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Sizin bu parlaq qələbəniz ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq ideyalarının təntənəsinin, doğma Azərbaycanımızın yekdilliyinin təcəssümü olmaqla, dünya səviyyəsində qazanılmış siyasi nüfuzunuzun sübutudur.

Cənab Prezident, Vətəndən kənarda yaşayan azərbaycanlılar adından Sizi bir daha ürəkdən təbrik edirik. Əminik ki, ümummilli dəyərlərimizə xidmət edən fəaliyyətinizlə doğma Vətənimizin ərazi bütövlüyünün tam bərpasına nail olacaq, yeni-yeni uğurlarınızla bizləri daha da sevindirəcəksiniz.

*Dərin hörmət və ehtiramla,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, Kiyev Milli Aviasiya Universitetinin professoru, Ukraynanın əməkdar təhsil işçisi***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycanımıza sülh və firavanlıq, Sizə isə tükənməz güc, möhkəm cansağlığı və ailə səadəti arzulayıram.

Allah Sizi qorusun!

*Hörmətlə,*

***Aida QULİYEVA,***
***Moskva şəhərindəki K.Kərimov adına məktəbin birinci direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Gürcüstan Azərbaycanlılarının Ağsaqqallar Şurası adından səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, gələcək işlərinizdə böyük uğurlar arzulayıram.

Hörmətli cənab Prezident, Sizin ulu öndər Heydər Əliyevin layiqli davamçısı olaraq müstəqil Azərbaycan Respublikası, onun vətəndaşları və eləcə də dünya azərbaycanlılarının bu günü və uğurlu gələcəyi naminə gördüyünüz əvəzsiz işləri qədirbilən xalqımız həmişə yüksək qiymətləndirir və qiymətləndirəcəkdir.

Xalqımızın bu il aprelin 11-də prezident seçkilərində yekdilliklə Sizin namizədliyinizə səs verməsi bunu bir daha sübuta yetirdi.

Gürcüstan Azərbaycanlılarının Ağsaqqallar Şurası adından sonsuz qürurla deyirik ki, biz Prezidentimizlə fəxr edirik!

*Hörmətlə,*

***İsak NOVRUZOV,***
***Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri***

---

Möhtərəm cənab Prezident!

Aprel ayının 11-də keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı və uğurlu qələbəniz münasibətilə Sizi və müdrik Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu seçkilərdə Azərbaycan xalqı Sizə səs verməklə Azərbaycanın suverenliyinə, tərəqqisinə, rifahına və ən əsası, Cənubi Qafqazda sülhün və əmin-amanlığın inkişafına səs vermiş oldu.

Dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu müasir Azərbaycan Respublikası Sizin rəhbərliyiniz altında bir çox ilklərin müəllifidir. Azərbaycanın qüdrətlənməsi, sürətli inkişafı, regionda və dünyada söz sahibinə çevrilməsi, xalqımızın firavan həyat sürməsi, eyni zamanda, Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığı Gürcüstan azərbaycanlılarına qürur və sevinc bəxş edir. İki ölkə arasındakı əlaqələr Gürcüstan ictimaiyyəti və gəncliyi tərəfindən də yüksək dəyərləndirilir.

Hörmətli Prezident, bu seçkilərin demokratik və şəffaf keçirilməsi bir daha dünyaya sübut etdi ki, Azərbaycanda hakimiyyət demokratik prinsiplər üzərində qurulub, Azərbaycan tolerant ölkədir və multikulturalizmin mərkəzidir.

Möhtərəm cənab Prezident, Sizi və Azərbaycan xalqını uğurlu qələbəniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edirəm.

Biz fəxr edirik ki, Heydər Əliyev kimi liderimiz, Sizin kimi dünya şöhrətli siyasətçimiz var. Uca Tanrı Sizə və Odlar diyarına zəfərlər və zirvələr nəsib etsin.

*Hörmətlə,*

***Məhəbbət İMANOV,***
***"Borçalı-İrəli" İctimai Birliyi İdarə Heyətinin sədri***

---

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində xalqın yekdil səsverməsi nəticəsində yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizi "Furkan Defense Industry" şirkətlər qrupu adından səmimi qəlbdən təbrik edirik.

Möhtərəm cənab Prezidentimiz, ölkəmizin bütün sahələrdə tərəqqisində mühüm xidmətləri olan yenilikçi bir dövlət başçısı kimi Sizi bu dönəmdə də Azərbaycanı sosial həmrəyliyin və əmin-amanlığın bərqərar olduğu və dünyaya örnək olan lider ölkə mövqeyinə çatdıracağınıza qəti əminik.

Yeni prezidentlik dövrünün ölkəmiz və xalqımız üçün xeyirli olmasını arzulayır, ali dövləti vəzifənizdə Sizə uğurlar diləyirik.

*Hörmətlə,*

Ankara şəhərində fəaliyyət göstərən "Furkan Defense Industry" şirkətlər qrupu adından

***Rövşən BARXUDAROV,***
***Zaur MƏMMƏDOV,***
***Vaqif BARXUDAROV***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərdə inamlı qələbəniz Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatların və ölkənin xarici siyasət kursunun xalq tərəfindən geniş dəstəkləndiyini təsdiqləyir. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının imici dünyada çox yüksəklərə qalxıb. Dərbənddən olan azərbaycanlılar qardaş Azərbaycanın uğurlarından həmişə qürur duyurlar.

Bu gün Dərbəndin mərkəzi küçələrindən biri bizim ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adını daşıyır. Heydər Əliyev Fondu tərəfindən məktəblər abadlaşdırılıb, Dərbənd Azərbaycan Dövlət Dram Teatrının yeni binasının tikintisinə vəsait ayrılıb.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar, sülh və tərəqqi arzulayırıq.

*Hörmətlə,*

***Telman HACIƏLİYEV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərindəki Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri***

---

Hörmətli cənab İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərdəki qələbəniz qardaş Azərbaycan xalqının Sizə etimadının və Sizi dəstəkləməsinin göstəricisidir. Ümidvaram ki, Azərbaycan ilə Dağıstan arasında ikitərəfli münasibətlər bundan sonra da uğurla inkişaf edəcək. Respublikalarımız arasında əlaqələrin çoxəsrlik tarixi var. Ötən müddətdə bizim dostluq və əməkdaşlıq münasibətlərimiz yüksək səviyyəyə çatıb. Biz siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində, o cümlədən beynəlxalq terrorizmə qarşı mübarizə məsələlərində və sülhyaratma əməliyyatlarında fəal əməkdaşlıq edirik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah arzu edirəm.

*Hörmətlə,*

***Rafiq MÖVSÜMOV,***
***Rusiya Federasiyasının Dərbənd şəhərindəki "Dədə Qorqud" Xeyriyyə Fondunun sədri***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Xarkov Vilayətindəki "Dostluq" Azərbaycan-Ukrayna Cəmiyyətinin idarə heyəti və Xarkovdakı bütün Azərbaycan diasporu adından səmimi qəlbdən təbrik edirik.

Sizin həyata keçirdiyiniz müdrik daxili və xarici siyasət sayəsində Azərbaycan ictimai-siyasi və sosial-iqtisadi həyatın bütün sahələrində sanballı uğurlara nail olub. Həyata keçirdiyiniz uğurlu islahatlar xalqın rifahının yüksəlməsinə, ölkənin beynəlxalq arenada nüfuzunun möhkəmlənməsinə imkan verib. Sizin xüsusi diqqət və qayğınızı tarixi Vətənimizin hüdudlarından kənarda yaşayan biz azərbaycanlılar da daim hiss edirik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə tükənməz enerji və yeni uğurlar, Azərbaycan xalqına isə rifah və tərəqqi arzulayırıq.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək Sizə dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***professor Murad ÖMƏROV,***
***Xarkov Vilayətindəki "Dostluq" Azərbaycan-Ukrayna Cəmiyyətinin sədri, texnika elmləri doktoru, Azərbaycanın əməkdar elm xadimi***

---

Hörmətli cənab İlham Əliyev!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Sizə yeni-yeni uğurlar, möhkəm cansağlığı diləyir, Azərbaycanın daha da inkişaf etməsini arzulayıram.

*Hörmətlə,*

***Ənvər HƏMİDOV,***
***Moskvadakı "SitiMed" klinikalar şəbəkəsinin baş direktoru***

---

Hörmətli İlham Heydər oğlu!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Çuvaş Respublikasının Yazıçılar İttifaqı və Çuvaş İctimai-Mədəni Mərkəzi adından və şəxsən öz adımızdan səmimi qəlbdən təbrik edirik. Əminik ki, xalqlarımız arasındakı dostluq və mehriban qonşuluq münasibətləri qarşıdakı illərdə Sizin yüksək diqqət və qayğınız sayəsində daha da möhkəmlənəcək.

Cənab Prezident, Sizi bir daha ürəkdən təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Mixail YUXMAN,***
***Roza ŞEVLEBİ,***
***Albina YURATU***
***Rusiya Federasiyasının Çuvaş Respublikasının Yazıçılar İttifaqının üzvləri***

---

Hörmətli cənab Prezident!

Azərbaycanda keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin üzvləri, Qərbi Balkanlardakı azərbaycansevərlər adından Sizi səmimi qəlbdən təbrik edirik.

Harada yaşamağımızdan, nə işlə məşğul olmağımızdan asılı olmayaraq, bizim bir Vətənimiz, bir bayrağımız, bir Prezidentimiz vardır. Vətənimizlə nəfəs alırıq, ölkəmizlə qürur duyuruq. Azərbaycanın və yerləşdiyi təlatümlü regionun üzərini almış qara buludlar, ölkəmizə qarşı çirkin oyunlar, nifrət və nifaq toxumu səpmək istəyənlərin məkrli planları, qərəzli mövqeləri xaricdən daha aydın görünür. Sözsüz ki, bunlar hər bir vətənsevəri narahat etməyə bilməz. Azərbaycan xalqı yalnız Sizin rəhbərliyinizlə həmrəy olmaqla, ölkəmiz, dövlətimiz isə sabitliyi qoruyaraq daha da güclənməklə bu təhdidlərə, məkrli planlara qarşı dayana, süni və əsassız siyasi və iqtisadi təzyiqlərə sinə gərə bilər.

Ölkəmizin və xalqımızın bu keşməkeşli tarixi dövrü mətanətlə keçəcəyinə, düşmən işğalında olan əzəli torpaqlarımızın qüdrətli Ordumuz tərəfindən geri qaytarılacağına əminik. Həmişə söylədiyiniz kimi, gücünü aldığınız xalq tərəddüdsüz olaraq Sizin arxanızda olduğunu bir daha nümayiş etdirdi və dünyada bu gücə qarşı dura biləcək qüvvə yoxdur. Hər kəs bir daha əmin oldu ki, xalqın Sizə olan inamı və ümidləri çox böyükdür.

Dünyada, o cümlədən ölkəmizə münasibətdə beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoyulmayan, onların kobud şəkildə pozulduğu, demokratiya və insan hüquqlarından yalnız təzyiq və təsir vasitəsi kimi istifadə edildiyi bir dövrdə Vətənimizin daha da çiçəklənməsi, sabitliyinin qorunması, siyasi, iqtisadi və hərbi qüdrətinin daha da gücləndirilməsi istiqamətində fəaliyyətinizi bundan sonra da əzmlə davam etdirəcəyinizə sidq ürəkdən inanırıq və xalqımızın xoşbəxt gələcəyi naminə atdığınız hər bir addımınızın yanında olduğumuzu bilməyinizi istəyirik.

Sizə ali dövləti fəaliyyətinizdə və növbəti tarixi missiyanızda uğurlar, xalqımıza sülh və firavanlıq arzu edirik.

Allah Sizin və Azərbaycan xalqının yardımçısı olsun.

*Hörmətlə,*

***Seyran MİRZƏZADƏ,***
***Azərbaycan-Monteneqro Mədəni və İqtisadi Mərkəzinin direktoru***

# Prezident İlham Əliyev: "Enerji siyasətində atılan addımlar bizi daha da gücləndirir"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 55-ci kitabı çapdan çıxıb




"Enerji siyasətində atılan addımlar bizi daha da gücləndirir. Çünki bu sahədə aparılan işlər və irəli sürülən təşəbbüslər uzunmüddətli maliyyə mənbələrimizi təmin edəcək və biz bu imkanlardan çox səmərəli şəkildə istifadə edirik. Azərbaycan tərəfindən irəli sürülmüş yeni layihələr, yeni təşəbbüslər dünya birliyi tərəfindən də yüksək qiymətləndirilir. Azərbaycan artıq öz üzərinə çox böyük məsuliyyət götürür. Xarici tərəfdaşlarla həm Azərbaycanda, həm xaricdə birgə fəaliyyətimiz yeni pilləyə qalxır. Bu gün artıq Azərbaycan öz investisiyalarını xarici ölkələrə qoymağa başlayır. Bu bizim üçün yeni bir prosesdir. Ancaq biz buna hazırlaşmışıq və dünyada Azərbaycan çox etibarlı investor və dost kimi tanınır. Əlbəttə, beynəlxalq əlaqələrimiz, xüsusilə dost ölkələrin sayının artması və yeni biznes layihələri bizim iqtisadi maraqlarımızı da təmin etməlidir".

AZƏRTAC xəbər verir ki, "İnkişaf məqsədimizdir" çoxcildliyinin 55-ci kitabında yer alan bu fikirlər dövlət başçısının 2013-cü il fevralın 12-də "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 55-ci kitabındakı materiallar 2013-cü ilin fevralından aprelinədək olan dövrü əhatə edir. Bu kitab Prezident İlham Əliyev və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Baku" jurnalına müsahibəsinin mətni ilə başlanır.

Nəşrdə dövlət başçısının Xorvatiyaya, Monteneqroya rəsmi səfərləri zamanı apardığı danışıqlara, mətbuata bəyanatlarına, imzalanan sənədlərə dair materiallar, Monteneqronun "Pobjeda" qəzetinə müsahibəsinin mətni, habelə Serbiya, Gürcüstan prezidentlərinin Azərbaycana rəsmi səfərləri zamanı keçirilən tədbirlərlə bağlı informasiyalar toplanıb.

Çoxcildliyin bu kitabına Azərbaycan Prezidentinin Küveyt, İtaliya, İran, Avstriya, Rumıniya, Böyük Britaniya, Mərakeş, Səudiyyə Ərəbistanı, Kanada, Türkiyə, Çin, İsveçrə və digər dövlətlərin, ATƏT, ISESCO, Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq qurumların ölkəmizə səfər etmiş yüksək vəzifəli şəxsləri ni qəbul etməsinə, MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının Bakıda keçirilən XVI iclasının, "Mülki müdafiə və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması" mövzusunda Qəbələdə keçirilmiş beynəlxalq konfransın iştirakçıları ilə görüşlərinə və digər beynəlxalq tədbirlərdə iştirakına dair materiallar daxil olunub.

Nəşrin 55-ci kitabında dövlət başçısının Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial-iqtisadi inkişafının təmin olunmasına, cəmiyyətin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri, həmçinin Azərbaycanın ilk "Azərspace-1" telekommunikasiya peykinin orbitə buraxılması mərasimində iştirakına dair informasiya yer alıb. Bu kitabda, eyni zamanda, Prezidentin Bakının evsahibliyi etdiyi "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumunun (Davos Forumu) açılışında iştirakı, çıxışının mətni, forum iştirakçıları ilə apardığı mükalimə və müzakirələrə dair materiallar da verilib.

Bu cilddə həmçinin Azərbaycan Prezidentinin Azərbaycan Ağsaqqallar Şurasının IV qurultayına, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin XXIV Baş Məclisinə müraciətləri, Böyük Britaniyanın nüfuzlu "The Business Year" jurnalına, "Rossiya-24" telekanalına müsahibələri yer alıb.

Kitabda dövlət başçısının Qəbələ rayonuna səfərinə, burada ictimaiyyət nümayəndələri ilə görüşünə, bölgədə, eləcə də paytaxtda infrastruktur obyektlərinin tikintisi ilə tanışlığına və açılış mərasimlərində iştirakına dair materiallar yerləşdirilib.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 55-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

---

# Peşə təhsilinin inkişafına stimul verəcək sənəd tam hazırdır

Dünən Milli Məclisin Elm və təhsil komitəsində "Peşə təhsili haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarıldı.

İsa Həbibbəyli qanun layihəsi haqqında məlumat verərək bildirdi ki, 4 dəfə parlamentin Elm və təhsil komitəsində müzakirə edilən bu sənəd artıq iki oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılıb və layihə ətrafında deputatların geniş fikir mübadiləsi aparılıb. Təklif və iradlar nəzərə alınaraq yekunda mükəmməl bir qanun layihəsi formalaşıb.

Komitə sədri yeni qanun layihəsinin bu sahə ilə bağlı ən işlək sənədlərdən biri olacağını və peşə təhsilinin inkişafında mühüm rol oynayacağını vurğuladı: "Mövcud qanun layihəsi daha da təkmilləşdirilib və son variant üzərində düzəlişlər olub. Qanunda kiçik ixtisarların olması, əlavə və dəyişikliklərin aparılması onun son dərəcə müfəssəl hazırlanmasına dəlalət edir. Sənəddə bəzi məqamlar dəqiqləşdirilib, ümumilikdə layihə hüquqi cəhətdən daha dəqiq ifadə edilib. Hesab edirəm ki, bu layihə Azərbaycanda peşə təhsilinin inkişafına stimul verəcək".

Komitə sədri qanun layihəsinin vacibliyini xatırladaraq Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində ardıcıl işlər aparıldığını, müasir tipli peşə təhsili müəssisələrinin yaradıldığını vurğuladı. Artıq bu istiqamətdə ilk beynəlxalq təcrübənin mənimsənildiyini də söylədi.

Müzakirələr zamanı komitə üzvləri qanun layihəsi ilə bağlı müsbət fikirlərini bildirdilər və sənəd üçüncü oxunuş üçün Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Elnur HADIYEV,***
***"Azərbaycan"***



# Tarixinin ən qüdrətli Azərbaycanı

## Ulu öndər Heydər Əliyevin qurduğu müasir Azərbaycanı İlham Əliyev tarixinin ən qüdrətli dövlətinə çevirdi

Əvvəli 1-ci səh.

### Əsrlər boyu insanlara fayda və rahatlıq gətirəcəklər

Elə qurğular var ki, onların hasilə gəlməleri üçün həm böyük vəsait, həm də zaman tələb olunur. Adətən hər dövlət belə qurğuları tikməyə girişmir. Bəzən isə inşasına başlayaraq sona çatdırmaqda çətinlik çəkir. Azərbaycan isə belə layihələrin bir neçəsini eyni vaxtda reallaşdırmağa başladı. Riskli addımlar atmağı sevən cənab İlham Əliyev əslində hər şeyi irəlicədən, zərgər dəqiqliyi ilə ölçüb-biçməyi də bacarır.

**Yalnız həmin layihələr həyat vəsiqəsi qazanaraq işə salındıqdan sonra hamı dərk edir ki, dövlət rəhbəri zamanında işə başlamış, onu vədəsində sona çatdırmış və beləliklə, növbəti layihələrin də vaxtında icrasına şərait yaratmışdır.**

*Bu, İlham Əliyevə xas olan düşünülmüş siyasətdir ki, iqtisadi sahədə də özünü qabarıq göstərir.*

Məsələn, sovet dövründə tikintisinə başlanılan Şəmkirçay su elektrik stansiyası vəsait çatışmazlığından uzun illər boyu dayandırılmışdı. Bəlkə də keçmiş ittifaq hökuməti tamamlama üçün ona qəsdən pul buraxmamışdı.

Dövlətin və iqtisadiyyatın inkişafı o zaman sürətli, davamlı və daimi olur ki, həmin təməlləri hərtərəfli düşünülmüş siyasətə əsaslansın. Cənab İlham Əliyev Azərbaycana rəhbərliyinin ilk günlərindən məhz bu prinsipinə arxalanmışdır.

Xatırlayaq, müstəqilliyin ilk illərindən dövlət və insanlar elektrik enerjisi qıtlığından problemlərlə üzləşirdi. Təbii qazın azlığı xüsusən qış aylarında çətinliklər doğururdu. Hər ikisinin çatmayan hissəsi xaricdən alınırdı və hətta bundan istifadə etməklə Azərbaycana təsir və təzyiq göstərməyə çalışanlar da vardı.

Dövlət başçısı heç zaman belə vəziyyətlə barışa bilməzdi! Üstəlik enerji çatışmazlığı regionların inkişafına da ciddi maneə törədirdi...

*Son 15 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilib. Bu stansiyaların birgə generasiya gücü 2500 meqavata bərabərdir.*

*İndi Azərbaycanın ən ucqar kəndinə belə fasiləsiz və limitsiz elektrik enerjisi verilir.*

*İndi ölkənin istənilən yerində özünə biznes qurmaq istəyən sahibkar enerji qıtlığından əziyyət çəkmir.*

**Bu dönüşü və dəyişikliyi cənab İlham Əliyev yaradıb.**

Qısa zaman kəsiyində dörd su anbarı tikilərək istismara buraxıldı. Bunların ən nəhəngi Taxtakörpü su anbarı sayılır. Şəmkirçay su anbarı isə SSRİ dövründə tikintisi yarımçıq saxlanılan obyektlərdən idi. Tovuzçay və Göytəpə su anbarları da müxtəlif ərazilərdə yerləşməklə əhalisinin içməli və əkinlərin suvarma suyuna tələbatlarının ödənilməsində mühüm rol oynayır. Eyni zamanda, elektrik enerjisinin istehsalının artırılmasına da töhfələr verir. Çox mühüm tarixi layihə sayılan Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi, habelə bir çox şəhərlərdə içməli su və kanalizasiya layihələrinin uğurla icrası əhalinin fasiləsiz içməli su ilə təminatını 67 faizə, Bakıda isə 81 faizə çatdırmağa səbəb oldu.

Kənd təsərrüfatının, sahibkarlığın, bütövlükdə isə qeyri-neft sektorunun inkişafında önəmli əhəmiyyət daşıyan elektrik enerjisi ilə təminat probleminin həllinin yalnız bir qismi sayılırdı. Dağılıb sıradan çıxan, müasir tələblərə cavab verməyən yol infrastrukturunun yenilənməsi də qarşıda duran çətin vəzifələrdən idi. Lakin təxirə salına bilməzdi. Bütün imkanlar səfərbərliyə alınaraq qızğın fəaliyyətə başlanıldı. Artıq son 15 ildə 15 min kilometrə qədər avtomobil yolu çəkilmiş, 443 körpü tikilmişdir.

Hava yollarının "çəkilişi" də sürətlə davam etmişdir. Respublikanın şəhərlərində altısı beynəlxalq olmaqla yeddi aeroport tikilmişdir.

Yeni sənaye məhəllələrinin salınması və aqroparkların inşası da ən çox investisiyatutumlu layihələrdəndir . Ancaq belə obyektlərlə eyni zamanda bir sıra problemi çözmək mümkündür: işsizliyin aradan qaldırılmasını, sahibkarlığın inkişafına dövlət dəstəyinin təminini, yerli məhsul istehsalının təşviqini, ölkədən valyuta axınının qarşısının alınmasını və s. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 6 müəssisə fəaliyyət göstərir. Balaxanı Sənaye Parkı fəaliyyətini genişləndirməkdədir. Neftçalada da yeni Sənaye Parkı istifadəyə verilmişdir. Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları istehsalı üzrə 9 fabrikin yaradılması nəzərdə tutulub. Qaradağ Sənaye Parkındakı Bakı Gəmiqayırma Zavodunda indiyədək onlarla gəmi hazırlanmış, 100-ə yaxını isə təmir edilmişdir. Pirallahı Sənaye Parkında təməli qoyulan 2 dərman zavodu tezliklə istifadəyə veriləcəkdir. Masallı, Hacıqabul və Sabirabad Sənaye məhəllələrinin təşkili işləri də sürətlə davam edir.

**Gerçəkləşdirilən layihələr həm də dövlətimizin iqtisadi imkanlarının göstəricisidir. On beş il ərzində Azərbaycan iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da yarısı daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə respublikamız dünya miqyasında liderlər cərgəsindədir.**

### Xalqın rifahının yüksəldilməsi əsas hədəflərdəndir

*Hər bir dövlət öz vətəndaşının rifah halını yüksəltməyə çalışır.*

*Bunu bacarmayan dövlətdə sabitlik və əmin-amanlıq olmaz!*

Adətən xalqın güzəranının ilbəil yaxşılaşdırılması üçün xüsusi siyasi xətt hazırlanır, həmin xəttə uyğun olaraq ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

**Xalq onu daha yaxşı yaşadan iqtidardan daim razı qalır, hər dəfə seçkilərdə onun namizədinə səs verməklə növbəti dövrdə özünün və dövlətinin taleyini etibar edir.**

Xalqın yaşayış səviyyəsini müəyyən etməyin müxtəlif üsulları var. Orta əməkhaqqının məbləğindən tutmuş real gəlirlərinə, bankdakı əmanətlərinə və digər parametrlərə görə. Bunların içərisində ən əsası ikisidir: gözlə aydın görünəni və dövlətin mərhələlərlə həyata keçirilən proqramları, habelə ardıcıllıqla görülən işlərdə ifadəsini tapanları!

**Cənab İlham Əliyev öz fəaliyyəti üçün müəyyən etdiyi prinsipi Azərbaycana rəhbərliyinin bütün dövrlərinə şamil edir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır".**

**Azərbaycan vətəndaşları da bunu daim hiss edirlər.**

*Əvvəlcə gözlə görünənlər:* müstəqil Azərbaycanın vətəndaşları gümrahdırlar, gülərüzdürlər. Müasir dəbdə zövqlə geyinir, pal-paltar sarıdan korluq çəkmirlər. Bir çox ailələrin bir yox, bir neçə minik avtomobili, bağ evi vardır. Ölkə paytaxtından çıxıb respublikanın hansı istiqamətinə üz tutsan, ta sərhədə qədər yol boyu yaşayış məntəqələrinin dəyişdiyini, saysız-hesabsız yeni evlər tikildiyinin şahidi olursan. Evlərin qazı, suyu, işığı, hər şəraiti vardır. Əyalət şəhərlərində yaşayanlar heç bir parametrə görə paytaxt sakinlərindən geri qalmırlar!

*İndi isə görünənləri rəqəmlərin dili ilə ifadə edək:* Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı icra olunur. Hətta ən ucqar rayonların belə fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatı və kanalizasiya problemi həll edilib. İşsizlik və yoxsulluq 49 faizdən 5 faizə endirilib. Son 15 il ərzində maaşlar beş dəfədən, pensiyalar isə səkkiz dəfədən çox artıb, bir çox sosial layihələr həyata keçirilib. 43 olimpiya idman kompleksi, 642 tibb müəssisəsi, 3.100-dən çox məktəb tikilib. İqtisadiyyata 231 milyard dollar sərmayə qoyulub, ölkənin valyuta ehtiyatları 24 dəfə artaraq 44 milyard dollara çatıb. Sahibkarlara güzəştlə 2 milyard manatdan çox kredit verilib, 1,9 milyon iş yeri yaradılıb ki, onun da 1,4 milyonu daimidir. 265 min nəfər dövlət hesabına mənzillə təmin edilib. Azərbaycan brendi sayılan "ASAN xidmət"in yaradılması və geniş şəbəkə halını alması ölkə vətəndaşlarının işini xeyli asanlaşdırıb!

*Azərbaycanın fəaliyyətini beynəlxalq təşkilatlar da yüksək qiymətləndirirlər.* Davos Dünya İqtisadi Forumu ölkəmizin rəqabət qabiliyyətinə dünya reytinqində 35-ci yeri verib. İnkişaf etməkdə olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bizdən əvvəl yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə var.

*Bütün bu geniş və əhatəli dəyişiklikləri, yeniliklərı hər bir Azərbaycan ailəsi, hər bir azərbaycanlı öz gündəlik həyatında daim hiss edir!*

*Bütün bu uğur və nailiyyətlər dünyanın müxtəlif nüfuzlu qurumlarının hesabatlarında öz əksini tapır, müstəqil Azərbaycan daim öz adını siyahıların önündə yazdırmaqla MDB-dəki liderliyini qoruyub saxlayır!*

**Budur cənab İlham Əliyevin xalqa xidmət nümunəsi!**

**Budur cənab İlham Əliyevin xalqın sevimli lideri kimi vətəndaşların həyat şəraitinin yüksəldilməsi və dövlətin daim inkişafı naminə gördüyü işlərin real nəticələri!**

### Azərbaycan dünyaya günəş kimi doğur

Ulu öndər Heydər Əliyevin çox böyük müdriklik və uzaqgörənliklə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaqdır" sözü öz təsdiqini tapmaqdadır! Qırmızı imperiya dağılarkən SSRİ-yə daxil olan müttəfiq respublikalar müstəqil dövlət quruculuğu prosesinə eyni start nöqtəsindən başladılar. Əslində Azərbaycan daha çətin şəraitdə idi. 20 Yanvar faciəsini yaşayan xalqımız separatizmlə üzləşdi. Müvafiq silah və dəstək alan Ermənistan lap qədimlərdən həmin torpaqların aborigen əhalisi sayılan azərbaycanlıları dədə-baba torpaqlarından vəhşilik və zorakılıqlarla qovub çıxarmağa başlamışdı. Bu məqsədlə Azərbaycan ərazisinə də "saqqallı yaraqlılar" göndərərək Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərindən dinc əhalini qovub çıxarırdılar. SSRİ "KQB"-sinin təşkilatçılığı ilə Sumqayıt hadisələri törədildi, onun nəticələri əsasında Azərbaycan əleyhinə böhtan kampaniyasına başlanıldı. Bir qədər sonra Xocalı soyqırımı baş verdi və beləliklə, sovet ordusunun iştirakı ilə Azərbaycan torpaqlarının işğalı prosesi sürətləndirildi. Həmin dövrdə hakimiyyət uğrunda gedən aramsız mübarizə, sonra parlament çevrilişi yolu ilə AXC-Müsavat cütlüyünün iqtidara gəlməsi və səriştəsiz idarəetmə ölkəni xaos və anarxiya bataqlığına sürüklədi, torpaqların müdafiəsi iflic vəziyyətinə salındı. Nəticədə Azərbaycan bir dövlət kimi məhvolma həddinə çatdı. Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan ulu öndər Heydər Əliyev qısa müddətdə gördüyü tədbirlər nəticəsində dövləti məhvolmadan xilas edərək müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirdi.

**Onun qoyduğu möhkəm təməl, hazırladığı siyasi kurs bu gün də Azərbaycanın yüksəlişinə təkan verir. Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək xalqımızı yeni qələbələrə aparır.**

Bu il dövlət başçısının sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunmuşdur. Prezidentimiz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin təntənəli şəkildə keçirilməsi üçün müvafiq sənəd imzalamışdır. Yüz ilin təxminən iki ili - 23 ayı Xalq Cümhuriyyəti dövrünə düşür. Sonra Şimaldan gələn qırmızı taun müstəqilliyimizə son qoydu. Yalnız 71 ildən sonra xalqımız yenidən əbədi arzusunu gerçəkləşdirə bildi. 1991-ci ilin 18 oktyabrında Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Əslində bu, deklarativ müstəqillik idi və bəzi maraqlı dövlətlər Azərbaycanın azad və suveren yaşamasını qəbul etmək istəmirdilər. Ölkəmizin əvvəlki kimi xanlıqlara parçalanması prosesinə də start verilmişdi. Lakin ümummilli lider Heydər Əliyev antiazərbaycançı şəbəkənin bütün planlarını və istəklərini puça çıxardı, xalqın böyük hörmət və məhəbbətlə "Heydər Əliyev siyasi kursu" adlandırdığı inkişaf strategiyasını müəyyənləşdirərək ən layiqli siyasi varisini yetişdirib özü əbədiyyətə qovuşdu.

**Cənab İlham Əliyev müstəqil Azərbaycanın inkişafının yeni mərhələsinin yaradıcısıdır. Bu mərhələdə Azərbaycan dünyaya sıx inteqrasiya edib, 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü olub, Cənubi Qafqazın ən güclü dövlətinə, söz sahibinə, regional dövlətə çevrilib.**

Bu gün Azərbaycan müasir imici ilə dünyaya çıxan və dünyada tanınan ölkədir. Avropanın enerji ilə təminatında etibarlı tərəfdaş, terrorizmə qarşı mübarizənin ön sıralarında gedən dövlətdir. Gördüyü işlər, keçirdiyi tədbirlərlə dünyada sülhün və əməkdaşlığın, sabitliyin davamlılığına və möhkəmlənməsinə daim yeni-yeni töhfələr verir. Azərbaycan ən sanballı beynəlxalq mötəbərlərin və görüşlərin keçirildiyi məkandır, ən yüksəksəviyyəli idman yarışlarının təşkilatçısıdır, sivilizasiyalar arasında münasibətlərin sülh məcrasına yönəldilməsində canlı körpü rolunu oynamaqdadır.

Azərbaycan bütün sahələrdə mehribanlığın, əməkdaşlığın və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin yaranmasına öz əməli və nümunəsi ilə daim yardım göstərir.

*Bütün bunlara görə isə qısa müddətdə dünyada böyük nüfuz qazanıb, haminın hörmətlə yanaşdığı dövlətə çevrilib.*

**Bütün bunlara cənab İlham Əliyevin düşünülmüş, müdrik və uzaqgörən siyasəti və əməli fəaliyyəti nəticəsində nail olunub.**

**Dünyanın ehtiram göstərdiyi, Azərbaycan xalqının sonsuz məhəbbət bəslədiyi və daim əvəzolunmaz lideri kimi tanıdığı, qəbul etdiyi, etimad və etibar ünvanı saydığı möhtərəm İlham Əliyev!**

**Ulu öndər Heydər Əliyevin qurduğu müasir Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev!**

**Bəxtiyar SADIQOV**

# Astan Şahverdiyev



Azərbaycan ictimaiyyətinə və elminə ağır itki üz vermişdir. Milli Məclisin deputatı, tanınmış ictimai xadim və texnika elmləri doktoru, professor Astan Şahverdiyev aprelin 15-də ömrünün 72-ci ilində vəfat etmişdir.

Astan Şahverdiyev 1947-ci il fevralın 15-də Füzuli şəhərində anadan olmuşdur. O, 1953-1964-cü illərdə Cəbrayıl rayonunun Böyük Mərcanlı kənd orta məktəbində təhsil almış, 1970-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu, 1976-cı ildə isə Azərbaycan Politexnik İnstitutunu müvəffəqiyyətlə bitirmişdir.

Astan Şahverdiyev elmə böyük maraq göstərmiş, 1981-ci ildə istilik fizikası üzrə namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür. O, 1992-ci ildə Moskva Energetika İnstitutunda doktorluq dissertasiyası müdafiə edərək texnika elmləri doktoru alimlik dərəcəsini, 1994-cü ildə isə professor elmi adını almışdır. Astan Şahverdiyev 1995-ci ildə Nyu York Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, dünyanın aparıcı jurnallarında elmi məqalələrlə çıxış etmişdir. O, 2001-ci ildən ömrünün sonunadək Azərbaycan Texniki Universitetinin "İstilik və soyuqluq texnikası" kafedrasının müdiri olmuşdur. 300-dən çox elmi məqalənin, 2 monoqrafiyanın, 2 ixtiranın, 1 patentin və 10 dərslik və dərs vəsaitinin müəllifidir.

Astan Şahverdiyev yeni istedadlı gənc alimlərin yetişməsinə öz layiqli töhfəsini vermişdir. Tanınmış alim 1998-2003-cü illərdə BMT-nin Ətraf mühit və inkişaf proqramının Azərbaycan ofisində koordinator olmuş, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq konfrans və simpoziumlarda Azərbaycan elmini layiqincə təmsil etmişdir. O, "İstilik və soyuqluq texnikası" kafedrasının nəzdində "Alternativ və bərpa olunan enerji mənbələri" elmi-tədqiqat laboratoriyasının elmi rəhbəri idi.

Astan Şahverdiyev Yeni Azərbaycan Partiyasının üzvü kimi ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, seçicilərin etimadını qazanaraq müstəqil Azərbaycanın Üçüncü, Dördüncü və Beşinci çağırış Milli Məclisinin deputatı seçilmişdir. O, parlamentin qanun yaradıcılığı işində, ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində, qanunverici orqanın beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak etmiş, Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olmuşdur.

Tanınmış alim və ictimai xadim Astan Şahverdiyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**Oqtay Əsədov, Ziyafət Əsgərov, Bahar Muradova, Valeh Ələsgərov, Səfa Mirzəyev, Əli Hüseynli, Ziyad Səmədzadə, Eldar İbrahimov, Hadi Rəcəbli, Əhliman Əmiraslanov, Aqiyə Naxçıvanlı, Fuad Muradov, Siyavuş Novruzov, Arif Rəhimzadə, İsa Həbibbəyli, Rafael Hüseynov, Səməd Seyidov, Fəttah Heydərov, Ağacan Abıyev**

# Azərbaycan Beynəlxalq Prokurorlar Assosiasiyasının işinə dəyərli töhfələr verir

1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının Vyana ofisində təsis edilmiş, dünya prokurorlarının yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə Azərbaycan uğurlu əməkdaşlıq edir. Assosiasiyanın əsas məqsədi transmilli cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə sahəsində sürətli, səmərəli və işgüzar əlaqələrin qurulmasında prokurorlar arasında forum rolunu oynamaqdır. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası təşkilat yarandığı vaxtdan onunla işgüzar münasibətlər qurub, Baş Prokurorluq və Hərbi Prokurorluq Assosiasiyaya təşkilati üzv kimi qəbul edilib. Azərbaycanın nümayəndələri uzun illərdir Assosiasiyanın rəhbər qurumları olan İcraiyyə Komitəsində və Senatda ölkəmizi layiqincə təmsil edirlər.

Respublikamızın Assosiasiyanın işində fəal iştirakı, təşəbbüskarlığı və səmərəli təmsilçiliyi nəzərə alınaraq, BPA-nın 2016-cı ildə İrlandiyanın paytaxtı Dublində keçirilmiş illik tədbirlərində Assosiasiyanın İcraiyyə Komitəsinin 45-ci iclasının 2018-ci ilin aprelin 9-10-da Bakıda keçirilməsi qərara alınıb.

Bununla əlaqədar Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralovun dəvəti ilə Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti Qerhard Yaroşun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də Kanada, İsveçrə, İrlandiya, Cənubi Afrika Respublikası, Tailand, Bəhreyn və Mavriki dövlətlərinin baş prokurorları, habelə təşkilata üzv olan digər ölkələrin prokurorluq orqanlarının yüksək səviyyəli şəxsləri ölkəmizdə səfərdə olublar.

Səfər çərçivəsində qonaqlar əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra 20-dən çox ölkənin prokurorluq orqanlarının yüksək təmsilçilərinin və Azərbaycan Respublikasının dövlət rəsmilərinin iştirakı ilə İcraiyyə Komitəsinin iclasının açılışı olub.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov Azərbaycan Prezidenti İlham Əliyevin adından qonaqları salamlayıb. Fuad Ələsgərov tədbirin ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyətə malik bir sıra tədbirlərlə eyni vaxta təsadüf etdiyini vurğulayaraq, iclasın Azərbaycanda hüquqi dövlətin qurulması və qanunun aliliyinin təmin edilməsi işinə, eləcə də bu fəaliyyətdə prokurorların roluna və beynəlxalq tərəfdaşlarla əməkdaşlığa töhfə verdiyini bildirib.

İclasa sədrlik edən baş prokuror Zakir Qaralov ölkəmizin təşkilatla fəaliyyətə başladığı vaxtdan etibarən uğurla əməkdaşlıq etdiyini və Assosiasiyanın ali idarəetmə orqanlarında fəal təmsil olunduğunu vurğulayıb. Zakir Qaralov Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun uzun illər BPA-nın İcraiyyə Komitəsinin üzvü, hazırda isə Assosiasiyanın senatoru və fəxri üzvü, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin isə İcraiyyə Komitəsinin üzvü olduğunu qeyd edib.

Baş prokuror Azərbaycanın belə mötəbər tədbirə evsahibliyi etməsindən məmnunluğunu bildirərək iclasın təşkilatın işinə verdiyi töhfələrinə görə yaddaqalan olacağına və əməkdaşlığımızın daha da inkişafına və dərinləşməsinə xidmət edəcəyinə əminliyini diqqətə çatdırıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru və fəxri üzvü, ədliyyə naziri Fikrət Məmmədov açılışda Assosiasiyanın tarixi və keçdiyi inkişaf yolu, Azərbaycanın BPA-nın inkişafına töhfələri ilə bağlı fotoslaydlardan ibarət əyani təqdimatla çıxış edib. Fikrət Məmmədov İcraiyyə Komitəsinin 2002-ci ildə Bakıda keçirilmiş iclasını və komitə üzvlərinin böyük şərəf verilərək ümummilli lider Heydər Əliyev tərəfindən qəbul olunduğunu xatırladaraq, Bakı iclasının yaddaqalan və belə tədbirlər üçün yüksək standart müəyyən etdiyini vurğulayıb.

Bildirib ki, Assosiasiyanın işində yaxından iştirak edilərək, ölkəmiz tərəfindən BPA-nın rus dilində saytı və dünya prokurorları üçün korrupsiyaya qarşı internet şəbəkəsi idarə olunur, bütün nəşrləri Azərbaycan və rus dillərinə tərcümə olunmaqla qurumun təcrübəsindən ölkəmiz və müxtəlif digər dövlətlər tərəfindən geniş bəhrələnilir.

Assosiasiyanın prezidenti Qerhard Yaroş çıxışında iclasın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə dərin təşəkkürlərini bildirib. O, Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulayıb.

İki gün davam edən iclasda İcraiyyə Komitəsi üzvlərinin gördüyü işlərə, qurumun maliyyə durumuna dair hesabatlar müzakirə olunaraq qəbul edilib. Habelə bir sıra vəzifələrə təyinatların aparılması, Assosiasiyanın ixtisaslaşdırılmış şəbəkələrinin fəaliyyəti və gələcək inkişafı, qurumun üzvləri arasında, həmçinin təşkilatın beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi, transmilli cinayətkarlığa qarşı mübarizə, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım məsələləri ilə bağlı geniş müzakirələr aparılıb, bir sıra mühüm qərarlar qəbul edilib.

Yekunda İcraiyyə Komitəsinin növbəti iclasının, həmçinin Assosiasiyanın növbəti illik konfransının və ümumi yığıncağının 2018-ci il sentyabrın 9-13-də Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində keçirilməsi qərara alınıb.

Səfər çərçivəsində Baş Prokurorluqda Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti Qerhard Yaroş, baş katibi Han Moraal, icraçı direktoru xanım Yanne Holst Hübner və təşkilatın digər rəsmiləri baş prokuror Zakir Qaralov ilə görüşüblər.

Görüşdə baş prokuror Assosiasiyanın İcraiyyə Komitəsinin iclasına məhz Azərbaycan Respublikasının evsahibliyi etməsinin həm BPA-nın fəaliyyətində, həm də cinayətkarlığın bütün formalarına qarşı mübarizədə beynəlxalq əməkdaşlığa xüsusi önəm verən ölkəmizin ictimai həyatında mühüm hadisə olduğunu diqqətə çatdırıb. Baş prokuror BPA-nın İcraiyyə Komitəsinin daha əvvəl Bakıda keçirilmiş iclasını xatırladaraq bu tədbirlərin qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynadığını qeyd edib.

Söhbət zamanı qonaqlara son illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi, iqtisadi və hüquqi islahatlar, ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində prokurorluq orqanlarının fəaliyyəti barədə geniş məlumat verilib.

Mövcud səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edən Q.Yaroş ölkəmizlə təşkilat arasında qurulmuş münasibətlərin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib. O, Azərbaycan Prokurorluğunun dəstəyi ilə 2017-ci ildə Bakıda keçirilmiş Assosiasiyanın kibercinayətkarlıqla mübarizəyə dair konfransına yüksək səviyyədə evsahibliyinə görə Azərbaycan tərəfinə dərin minnətdarlığını bildirərək, İcraiyyə Komitəsinin 45-ci iclasında da ölkəmizin öz müsbət təcrübələrini tətbiq edəcəyinə ümidvar olduğunu bəyan edib.

Assosiasiya rəsmiləri daha sonra Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru və fəxri üzvü, ədliyyə naziri Fikrət Məmmədov ilə görüşüblər.

Görüşdə ədalət mühakiməsinin səmərəli həyata keçirilməsində və cinayətkarlıqla mübarizə üzrə dünya prokurorlarının səylərinin birləşdirilməsində Assosiasiyanın rolu vurğulanıb, ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Həmçinin Azərbaycanın BPA ilə uğurlu əməkdaşlığı, Assosiasiyanın işinə verdiyi dəyərli töhfələri, habelə onun rəhbər orqanlarında fəal təmsilçiliyi yüksək qiymətləndirilib, təşkilatın gələcək fəaliyyətinə dair faydalı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində baş prokuror Zakir Qaralov ilə Tailand Krallığının baş prokuroru Khemçai Çutivonqsi, Bəhreyn Krallığının baş prokuroru Əli Albuainaini, Mavriki Respublikasının baş prokuroru Saatyajit Boolell və digər ölkələrin baş prokurorlarının rəhbərlik etdikləri nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilib.

Görüşlərdə Azərbaycanda uğurla həyata keçirilən hüquqi islahatlara böyük maraq göstərdiklərini diqqətə çatdıran xarici qonaqlar ölkələrimiz arasında hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu vurğulayıblar. Qonaqlar dövlətlərarası əməkdaşlığın prokurorluq orqanları arasında da genişləndirilməsinin qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildiriblər. Həmçinin hüquqi sahədə işbirliyi üzrə faydalı fikir mübadiləsi aparılıb, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində müqavilə bazasının formalaşdırılmasından danışılıb. İkitərəfli görüşlərdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, ölkələrimizin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Səfər zamanı iştirakçılar Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin milli memarlıq üslubunda tikilən və ən müasir avadanlıqla təchiz edilən inzibati binasında olublar. Baş İdarədə yaradılmış yüksək iş şəraiti ilə yaxından tanışlıq zamanı qonaqlara korrupsiyaya qarşı mübarizədə qətiyyətli siyasi iradənin təzahürü olan qurumun fəaliyyəti barədə məlumat verilib.

Sonra Assosiasiyanın rəsmiləri ilə quruma üzv olan ölkəmizin gənc prokurorluq əməkdaşlarının görüşü keçirilib. Əməkdaşlara təşkilatın cinayətkarlıqla mübarizənin müxtəlif istiqamətləri üzrə fəaliyyət göstərən ixtisaslaşdırılmış şəbəkələri və digər layihələri barədə ətraflı məlumat verilib, geniş fikir mübadiləsi aparılıb, iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

Qonaqlar, həmçinin Azərbaycanın tarixi və mədəni abidələri, o cümlədən Bakının müasir rəmzlərindən olan Heydər Əliyev Mərkəzi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olublar. Eyni zamanda, bölgələrə səfər edən iclas iştirakçıları Şəkidə məhkəmə kompleksinin və rayon prokurorluğunun fəaliyyəti, rayonun qədim tarixi guşələri ilə tanış olublar. İştirakçılar Qəbələdə "ASAN xidmət" mərkəzinin fəaliyyəti, həmçinin müasir məhkəmə binası ilə tanışlıqdan da xoş təəssüratla ayrılıblar. Qonaqlar "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksinə səfər edərək ölkəmizin turizm potensialının, burada yaradılan və ən yüksək beynəlxalq standartlara cavab verən infrastrukturun əyani şahidi olublar.

Azərbaycan Respublikasının prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizədə səylərin birləşdirilməsi və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə beynəlxalq tərəfdaşlarla əməkdaşlığı bundan sonra da davam etdirəcəklər.

Görkəmli dövlət və elm xadimləri

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev ölkəmizdə dövlətçilik təfəkkürü ilə elmi baxışların qarşılıqlı vəhdətini bütün mahiyyəti ilə öz fəaliyyətində tam olaraq ifadə edən görkəmli dövlət və elm xadimi kimi qəbul olunur.**





# DÖVLƏTÇİLİK TƏFƏKKÜRÜ İLƏ ELMİ BAXIŞLARIN VƏHDƏTİ

Ramiz Mehdiyevin gənclik, tələbəlik illərindən başlanan ictimai-siyasi fəaliyyəti tədricən inkişaf edərək dövlət idarəçiliyinin müxtəlif məsuliyyətli mərhələlərini əhatə etmişdir. Dövlət idarəetmə sistemində o, əsasən ideoloji cəbhəni təmsil etmiş, demək olar ki, bu istiqamət üzrə müxtəlif məsul vəzifələrdə çalışaraq zəngin təcrübə qazanmış, mühüm ümumdövlət vəzifələrinin həyata keçirilməsinə sanballı töhfələr vermişdir. Dövlət idarəetmə sisteminin ideoloji blokunda Ramiz Mehdiyevin keçdiyi çətin, məsuliyyətli və şərəfli yol həyatını dövlətçilik sahəsinə həsr etmiş bir insanın gənclər təşkilatının ən adi əməkdaşından məsul partiya işçisinə, ideoloji katib, Prezident Administrasiyasının rəhbəri vəzifəsinə qədərki bütün çətinliklərini və üstünlüklərini özündə canlı şəkildə əks etdirir.

Gənclər təşkilatı - komsomol komitəsi sahəsində səmərəli fəaliyyəti onun ideologiya xətti üzrə çoxillik fəaliyyətinin möhkəm bünövrəsini təşkil etmişdir. "Xəzərneftdonanma" idarəsinin əvvəlcə gəmi üzrə komsomol təşkilatının katibi, sonra isə Ümumittifaq İstehsalat Birliyinin həmin respublika qurumunun komsomol təşkilatı katibinin müavini vəzifələrində çalışması onun siyasi fəaliyyət gəmisini ideoloji işin məsul təşkilati mərhələlərinə, hətta *böyük siyasətin magistral yoluna* gətirib çatdırmışdır.

Bütövlükdə komsomol-gənclər təşkilatı Ramiz Mehdiyev üçün sözün əsl mənasında zəngin həyat və siyasi fəaliyyət, mühüm idarəetmə təcrübəsi məktəbi funksiyasını həyata keçirmişdir. Azərbaycan Dövlət Universiteti Tarix fakültəsinin komsomol təşkilatının katibi və ümumuniversitet komsomol komitəsi katibinin müavini vəzifələrində ideoloji cəbhənin cavan təmsilçisi tələbə gənclərlə iş təcrübəsi əsasında ümumiyyətlə ideya-siyasi iş aparmağın yollarını və vasitələrini öyrənmişdir. Buna görədir ki, Azərbaycan Gənclər İttifaqının tələbə gənclər şöbəsinin təlimatçısı Ramiz Mehdiyev qısa müddətdən sonra Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi vəzifəsinə irəli çəkilmişdir.

Heç şübhəsiz, Ramiz Mehdiyevin sonrakı dövlət idarəçiliyi iearxiyasında uğurlu "komsomol pilləsi" mühüm rol oynamışdır. O, komsomol təşkilatları sahəsində keçdiyi məsuliyyətli yolu partiya təşkilatları mərhələsində uğurla davam etdirmişdir.

**Ramiz Mehdiyevin bu sahədəki və ondan sonrakı bütün fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı və rəhbərliyi ilə üzvi surətdə bağlı olmuşdur.**

**O, Heydər Əliyev epoxasının siyasi-ideoloji cəbhəsindəki məsuliyyətli vəzifələrin öhdəsindən layiqincə gəlmiş, necə deyərlər, böyük etimadı yüksək səviyyədə doğrultmuşdur.**

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Təbliğat və təşviqat şöbəsinin mühazirəçiliyindən start götürən partiya işi Mərkəzi Komitədə Elm və təhsil şöbəsinin müavini və müdiri, Təşkilat-partiya işi şöbəsinin müdiri, 26 Bakı Komissarı adına Rayon Partiya Komitəsinin birinci katibi və nəhayət, respublika partiya təşkilatının ideologiya məsələləri üzrə katibi vəzifəsinədək yüksəlmişdir.

**Tapşırılan vəzifəyə məsuliyyətlə, sədaqətlə xidmət etmək, habelə prinsipiallıq və təmkinli praqmatik yanaşma Ramiz Mehdiyevin dövlət quruculuğu və idarəçilik istiqamətindəki çoxillik səmərəli fəaliyyətinin mahiyyətini təşkil edir.**

Məhz dərin məsuliyyət və müasir cəmiyyətin siyasi-fəlsəfi dərki sovet hakimiyyəti illərində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük uzaqgörənliklə və uğurla həyata keçirdiyi azərbaycançılıq siyasətinin icra edilməsində ideoloji xəttin uyğun səviyyədə qurulmasının təmin edilməsinə münbit şərait yaratmışdır.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra da Ramiz Mehdiyev ulu öndər Heydər Əliyevin yüksək etimadı ilə məsul vəzifələrə irəli çəkilmiş və ulu öndərin rəhbərliyi ilə dərin köklərə malik müdrik dövlət siyasətinin həyata keçirilməsinə məsuliyyətlə xidmət göstərmişdir.

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri vəzifəsində akademik Ramiz Mehdiyev 1995-ci ildən bu günə qədər məsul dövlət tapşırıqlarını uğurla yerinə yetirmiş, ölkə üzrə aparılan böyük və uzaqgörən siyasətə daim ürəkdən dəstək vermişdir.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin onun çoxillik səmərəli fəaliyyəti haqqındakı aşağıdakı sözləri Ramiz müəllimin müstəqil dövlətçilik qarşısındakı məsuliyyətli borcunun icrasına verilmiş yüksək siyasi qiymətin ifadəsidir: *"Siz uzun illərdir ki, dövlət qulluğunda fəaliyyət göstərirsiniz. 70-80-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işləmisiniz. Ulu öndərimiz müstəqil Azərbaycanın rəhbəri kimi fəaliyyətə başlayandan sonra onun ilk təyin etdiyi şəxslərdən biri də siz olmuşsunuz. O vaxtdan bu günə qədər Azərbaycanın dövlət quruculuğunda çox fəal iştirak etmisiniz və bu fəaliyyətinizi indi də davam etdirirsiniz... Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm. Prezidentin İcra Aparatının rəhbəri kimi siz ölkəmiz üçün çox vacib funksiyanı icra edirsiniz"*.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri kimi akademik Ramiz Mehdiyev müstəqil dövlətimizin ictimai-siyasi həyatında yaxından iştirak edir, **Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan düşünülmüş, məqsədyönlü və müstəqil siyasətin dönmədən həyata keçirilməsinə şərəflə xidmət edir.**

Bütün çoxillik fəaliyyəti boyu elm faktoru Ramiz Mehdiyevi daim müşayiət etmişdir. Belə ki, o, 1968-ci ildə Mixail Lomonosov adına Moskva Dövlət Universitetinin Fəlsəfə fakültəsinin aspiranturasına qəbul olunmuş və 1972-ci ildə həmin ali məktəbin nüfuzlu Müdafiə şurasında millətlərarası münasibətlərin nəzəri məsələlərinə həsr olunmuş namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almışdır. Azərbaycan Dövlət Universitetində müəllim kimi çalışdığı 1972-1974-cü illərdə də Ramiz Mehdiyev cəmiyyət həyatının aktual məsələlərinə həsr edilmiş tədqiqatlarla məşğul olmuşdur.

Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinə 1976-1981-ci illərdə rəhbərlik edərkən Ramiz Mehdiyev respublika üzrə elmin inkişaf etdirilməsi qayğıları ilə məşğul olmuş, ölkə rəhbərinin bu istiqamətdəki strategiyasının həyata keçirilməsinə cavabdehlik daşımışdır. Nəhayət, Azərbaycan partiya təşkilatının ideologiya məsələləri üzrə katibi kimi *Ramiz Mehdiyev konkret bir epoxada elm və təhsil faktorunun qarşılıqlı surətdə inkişaf etdirilməsi yollarında əzmlə çalışmışdır.* Sonralar bir qədər partiya işindən ayrıldıqdan sonra o, Azərbaycan Elmlər Akademiyası İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunun şöbə müdiri vəzifəsində çalışmaqla elm sahəsindəki fəaliyyətlərini daha da genişləndirmişdir.

Bütün bunlar Ramiz Mehdiyevin 1993-cü ilin dekabr ayında "Millətlərarası münasibətlər: nəzəriyyə və siyasət problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etməsi ilə nəticələnmişdir. *Bu, heç də keçmiş Sovetlər İttifaqı formatında düşünülən xalqlar dostluğu mənasında olmayıb, millətlərarası münasibətlərin reallıqlarını, hətta millətlərarası zəmində baş verən münaqişələri də əhatə edən, çıxış yolları göstərən, səmərəli təkliflər irəli sürən, proqnozlar verən fundamental siyasi-fəlsəfi tədqiqat idi. Akademik Ramiz Mehdiyev ölkədaxili millətlərarası münasibətlər məsələsinə ulu öndər Heydər Əliyevin siyasətdə və təcrübədə uğurla həll edərək respublikada yaşayan bütün xalqların mənafelərini vahid amal ətrafında birləşdirən azərbaycançılıq təliminin işığında yanaşmış, bu aktual problemə praqmatik elmi qiymət vermişdir.* Ramiz müəllimin geniş mənada millətlərarası münasibətlərin tənzimlənməsi istiqamətindəki baxışları da bu sahədə təntənəli mərasimlərin icra edilməsinə yox, qarşılıqlı etimada və ehtirama əsaslanan nəzəri-təcrübi müddəaları özündə ifadə edir.

Çoxillik zəngin elmi təcrübəsinə və bu istiqamətdəki xidmətlərinə görə 2007-ci ildə Ramiz Mehdiyevin Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi ilə onun elmi fəaliyyət cəbhəsindəki fədakar fəaliyyətinin üfüqləri daha da genişlənmişdir. Akademik Ramiz Mehdiyev çoxlarının asan və populist bir fəaliyyət sahəsi hesab edərək qoşulduğu və buna görə də çox zaman axıra çatdıra bilmədiyi siyasətin çox məsuliyyətli bir istiqamət və özünəməxsus prinsiplərə malik bir təlim olduğunu siyasi-nəzəri cəhətdən əsaslandırmışdır.

**Bu mənada akademik Ramiz Mehdiyev müstəqillik dövrü Azərbaycan elmində siyasətşünaslıq istiqamətinin yaradıcısıdır.**

*Akademik Ramiz Mehdiyevin siyasət sahəsindəki baxışları ümumi, mücərrəd müddəalardan ibarət deyil, əksinə, konkret Azərbaycan reallıqlarından və müqayisəli şəkildə dünya təcrübəsindən çıxış etməklə formalaşdırılmış obyektiv baxışlar sistemi olduğu üçün həm elmin inkişafında, həm də ölkədə siyasi mühitin tənzimlənməsinə xidmət mənasında çox əhəmiyyətlidir.*

**Akademik Ramiz Mehdiyevin siyasət formulu müasir Azərbaycan cəmiyyətinin reallıqlarına əsaslanan və irəliyə doğru inkişafa hesablanmış konkret nəzəri təlimdir. Bu isə o deməkdir ki, akademik Ramiz Mehdiyev müasir Azərbaycan cəmiyyətinin inkişafının siyasi-fəlsəfi əsaslarını işləyib hazırlamışdır.**

Cəmiyyətşünas filosof kimi Ramiz müəllim ölkəmizin keşməkeşli inkişaf yollarındakı qabarma və çəkilmələrin, mühüm dialektik yüksəliş proseslərinin dərin fəlsəfi mahiyyətini açıb göstərməklə bərabər, mövcud imkanlara və perspektivlərə də daim işıq salmağa ciddi əhəmiyyət vermişdir. Bu isə onun fəlsəfi baxışlarının tarixi əhəmiyyəti ilə bərabər, həm də müasirliyini və aktuallığını, həyatiliyini də müəyyən etmişdir.

**Akademik Ramiz Mehdiyevin nəzəri-fəlsəfi irsi Heydər Əliyevçilik və azərbaycançılıq məsələlərinin vəhdəti ilə səciyyələnir.**

Haqlı olaraq Ramiz müəllim görkəmli dövlət xadimi Heydər Əliyevi azərbaycançılığı müstəqil dövlətimizin ideologiyası səviyyəsinə qaldırmış görkəmli dövlət xadimi kimi təqdim edir. Ulu öndər Heydər Əliyevin simasında ümummilli lider miqyasının mahiyyəti də ilk dəfə və mükəmməl surətdə akademik Ramiz Mehdiyev tərəfindən elmi-siyasi cəhətdən əsaslandırılmışdır: "Milli dövlət və milli lider müasir tarixin fenomenləridir... Azərbaycan xalqının ümummilli lideri (Heydər Əliyev) həmin lider şəxsiyyətlərdən biridir. ...Milli lider olmağın meyarları və izahı müxtəlifdir. Hələ Aristotel yazırdı ki, siyasi liderliyin ilkin şərti dövlətin gələcəyini öncədən görmək və gördüyünü həyata keçirə bilməkdir. Onlar (ümummilli liderlər) dövlətin xarici və daxili siyasətini müəyyən edən, onu beynəlxalq münasibətlərdə təmsil edən ali vəzifəli şəxslər kimi qəbul edilir. ...Heydər Əliyev ümummilli lider zirvəsində... müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir. ...Buna görədir ki, Heydər Əliyev aramızdan getsə də, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, bizdən öndə addımlayır və yaşayır".

*Çoxcəhətli zəngin elmi təcrübəyə malik olan akademik Ramiz Mehdiyevin nəzəri-fəlsəfi təlimində hər əsər Azərbaycan cəmiyyətinin bir mühüm sahəsinin, vacib bir istiqamətinin fəlsəfi dərkindən ibarətdir.*

**Onun elmi-nəzəri əsərləri Heydər Əliyev-İlham Əliyev epoxasının siyasi-fəlsəfi epopeyasını təcəssüm etdirir.**

**Akademik Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uğurla, möhkəm siyasi iradə ilə həyata keçirdiyi genişmiqyaslı islahatlar proqramının və ölkəmizin modernləşdirilməsi hərəkatının əsas istiqamətlərinin dərin elmi təhlilinin mükəmməl örnəklərini meydana qoymuşdur.**

**Onun elmi irsi qloballaşmanın gətirdiyi problemlərlə bərabər, milli dövlət quruculuğu məsələləri, azərbaycançılıq fəlsəfəsinin reallıqları, ölkəmizin demokratik inkişaf modelləri, milli mənşə və identiklik problemlərinə həsr olunmuş fundamental tədqiqatlar sistemini özündə birləşdirir.**

Akademik Ramiz Mehdiyev bir-biri ilə qarşılıqlı surətdə əlaqədar olan bu problemlərə kompleks şəkildə yanaşaraq, məsələləri siyasi-fəlsəfi və tarixi-dialektik cəhətdən şərh edərək konkret və ümumiləşdirilmiş nəticələr çıxarmışdır. Fikrimizcə, *bu tədqiqatların hamısını birləşdirən ən ümumi aparıcı xüsusiyyət Heydər Əliyevçilik - azərbaycançılıqdır.*

Görkəmli filosof alimin "Azərbaycanın inkişaf dialektikası" (2000), "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" (2001), "Demokratiya yolunda irs haqqında düşünərkən" (2008) monoqrafiyalarında Heydər Əliyevçilik - azərbaycançılığın dialektik inkişaf prosesləri dərindən və əsaslandırılmış şəkildə şərh olunmuşdur.

**Bu əsərlər ölkəmizdə Heydər Əliyevşünaslığın - azərbaycanşünaslığın həm fəlsəfi-elmi əsasları, həm də mükəmməl ideologiyasıdır.**

Bu mənada **akademik Ramiz Mehdiyev həm də mükəmməl bir ideoloqdur. Onun ideoloji əsərlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyev təliminin yaradıcılıqla və ardıcıllıqla davam etdirilməsi istiqamətindəki rolu və xidmətləri ilə yanaşı, yeni erada özünün də formalaşdırdığı müasir modernləşmə xəttinin mahiyyəti və əhəmiyyəti obyektiv mövqedən qiymətləndirilmişdir. Bütövlükdə Ramiz Mehdiyevin** *"Azərbaycan: qloballaşma dövrünün tələbləri" (2005), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (2006), "2005-ci il parlament seçkiləri: ilkin təhlil" (2006), "Modernləşmə xətti yenə də gündəlikdədir" (2008), "Azərbaycan - 2003-2008: zaman haqqında düşünərkən" (2009) və sair əsərləri* **ölkəmizin müstəqillik dövrü tarixində yeni mərhələ olan İlham Əliyev dövrünün reallıqlarını və perspektivlərini aydın surətdə təqdim edən qiymətli traktatlardır.**

O, müasir Azərbaycan cəmiyyətinin inkişafında mühüm əhəmiyyət kəsb edən bu tarixi mərhələyə daim hərəkətdə, davamlı prosesdə olan mühüm bir ictimai-siyasi hərəkat kimi baxır və gedişatın təzahürlərinə aydınlıq gətirdiyi kimi, proseslərin sabahına da konkret elmi baxışları meydana qoyur.

*Akademik Ramiz Mehdiyev qəti şəkildə inanır və inandırır ki, Prezident İlham Əliyevin uğrunda mübarizə apardığı müstəqil dövlətçilik idealları konkret tarixi mərhələ ilə tamamlanmayan, ümumiyyətlə Azərbaycan xalqının və müstəqil dövlətimizin dialektik inkişaf qanunauyğunluğunun, təkamül proseslərinin məntiqi ardıcıllığının və dayanıqlı inkişafının ana xətləridir.*

*Bu mənada Ramiz müəllimin əsərləri həm də Azərbaycan Respublikasının perspektiv inkişafının fəlsəfəsini də özündə cəmləşdirir.*

İxtisasca tarixçi olan akademik Ramiz Mehdiyevin elmi-nəzəri əsərlərində tarixi aspekt həmişə olmuşdur. O, bir filosof kimi cəmiyyətin inkişaf dialektikasını daim tarixi təkamül proseslərinin axarında axtarıb qiymətləndirir. Bununla belə, akademik Ramiz Mehdiyevin son illərdə Azərbaycan tarixi problemlərinin tədqiqi məsələlərinə ciddi dönüşü xalqımızın və dövlətimizin tarixinin bir çox əhəmiyyətli məqamlarının yenidən dərk və şərh edilməsinə böyük töhfə verir.

Aydın görünür ki, *Ramiz Mehdiyevin tarixi mövzuya müraciət etməsinin məqsədi də əslində Azərbaycan dövlətçiliyinin çoxəsrlik real və bütöv mənzərəsini yaratmaqdan ibarətdir.*

Son illərdə yazılmasına baxmayaraq, **akademik Ramiz Mehdiyevin Azərbaycan tarixinin aktual problemlərinə, xüsusi mərhələlərinə və görkəmli şəxsiyyətlərinə həsr olunmuş elmi əsərləri sanki onun indiyədək yazılmış və ölkəmizin XX-XXI əsrlər tarixinə həsr edilmiş fəlsəfi əsərlərinin mükəmməl bir elmi müqəddiməsidir.**

Görkəmli elm xadiminin Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutmuş Səfəvi imperatorluğunun qüdrətli simaları olan Şah İsmayıl Xətai və Nadir şah Əfşardan bəhs edən sanballı monoqrafik tədqiqatları milli dövlətçilik tariximizin yenidən, mötəbər mənbələr və məxəzlər əsasında və milli mövqedən tədqiq edilməsinin mükəmməl nümunələridir. **Bu əsərlər Azərbaycan tarixşünaslığında dönüş yaradan ciddi elmi tədqiqatlardır.** Akademik Ramiz Mehdiyevin "Şah İsmayıl Səfəvi: sərkərdənin və döyüşçünün taleyi" (2014) və "Nadir Şah Əfşar. Diplomatik yazışmalar" (2015) monoqrafik tədqiqatları Azərbaycan tarix elminin ən mühüm nailiyyətlərindən biri sayılmağa tamamilə layiqdir. Bu əsərlər həm də müasir mərhələdə Azərbaycan tarixşünaslığı elmini milli meyarlar və müstəqil dövlətçilik baxımından yenidən yazılmağa istiqamətləndirən, səfərbər edən bələdçi kitablardır.

Əslində, **akademik Ramiz Mehdiyev tarixi mövzuda yazdığı əsərləri ilə həm də Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin Şah İsmayıl Xətaidən Heydər Əliyevə qədərki dövrlərinin bütöv və ümumiləşdirilmiş elmi salnaməsini canlandırmışdır.**

Onun "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" və Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan-İran münasibətlərinə həsr edilmiş kitabları da yeni yanaşmaları, nadir sənədləri və materialları elmi dövriyyəyə gətirməsi ilə bərabər, həm də milli dövlətçilik tarixinin ayrı-ayrı mərhələlərinin problemlərini tam halda və sistemli şəkildə tədqiq edib öyrənməyə xidmət edir. Bu kitablarda ilk dəfə elmi dövriyyəyə daxil edilmiş zəngin arxiv sənədləri və yazışmalar haqqında söz açılan dövrlərin reallıqlarına işıq salan və obyektiv elmi nəticələr çıxarmağa əsas verən mötəbər mənbələrdir. Azərbaycan cəmiyyətinə, elmi ictimaiyyətə təqdim edilən həmin yeni və zəngin arxiv materiallarından ictimai elmlər üzrə çalışan digər tədqiqatçılar da istifadə edərək sanballı elmi əsərlər hazırlaya bilərlər.

Akademik Ramiz Mehdiyevin bu günlərdə Moskvada "Rosspen" nəşriyyatında çapdan çıxmış "Qlobal dəyişmələr dövründə Azərbaycan milli ideyası" adlı ikicildlik monoqrafiyası *Azərbaycan ictimai elmləri sahəsində mühüm elmi hadisə sayılmağa layiq olan çox qiymətli tədqiqat əsəridir. Bu, akademik Ramiz Mehdiyevin çoxillik elmi ideyalarının və tədqiqatlarının məntiqi davamı olan, lakin problemə tam yeni mövqedən aydınlıq gətirən və qiymət verən orijinal tədqiqatdır. Bu əsərdə ilk dəfə olaraq milli mənşə ilə milli ideologiya məsələlərinə vahid bir prosesin təzahürü kimi obyektiv elmi-fəlsəfi qiymət verilmişdir.* Akademik Ramiz Mehdiyev nəticə olaraq bu qənaətdədir ki, müasir transformasiyalar dövründə güclü Azərbaycan dövlətinin yaranması və inkişaf etdirilməsi milli ideyanın ən bariz ifadəsidir. Təqdim olunan monoqrafiya ictimai elmlər sahəsində yeni istiqamətlər açmaqla elmi fikrin axarını dəyişməyə bələdçilik edir.

**Görkəmli dövlət xadimi və böyük tarixçi-filosof alim, akademik Ramiz Mehdiyev elmi və siyasi-ideoloji fəaliyyəti ilə müstəqil Azərbaycan dövlətinin və ümummilli ideyaların inkişaf etdirilməsinə şərəflə və məsuliyyətlə xidmət etməkdədir.**

*Ayrı-ayrı dövrlərdə Ramiz Mehdiyevin Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi apardığı səmərəli ictimai-siyasi iş ölkəmizdəki sabitliyin və inkişafın daha da möhkəmləndirilməsinə öz töhfələrini vermişdir.*

**Bu gün də dövlətçilik təfəkkürü ilə elmi fəaliyyəti mükəmməl surətdə özündə cəmləşdirən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev respublikamızda elmi və siyasi-ideoloji proseslərin idarə olunmasına bacarıqla rəhbərlik edir.**

Akademik Ramiz Mehdiyevin siyasi portreti şəxsiyyətinin bütövlüyü, dövlətçilik ideallarına dərin sədaqəti, taleyüklü həlledici məsələlərdəki prinsipial mövqeyi, müdrik qərarlar qəbul etmək istedadı və xeyirxahlığı ilə səciyyələnir. Dərin və möhkəm mənəvi keyfiyyətlər onun siyasi xarakterini tamamlayır və möhkəmləndirir.

Azərbaycan dövləti görkəmli elm və dövlət xadimi Ramiz Mehdiyevin çoxillik səmərəli xidmətlərini həmişə yüksək qiymətləndirmişdir. Akademik Ramiz Mehdiyevin müxtəlif tarixi dövrlərdə təltif edildiyi "Qırmızı Əmək Bayrağı" ordeni, "Şöhrət" və "İstiqlal" ordenləri dövlətimizin onun çoxcəhətli fəaliyyətinə verdiyi böyük qiyməti əyani surətdə təsdiq edir.

Hörmətli Ramiz müəllimi anadan olmasının 80 illiyi münasibətilə ürəkdən təbrik edir, ona dövlətçilik sahəsində və elm yollarında göstərdiyi yorulmaz fəaliyyətində daha böyük uğurlar arzulayırıq.

**Akif ƏLİZADƏ,**
*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik*

**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın vitse-prezidenti, akademik*

# Bu gün manatın ucuzlaşmasını şərtləndirən heç bir ehtimal yoxdur

Camaat sanki səksəkədədir. Hansısa boşboğazın (yaxud boşboğazların) hələ neçə ay əvvəl prezident seçkilərindən sonra dünyanın aparıcı valyutaları olan dollar və avroya nisbətdə manatın məzənnəsinin aşağı düşəcəyi ilə bağlı dövriyyəyə (qəsdən) buraxdığı şayiələr ən azı əhali arasında rahatsızlıq doğuracaq qədər öz işini görür - evində manatla ehtiyat pulu, banka dollar və ya avro ilə borcu olanı da, olmayanı da eyni dərəcədə dərd götürüb, onlar gözlərini açmamış manatın kursu ilə maraqlanırlar. Kiminin KİV-dən, kiminin internetdən, bunlara əli çatmayanların isə rastlaşdıqları tanışlarından ilk öyrəndikləri məhz "dolların bahalaşıb-bahalaşmadığı" olur.

Şübhə etmirik ki, sözügedən şayiənin müəllifləri də məhz bunu hədəf götürmüşlər. Onlar yaxşı bilirlər ki, pul informasiyaya (deməli, həm də şayiəyə) çox həssasdır. Və bu həssaslıq çox valyutaların zaman-zaman, necə deyərlər, "evini yıxıb, yurdunu viran qoyub".

Bunu sübut etmək üçün uzağa getməyək, elə öz ölkəmizi misal gətirək, daha doğrusu, manatın devalvasiyalarının səbəblərini xatırlayaq. Düzdür, bu səbəblərin ilkini dünya bazarında neftin qiymətinin ucuzlaşması olmuşdur, baxmayaraq ki, ortada Azərbaycanın 2008-ci il dünya iqtisadi böhranından, demək olar, tam ziyansız çıxması faktı vardı. Bu isə o deməkdir ki, 2008-ci ildə hökumət və Mərkəzi Bank beynəlxalq böhranın fəsadlarını zərərsizləşdirmək, o cümlədən manatın kursunu qorumaq üçün gördüyü operativ və səmərəli tədbirləri sonrakı illərdə həyata keçirməyi bacarmadı, yaxud gecikdirdi. Nəticədə elə o zaman da milli valyutamızın qiymətdən düşəcəyinin qaçılmaz olduğu barədə əhali arasına buraxılan yalan-doğru xəbərlər öz işini gördü. Yoxsa bir neçə gün ərzində əhali tərəfindən 5 milyard dolların alınmasını başqa hara yozmaq mümkündür ki?! Bu isə ölkənin təkcə strateji valyuta ehtiyatının azalması yox, həm də maliyyə balansının pozulması demək idi ki, nəticədə də manatımız iki dəfə ucuzlaşmağa məruz qaldı.

İndi, şükürlər olsun, artıq neçə vaxtdır Azərbaycan manatı sabitdir. Camaat arasında da milli valyutamıza etibar tədricən bərpa olunur. Üstəlik, devalvasiyalardan əhali qədər də olmasa, ondan az da ziyan çəkməyən banklar manatla verdikləri müxtəlif təyinatlı kreditlərin şərtlərini yumşaltmasalar, o cümlədən faizlərini aşağı salmasalar da, həcmlərini artırmağa başlayıblar.

Amma görünür, bu, kimlərə isə sərf etmir. Əslində, həmin o "kimlər"in kimlər olduğu məlumdur. Bunlar o "kimlər"dir ki, bir tərəfdən Azərbaycandakı sakit ictimai-siyasi durumu "tərpətmək", bir tərəfdən də ölkənin iqtisadi inkişafında əsas rol oynayan manatın sabit kursuna "əl gəzdirmək" istəyirlər. Artıq bu yolda, qeyd etdiyimiz kimi, köhnə və "sınanılmış təcrübə"dən-şayiədən istifadəyə qərar da verilib. Deməli, belə həssas məqamda xüsusən Mərkəzi Bank ölçülü-biçili tədbirlər görməli, KİV, sosial şəbəkələr vasitəsilə əhali arasında izahat işlərini intensivləşdirməlidir ki, əsassız panika baş verməsin. İlk növbədə yol vermək olmaz ki, qarşıdan yay, yəni ezamiyyətlər dövrü gəldiyindən xarici valyutaya artan tələbatı həmin o "kimlər" xalqa proqnozlarının və ehtimallarının özünü doğrultmaları kimi təqdim etsinlər.

Yazılı və elektron KİV də mövzuya vətəndaşlıq mövqeyindən yanaşmalıdırlar. Manatın kursu, valyuta satışı ilə bağlı yoxlanılmamış, rəsmi qaynaqlara əsaslanmayan xəbər və şərhlərdən qaçılmalıdır. Bir an da olsa yaddan çıxmamalıdır ki, bütün valyutalar kimi, manatın taleyi həm də əhali arasında dolaşan xəbərlərdən asılıdır.

Manatın məzənnəsinin etibarlığına gəldikdə isə, hazırda həqiqətən onun aşağı düşməsinə heç bir iqtisadi əsas yoxdur. Əgər başlanan iqtisadi islahatların nəticəsi kimi ölkədə ümumi daxili məhsul istehsalının və digər göstəricilərin istənilən səviyyədə olmadığı son iki ildə manatın məzənnəsi sabit qalmışsa, bütün əsas makroiqtisadi rəqəmlərin müsbət olduğu indiki vaxtda niyə ucuzlaşmalıdır ki?! Digər tərəfdən, bütün neft ölkələrinin valyutaları kimi, bizim də manatın məzənnəsinə birbaşa təsir neftin qiymətinin ən yaxşı gözləntidən də yüksək olması həmin ehtimalı heçə endirir. Təsəvvür edin ki, təkcə bu ilin ilk rübündə ölkəmizin strateji valyuta ehtiyatı 2,2 milyard dollar artmışdır. İndi ölkəmizin 44,2 milyard dollar valyuta ehtiyatı var və adambaşına düşən bu göstəriciyə görə ölkəmiz dünyada ön yerdədir. Sanballı valyuta ehtiyatınınsa milli valyutanın sabit qalmasındakı rolunu izah etməyə ehtiyac yoxdur.

Manatın məzənnəsinə təhlükə olmadığını təsdiqləyən digər səbəb xaricdən valyuta hesabına aldığımız bir çox məhsulların artıq ölkəmizdə istehsal edilməsidir. Düzdür, bu sahədə hədəflənən məqsədlərin hamısına çatmaq hələ mümkün olmayıb. Amma xeyli işlərin görülməsini və onların nəticələrini də danmaq olmaz. Dükan-bazarların piştaxtalarına baxmaq kifayətdir ki, öz məhsullarımızın həm çeşidinə, həm qiymətinə, həm də keyfiyyətinə görə analoji xarici mallardan geri qalmadığını görək. Biz hələ ərzağı deyirik. İdxal mallarından heç bir sarıdan geri qalmayan qeyri-ərzaq məhsullarımız da çoxdur. Təkcə tikinti materiallarının kəmiyyət və keyfiyyətini qeyd etmək kifayətdir ki, bu sahədə nə qədər irəli getdiyimizin şahidi olaq.

Ümumiyyətlə, əgər əvvəllər istehlak bazarındakı qeyri-neft məhsullarının əksəriyyəti idxal olunurdusa, indi ölkəmiz nəinki bu balansı öz xeyrinə dəyişib, hətta belə məhsulların ixracatçısına çevrilib. Yalnız keçən il Azərbaycanın ixrac etdiyi qeyri-neft məhsullarının dəyəri 1,5 milyard dollardan çox olub. Bu o deməkdir ki, təkcə belə məhsulların alınmasına valyuta xərclənməyib, həm də yerli istehsalın təmin edilməsi hesabına onlardan ölkəmiz valyuta qazanıb. Bütün bunlar isə manatın məzənnəsinin sabit qalmasını şərtləndirən əhəmiyyətli iqtisadi reallıqlardır və onların fonunda hansısa məqsədli şayiəyə inanmağın əsası və yeri yoxdur.

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***

# Prezident İLHAM ƏLİYEVİN iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

*Əvvəli 6-cı səh.*

Əgər planlı təsərrüfat sistemində dövlət idarəetmə aparatı iqtisadiyyat üzərində total nəzarət funksiyasını yerinə yetirirdisə, yeni mərhələdə dövlət orqanları daha çox tənzimləyici rol oynamalıdırlar. Nəzarət funksiyaları isə ciddi şəkildə reqlamentləşdirilməlidir.

Heydər Əliyev dövlət nəzarəti sisteminin yenidən təşkilinə xüsusi diqqət yetirirdi. Ümummilli liderin imzaladığı iki mühüm sənəd - "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 1996-cı il 17 iyun tarixli və "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişaf etdirilməsi sahəsində süni maneələrin aradan qaldırılması haqqında" 1999-cu il 7 yanvar tarixli fərmanlar bir çox hallarda "nəzarətsizliyə" səbəb olan dövlət nəzarəti sistemində radikal dəyişikliklərin əsasını qoydu.

Məhkəmənin qərarı olmadan hüquq mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsi qadağan edildi. Vergilər Nazirliyinin səyyar vergi yoxlamalarının sayı azaldıldı, işçi heyəti 40 faiz ixtisar edildi. Yerli icra hakimiyyəti orqanlarının nəzarət qurumları ləğv olundu.

Dövlət nəzarəti sistemində aparılan əsaslı dəyişiklikləri heç də dövlət nəzarətinin yumşaldılması və ya aradan qaldırılması kimi xarakterizə etmək olmaz. Dövlət heç bir halda qanunların pozulmasına, dövlət əmlakı və vəsaitinin dağıdılmasına, mənimsənilməsinə göz yuma bilməz. Əksinə, milli iqtisadiyyatını formalaşdıran bir ölkə kimi Azərbaycanda dövlət nəzarəti daha da sərtləşdirilməli idi. Bu sərtlik isə "məqsədli" əsassız yoxlamaların aparılması ilə deyil, qanun pozuntularının aşkar edilməsi və onun nəticələrinin aradan qaldırılması ilə müəyyən edilir. Bir sözlə, nəzarət sistemində aparılan islahatlar dövlət nəzarətinin yumşaldılmasına yox, onun təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına və bu sistemin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən təşkilinə yönəldilmişdir.

Dövlət nəzarəti sistemində aparılan islahatların zəruriliyini və bu sahədə müşahidə edilən dəyişikliklərin xarakterini müəyyən etmək üçün yaxın keçmişimizə - amirlik iqtisadiyyatının təcrübəsinə nəzər salmalıyıq.

Bazar münasibətlərinə əsaslanan iqtisadi sistemdən fərqli olaraq, mərkəzləşdirilmiş planlı təsərrüfat sistemində dövlət nəzarəti iqtisadiyyatın bütün sahələrini əhatə etməklə total xarakter daşıyırdı. Əsas nəzarət obyekti olan dövlət müəssisələrinin fəaliyyəti tamamilə reqlamentləşdirilmişdir. Onlar yalnız dövlət sifarişlərinin icraçıları kimi fəaliyyət göstərirdilər. Sahibkarlıq fəaliyyəti, ticarət vasitəçiliyi, valyutanın və qiymətli kağızların alqı-satqısı qanunvericiliklə qadağan edilmişdir. Bu sahədə hər hansı bir fəaliyyət son nəticədə cinayət məsuliyyətinə səbəb olurdu. Qadağaların çox olması nəzarətin miqyasını da genişləndirmişdi.

Son illər ölkəmizdə həyata keçirilən institusional islahatlar çərçivəsində dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl və kompleks tədbirlər görülməkdədir. Belə ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli qanununa əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılmışdır. Qanuna görə bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, qida təhlükəsizliyinə və dövlətin maraqlarına mühüm təhlükə yaradan hallar üzrə yoxlamalar aparıla bilər. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 noyabr tarixli fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti 2021-ci il yanvarın 1-dək uzadılmışdır.

Müqayisə üçün qeyd edək ki, yoxlamaların sayı onun dayandırılmasından əvvəl 2 il ərzində 120 mindən çox idisə, yoxlamaların dayandırıldığı növbəti 2 il ərzində bu rəqəm 200-dən az olmuşdur.

İqtisadiyyatın geniş miqyasda liberallaşdığı, sahibkarlıq fəaliyyəti üçün qadağaların aradan qaldırıldığı bir vaxtda dövlətin iqtisadi subyektlər üzərində total nəzarəti artıq praktiki baxımdan mümkün deyil. Yeni şəraitdə dövlətin iqtisadi nəzarəti əsasən maliyyə nəzarəti xarakteri daşımalıdır. Bu cür nəzarət, öz növbəsində, maliyyə intizamının artırılmasını, mülkiyyət formasından asılı olmayaraq, bütün iqtisadi subyektlərin dövlət qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsini, ölkənin maliyyə təhlükəsizliyini təmin etməlidir.

Maliyyə nəzarətini yalnız büdcə-vergi nəzarəti ilə məhdudlaşdırmaq olmaz. O, valyuta, gömrük və bank nəzarətini də əhatə etməklə maliyyə resurslarının formalaşması, bölgüsü və istifadə edilməsi prosesinin qanuniliyinə, məqsədəuyğunluğuna və səmərəliliyinə nəzarət edilməsi sahəsində dövlət orqanlarının və auditor təşkilatlarının həyata keçirdikləri tədbirlərin məcmusudur. Sistemli maliyyə nəzarətinin təşkili aşağıdakı şərtlərin yerinə yetirilməsindən asılıdır:

- *birincisi, maliyyə nəzarətinin subyektləri, yəni hansı qurumların nəzarət edəcəyi konkret müəyyən edilməli;*
- *ikincisi, maliyyə nəzarətinin obyektləri, yəni hansı qurumlara nəzarət ediləcəyi konkretləşdirilməli;*
- *üçüncüsü, nəzarətin predmeti - nəyə nəzarət olunduğu dəqiqləşdirilməli;*
- *dördüncüsü, nəzarətin prinsipləri, metod və metodologiyası, texnika və texnologiyası müəyyənləşdirilməlidir.*

Maliyyə nəzarətinin sistemliliyini təmin etmək üçün ən əsas şərt nəzarətin nəticələri üzrə konkret qərarların qəbul edilməsidir. Yəni, maliyyə nəzarətinin başlanğıc və son nöqtəsi olmalı və onların hər ikisi bir-birini tamamlamalıdır.

Maliyyə nəzarətinin əsas istiqamətlərindən birini büdcə nəzarəti təşkil edir. Maliyyə nəzarətindən fərqli olaraq, büdcə nəzarətinin miqyası məhduddur. Belə ki, büdcə nəzarəti əsasən dövlət sektorunu, dövlətin maliyyə vəsaitlərindən istifadə edən müəssisə və təşkilatları əhatə edir.

Milli iqtisadiyyatını formalaşdıran bir ölkə üçün büdcə nəzarəti və onun səmərəli təşkili xüsusi əhəmiyyət kəsb edir. Dövlət özünün funksiyalarını maneəsiz və normal bir şəkildə həyata keçirmək və sosial-iqtisadi prosesləri çevik tənzimləmək imkanına malik olmalıdır. Bu imkanların reallaşması isə dövlət vəsaitinin həcmi ilə müəyyən olunur. Dövlətin malik olduğu maliyyə resursları nə qədər çox olarsa, onun sosial-iqtisadi proseslərə təsir etmək imkanları da geniş olar. Bu mənada ölkəmizdə büdcə nəzarəti bir tərəfdən maliyyə resurslarından səmərəli və qənaətlə istifadə edilməsini təmin etməli, digər tərəfdən də büdcə mədaxilinin artırılması üçün mövcud olan ehtiyatları aşkar etməlidir.

Dövlət idarəetmə sisteminin səmərəliliyi həm də dövlət vəsaitlərinin istifadə olunması vəziyyəti ilə bağlıdır. Buna görə də son illərdə büdcə sistemi, dövlət satınalmaları və büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi ilə bağlı qanunvericilik təkmilləşdirilmiş, hesabatlılıq və şəffaflığın artırılmasını, maliyyə inzibatçılığının gücləndirilməsini nəzərdə tutan dəyişikliklər edilmişdir.

Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş tapşırıqların, qanunvericiliklə müəyyən olunmuş vəzifə və funksiyaların icrasını təmin etmək üçün son illər Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən bir sıra addımlar atılmaqdadır. Nəzarət funksiyalarının gücləndirilməsi dövlətin ali audit qurumuna yol verilmiş maliyyə və prosedur nöqsanlarının müəyyən edilməsinə sistemli yanaşmanı tətbiq etməklə yanaşı, həmin nöqsanların nəticələrinin aradan qaldırılması ilə bağlı təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratmaqdadır. Belə ki, son illərdə nəzarət tədbirlərinin nəticəsi kimi dövlət büdcəsinə bərpa edilmiş vəsaitlərin həcmi xeyli artmışdır.

Dövlət vəsaitləri üzərində ictimai nəzarət mexanizmlərinin səmərəliliyi hesabatlılığın və şəffaflığın təmin olunması ilə də sıx bağlıdır. Bu istiqamətdə Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti orqanı kimi atdığı addımlar, xüsusilə də nəzarət tədbirləri ilə bağlı məlumatların ictimailəşdirilməsi, tərtib olunmuş rəylərin və hesabatların açıqlanması, vətəndaşlara QHT və KİV tərəfindən yönəldilmiş sorğuların cavablandırılması, rüblük bülletenlərin nəşri beynəlxalq standartların nəzərə alınması baxımından olduqca əhəmiyyətlidir.

Atılan addımlar Hesablama Palatasının ali audit qurumları icmasında yerini möhkəmləndirməklə yanaşı, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yüksəlməsinə xidmət etməkdədir. Qeyd etmək yerinə düşər ki, Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatının Açıq Büdcə İndeksi-2017 hesabatında Azərbaycan Respublikasının Hesablama Palatasının dövlət büdcəsinə nəzarət sahəsində fəaliyyətini 100 ballıq şkala üzrə 83 balla qiymətləndirmişdir.

Dövlət vəsaitlərindən istifadə edən və ya dövlət mülkiyyətində olan müəssisə və təşkilatlara maliyyə nəzarəti daha da sərtləşdirilməlidir. Nəzərə almaq lazımdır ki, bu cür müəssisələr özəl şirkətlərdən fərqli olaraq israfçılığa meyilli olurlar. Dövlət vəsaitlərindən qənaətlə istifadəni təmin etmək üçün dövlət büdcəsi vəsaitlərinin konkret proqram və layihələr üzrə ayrılması təcrübəsi genişləndirilməlidir.

Maliyyə nəzarəti sistemində vergi nəzarəti orqanlarının üzərinə böyük məsuliyyət düşür. Müasir dövrdə vergi siyasəti yalnız fiskal funksiyaları yerinə yetirmir, o, həm də iqtisadi inkişafın stimullaşdırıcı aləti kimi çıxış edir. Bu baxımdan vergi orqanlarının fəaliyyəti sahibkarlığın inkişafını dəstəkləməlidir. Vergi xidmətində peşəkar və təmiz kadrlara üstünlük verilməli, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejimi yaradılmalıdır.

Vergi sisteminə hörmət və inamın artırılması üçün ciddi addımlar atılmalı, vergiödəyiciləri ilə münasibətlər qarşılıqlı hörmət və etimada əsaslanmalıdır. Vergi uçotunun dəqiq aparılması, auditin real funksiyasının bərpa olunması, vergilərin yığılmasından vergilərin ödənilməsinə keçidin təmin edilməsi yeni mərhələdə vergi nəzarəti orqanlarının xüsusi diqqət yetirməli olduqları fəaliyyət istiqamətləri olmalıdır.

Maliyyə nəzarəti sistemində ölkənin iqtisadi sərhədlərini qoruyan gömrük orqanlarının da xüsusi yeri vardır. Mövcud qanunvericiliyə əsasən gömrük orqanları dövlət icra hakimiyyəti sistemində hüquq mühafizə orqanı statusuna malik olsa da, onlar daha çox vergi və valyuta nəzarəti funksiyası daşıyırlar. Bu baxımdan Dövlət Gömrük Komitəsi özünün tənzimləyici və fiskal funksiyalarını digər maliyyə nəzarəti orqanları ilə uzlaşdıraraq həyata keçirməlidir.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sisteminin yaradılması istiqamətində ciddi tədbirlər görülmüşdür.

2016-cı il aprel ayının 4-dən etibarən gömrük prosedurlarının daha da sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi və xarici ticarət əməliyyatlarının liberallaşdırılması məqsədi ilə elektron bəyanetmə sisteminin tətbiqinə başlanmışdır.

Azərbaycanda bank nəzarətini müasir dövrün tələblərinə uyğun qurmadan maliyyə nəzarəti sistemini təkmilləşdirmək qeyri-mümkündür. Nəzərə almalıyıq ki, bir çox qeyri-qanuni maliyyə əməliyyatlarının aparılması, "çirkli" pulların rəsmi dövriyyəyə cəlb edilməsi, vergidən yayınma və sair bu kimi bir çox hallar çevik bank nəzarətinin olmaması ilə əlaqədardır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli fərmanına əsasən Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılmışdır. Palata kreditorların, investorların və sığortaolunanların hüquqlarını qoruyan qurumdur. Ölkənin qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin çevikliyinin və şəffaflığının təmin edilməsi, eyni zamanda, bu sahələrdə tənzimləmə və nəzarətin həyata keçirilməsi, maliyyə sektorunun dayanıqlığının qorunub saxlanılması Palatanın missiyasına daxil olan əsas vəzifələrdir.

Maliyyə nəzarətinin əsas istiqamətlərindən biri kimi valyuta nəzarətinə xüsusi diqqət yetirilməlidir. Valyuta nəzarəti orqanları gizli valyuta dövriyyəsinin aradan qaldırılması, xarici valyutanın ölkədən qanunsuz olaraq çıxarılmasının qarşısının alınması və ölkənin valyuta ehtiyatlarından səmərəli istifadə edilməsi sahəsində təsirli tədbirlər görməlidirlər.

Ölkədə müstəqil audit xidmətini inkişaf etdirmədən, onun fəaliyyətini təkmilləşdirmədən maliyyə nəzarətinin müasir dövrün tələblərinə uyğun qurulması qeyri-mümkündür. Bu sahənin inkişaf etdirilməsi, öz növbəsində, yüksəkixtisaslı auditor kadrların hazırlanmasını, audit xidmətinə tələbin artırılması üçün zəruri şəraitin yaradılmasını tələb edir. Maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi statistikanın və mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması ilə paralel həyata keçirilməlidir.

Maliyyə nəzarətinin səmərəliliyini təmin etmək üçün bu sahədə çalışan kadrların sosial problemlərinin həlli də diqqət mərkəzində saxlanılmalıdır. Nəticələrə görə mükafatlandırma sisteminin tətbiqi maliyyə nəzarətinin səmərəliliyini təmin edə bilər.

Nəzarət orqanlarının fəaliyyətinin elektronlaşdırılmasına, bu sahədə müasir telekommunikasiya sistemlərindən, informasiya texnologiyalarından geniş istifadə edilməsinə xüsusi diqqət yetirilməlidir.

Dövlət nəzarəti sistemində islahatların uğurla davam etdirilməsi bu sahədə görülən işlərin iqtisadi islahatların gedişi və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi vəzifələri ilə əlaqələndirilməsini tələb edir.

## Azərbaycanda neft sektorunun üstün inkişafı "patologiya"dırmı?

Dünya təcrübəsi göstərir ki, milli iqtisadiyyatını formalaşdırmaqda olan ölkələrin iqtisadi inkişafı ilkin mərhələdə sənayenin bir və ya iki aparıcı sahəsindən asılı vəziyyətdə olur və həmin sahələr ölkədəki problemlərin həllində mühüm rol oynayır. Azərbaycanda da inkişaf üçün lokomotiv funksiyasını məhz hasilat sənayesi yerinə yetirməli oldu. Bu baxımdan maneələrə və təzyiqlərə baxmayaraq, ulu öndərin siyasi iradəsi və qətiyyəti nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ölkədə iqtisadi inkişafın əsasını qoydu. Beləliklə, Azərbaycan həm də özünün siyasi və iqtisadi diplomatiya tarixində böyük bir uğuruna imza atmış oldu. Əldə edilmiş bu nailiyyət sonrakı mərhələdə Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi transmilli layihələrin reallaşması ilə tamamlandı.

"Əsrin müqaviləsi" böyük siyasi əhəmiyyətə malikdir. Belə ki, onun imzalanması dövlət müstəqilliyimizin təsdiqi kimi qiymətləndirilməlidir. Bu müqavilə Azərbaycanın regionda geostrateji mövqeyini gücləndirmiş, dünyanın aparıcı dövlətləri ilə əlaqələrimizin daha da inkişafına, siyasi və iqtisadi diplomatiya sahəsində müstəqil dövlət kimi manevretmə imkanlarımızın genişlənməsinə şərait yaratmışdır.

"Əsrin müqaviləsi"nin iqtisadi əhəmiyyəti də çoxşaxəlidir. Belə ki, bu müqavilə ilə Azərbaycanın enerji təhlükəsizliyinin əsası qoyuldu. Xarici investisiyaların cəlb edilməsi üçün yaşıl işıq yandırıldı. Ölkəmiz regional və beynəlxalq iqtisadi inteqrasiya prosesində daha yaxından iştirak etməyə başladı.

Hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da, onun həlledici şərti kimi çıxış etmir. Nə qədər təzadlı görünsə də, dünyanın zəif inkişaf etmiş ölkələrinin əksəriyyəti təbii ehtiyatları zəngin olan ölkələrdir. Belə bir təzad həmin ölkələrdə mövcud iqtisadi potensialın reallaşdırılmasını təmin edə bilən səmərəli iqtisadi sistemin yaradılmamasının nəticəsidir.

Ulu öndər Heydər Əliyev məhz böyük şəxsiyyətlərə xas olan uzaqgörənliklə neft gəlirlərinin idarə edilməsinin ən səmərəli modelini yaratdı. Bu model neftin ixracından əldə edilən bütün valyuta gəlirlərinin Dövlət Neft Fondunda toplanılmasını və həmin vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadə edilməsini nəzərdə tutur. Məhz bu mexanizmə əsaslanaraq, Prezident İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nı təsdiq etmişdir.

Dövlət Neft Fondu neft gəlirlərinin səmərəli idarə edilməsi baxımından əsas rol oynamaqla, mühüm makroiqtisadi funksiyanı yerinə yetirir: birincisi, neft dollarının ölkənin valyuta bazarına təzyiq göstərməsinə imkan vermir; ikincisi, dividendlər hesabına öz həcmini artıraraq yığım funksiyasını həyata keçirir; üçüncüsü, ölkənin maliyyə sistemini "neftsiz iqtisadiyyat rejimi"nə uyğunlaşdırır.

Hazırda neft sektoru ölkənin makroiqtisadi göstəricilərinə, xüsusilə də iqtisadi artım tempinə, sənaye istehsalının, ixracatın və xarici investisiyaların həcminə, büdcə və valyuta gəlirlərinə həlledici təsir göstərməkdədir. Bu isə təbiidir.

Prezident İlham Əliyev hələ Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olduğu dövrdə neft sektorunun üstün inkişafı ilə bağlı qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatı hələ uzun illər neft amilindən asılı olacaq və bu, reallıqdır. Onun fikrincə, neft amili 1994-cü ildən ölkənin iqtisadi inkişafına böyük təkan verib və bu gün iqtisadiyyatın bütün sahələrinin neft sektoru kimi inkişaf etməli olduğunu düşünmək sadəlövhlük olardı. Hesab edirik ki, tamamilə məntiqi və populizmdən uzaq olan bu fikir Azərbaycan iqtisadiyyatının mövcud reallıqlarına əsaslanır.

Neft sektorunun milli iqtisadiyyatımızda payının artması məsələsinə gəlincə, onun sənaye strukturundakı payına nəzər yetirmək kifayət etmir. Bunun üçün həm də iqtisadi quruculuq prosesindəki meyilləri, makroiqtisadi vəziyyəti, ölkənin real iqtisadi potensialını, milli sənayemizin xüsusiyyətlərini, beynəlxalq konyunkturanın tələb və şərtlərini, nəhayət, keçid dövrünün reallıqlarını nəzərə almalıyıq.

Ümumiyyətlə, Azərbaycanda neft sənayesinin üstün inkişafını aşağıdakı amillər və səbəblər şərtləndirir:

Birincisi, müstəqil dövlət quruculuğu mərhələsində olan və milli iqtisadiyyatını inkişaf etdirməyə çalışan hər bir ölkə yaxın, orta və uzunmüddətli dövr üçün müəyyənləşdirilmiş vəzifələri yerinə yetirməkdən ötrü zəruri maliyyə vəsaitinə malik olmalıdır. Bu vəsaiti isə bir qayda olaraq, sabit gəlir mənbəyi və bunu əldə etmək üçün təminatlı satış bazarı olan ölkələr əldə edə bilir. İlkin mərhələdə Azərbaycan üçün təminatlı bazar məhz enerjidaşıyıcıları, xüsusilə də neft və neft məhsulları bazarı oldu.

İkincisi, sənaye üzrə əsas fondların 44 faizi neft və qaz hasilatı sektorunun payına düşür.

Əsas fondların belə bir bölgüsü həm də sənaye istehsalının sahəvi strukturunu, yəni neft sənayesinin üstün inkişafını şərtləndirir.

Üçüncüsü, iqtisadiyyatın liberallaşdırıldığı və kapitalın sərbəst hərəkətinə şərait yaradıldığı ölkələrdə investisiyalar gəlirlilik səviyyəsi daha yüksək olan sahələrə yatırılır. Bu baxımdan rentabelliyinə görə neft sənayesinin digər sahələrdən fərqlənməsi xarici kapitalın əsasən bu sektorda cəmlənməsinə səbəb olur.

Azərbaycanda neft sənayesinin üstün inkişafı öz-özlüyündə ölkə iqtisadiyyatı üçün təhlükə doğurmur. Eyni zamanda, indiki mərhələdə neft sektorunun milli iqtisadiyyatımızda, o cümlədən sənayenin və ya ixracatın strukturunda payının artması patoloji proses deyil. Əksinə, bu meyil milli iqtisadiyyatda müsbət dəyişikliklərə - valyuta gəlirlərinin artmasına, xarici kapitalın cəlb edilməsinə, qeyri-neft sektorunun və infrastruktur sahələrinin inkişafına şərait yaradır.

Etiraf etmək lazımdır ki, təbii sərvətlər bir çox ölkələrin əsas gəlir mənbəyinə çevrilərək onların iqtisadiyyatında mühüm rol oynamışdır. Lakin son 20 ildə yüksəkixtisaslı işçi qüvvəsi, yüksək texnologiyalar, nou-hau təbii resurslarla müqayisədə milli sərvəti artırmağın daha etibarlı amili kimi çıxış etməkdədir.

Prezident İlham Əliyev neft və qeyri-neft sektorunun inkişafının əlaqələndirilməsinə böyük önəm verir: "Əgər biz öz iqtisadiyyatımızı şaxələndirməsək, yalnız və yalnız iqtisadiyyatımızı neft amili üzərində qursaq, böyük uğurlar əldə edə bilmərik. Neft hasil edən ölkələrin təcrübələri onu göstərir ki, bu, yanlış yoldur. Biz neft amilindən, sadəcə olaraq, çox məharətlə istifadə etməliyik və edirik ki, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf etsin və gələcək nəsillərimiz neft amilindən asılı olmasın"[13].

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Belə ki, Azərbaycanda iki milyard ton neft hasil olunması milli iqtisadiyyatımızın inkişaf tarixinin əlamətdar hadisəsi kimi 2017-ci ildə təntənəli şəkildə qeyd edilmişdir. Eyni zamanda, neft hasilatı sahəsində davamlılığı təmin etmək məqsədi ilə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılmışdır. Müqavilənin icrası nəticəsində Azərbaycana 40 mlrd. ABŞ dolları həcmində investisiyanın yatırılacağı nəzərdə tutulur.Yeni imzalanmış müqavilə Azərbaycan üçün daha da əlverişlidir. Belə ki, müqavilə imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 mlrd. ABŞ dolları həcmində bonus ödəniləcəkdir. Həmçinin Dövlət Neft Şirkətinin payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcəkdir.

Uğurlu neft strategiyasının reallaşması nəticəsində 2003-cü ilin sonuna 815,6 milyon ABŞ dolları təşkil etmiş Dövlət Neft Fondunun vəsaiti 2018-ci il 31 yanvar tarixinə 37,5 mlrd. ABŞ dollarına çataraq təqribən 46 dəfə artmışdır. 2003-2018-ci illər ərzində Dövlət Neft Fonduna ümumilikdə 138,4 mlrd. ABŞ dolları həcmində vəsait daxil olmuşdur.

Prezident İlham Əliyev "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. "Qara qızıl"ın "insan kapitalı"na çevrilməsi siyasəti çərçivəsində yüzlərlə azərbaycanlı gəncin dünyanın qabaqcıl ölkələrinin aparıcı universitetlərində təhsil ilə bağlı xərcləri Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilmişdir. Dövlət proqramının maliyyələşdirilməsi məqsədi ilə 2008-2017-ci illər ərzində Dövlət Neft Fondu tərəfindən ayrılmış 205,5 milyon manat vəsait hesabına 3300-dən çox tələbə xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almışdır.

Azərbaycan təkcə neft deyil, həm də qaz ixrac edən ölkəyə çevrilməkdədir. Başqa sözlə, ölkəmizin ixracat potensialı yaxın gələcəkdə neftlə yanaşı, həm də qazın hesabına artacaq. Eyni zamanda, Azərbaycan qonşu ölkələrin neft-qaz resurslarını dünya bazarlarına ötürən tranzit dövlətə çevrilməkdədir. Bütün bunlar Azərbaycan iqtisadiyyatını dünya neft bazarındakı mənfi konyunktur dəyişikliklərindən sığortalayan və risklilik dərəcəsini azaldan amillər olaraq qiymətləndirilə bilər. Məsələ burasındadır ki, dünya bazarında neftin və qazın qiyməti heç də eyni vaxtda artıb-azalmır.

Hələ 1990-cı illərin ortalarında bəzi xarici diplomatlar və ekspertlər qeyd edirdilər ki, Azərbaycan yaxın perspektivdə "böyük imkanları olan yoxsul ölkə"dən zəngin təbii sərvəti və sağlam iqtisadiyyatı olan varlı ölkəyə çevriləcək. Artıq bu gün Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasındadır. Əminik ki, neft strategiyasının qətiyyətlə davam etdirilməsi ölkəmizin iqtisadi potensialının reallaşmasında, iqtisadi inkişafla sosial inkişafın əlaqələndirilməsində bundan sonra da həlledici rol oynayacaq.

## Sahibkarlığın inkişafı sahəsində dövlət siyasəti

Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin mühüm istiqamətlərindən biri kimi müəyyən edildiyinə görə özəl sektorun inkişafına dövlət tərəfindən hər zaman siyasi-ideoloji dəstək verilib. Belə ki, ölkə başçısı tərəfindən imzalanmış bütün qanun, fərman və sərəncamlar Azərbaycanda bazar iqtisadiyyatının və sahibkarlığın inkişafına yönəldilib. Sahibkarlığa bu cür siyasi dəstək bir tərəfdən özəl sektorun inkişafına təkan verib, digər tərəfdən də xüsusi mülkiyyətçilik münasibətlərinin daha da dərinləşməsinə və bu prosesin dönməz xarakter almasına şərait yaradıb.

*Ardı 12-ci səh.*

[13] **İlham Əliyev "İnkişaf - məqsədimizdir", 9-cu kitab, Azərnəşr, Bakı 2012, səh. 181**

# Prezident İLHAM ƏLİYEVİN iqtisadi

Əvvəli 11-ci səh.

Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti statusunda jurnalistlərə ilk müsahibəsində söylədiyi bir fikri xatırlatmaq istərdik: “Hesab edirəm ki, iqtisadiyyatımızın növbəti mərhələsi məhz özəl sektorun daha fəal iştirakından asılı olmalıdır və bu istiqamətdə biz üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq”[14].

Bəli! Prezident İlham Əliyev son 15 ildə sahibkarlığın inkişafını iqtisadi sahədə dövlət siyasətinin mühüm istiqaməti kimi müəyyən etdi. Əgər biz sahibkarlıq fəaliyyəti ilə bağlı bütün qanunları diqqətlə nəzərdən keçirsək, görərik ki, onların hər birində özəl sektorun inkişafı üçün güzəşt və imtiyazları, dövlət yardımını, o cümlədən maliyyə dəstəyini nəzərdə tutan kifayət qədər müddəalar var.

2010-cu ildə Bakı Biznes Mərkəzinin açılışı zamanı Prezident İlham Əliyev sahibkarlarla görüşərkən təkcə sahibkarlığın inkişafına liberal mövqe nümayiş etdirmədi. O, həm də uzun illərdən bəri sahibkarlıq fəaliyyətinə mane olan bir sıra mənfi halların -inhisarçılığın, məmur özbaşınalığının, korrupsiyanın və rüşvətxorluğun mövcudluğunu qeyd edərək bu kimi hallarla qətiyyətlə mübarizə aparılacağını bəyan etdi. Dövlət başçısı özəl sektorun inkişaf etdirilməsi sahəsində gələcək vəzifələri bir daha dəqiqləşdirmək məqsədi ilə sahibkarları açıq müzakirəyə dəvət etdi.

Bu görüş dövlət orqanları ilə sahibkarlar arasında sağlam və şəffaf münasibətlərin yaradılmasına xidmət etdi. Görüşün nəticəsi olaraq, ölkə başçısı yerli istehsalçıların dəstəklənməsi, iş adamlarına iqtisadi fəaliyyətə başlamaq üçün hər cür şəraitin yaradılması, vergi orqanları tərəfindən qeyri-qanuni və uzunmüddətli yoxlamaların, bəzi dövlət qurumlarında rüşvətxorluğun aradan qaldırılması, hüquq mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsinin dayandırılması, inhisarçılığın qarşısının alınması, sahibkarlığın inkişafı üçün kredit təminatının yaxşılaşdırılması, regionların inkişaf etdirilməsi ilə bağlı müvafiq dövlət orqanları qarşısında konkret vəzifələr müəyyən etdi və ötən 15 il ərzində bu vəzifələrin ardıcıl olaraq həyata keçirilməsini təmin etdi.

Sahibkarlarla keçirilən bu görüş Prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının, o cümlədən sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı islahatçı mövqeyə və liberal baxışlara malik olduğunu bir daha təsdiq etdi. Məsələn, ayrı-ayrı dövlət orqanları tərəfindən dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlərin görülməsinə baxmayaraq, ölkə başçısı mövcud nəzarət sistemini qənaətbəxş hesab etməmiş, xüsusilə də vergi yoxlamalarında yol verilən ciddi nöqsanların aradan qaldırılmasını və vergi nəzarəti prosedurunun təkmilləşdirilməsini, hüquqi şəxslərin dövlət qeydiyyatına alınma müddətinin və lisenziyalaşdırılan fəaliyyət növlərinin sayının azaldılmasını tələb etmişdir.

Prezident İlham Əliyev yerli sahibkarlara müraciət edərək bildirmişdir: “Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz”[15]. Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Artıq sahibkarlıq fəaliyyəti üçün müvafiq qanunvericilik bazası yaradılıb. Sahibkarlığa dövlət köməyi ilə bağlı proqramlar qəbul edilib. Eyni zamanda, idarəetmə və dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi məqsədi ilə ölkəmizdə institusional islahatlar aparılır. Sahibkarlıq mühitini daha da yaxşılaşdırmaq məqsədi ilə biznesin təşkili proseduru əhəmiyyətli dərəcədə sadələşdirilir. Lisenziyaların və icazələrin sayı minimuma endirilərək onların verilməsi, sahibkarlıq subyektlərinin qeydiyyatı prosedurları “Bir pəncərə” prinsipinə əsaslanır.

Özəl sektorda investisiya fəallığını artırmaq üçün Dövlət İnvestisiya Şirkəti yaradılmış, investisiyaların təşviqi mexanizminin tətbiqinə başlanılmışdır. Şirkət 2006-cı ildən aqrar və sənaye layihələrinin icrasında fəal iştirak edir. ÜDM-in 83 faizinin özəl sektorun payına düşməsi onu göstərir ki, artıq sahibkarlar iqtisadi inkişaf üçün lokomotiv rolunu oynamaqdadır.

Bir çox ölkələrdə özəl sektorun fəaliyyətinə dövlət həm birbaşa, həm də dolayı formada dəstək verir. Dolayı maliyyə dəstəyi kontrakt sistemi vasitəsilə, yəni sahibkarların dövlət sifarişlərinin yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə göstərilir. Yerli istehsalçıların dəstəklənməsi məqsədi ilə artıq Azərbaycanda da bu təcrübədən geniş istifadə olunur.

Bazar iqtisadiyyatının inkişaf etdiyi heç bir ölkədə dövlət orqanları iş yerlərinin açılması ilə bilavasitə məşğul olmurlar. Onların fəaliyyəti məşğulluğu stimullaşdırmaqla və əmək bazarını tənzimləməklə məhdudlaşır. Hesab edirik ki, Azərbaycanda da iş yerlərinin açılması hər hansı dövlət orqanının deyil, məhz sahibkarlıq qurumlarının fəaliyyəti nəticəsində təmin edilməlidir. Artıq ölkəmizdə iş yerlərinin 75 faizinin məhz özəl sektorun payına düşməsi bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Özəl sektorun inkişaf etdirilməsinin mühüm istiqamətlərindən biri kiçik və orta sahibkarlığın dəstəklənməsidir. Bu cür müəssisələr bir qayda olaraq, bazara daha çevik adaptasiya olunurlar. Bu sahədə əsaslı dönüşə nail olmaq üçün Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılmışdır.

Sahibkarlığın inkişaf etdirilməsi institusional islahatların davam etdirilməsini, çevik fəaliyyət göstərən idarəetmə sisteminin qurulmasını, iqtisadi proseslərin səmərəli koordinasiyasını tələb edir.

Sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi məqsədi ilə 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuraları yaradılmışdır.

Ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin artırılması məqsədi ilə aprelin 25-i Azərbaycan Respublikasında “Sahibkarlar Günü” kimi təsis edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında” 2015-ci il 19 oktyabr tarixli fərmanına əsasən, dövlət təhlükəsizliyi (həmçinin qiymətli kağızlar bazarı) ilə bağlı hallar istisna olmaqla, İqtisadiyyat Nazirliyi tərəfindən lisenziyaların verilməsinin “ASAN xidmət” mərkəzlərində həyata keçirilməsinə 2015-ci il noyabrın 2-dən başlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” 2015-ci il 21 dekabr tarixli fərmanına əsasən lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, qüvvədə olan müddətli lisenziyalar müddətsiz elan olunmuşdur. Həmçinin yeni lisenziyalar müddətsiz verilir, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə (regional televiziya və radio yayımı istisna olmaqla) azaldılmış, lisenziya verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilmişdir.

Əvvəllər müxtəlif sahibkarlıq fəaliyyətlərinə toplam 330 icazə tələb olunurdusa, “Lisenziyalar və icazələr haqqında” qanunun qüvvəyə minməsi ilə bütün icazələr vahid sənəddə göstərilir, onların sayı isə 86-ya endirilir.

Bundan başqa “Lisenziyalar və icazələr” portalının yaradılması, “susmaqla razılıq” və “Bir pəncərə” prinsiplərinin tətbiqi ilə bağlı tədbirlər görülmüşdür. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması və dövlət reyestrindən çıxarışın verilmə müddəti 20 gündən 10 iş gününə endirilmişdir.

İnvestisiyaların təşviqi mexanizminin tətbiqi nəticəsində 2017-ci ilin may ayından 2018-ci ilin fevral ayının əvvəllərinədək 244 investisiya layihəsinə təşviq mexanizmi tətbiq olunmuş, 2,1 mlrd. manatlıq investisiyanın cəlb olunmasına və 16 mindən çox yeni iş yerinin açılmasına şərait yaranmışdır.

“Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli sərəncamında kənd təsərrüfatı və emal məhsullarına ixracla bağlı geri ödəmə dəstəklərinin verilməsi, xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsi, “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi və s. nəzərdə tutulmuşdur.

Son iki ildə sahibkarların ixrac fəaliyyətinin dəstəklənməsi məqsədi ilə ümumilikdə 35,7 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsullarının ixracına görə ixrac təşviqləri verilmişdir.

Xarici ölkələrdə dövlətimizin və yerli ixracatçıların iqtisadi-ticarət maraqlarının qorunması və təmsil edilməsi, yerli məhsulların xarici ölkələrin bazarlarına çıxışının genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələrinin təyin edilməsi qərara alınmışdır.

Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən “ASAN Viza” sisteminin tətbiqinə başlanılmış, ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin həmin sistem vasitəsilə ölkədə qalma müddəti 30 günədək olmaqla, elektron viza almaq imkanı yaradılmışdır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğu sahəsində əlavə imkanlar yaratmaq məqsədi ilə “ABAD” (Ailə Biznesinə Asan Dəstək) mərkəzlərinin təşkilinə başlanılmışdır.

Sahibkarların maliyyə vəsaitlərinə çıxış imkanlarını artırmaq, risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemi formalaşdırmaq məqsədi ilə “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu” ASC yaradılmışdır. Fond sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə təminat verən və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdıran hüquqi şəxs kimi fəaliyyət göstərəcək.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2003-2017-ci illər ərzində layihələrinin ümumi dəyəri 4,4 mlrd. manat olan 34 535 sahibkara 2,1 mlrd. manat güzəştli kredit verilmiş və 154 minə yaxın yeni iş yeri yaradılmışdır. Güzəştli kreditlərin 71,6 faizi aqrar sektorun, 28,4 faizi digər sahələrin inkişafına yönəldilmişdir.

Biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunda sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən tədbirlərin nəticəsində 2003-2017-ci illərdə ölkəmizin qeyri-neft ixracı 4,1 dəfə, ixrac olunan mal çeşidlərinin sayı 2,6 dəfə artmışdır. Eyni zamanda, sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 1,9 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı 5 dəfə artmışdır. Bu müddət ərzində ölkə iqtisadiyyatına 2,6 dəfədən çox xarici investisiya cəlb olunmuşdur.

Artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir.

Orta sinfin formalaşması, ilk növbədə, sahibkarlığın inkişaf etdirilməsindən asılıdır. Təsadüfi deyildir ki, ölkədə yoxsulluğun səviyyəsi təkcə büdcə hesabına əməkhaqqını artırmaqla yox, həm də sahibkarlıq fəaliyyətinə şərait yaratmaqla azaldılır.

Özəl sektorun inkişafı hər bir ölkəyə varlı millət - varlı dövlət prinsipini reallaşdırmaq imkanı verir. Bu prinsipin həyata keçməsi isə vətəndaşların iqtisadi azadlığına və son nəticədə insan azadlığının təmin edilməsinə şərait yaradır. Ölkə vətəndaşlarının yüksək işgüzarlıq keyfiyyətləri Azərbaycanda özəl sektorun perspektivlərindən xəbər verir.

## Regionların inkişafı proqramından regional iqtisadi siyasətə

Prezident İlham Əliyev hələ 2003-cü ildə seçkiqabağı çıxışlarında ölkəmizdə regional disbalansın dərinləşdiyini, iqtisadi potensialın bölgələr üzrə qeyri-bərabərliyini nəzərə alaraq, Azərbaycanın bütün regionlarının hərtərəfli inkişaf etdiriləcəyini qeyd etmişdir. Çünki davamlı və tarazlı inkişafın əsas şərtlərindən biri məhz regionların inkişafında qeyri-bərabərliyin aradan qaldırılmasıdır.

Buna görə də Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı çox qısa bir müddətdən sonra 2004-cü il 11 fevral tarixli fərmanı ilə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı”nı (2004-2008-ci illər) təsdiq etdi.

Doğrudur, əvvəllər də regional məsələləri özündə ehtiva edən bir sıra sənədlər qəbul edilmişdir. Lakin yeni proqramda sosial, iqtisadi və institusional blokları əhatə edən genişmiqyaslı konkret tədbirlərin nəzərdə tutulması regionların inkişafı sahəsində real nəticələrin əldə olunmasına şərait yaratdı. Başqa sözlə, sosial və iqtisadi siyasətin regional inkişafla uzlaşdırılması və vahid bir sənəddə əks etdirilməsi bu proqramın üstün cəhətlərindən biri idi. Proqramın konkret tədbirlər planına əsaslanması onun nə dərəcədə səmərəli və vaxtında icra edildiyini izləməyə imkan vermişdir. Bütün iqtisadi və inzibati rayonları əhatə edən genişmiqyaslı tədbirlərin nəzərdə tutulması proqramın icrası üçün böyük məbləğdə maliyyə vəsaitinin ayrılmasını şərtləndirirdi.

Təcrübə göstərir ki, regional inkişaf proqramının hazırlanması və həyata keçirilməsi digər istiqamətlərdən fərqli olaraq, heç də asan başa gəlmir. Çünki regionların inkişafı ilə bağlı institusional, təşkilati, iqtisadi, sosial, hüquqi və maliyyə xarakterli bir çox vəzifələri yerinə yetirmək lazım gəlir. Eyni zamanda, regional iqtisadi siyasətin işlənilməsi və onun davamlı olaraq təkmilləşdirilməsi tələb olunur.

Regionların qeyri-bərabər inkişafı heç də yeni məsələ deyil. Sadəcə olaraq, keçid dövrü bu problemi kəskinləşdirmişdir. Keçmiş ittifaq dövlətinin süqutundan sonra vahid xalq təsərrüfatı kompleksinin dağılması, təsərrüfat əlaqələrinin qırılması, aqrar-sənaye kompleksinin yeni şəraitə uyğunlaşa bilməməsi, kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşan müəssisələrin öz fəaliyyətini dayandırması, neft-qaz sektorunun üstün inkişaf etməsi, xarici kapitalın böyük həcmdə məhz Bakıya yönəldilməsi regional fərqləri daha da dərinləşdirmişdir.

Ulu öndərin rəhbərliyi ilə başlanmış genişmiqyaslı quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, həm də regionların inkişafına şərait yaratmışdır. Burada xatırlatmaq yerinə düşər ki, ümummilli lider hələ sovetlər dönəmində Azərbaycanın dağlıq ərazilərinin sosial-iqtisadi inkişafına dair qəbul etdiyi qərarla bu cür yanaşmanın əsasını qoymuşdur.

Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafını təmin etmək üçün Prezident İlham Əliyev tərəfindən regionların inkişafı üzrə 3 dövlət proqramı, Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair 3 Tədbirlər Proqramı, çoxsaylı sərəncam və fərmanlar imzalanmışdır. Bu proqramların icrası Azərbaycanda yoxsulluğun və işsizliyin azaldılmasına, regionlarda iqtisadi fəallığın artırılmasına və infrastrukturun formalaşmasına şərait yaratmışdır.

Azərbaycan dövləti regionların qeyri-bərabər inkişafını iqtisadi təhlükəsizlik baxımından ciddi problem kimi dəyərləndirir və buna görə də regional inkişaf proqramları hazırlayıb həyata keçirir.

Prezident İlham Əliyevin regionların inkişafına dair olduqca aydın və konkret konseptual baxışları vardır: “Azərbaycan təkcə Bakıdan və Abşerondan ibarət deyildir. Azərbaycanın hər bir bölgəsi inkişaf etməlidir... Regionları hərtərəfli inkişaf etdirmək üçün güclü infrastruktur olmalıdır ki, onu da sahibkar yarada bilməz. Bu vəzifəni dövlət öz üzərinə götürübdür... Azərbaycanın gücü bölgələrin gücündədir... Regionların sosial-iqtisadi inkişaf proqramının, əlbəttə ki, əsas məqsədi işsizliyin aradan qaldırılmasından, yoxsulluğun azaldılmasından ibarətdir...”[16].

Regional fərq özünü əlavə dəyərin formalaşmasında açıq şəkildə göstərməkdədir. 2016-cı ildə ÜDM istehsalında Bakı şəhərinin payı 76,9 faiz, regionların payı isə 23,1 faiz təşkil etmişdir. Bu, onunla əlaqədardır ki, istehsal və xidmət sahələrinin çox hissəsi, o cümlədən neft-qaz sənayesi Bakı şəhəri və onun ətrafında cəmləşmişdir.

Azərbaycan neft və qaz ehtiyatları ilə yanaşı, digər təbii resurslarla da zəngindir və bu ehtiyatların əsas hissəsi regionlarda yerləşir. Regionların təbiiresurs potensialından istifadə etməklə qeyri-neft sektorunu inkişaf etdirə bilərik. Bu baxımdan regionların təbiiresurs potensialının yenidən qiymətləndirilməsi, onun təsərrüfat dövriyyəsinə cəlb olunması və səmərəli istifadə edilməsi qarşıda duran mühüm vəzifələrdəndir.

Azərbaycanda regionların tarazlı inkişafını təmin etmək üçün digər sahələrlə yanaşı, bölgələrdə aqrar-sənaye kompleksinin sürətli inkişafına nail olmalıyıq. Nəzərə almalıyıq ki, kənd təsərrüfatı ölkə üzrə ÜDM-in 5,6 faizini istehsal edir. Əhalinin 47 faizi isə kənd yerlərində yaşayır və məşğul əhalinin 36,3 faizi kənd təsərrüfatında çalışır. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yarada bilər.

Əslində regional inkişaf proqramlarının icrası nəticəsində Bakı şəhəri ilə regionların inkişaf səviyyəsi arasındakı fərqin tamamilə aradan qaldırılacağını gözləmək sadəlövhlük olardı. Dünyada elə bir ölkə yoxdur ki, bütün regionların bərabər səviyyədə inkişafına nail olsun. Bu, bir məqsəd kimi də qarşıya qoyulmur. Əsas məsələ, regionlar arasında dərinləşmiş sosial-iqtisadi fərqin tədricən azaldılmasıdır.

Regionların inkişafına qısa bir müddətdə nail olmaq çətindir. Elə bu səbəbdən də indiyə kimi 3 regional inkişaf proqramı hazırlanmış və həyata keçirilmişdir. Artıq Prezident İlham Əliyev tərəfindən dördüncü proqramın hazırlanması ilə bağlı müvafiq dövlət orqanlarına tapşırıq verilmişdir.

Regional inkişaf proqramlarında nəzərdə tutulan tədbirlərin sistemli şəkildə icra edilməsi qeyri-neft sektorunun inkişafı, bölgələrdə yeni iqtisadi münasibətlərin formalaşması və iqtisadi fəallığın artması, iş yerlərinin açılması baxımından əhəmiyyətli olmuşdur.

Regional inkişaf, ilk növbədə, zəruri infrastrukturun yaradılmasını tələb edir. Təcrübə göstərir ki, bu vəzifələri bir qayda olaraq özəl sektor deyil, dövlət yerinə yetirir. Azərbaycanda regionlar üzrə infrastrukturun bərpası və sosial obyektlərin tikintisi dövlət vəsaitləri hesabına həyata keçirilmişdir.

Təkcə 2003-2017-ci illərdə regional inkişaf proqramları çərçivəsində Azərbaycanda yaradılmış olan 1,9 milyon yeni iş yerinin 72 faizi regionların payına düşür. Bu müddət ərzində 52,6 min kilometr qaz xətti çəkilmiş və ya əsaslı təmir olunmuşdur. 1700-dən artıq yaşayış məntəqəsi təbii qazla təmin edilmiş, ümumilikdə isə regionlar üzrə qazlaşdırma səviyyəsi 41 faizdən 90 faizə çatmışdır. 2826 məktəbdə və 300-dən çox məktəbəqədər təhsil müəssisəsində, 451 səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmişdir. 38 olimpiya idman kompleksi inşa olunmuşdur. 11 min kilometrdən çox respublika və yerli əhəmiyyətli yolda təmir-tikinti işləri aparılmışdır. 366 ədəd körpü və tunel tikilmiş, təmir olunmuşdur. Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 96-dan 550-yə çatmışdır ki, bunun da 400-ü regionlarda yerləşir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına sahibkarlara verilmiş güzəştli kreditlərin 75,1 faizi regionların payına düşür.

Regionların təkcə iqtisadi deyil, həm də sosial inkişaf göstəriciləri də bir-birinə yaxınlaşmalıdır. Məsələ burasındadır ki, iqtisadi inkişaf sosial inkişafa şərait yaratdığı kimi, həyat səviyyəsinin yüksəldilməsi də iqtisadi fəallığın artmasına zəmin yaradır.

Ayrı-ayrı ölkələr inkişaf səviyyəsindən asılı olmayaraq, regionların qeyri-bərabər inkişafını iqtisadi təhlükəsizlik baxımından ciddi problem kimi dəyərləndirir və buna görə də regional iqtisadi siyasət və regional inkişaf proqramları hazırlayıb həyata keçirirlər. Məsələn, Rusiya şimal rayonlarını inkişaf etdirmək üçün xüsusi iqtisadi zonalara üstünlük verir. Türkiyə əyalət rayonlarının inkişafca geri qalması problemini hələ bugünə kimi aradan qaldıra bilməyib. Buna görə də əyalət rayonlarının inkişaf etdirilməsi Türkiyənin iqtisadi inkişaf proqramının mühüm hissələrindən biri kimi çıxış edir. Dünyanın nüfuzlu regional qruplaşması olan Avropa İttifaqının özü də regional inkişaf proqramları vasitəsilə Avropa iqtisadi məkanına daxil olan ölkələrin sosial-iqtisadi göstəricilərinin bir-birinə yaxınlaşdırılması siyasətini həyata keçirir.

Öz-özlüyündə heç bir proqram onun obyekti olan problemi avtomatik olaraq aradan qaldırmır. Dövlət proqramları yalnız konkret şərtlər daxilində yerinə yetirilə bilər. Yüksək xərctutumlu regional proqramların maliyyə təminatına malik olması, proqram çərçivəsində investisiya layihələrinin davamlı olaraq maliyyələşdirilməsi onun uğurlu icrasını təmin etmişdir.

Regional problemlərin həlli həm də regional inkişaf proqramının icrasının digər sosial-iqtisadi inkişaf proqramları ilə əlaqələndirilməsindən, iqtisadiyyatda, o cümlədən sənayedə struktur dəyişikliklərinin sürətindən və miqyasından asılıdır. Heç şübhəsiz, Azərbaycanda itirilmiş iqtisadi potensialın bərpası nə qədər zəruri olsa da, bu, heç də köhnə iqtisadi baza, sənaye strukturu əsasında təmin edilməməlidir və edilə də bilməz. Çünki nə əvvəlki vahid xalq təsərrüfatı kompleksi var, nə də ki ittifaq bazarı. Ölkə iqtisadiyyatının strukturu yeni dövrün tələbləri baxımından nə qədər tez dəyişərsə, regionların iqtisadi potensialını da daha tez hərəkətə gətirmək olar. Bu sahədə görülən işlərin davamlı olması buna inam yaradır.

## Ərzaq təhlükəsizliyi və aqrar sahədə dövlət siyasəti

Hər bir ölkənin ərzaq təhlükəsizliyi milli iqtisadi təhlükəsizliyin əsas şərtlərindən və həlledici elementlərindən biridir. O, hər şeydən əvvəl daxili bazarda yetərli həcmdə ərzaq məhsullarının mövcudluğunu və əhalinin bu məhsullara olan tələbatının ödənilməsini nəzərdə tutur. Ərzaq təhlükəsizliyi həm də ölkənin ərzaq təminatı sahəsində müstəqilliyini, dövlətin iqtisadi və sosial dayaqlarının nə dərəcədə möhkəm olmasını xarakterizə edir.

Bu baxımdan ərzaq təhlükəsizliyinin iki aspektini - sosial-iqtisadi və siyasi-iqtisadi aspektlərini qeyd edə bilərik. Sosial-iqtisadi aspektə görə hər bir dövlət öz vətəndaşlarının əsas qida məhsulları üzrə istehlakını qəbul edilmiş norma və standartlara uyğun olaraq təmin etməlidir. Bu öhdəlik “Ümumdünya Ərzaq Təhlükəsizliyinə dair” Roma Bəyannaməsində müəyyən edilmişdir.

Ərzaq təhlükəsizliyinin siyasi-iqtisadi aspekti isə əhalinin ərzaqla təminatının yerli istehsala əsaslanmasını və ölkənin ərzaq asılılığının minimuma endirilməsini xarakterizə edir.

Ərzaq təhlükəsizliyi artıq dünya təcrübəsində qəbul edilmiş və hazırda geniş istifadə olunan anlayışdır. O, mahiyyətcə, ölkənin ərzaq bazarını, eyni zamanda, milli iqtisadiyyatın mövcud vəziyyətini səciyyələndirir. Beynəlxalq səviyyədə ərzaq təhlükəsizliyi terminindən ilk dəfə olaraq 1972-1973-cü illərdən, yəni dünyanı bürümüş taxıl böhranından sonra istifadə edilmişdir.

Azərbaycanda ərzaq təhlükəsizliyi sahəsində vəziyyət heç də həmişə sabit olmayıb. Məsələn, 1990-cı illərin əvvəllərində keçmiş ittifaqın digər respublikalarında olduğu kimi, Azərbaycanda da istehlak bazarı kəskin qıtlıq dövrü keçirirdi. Həmin illərdə əsas ərzaq məhsullarına olan tələbat minimal səviyyədə ödənilirdi. Bəzi məhsullara hətta talon sistemi tətbiq edilirdi. Bunun nəticəsində əhalinin qida məhsulları üzrə istehlak səviyyəsi də kəskin şəkildə aşağı düşmüşdür. Lakin 1994-cü ildən başlayaraq ticarət rejiminin liberallaşdırılması bir tərəfdən daxili bazarın idxal məhsulları ilə təmin edilməsinə, digər tərəfdən də idxalın strukturunda ərzaq məhsullarının payının əhəmiyyətli dərəcədə artmasına gətirib çıxardı. Yerli istehsalçılar ərzaq bazarında itirmiş olduqları mövqeləri aqrar islahatların həyata keçirilməsindən sonra tədricən bərpa etməyə başlamışlar.

Dünya təcrübəsinə əsasən ərzaq təhlükəsizliyi ərzaq təminatı sahəsində ölkənin nə dərəcədə müstəqil olması meyarına görə qiymətləndirilir. Bu meyara əsasən idxal olunan ərzaq məhsulunun həcmi həmin məhsulun ölkə üzrə istehlakının 30 faizindən çox olmamalıdır.

1990-cı illərin əvvəllərində Azərbaycanda ərzaqla özünütəminetmə səviyyəsi təhlükəli hesab edilən kritik həddi keçmişdi. Həmin illərdə ölkəyə gətirilən ərzaq məhsulları ümumi idxalın 65-70 faizini təşkil edirdisə, son 5 ildə bu göstərici orta hesabla 14-15 faiz arasında dəyişir. Son illər kənd təsərrüfatına dövlət dəstəyinin artırılması nəticəsində ölkəmizin ərzaq məhsulları üzrə idxaldan asılılığı azalmaqdadır.

Hazırda bütün növ ərzaq məhsullarının idxalının azaldılması və ya tamamilə ləğv edilməsi bir məqsəd kimi qarşıya qoyula bilməz. İndiki mərhələdə söhbət yalnız ölkənin ərzaq idxalından asılılığını minimuma endirməkdən gedə bilər. Məsələ burasındadır ki, istehlak bazarında realizə olunan bir çox məhsulların tamamilə yerli istehsal hesabına təşkili müəyyən zaman tələb edir. Bu səbəbdən də istehlak üçün zəruri olan həmin məhsulların idxalının məhdudlaşdırılması yolverilməzdir.

[14] İlham Əliyev “İnkişaf - məqsədimizdir”, 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 19
[15] İlham Əliyev “İnkişaf - məqsədimizdir”, 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 181
[16] İlham Əliyev "İnkişaf - məqsədimizdir", 2-ci kitab, Azərnəşr, Bakı 2009, səh. 53

# inkişaf strategiyasının əsas istiqamətləri

Əks halda, bu, ərzaq bazarında vəziyyətin gərginləşməsinə, xüsusilə də qiymətlərin yüksəlməsinə, əhalinin ərzaq təminatının pisləşməsinə, istehlak səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər.

Ərzaq təhlükəsizliyinin əsas şərti əhalinin ərzağa olan tələbatının tam ödənilməsi və bununla da qida məhsullarının normal səviyyədə istehlakının təmin edilməsidir. Qida məhsulları istehlakının yaxşılaşdırılması hər şeydən əvvəl əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsindən asılıdır. Deməli, hər bir ölkənin ərzaq təhlükəsizliyi təkcə aqrar sahədə mövcud olan problemləri aradan qaldırmaqla təmin edilmir. Belə bir təhlükəsizlik həm də cəmiyyətdəki bir sıra sosial-iqtisadi problemlərin sistemli və kompleks həllini şərtləndirir. Təhlil göstərir ki, son 20 ildə Azərbaycanda əhalinin qida məhsulları üzrə istehlakının istər həcmində, istərsə də strukturunda müsbət dəyişikliklər müşahidə edilib. Həyat səviyyəsinin yaxşılaşması, əhalinin real pul gəlirlərinin artması ərzaq məhsullarının adambaşına istehlakının yüksəlməsinə şərait yaratmışdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi həm də istehlak olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılmasını və keyfiyyətə səmərəli nəzarət mexanizminin qurulmasını tələb edir. Təsadüfi deyildir ki, qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı təmin etmək, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq məqsədi ilə Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır.

Ölkənin ərzaq təminatı hər şeydən əvvəl kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün aqrar sektorda kök salmış problemlərin həlli tələb olunur.

Ümummilli lider Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş torpaq islahatları kənd təsərrüfatında yeni iqtisadi münasibətlərin əsasını qoydu. 1995-ci ildə "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında", 1996-cı ildə isə "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi.

Aqrar sahədə islahatların həyata keçirilməsi, kolxoz və sovxozların ləğvi, onlara məxsus bütün əmlakın kənd əhalisinə pulsuz paylanması, kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin özəlləşdirilməsi ölkənin aqrar potensialından daha səmərəli istifadə etməyə əlverişli şərait yaratmışdır. Artıq özəl sektorun aqrar istehsalda payı 99,7 faiz təşkil edir. Bu, Azərbaycanda aqrar sektorun bazar münasibətləri əsasında inkişaf etdiyini göstərir.

Hələ 1995-ci il avqustun 25-də kənd təsərrüfatına dair müşavirədə ulu öndər belə bir fikir söyləmişdir: "Söz yox ki, torpaqlar bölünüb paylanacaq və torpaq islahatı haqqında qanunun qəbul edilməsini də tezləşdirəcəyik. Amma indiki şəraitdə torpaqdan səmərəli istifadə etmək lazımdır"[17]. Təsadüfi deyildir ki, hazırda torpaqdan səmərəli istifadə edilməsi məsələləri aqrar siyasətin ana xəttini təşkil edir.

Kənd təsərrüfatı multiplikator rolunu oynayaraq iqtisadiyyatın digər sahələrinin də inkişafını stimullaşdırır, şaxələndirmə prosesinə həlledici təsir göstərir. Bu baxımdan kənd təsərrüfatı təkcə iqtisadi fəaliyyət növü deyil, o, həm də iqtisadi inkişafın təkanverici qüvvəsidir. Bu, həmin sahənin sinergetik, sistemyaradıcı xüsusiyyətindən irəli gəlir.

İqtisadi inkişafın yeni mərhələsində aqrar islahatların qanunvericilik bazasının formalaşması, torpaq üzərində xüsusi mülkiyyət münasibətlərinin təşəkkül tapması, aqrar sektorun özəl bölməyə əsaslanması, ölkədə əksər ərzaq məhsullarına tələbatın tamamilə daxili istehsal hesabına ödənilməsi, ərzaq məhsulları istehlakının müsbət dinamikası, emal müəssisələri şəbəkəsinin tədricən genişlənməsi, bir sıra kənd təsərrüfatı məhsullarının yüksək ixracat potensialı, bu sahədə inkişaf perspektivlərinin və istifadə edilməyən ehtiyatların olması kənd təsərrüfatının güclü tərəfləri kimi dəyərləndirilə bilər.

Hazırda kənd təsərrüfatının inkişaf etdirilməsi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Prezident İlham Əliyev aqrar sektorun ölkəmiz üçün önəmini nəzərə alaraq qeyd edir: "Gələcəkdə kənd təsərrüfatının inkişafına yeni proqramlar əlavə ediləcək və biz bu sahəyə maksimum dərəcədə diqqət göstərməliyik. Bu, həm təhlükəsizlik məsələsidir, həm iqtisadi məsələdir, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin, demək olar ki, yarısı kənd təsərrüfatı bölgələrində yaşayır"[18].

Azərbaycanda son 15 ildə kənd təsərrüfatı istehsalçılarının dövlət tərəfindən dəstəklənməsi istiqamətində mühüm işlər görülmüşdür. 2004-cü ildə səhmlərinin nəzarət zərfi 100 faiz dövlətə məxsus olan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradıldı.

2007-ci ildən etibarən kənd təsərrüfatı istehsalçılarının dəstəklənməsi proqramına start verildi.

Həmin dövrdən əkin sahəsinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına kənd təsərrüfatı məhsulları istehsalçılarına hər hektar sahə üçün 50 manat, həmçinin buğda və çəltik istehsalçılarına hər hektar sahəyə görə əlavə olaraq 40 manat subsidiya verilir.

Heyvandarlıqda məhsuldarlığın yüksəldilməsi, cins tərkibinin yaxşılaşdırılması məqsədi ilə dövlət vəsaiti hesabına xaricdən damazlıq heyvanlar idxal olunur və lizinq qaydasında istehsalçılara 50 faiz güzəştlə satılır.

İstehsalçılara satılan mineral gübrəyə görə verilən güzəştin həcmi 50 faizdən 70 faizə yüksəldilmiş, tətbiq edilən güzəştin ümumi məbləğinin yuxarı həddi 100 manatdan 150 manata çatdırılmış, bu güzəşt təbii mənşəli gübrələrin (biohumus) satışına da tətbiq olunmuşdur.

Həmçinin istehsalçılara satılan pestisidlərə görə 70 faizədək güzəşt tətbiq olunmuş, güzəştin ümumi məbləğinin yuxarı həddi 10 manatdan 50 manata çatdırılmışdır.

Kənd təsərrüfatı bitkilərinin (pambıq, tütün və şəkər çuğunduru istisna olmaqla) əkin sahəsinin hər hektarının becərilməsində istifadə olunan yanacaq və motor yağlarına görə dövlət büdcəsindən verilən yardımın həcmi 25 faiz artırılaraq 50 manat olmuşdur. Bu yardım artıq təkrar əkinlərə də şamil edilir.

Ölkəmizdə ilk dəfə məhsula görə subsidiyanın verilməsi mexanizmi tətbiq olunmuş və bu subsidiya siyasəti pambıq, tütün, şəkər çuğunduru və baramaya şamil edilmişdir. Belə ki, istehsalçılara emal müəssisələrinə təhvil verdikləri xam pambığın hər 1 kiloqramına görə 0,1 manat, quru tütünün hər 1 kiloqramına və ya yaş tütünün hər 10 kiloqramına görə 0,05 manat, şəkər çuğundurunun hər tonuna görə 4 manat və yaş baramanın hər kiloqramına görə isə 5 manat məbləğində subsidiya verilməsi müəyyən edilmişdir.

"Aqrolizinq" ASC tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan kənd təsərrüfatı texnikalarının və müasir suvarma sistemlərinin dəyərinə 40 faiz həcmində güzəşt tətbiq edilir.

Aqrar sahədə həyata keçirilmiş dövlət dəstəyi tədbirləri nəticəsində 2003-2017-ci illərdə Azərbaycandan ixrac olunan kənd təsərrüfatı məhsullarının həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə artmışdır.

"Aqrolizinq" ASC-nin xətti ilə ümumilikdə 2005-2017-ci illər ərzində 38222 kənd təsərrüfatı texnikası, o cümlədən 1872 taxılyığan kombayn, 296 pambıqyığan kombayn, 10853 traktor və 25201 digər texnikalar alınaraq lizinq yolu ilə sahibkarlara satılmış və ya istehsalçılara xidmət üçün rayonlardakı aqrotexniki servis mərkəzlərinə verilmişdir.

"Aqrolizinq" ASC tərəfindən 2009-2017-ci illər ərzində idxal olunmuş 26513 baş iribuynuzlu və 5947 baş xırdabuynuzlu məhsuldar cins heyvanlar 50 faiz güzəştli qiymətlərlə 1121 sahibkara satılmışdır.

2007-2017-ci illər ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq və motor yağlarına görə 604,2 milyon manat, buğda və çəltik əkininə görə 219,9 milyon manat, həmçinin gübrənin güzəştli satışına görə 300,0 milyon manat həcmində büdcə vəsaiti ayrılmışdır.

Bu dövrdə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı sahəsində çalışan 31990 sahibkara dövlət büdcəsi vəsaiti hesabına 1,5 mlrd. manat həcmində kredit verilmişdir.

İndiyə kimi ölkədə 32 iri fermer təsərrüfatı yaradılıb və bu layihələrə 70,5 milyon manat güzəştli kredit ayrılıb. Hazırda 43 aqroparkın yaradılması istiqamətində intensiv işlər aparılır.

Son 15 ildə meliorasiya-irriqasiya sisteminin inkişaf etdirilməsi məqsədi ilə həyata keçirilən böyükmiqyaslı layihələr hesabına 360 min hektar sahədə torpaqların su təminatı yaxşılaşdırılmış, 127 min hektar sahə yeni suvarılan torpaqlar kimi əkin dövriyyəsinə əlavə edilmiş, həmçinin 256 min hektar sahədə meliorativ tədbirlər görülmüşdür. Ümumi tutumu 460 milyon kubmetrə yaxın olan Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları tikilib istifadəyə verilmişdir. Meliorasiya və irriqasiya tədbirləri çərçivəsində 4 min kilometr suvarma kanalı tikilmiş və ya yenidən qurulmuş, 2481 kilometr kollektor-drenaj şəbəkəsinin bərpası, yenidən qurulması və tikintisi işləri həyata keçirilmişdir.

Hazırda Prezident İlham Əliyev tərəfindən aqrar sektorun inkişafına dair yeni vəzifələr müəyyən edilmişdir. Bu vəzifələr müasir aqrar-sənaye kompleksinin formalaşdırılmasından, yeni texnologiyaların tətbiqindən, ixrac imkanlarının genişləndirilməsindən, intensiv inkişafın və rayonlar üzrə ixtisaslaşmanın təmin edilməsindən və s. bu kimi məsələlərdən ibarətdir.

Yaxın illər ərzində pambıq istehsalının təqribən 500 min tona, tütün istehsalının 12 min tona, çəltik istehsalının 40 min tona, barama istehsalının 6 min tona çatdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Aqrar siyasət, o cümlədən kənd təsərrüfatına dəstək heç də aqrobiznesin bütün məsuliyyətinin dövlətin üzərinə qoyulması demək deyil. Aqrar sektora dövlət dəstəyinin gücləndirilməsi kənd təsərrüfatı istehsalçılarında ələbaxımlılıq vərdişləri yaratmamalıdır. Kənd təsərrüfatı dövlət dəstəyinə baxmayaraq, bazar iqtisadiyyatı "relsləri" üzərində inkişaf etməlidir.

Kənd təsərrüfatı ölkə iqtisadiyyatının mühüm tərkib hissəsi olduğuna görə, o, ümumi inkişaf kontekstində nəzərdən keçirilməlidir. Təsadüfi deyildir ki, son illər Azərbaycan iqtisadiyyatının dinamik inkişafı, maliyyə imkanlarımızın genişlənməsi kənd təsərrüfatı üçün də yeni imkanlar açmışdır. Dövlətin subsidiyalaşdırma siyasəti kənd təsərrüfatı istehsalçılarına, onların gəlirlərinə, istehlak xərclərinə müsbət təsir göstərmişdir.

Aqrar siyasətin ölkənin ümumi iqtisadi inkişaf strategiyası ilə uzlaşdırılması makroiqtisadi sabitliyin saxlanılması, inflyasiyanın cilovlanması, qeyri-neft sektorunun və regionların inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Aqrar siyasət kənd təsərrüfatına investisiya qoyuluşlarının artırılmasını nəzərdə tutur. Bu sahəyə investisiyaların cəlb edilməsi iqtisadiyyatın şaxələndirilməsinin əsas şərtidir. Bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da mənfəət investisiya qoyuluşlarını stimullaşdırmalıdır. Deməli, aqrar-sənaye kompleksinə kredit və investisiya qoyuluşlarının artırılması, ilk növbədə, bu sahənin gəlirliliyinin təmin edilməsindən asılıdır.

Hazırda kənd təsərrüfatının inkişaf perspektivləri aqrar-sənaye kompleksi (ASK) kontekstində dəyərləndirilir. Belə ki, ASK özü bir tam olaraq aqrar sektoru, kənd təsərrüfatı məhsullarının emalını, istehsal infrastrukturunu, ərzaq və istehsal vasitələri bazarını özündə birləşdirir. Başqa sözlə, aqrar siyasət təkcə kənd təsərrüfatı istehsalını deyil, həm də məhsul zəncirinin bütün halqalarını - istehsalı, emalı və satışı da əhatə edir. Bu, aqrar sektorun mövcud problemlərinə sistemli yanaşmanı təmin etməklə, onların kompleks həllinə şərait yaradır.

Aqrar siyasət kənd təsərrüfatının dövlət tənzimlənməsi ilə bazar mexanizminin daha sıx əlaqələndirilməsinə istiqamətlənməlidir. Aqrar sahəyə dövlət dəstəyi nə qədər zəruri olsa da, bu siyasət yalnız bazar alətlərinə və iqtisadi stimullara əsaslanmalıdır. Başqa sözlə, kənd təsərrüfatının subsidiyalaşdırılan bir sektor olmasına baxmayaraq, sahənin dəstəklənməsində bazar iqtisadiyyatının müasir mexanizmlərindən istifadə edilməli və aqrar siyasətin səmərəliliyi təmin edilməlidir.

"Kənd təsərrüfatının intensiv yollarla inkişaf etməsi çox vacibdir... Azərbaycanda torpaqlar çox deyil, biz torpağın hər bir qarışından səmərəli istifadə edilməsi üçün lazımi tədbirlər görməliyik"[19]. Prezident İlham Əliyevin bu tövsiyəsi aqrar siyasətin əsas hədəfini müəyyən etməklə yanaşı, həm torpaqlardan səmərəli istifadəni, həm də sahənin rəqabətqabiliyyətinin təmin edilməsini nəzərdə tutur.

Kənd təsərrüfatının inkişafını xarakterizə edən kəmiyyət göstəricilərinin keyfiyyət göstəricilərini tamamlaması prinsipial əhəmiyyət kəsb edir. Aqrar siyasət nəticəsində kənd təsərrüfatı istehsalı həcminin artırılması ilə yanaşı, əmək məhsuldarlığının, istehsalın rentabelliyinin yüksəldilməsinə, intensiv inkişafa nail olmalıyıq. Məhz belə bir yanaşma son nəticədə kənd təsərrüfatının səmərəliliyini təmin edə bilər.

Ölkəmizdə bir təsərrüfata düşən əkin sahəsi orta hesabla 2 hektardan azdır. Bu isə istehsalın səmərəli təşkilinə imkan vermir. Bunu nəzərə alaraq, kənd təsərrüfatında kooperasiyanı təşviq edən stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Bəzən kooperasiyanı kolxozların bərpası kimi qəbul edirlər. Halbuki sovet dövründə kolxoz üzvləri torpaq üzərində xüsusi mülkiyyət hüququna malik deyildilər. Kooperasiya isə xüsusi torpaq mülkiyyətçilərinin könüllülük əsasında birgə təsərrüfatçılıq fəaliyyətini nəzərdə tutur. Prezident İlham Əliyev tərəfindən kənd təsərrüfatı kooperasiyasına dair qanunun və dövlət proqramının qəbul edilməsi kooperativ əsasda təşkil olunan iri təsərrüfatların qurulmasına şərait yaradacaqdır.

Yeni dövr kənd təsərrüfatında innovasiyaların tətbiqini şərtləndirir. Ərzaq məhsulları istehsalında böyük nəticələr əldə etmiş ölkələr buna "yaşıl inqilab" nəticəsində nail olmuşlar. İqtisadi inkişafın yaratdığı imkanlar aqrar sektorda innovasiyaların tətbiqinə şərait yaradır.

Aqrar siyasət konservləşdirilmiş vəziyyətdə qala bilməz. İqtisadiyyat dinamik inkişaf etdiyi üçün dövlətin kənd təsərrüfatına münasibətdə həyata keçirdiyi siyasət də daxili və xarici amillər nəzərə alınmaqla davamlı olaraq yeniləşir.

Aqrar siyasətin yeni dövrün tələblərinə uyğunlaşdırılması və kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi ərzaq təhlükəsizliyinin etibarlı təminatı baxımından mühüm əhəmiyyət kəsb edir.

Hazırda dövlət başçısı tərəfindən aqrar sektorun müxtəlif sahələri ilə bağlı dövlət proqramları qəbul edilməkdədir. Bu proqramlar, eyni zamanda, dövlətin kənd təsərrüfatına, kəndə və kəndliyə münasibətini əks etdirir.

Kənd təsərrüfatında texnoloji yeniləşmə, məhsuldarlıq nə qədər vacib olsa da, kəndin sosial məsələləri kölgədə qala bilməz. Buna görə də aqrar sektorun inkişafına kəndin kompleks inkişafı, sosial məsələlərin həlli kontekstində baxılmaqdadır. Ölkə rəhbərliyinin həyata keçirdiyi aqrar siyasət kəndin inkişafına, xüsusilə də kənd ərazilərində müasir infrastrukturun yaradılmasına, kənddə həyat səviyyəsinin yüksəldilməsinə və məşğulluğun təmin edilməsinə xidmət edir.

İqtisadi artım yükünün neft sektorundan qeyri-neft sektoruna keçdiyi bir vaxtda aqrar siyasət iqtisadiyyatın şaxələndirilməsini dəstəkləməlidir. Kənd təsərrüfatının inkişafı sahəsində mövcud imkanların tədricən reallaşdırılması bu sektoru yaxın perspektivdə iqtisadiyyatın aparıcı sahəsinə çevirəcəkdir.

## Azərbaycanın məşğulluq strategiyası

İşsizlik inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir cəmiyyətin ən ağrılı sosial-iqtisadi problemlərindən biridir. Sovet İttifaqının mövcud olduğu 70 il ərzində aparılan tədqiqatlar və həyata keçirilən ideoloji təbliğat sosialist iqtisadiyyatının kapitalist iqtisadi sistemindən daha üstün olması təsəvvürünün formalaşdırılmasına xidmət edirdi. İttifaq dövləti kapitalizmə xas olan problemlərin sovet iqtisadiyyatında da kök salmasının qarşısını hər vəchlə almağa çalışırdı. Sovet cəmiyyətində, xüsusilə də işsizlikdən söhbət gedə bilməzdi. Sosial xarakterli bu problemin yaranmasına yol verməmək üçün dövlətin həyata keçirdiyi tədbirlər iqtisadiyyatın qeyri-səmərəli fəaliyyətinə səbəb olurdu. Əməktutumluluğu yüksək, məhsuldarlığı isə aşağı olan sosialist müəssisələri kapitalist firmaları ilə müqayisədə həm keyfiyyət, həm də səmərəlilik göstəricilərinə görə geri qalırdı. Amirlik iqtisadiyyatı dövründə işsiz olan hər bir kəsə tüfeyli damğası vurulur və həmin şəxslər inzibati məsuliyyətə cəlb edilirdilər.

Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatda isə işsizliyin mövcud olması təbii hal kimi qiymətləndirilir. Buna görə də hər bir ölkədə işsizliklə mübarizə onun tamamilə aradan qaldırılmasına deyil, azaldılmasına yönəldilir. İşsizlik yalnız iqtisadiyyat üçün təhlükəli həddi keçdikdə, yəni kütləvi hal aldıqda, iqtisadi böhranla müşayiət edildikdə ciddi sosial problemlərə səbəb olur.

Prezident İlham Əliyev hələ 2003-cü ildə seçkiqabağı çıxışlarında işsizliyi qarşıda duran ən mühüm problem kimi qeyd etmiş və növbəti 5 ildə 600 min yeni iş yerinin açılacağını əsas vəzifə kimi müəyyən etmişdir.

Təqdirəlayiq haldır ki, ölkə rəhbərliyinin son 15 ildə həyata keçirdiyi məşğulluq strategiyası çərçivəsində 1,9 milyon yeni iş yeri (o cümlədən 1,4 milyonu daimi) açılmış, işsizlik səviyyəsi 5 faizədək azalmışdır. Məşğulluğun təmin edilməsi vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına şərait yaratmışdır.

2003-2017-ci illər ərzində işsizlik müavinətinin orta aylıq məbləği 11,4 dəfə artaraq 267,5 manat, bu məqsədlər üçün xərclənən illik vəsaitin həcmi isə 16,8 dəfə artaraq 17,6 milyon manat təşkil etmişdir.

Ölkədə bazar münasibətlərinin tədricən formalaşması iqtisadiyyatın, o cümlədən məşğulluğun strukturunda da əsaslı dəyişikliklərə səbəb olmuşdur. Əgər 1995-ci ildə dövlət sektorunda məşğul əhalinin 56 faizi çalışırdısa, 2016-cı ildə bu göstərici 24,6 faizə enmişdir. Qeyri-dövlət bölməsinin məşğulluğun strukturundakı payı isə müvafiq olaraq 44 faizdən 75,4 faizə yüksəlmişdir. Belə bir tendensiya əhalinin məşğulluğu ilə bağlı əsas yükün dövlətin deyil, artıq xüsusi bölmənin üzərinə düşdüyünü göstərir.

Məlum olduğu kimi, işsizliyin tsiklik, struktur və müvəqqəti formaları mövcuddur. İşsizliyin bu formaları demək olar ki, ölkə iqtisadiyyatında bu və ya digər formada özünü göstərməkdədir. Əgər iqtisadiyyatın, o cümlədən sənayenin strukturunda baş verən köklü dəyişikliklər struktur işsizliyinin kəskinləşməsinə səbəb olursa, əməkhaqqının sahələr və sektorlar üzrə differensasiyasının dərinləşməsi müvəqqəti işsizliyə gətirib çıxarır. Ölkədə işsizliyin müxtəlif formalarda təzahür etməsi bu problemin müxtəlif amillərin təsiri ilə yarandığını göstərir. Bu baxımdan məşğulluq siyasəti çoxşaxəli olmalı və işsizliyə birbaşa və dolayı təsir göstərən bütün amillərin təsirini aradan qaldırmalı və ya minimuma endirməlidir.

Sosial-iqtisadi inkişafın yeni mərhələsində işsizlik probleminin təhlili xüsusi aktuallıq kəsb edir. İşsizlik bir tərəfdən iqtisadi transformasiyanın nəticəsi kimi, digər tərəfdən də sovet iqtisadiyyatının miras qoyduğu ən ağır problemlərdən biri kimi qiymətləndirilməlidir. Buna görə də işsizliyin azaldılması sistemli və kompleks tədbirlərin həyata keçirilməsini tələb edir.

İşsizliyin qarşısının alınması hər şeydən əvvəl ölkədə normal fəaliyyət göstərən əmək bazarının formalaşdırılmasından və onun çevik tənzimlənməsindən asılıdır. Eyni zamanda, yeni dövrün reallıqlarını, əhalinin milli xüsusiyyətlərini və mentalitetini nəzərə alan məşğulluq siyasəti müəyyən edilməli və həyata keçirilməlidir. Heç şübhəsiz, belə bir siyasət həm də dünya ölkələrinin bu sahədə müvafiq təcrübəsini nəzərə almalıdır.

İşsizlərə dövlət yardımı ilə bağlı tədbirlər məşğulluq siyasətinin yalnız bir hissəsini təşkil etməlidir. Məşğulluq siyasəti potensialı reallaşdırılmayan işçi qüvvəsindən tam istifadə edilməsini, məhsuldar və yüksək ödənişli məşğulluq üçün şəraitin yaradılmasını, əmək bazarında təklifin tələbə uyğunlaşdırılmasını, əmək məhsuldarlığını artırmaq məqsədi ilə insan kapitalına investisiya qoyuluşunun artırılmasını təmin etməlidir. Dövlət orqanları işsizlərin yenidən ixtisaslaşmasını və peşə hazırlığını təşkil etməklə, işçi qüvvəsinin əmək bazarının tələblərinə adaptasiyasına şərait yaratmalıdır.

Ölkədə yeni iş yerlərinin açılması özəl sektorun inkişafından bilavasitə asılıdır. Özəl sektor nə qədər dinamik inkişaf edərsə, onun maliyyə imkanları nə qədər genişlənərsə, dövlətin işsizliklə bağlı qayğıları da bir o qədər azalmış olar. Xüsusilə də kiçik biznesin inkişafına daha çox şərait yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, əksər ölkələrdə yeni iş yerləri iri şirkətlərdə deyil, əsasən orta və kiçik müəssisələrdə açılır.

Ölkədə məşğulluğun strukturuna həlledici təsir göstərən amillərdən biri əməkhaqqının differensasiyasının dərinləşməsidir. Əməkhaqqının sahələr üzrə bir-birindən kəskin fərqlənməsi işçi qüvvəsinin də sahələr üzrə qeyri-bərabər bölgüsünə gətirib çıxarır. Bəzi sahələrdə əməkhaqqının aşağı olması, eyni zamanda, əməyin keyfiyyətinin və əmək intizamının aşağı düşməsinə səbəb olur. İşsizliklə bağlı problemin həlli ölkə vətəndaşlarının təkcə iş yerləri ilə təmin olunması ilə bitmir. İş yerləri məşğul əhalini həm də yüksək əməkhaqqı ilə təmin etməlidir. Həmin əməkhaqqı da işçilərin təkrar istehsalına şərait yaratmalıdır. Yəni, hər bir işçi öz iş qüvvəsini yenidən bərpa etmək imkanına malik olmalıdır.

Məlum olduğu kimi, 1997-ci ildən ölkədə əmək yarmarkaları təşkil edilir. Onun vasitəsilə indiyə kimi on minlərlə ölkə vətəndaşı işlə təmin edilmişdir. Lakin əmək yarmarkaları əhalinin məşğulluğunun təmin edilməsində yalnız köməkçi rol oynayır. Yəni, işsiz vətəndaşlar həmin yarmarkaların vasitəsilə mövcud vakansiyalar barədə məlumatlar əldə edir və iş yeri axtarmaq üçün məşğulluq mərkəzlərinin xidmətlərindən istifadə edirlər. Problemin köklü həlli isə yeni iş yerlərinin açılmasından ibarətdir.

Əsas fondların və investisiyaların regionlar üzrə qeyri-bərabər bölgüsü də məşğulluq problemini kəskinləşdirir. Uzun illər Azərbaycanın paytaxtdankənar rayonlarında bəzi sənaye müəssisələrinin öz fəaliyyətlərini dayandırması regional işsizliyin səviyyəsini artırmışdır. Son illər investisiyaların regionlara yönəldilməsi, dövlət səviyyəsində ardıcıl olaraq regional inkişaf proqramlarının həyata keçirilməsi paytaxta işçi qüvvəsi axınını xeyli azaltmışdır.

Azərbaycanda qeyri-neft sektorunun, xüsusilə də idxalı əvəz edən sənaye sahələrinin inkişaf etdirilməsi məşğulluğun təmin edilməsində həlledici rol oynaya bilər. Bu baxımdan ölkədə yeyinti sənayesinin və yüngül sənayenin inkişaf etdirilməsi bir tərəfdən daxili bazarın inkişafına, digər tərəfdən də məşğulluq sahəsində mövcud imkanların artırılmasına şərait yaradacaqdır.

Hazırda ölkədə həyata keçirilən iqtisadi siyasət işsizliyin yaranma imkanlarının məhdudlaşdırılmasına, sosial siyasət isə işsizlik probleminin doğurduğu fəsadların aradan qaldırılmasına yönəldilmişdir.

Əhalinin məşğulluğunun təmin edilməsi sahəsində "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı" və "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" uğurla icra olunmuşdur.

2016-cı ildən etibarən əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində tədbirlərin həyata keçirilməsi ilə məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələnin əsası qoyuldu. Özünüməşğulluq işsiz və işaxtaran şəxslərin əmək potensialının reallaşdırmasına və nəticə etibarilə onların gəlirlərinin artırılmasına, ölkədə yeni iş yerlərinin açılmasına, kiçik və orta sahibkarlığın inkişafına şərait yaradır.

İşsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və onların aktiv məşğulluq tədbirlərinə cəlb olunması, passiv əmək bazarı proqramlarından aktiv proqramlara keçidin əhatəliliyinin genişləndirilməsi məqsədi ilə ölkədə 2018-ci il 1 yanvar tarixindən işsizlikdən sığorta sisteminin tətbiqinə başlanılmışdır.

## Yoxsulluğun azaldılması strategiyası

Yoxsulluq istənilən cəmiyyətə xas olan çoxşaxəli sosial-iqtisadi problemdir. Yoxsulluğun azaldılması təkcə humanistlik prinsiplərindən irəli gəlmir, bunu həm də gələcək nəsillərin fiziki, əmək və intellektual potensialının qorunub saxlanılması və inkişaf etdirilməsi zəruriliyi diktə edir. Buna görə də yoxsulluq problemi qlobal səviyyədə olduğu kimi, həm də ölkəmizdə daim diqqət mərkəzindədir. Seçilmiş iqtisadi inkişaf modelindən asılı olmayaraq, hər bir dövlətin öz sosial funksiyalarını nə dərəcədə səmərəli həyata keçirməsi aztəminatlı təbəqənin maddi təminatı və yoxsulluğun səviyyəsi ilə müəyyən olunur. Yoxsulluq mahiyyəti etibarilə hər hansı bir şəxsin öz minimal ehtiyaclarını ödəmək iqtidarında olmamasıdır. Bu cür insanlar öz əmək qabiliyyətini qoruyub saxlamaqda, potensialını reallaşdırmaqda, maddi və mənəvi ehtiyaclarını ödəməkdə, özlərini cəmiyyətdə təsdiq etməkdə çətinlik çəkirlər. Yoxsulluq hər bir insanda daim qorxu hissi və müdafiəsizlik sindromu yaradır.

*Ardı 14-cü səh.*

[17] **Heydər Əliyev "Müstəqilliyimiz əbədidir", 4-cü kitab, Azərnəşr, Bakı 1997, səh. 105**
[18] **İlham Əliyev "İnkişaf - məqsədimizdir", 35-ci kitab, Azərnəşr, Bakı 2016, səh. 89**
[19] **İlham Əliyev "İnkişaf - məqsədimizdir", 31-ci kitab, Azərnəşr, Bakı 2016, səh. 273**

# Prezident İLHAM ƏLİYEVİN iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

Əvvəli 13-cü səh.

Yoxsulluq təkcə sosial-iqtisadi problem deyil, həm də demokratik inkişaf üçün bir maneədir. Dünya təcrübəsi göstərir ki, yoxsulluq səviyyəsi yüksək olan ölkələrdə demokratikləşmə prosesi bir qayda olaraq zəif və ləng gedir. Adam Smit hələ vaxtilə qeyd etmişdir ki, əhalisinin böyük bir hissəsi yoxsul olan cəmiyyət inkişaf edib xoşbəxt ola bilməz. Yoxsulluq səviyyəsinin yüksək olması kütləvi savadsızlığa, cinayətkarlığın artmasına, mənəviyyatın deformasiyasına gətirib çıxarır.

Yoxsulluq bir tərəfdən gəlirlərin və istehlakın ən aşağı səviyyədə olmasıdırsa, digər tərəfdən də təhsilin aşağı səviyyəsi, yetərincə qidalanmama, insanın səhhətində problemlər deməkdir. Buna görə də hər bir ölkədə yoxsulluqla mübarizə sosial-iqtisadi siyasətin mühüm istiqaməti kimi nəzərdə tutulur.

Bəzən yoxsulluq problemi həddən artıq şişirdilir. Dünyada yoxsulluğun mövcud olmadığı ölkə yoxdur. Hətta inkişaf etmiş ölkələr belə yoxsulluq problemini köklü şəkildə həll edə bilməyib.

Əslində, yoxsulluğun əsası amirlik iqtisadiyyatı dövründə qoyulmuşdur. Təsadüfi deyildir ki, 2002-ci ildə “Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı”nın təqdimatına həsr olunmuş konfransda ulu öndər Heydər Əliyev öz nitqində bu məsələ ilə bağlı fikirlərini belə açıqlamışdır: “Keçmiş sovetlər ittifaqına mənsub olan ölkələrdə, məlumdur ki, SSRİ dağılandan sonra çox ağır sosial-iqtisadi proseslər gedib və getməkdədir. Sovetlər ittifaqı dövründə də insanların hamısı eyni səviyyədə yaşamırdı. Respublikaların vəziyyətləri də müxtəlif idi. Amma, ümumiyyətlə, yoxsulluq mövcud idi. Bəlkə də o vaxt sovet sistemində hamının eyni səviyyədə yaşaması prinsipi prizmasından baxanda kimin yoxsul olması, kimin olmaması, o qədər də görünmürdü. Ümumiyyətlə, sovetlər ittifaqında, sosialist sistemində yoxsulluq bir problem kimi müzakirə olunmurdu. Yəni, problem vardısa da, onun olması etiraf edilmirdi”[20].

Doğrudur, sovet iqtisadiyyatı dövründə yoxsulluq inkar edilsə də, faktiki olaraq o, “aztəminatlılıq” formasında təqdim edilirdi. Hələ 1975-ci ildə keçmiş SSRİ-də aztəminatlılığın həddi kimi ailənin bir üzvü üçün ayda 50 rubl müəyyən edilmişdir. Bu dövrdə aztəminatlı ailələrin xüsusi çəkisi 16 faizə çatırdı. 1985-ci ildə bu göstərici ayda 75 rubla çatdırılmışdır. İnzibati yollarla həyata keçirilən ifrat bərabərçilik siyasəti keçid dövründə yoxsulluğun kütləviləşməsinə əlverişli şərait yaratmışdır.

Məşhur iqtisadçı C.Qelbreytin təbirincə desək, keçmişdə yoxsulluq əksəriyyətin problemi idisə, bu gün o, əhalinin müəyyən bir hissəsinin problemidir. Bu fikir onu təsdiq edir ki, əvvəllər yoxsulluq geniş miqyas almaqla yanaşı, həm də daha kəskin xarakter daşıyırdı. Hətta indiki inkişaf etmiş ölkələr də yoxsulluq problemini kəskinliyi ilə yaşamışlar. Yoxsulluq yalnız keçmiş SSRİ-də əhalinin az bir hissəsindən əksəriyyətin probleminə çevrilmişdir. 1990-cı illərin əvvəllərində həyata keçirilmiş şok terapiyası bu problemin geniş miqyas almasına səbəb olmuşdur.

Bəziləri yoxsulluğu bazar iqtisadiyyatı üçün xarakterik olan bir hal hesab etdiklərinə görə onu formalaşmaqda olan yeni iqtisadi sistemin nəticəsi kimi qiymətləndirirlər. Lakin bazar iqtisadiyyatı özlüyündə yoxsulluğu doğurmur. Yoxsulluq problemi daha çox səmərəli sosial müdafiə sisteminə malik olmayan, gəlirlərin qeyri-bərabər bölgüsünün dərinləşdiyi ölkələrdə özünü büruzə verir. Bazar iqtisadiyyatının yoxsulluq adlı nə prinsipi, nə də elementi var. Əgər keçid dövründə yoxsulluq problemi kəskinliyi ilə təzahür edirsə, bu, bazar iqtisadiyyatı ilə əlaqələndirilməməlidir.

Yoxsulluq probleminin həlli iqtisadi inkişafdan asılı olduğu kimi, iqtisadi inkişafın özü də yoxsulluq probleminin həllindən asılıdır. Belə ki, həyat səviyyəsi aşağı olan, alıcılıq qabiliyyəti isə zəif olan ölkədə iqtisadi fəallıq yüksək ola bilməz. İqtisadi fəallıq alıcılıq qabiliyyətli tələbin mövcud olmasını şərtləndirir. Bir çox inkişaf etmiş ölkələrdə iqtisadi artımı təmin edən amil, həm də yüksək alıcılıq qabiliyyətinə malik ölkə vətəndaşlarıdır.

Məlum olduğu kimi, hələ 2000-ci ildə BMT Minilliklə bağlı sammitini keçirmişdir.

Bu sammitdə yeni yüzillik üçün fəaliyyət prioritetlərini müəyyən edən Minilliyin Bəyannaməsi qəbul edilmişdir. Bu prioritetlərdən ən əsası ifrat yoxsulluğu aradan qaldırmaqdan ibarətdir.

Azərbaycan yoxsulluğa və aclığa qarşı mübarizədəki uğurlarına görə Minilliyin İnkişaf Məqsədlərinin (MİM) sona çatması ilə bağlı Romada keçirilən təqdimat mərasimində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xüsusi mükafatına layiq görülmüşdür. Qürurverici haldır ki, Azərbaycan MİM-lər çərçivəsində yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu vəzifəni yerinə yetirən 18 ölkədən biri olmuşdur. Ölkəmiz həm də dünyada yoxsulluğun 5 faizdən aşağı endirilməsinə nail olan 29 ölkə sırasındadır.

BMT-nin fəal üzvü kimi qlobal problemlərin həllində iştiraka töhfə verməyə yüksək səy göstərən Azərbaycan BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən yeni Qlobal Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə qoşulmuşdur.

Yoxsulluqla mübarizəni təkcə daxili amillər deyil, həm də dünyada gedən proseslər diktə edir. Təsadüfi deyildir ki, 17 oktyabr dünyada Beynəlxalq Yoxsulluqla Mübarizə Günü kimi qeyd edilir. Hər bir ölkədə olduğu kimi, qlobal səviyyədə də regionların fərqli inkişaf səviyyəsinə malik olması, gəlirlərin qeyri-bərabər bölgüsü yoxsulluqla qlobal mübarizəni xeyli çətinləşdirir.

Əslində, dünya üzrə gəlirlərin qeyri-bərabər bölgüsünü ÜDM istehsalında ayrı-ayrı ölkələrin iştirak səviyyəsinin fərqlənməsi doğurur. Hazırda dünya üzrə istehsal olunan ÜDM-in 80 faizi dünya əhalisinin təxminən 20 faizini özündə birləşdirən inkişaf etmiş ölkələrin payına düşür. Dünyanın yerdə qalan 80 faizi isə qlobal ÜDM-in cəmi 20 faizini istehsal edir.

BMT-nin 2002-ci ildə Cənubi Afrikanın Yohannesburq şəhərində keçirildiyi sammitində müzakirə olunan əsas məsələlərdən biri yoxsul dövlətlərə yardımla bağlı olmuşdur. Belə ki, 1960-cı illərin sonunda götürülmüş öhdəliyə görə inkişaf etmiş ölkələr üçüncü dünya ölkələrinə öz ÜDM-nin 0,7 faizi həcmində yardım etməli idi. Lakin bu öhdəlik yerinə yetirilməmişdir.

Dünyada yoxsulluğun azaldılması həm də dünya iqtisadi düzənində müəyyən düzəlişlər edilməsini tələb edir. Problemin həllinə şərait yaratmaq məqsədi ilə inkişaf etmiş ölkələr öz bazarlarını inkişaf etməkdə olan ölkələrin məhsulları üçün açmalı, ədalətli ticarət şərtləri daxilində onların dünya bazarında rəqabət aparmasına imkan yaratmalıdırlar. Digər bir tərəfdən də beynəlxalq səviyyəli bəzi problemlər, xüsusilə də borcların tənzimlənməsi və maliyyə yardımlarının səmərəliliyinin artırılması təmin edilməlidir. Əks halda, zəif inkişaf etmiş ölkələr nə qədər səy göstərsələr də, onlar minillik üçün qarşıya qoyulmuş məqsədlərə nail ola bilməyəcəklər.

Keçmiş ittifaq respublikalarında, o cümlədən Azərbaycanda əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsi, əslində isə yoxsullaşma prosesi 1990-cı illərin əvvəllərində qiymətlərin liberallaşdırılması nəticəsində baş vermişdir. Bu zaman əhalinin banklarda olan əmanətləri üçün nə kompensasiyalar ödənilmiş, nə də gəlirlərin indeksləşdirilməsi həyata keçirilmişdir. Nəticədə gəlirlərin, əmanətlərin dəyərsizləşməsi prosesi müşahidə edilmişdir. Sosial gərginliyin, o cümlədən yoxsullaşmanın əsası da həmin dövrdə qoyulmuşdur.

Hər bir ölkədə iş yerlərinin məhdud olması və bu əsasda işsizliyin dərinləşməsi yoxsulluğu doğuran səbəblərdən biri kimi çıxış edir. Əmək bazarındakı differensasiya və qeyri-bərabərlik yoxsulluğun əsas səbəblərindən biridir. Belə ki, əmək bazarında aşağıödənişli iş yerlərinə malik olanların sayı çox olduqda, əmək bazarında deqradasiya baş verir, iqtisadi və sosial təbəqələşmə son nəticədə yoxsulluğa gətirib çıxarır.

Ölkədə iqtisadi artım və makroiqtisadi sabitlik təmin edildikdən sonra ümummilli lider Heydər Əliyev tərəfindən “Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005)” təsdiq edilmişdir. Bu proqram sosial problemlərin həlli yollarını göstərməklə yanaşı, həm də onun iqtisadi əsaslarını müəyyənləşdirdi. Burada islahatların iqtisadi, sosial və institusional aspektləri kompleks şəkildə əhatə olunmuşdur. Proqram bütün sosial-iqtisadi problemlərin həllinə məhz yoxsulluğun azaldılması kontekstindən yanaşmağa imkan vermiş və bir növ istiqamətverici rol oynamışdır.

Hələ 2003-cü ildə Baş nazir İlham Əliyevin prezidentliyə namizəd kimi çıxışlarının əsas tezislərindən biri də Azərbaycanda yoxsul olmamalıdır tezisi idi. O qeyd edirdi ki, Azərbaycan xalqı zəngin xalq olmalıdır. Bunun üçün hər cür şərait var. Dövlətin başlıca siyasəti bundan ibarətdir ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın və o, buna layiqdir və biz buna nail olacağıq. İmkanlarımız artdıqca, Azərbaycanın bütün vətəndaşları, bütün təbəqələr daha da yaxşı yaşayacaqdır.

Bu məqsədlə Prezident İlham Əliyev “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nı təsdiq etmişdir. Yoxsulluqla mübarizə üçün hökumət sosial müdafiə və ya sosial inkişaf proqramları da hazırlaya bilərdi. Hazırlanmış sənədin məhz bu cür adlandırılması sosial proqram və təminatların iqtisadi baza və resurslarla tamamlanması məqsədini güdür.

Yoxsulluğun azaldılması strategiyasının əsas məqsədi yoxsulluğu doğuran səbəbləri aradan qaldırmaqdan və əhalinin sosial müdafiəsi sistemini təkmilləşdirməkdən ibarətdir.

Ölkənin maliyyə ehtiyatlarının səfərbər edilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, təbəqələşmənin və gəlirlərin qeyri-bərabər bölgüsünün dərinləşməsinin qarşısının alınması yoxsulluğun azaldılması strategiyasının əsas vəzifələridir.

İqtisadi siyasətlə sosial siyasətin əlaqələndirilməsi, sosial ədalətin qorunması, vətəndaşların potensial qabiliyyətinin reallaşdırılması üçün şəraitin yaradılması, bazar münasibətlərinin inkişaf etdirilməsi, vətəndaşların dövlətdən maliyyə asılılığının azaldılması yoxsulluqla mübarizə strategiyasının əsas prinsipləri kimi müəyyən edilmişdir.

Aparılan uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik və iqtisadi artımın davamlılığı təmin edilmiş, əhalinin gəlirlərinin artırılmasına və rifahının yaxşılaşdırılmasına nail olunmuşdur. Eyni zamanda, sosial proqramların maliyyələşdirilməsi imkanlarının genişlənməsi, iqtisadiyyatın genişmiqyaslı liberallaşdırılması, sahibkarlığın təşviq edilməsi yoxsulluğun azaldılmasına əlverişli şərait yaratmışdır.

1990-cı illərin əvvəllərində 60 faiz təşkil edən yoxsulluq səviyyəsi Azərbaycanda həyata keçirilən ardıcıl və sistemli tədbirlər nəticəsində 2003-cü ildə 44,7 faizə, 2005-ci ildə 29,3 faizə, 2010-cu ildə 9,1 faizə, 2017-ci ildə 5,4 faizə endirilmişdir.

Dövlət büdcəsinin sosialyönümlü xərcləri 2003-2017-ci illərdə 10 dəfə artaraq 7,0 mlrd manata, o cümlədən dövlət büdcəsinin sosial müdafiə və sosial təminat xərcləri 11 dəfə artaraq 2,4 mlrd. manata çatmışdır.

Minimum əməkhaqqı 23 dəfədən çox artaraq 5,5 manatdan 130 manata çatdırılmışdır. Dövlət büdcəsinin səhiyyə xərcləri 12,7 dəfə artaraq 55,3 milyon manatdan 704,9 milyon manata yüksəlmişdir.

Orta aylıq əməkhaqqı 8,4 dəfə artaraq 528,2 manata çatmışdır.

BMT İnkişaf Proqramının qlobal İnsan İnkişafı Hesabatına əsasən Azərbaycan “orta insan inkişafı” ölkələri kateqoriyasından “yüksək insan inkişafı” kateqoriyasına daxil edilmişdir.

Yoxsulluğun azaldılması perspektivləri təkcə dövlətimizin iqtisadi imkanları ilə deyil, həm də ölkə vətəndaşlarının yüksək işgüzarlıq keyfiyyətləri və sahibkarlıq potensialı ilə müəyyən olunur. Azərbaycan işgüzarlıq səviyyəsinə görə nəinki MDB ölkələrini, həmçinin Şərqi Avropa ölkələrini qabaqlayır. Özəl bölmənin iqtisadiyyatda payı artır, o, məşğulluğun təmin edilməsində, əhalinin gəlirlərinin formalaşmasında həlledici rol oynayır.

Son dövrlər sahibkarlığın inkişafına yönəldilmiş tədbirlər nəticəsində özəl sektorda iqtisadi fəallığın artacağı və nəticədə yoxsulluğun daha da azalacağı gözlənilir.

Yoxsulluqdan qurtulmağın konkret bir resepti yoxdur. Bunun üçün iqtisadi, sosial və institusional sahədə kompleks tədbirlər həyata keçirilməli və onlar bir-birini tamamlamalıdır. Başqa sözlə, yoxsulluğun azaldılması üçün imkanlar yaradılmalı, bu imkanların reallaşması təmin edilməli və etibarlı sosial müdafiə sistemi formalaşdırılmalıdır.

## İqtisadi-ideoloji təbliğat və onun xüsusiyyətləri

Qloballaşma prosesinin getdikcə dərinləşdiyi və dünyada vahid siyasi-iqtisadi qaydaların bərqərar olduğu bir vaxtda sosialist və ya kapitalist iqtisadi sisteminin lehinə, yaxud da əleyhinə yönəldilmiş iqtisadi-ideoloji təbliğatın aparılmasına artıq heç bir ehtiyac qalmır. Hazırda dünya ölkələrinin iqtisadi-ideoloji fəaliyyəti və təbliğat sistemi hər hansı siyasi ehkamlar üzərində deyil, yalnız və yalnız dövlət mənafeyinin və milli iqtisadi maraqların qorunması prinsipləri üzərində qurulur. Müstəqil dövlət quruculuğu dövrünü yaşayan və milli iqtisadiyyatını formalaşdırmaqda olan Azərbaycan üçün də məhz bu prinsiplərə əsaslanan çevik iqtisadi ideoloji təbliğat mexanizminin qurulması olduqca vacibdir.

İqtisadi təbliğat sistemsiz qeyri-ardıcıl xarakter daşımamalıdır. Ölkənin siyasi rəhbərliyi tərəfindən müəyyən edilmiş iqtisadi ideologiyanın və islahatlar kursunun təbliği siyasi-ideoloji təbliğat fonunda zəif və sönük görünməməlidir. İqtisadiyyatını yeniləşdirməkdə olan və dünya miqyaslı strateji layihələr həyata keçirən müstəqil Azərbaycan Respublikasında iqtisadi təbliğat davamlı və ardıcıl xarakter daşımalıdır.

İqtisadi ideologiya dövlətin iqtisadi strategiyasını, iqtisadi islahatların konseptual əsaslarını, seçilmiş iqtisadi modelin əsas prinsiplərini, ölkənin milli iqtisadi mənafeyi və maraqları ilə bağlı məsələləri özündə birləşdirir.

Azərbaycanın seçdiyi iqtisadi inkişaf modeli və ideologiyası ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni Konstitusiyada öz əksini tapmışdır.

Belə bir ideologiyanın əsasını hər şeydən əvvəl mülkiyyət münasibətləri təşkil edir. Mülkiyyətin toxunulmazlığı və onun dövlət tərəfindən müdafiə edilməsi artıq konstitusion müddəaya çevrilmişdir. Əsas Qanuna görə mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

Ölkəmizin iqtisadi inkişaf modelinin ümumi prinsipləri də Konstitusiyada təsbit edilmişdir. Əsas Qanunda qeyd edilir ki, Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Bu müddəalar iqtisadi islahatların dönməzliyinə konstitusion təminat verməklə yanaşı, həm də bazar münasibətlərinin ölkənin iqtisadi həyatına daha dərindən nüfuz etməsi üçün hüquqi-ideoloji zəmin yaradır.

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatların son məqsədi nə ümumi daxili məhsulun həcminin artırılmasından, nə büdcə kəsirinin minimum həddə saxlanılmasından, nə də ki, valyuta ehtiyatlarını artırmaqdan ibarətdir. İslahatların başlıca strateji məqsədi ölkə iqtisadiyyatını sağlamlaşdırmaqla əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdır. Bu, Əsas Qanunumuzda da öz əksini tapmışdır. Konstitusiyada göstərilir ki, Azərbaycan iqtisadiyyatının inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Bu müddəa, həm də Azərbaycanın iqtisadi inkişaf modelinin sosialyönümlülüyünü təsbit edir. İqtisadi siyasətlə sosial siyasətin bir-biri ilə əlaqələndirilməsi müəyyən etdiyimiz iqtisadi modelin səciyyəvi xüsusiyyətlərindən biridir.

Konstitusiyamızda iqtisadi azadlığın təsbit edilməsi, eyni zamanda, insan azadlığının və cəmiyyətin demokratikləşməsinin iqtisadi-ideoloji əsası kimi qiymətləndirilə bilər. Azad cəmiyyət iqtisadiyyatın, xüsusilə də özəl bölmənin və sahibkarlığın inkişafına şərait yaratdığı kimi, azad iqtisadiyyat da cəmiyyətdə demokratik dəyişikliklərin sürətlənməsinə xidmət edir.

Ulu öndər Heydər Əliyev BVF-nin nümayəndə heyəti ilə görüşündə iqtisadiyyat və demokratiyanın qarşılıqlı əlaqəsinin mahiyyətini açan olduqca maraqlı bir fikir söyləmişdir: “İqtisadi əsas olmasa, demokratiyanı yaratmaq mümkün deyil... Azərbaycanda ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyatın tənəzzülünün qarşısının alınması və nəhayət, makroiqtisadi inkişafın əldə olunması - bunlar hamısı birlikdə Azərbaycanda həqiqi demokratiyanın yaranmasının əsaslarıdır”[21].

İqtisadi-ideoloji təbliğat ölkəmizdə həyata keçirilən iqtisadi strategiyanın, dövlətimizin milli iqtisadi maraqlarının, reallaşdırılan və nəzərdə tutulan iqtisadi tədbirlərin, qarşılaşdığımız problem və çətinliklərin vətəndaşlara davamlı şəkildə çatdırılmasını təmin etməlidir. Bu, son nəticədə vətəndaşların hüquqi və iqtisadi maarifləndirilməsinə, iqtisadi islahatların ictimailəşməsinə və cəmiyyət tərəfindən dəstəklənməsinə xidmət etmiş olar.

Bir çox ölkələr iqtisadi transformasiya prosesində ciddi sosial-iqtisadi problemlərlə qarşılaşırlar və onların həlli qısa bir müddətdə mümkün olmur. Bu baxımdan Azərbaycan iqtisadiyyatı da bu kimi problem və çətinliklərdən xali olmamışdır. Bəzən cari problemlərin təhrif edilərək dramatikləşdirilməsi yolverilməz olduğu kimi, sosial-iqtisadi problemlərimizə münasibətdə inkarçılıq mövqeyi də sağlam iqtisadi-ideoloji təbliğat prinsiplərinə uyğun gəlmir. İqtisadi problemlər xarakterindən və onları doğuran səbəblərdən asılı olmayaraq, ölkə ictimaiyyətinə vaxtında çatdırılmalıdır ki, sonradan onlar “təhrif edilmiş” və ya “siyasiləşdirilmiş” bir şəkildə təqdim edilməsin.

Ölkə iqtisadiyyatının yeniləşməsi yeni-yeni problemlərin yaranmasına səbəb olmaqla yanaşı, həm də bir sıra suallar doğurur. Bu suallar həm cari iqtisadi vəziyyətlə, həm də sosial-iqtisadi inkişafın konseptual məsələləri ilə bağlıdır. Elan edilmiş iqtisadi strategiyanın rəvan bir şəkildə davam etdirilməsi islahatların gedişi ilə bağlı ölkə vətəndaşlarında yaranan sualların vaxtında cavablandırılmasını tələb edir.

İqtisadi maarifləndirmə sahəsində görülən işlər də hələ qənaətbəxş səviyyədə deyil. Bu, hər şeydən əvvəl iqtisadi təhsilin və kadr hazırlığının müasir tələblərə uyğunlaşdırılmaması, milli iqtisadiyyatın problemlərini dünya iqtisadiyyatının inkişaf meyilləri ilə əlaqələndirən iqtisadi ədəbiyyatların hazırlanmaması və bu sahədə müvafiq tədqiqat işlərinin aparılmaması ilə izah olunur.

İqtisadi təbliğat yalnız ölkənin iqtisadi potensialının, xüsusilə də təbii sərvətlərimizin səthi bir şəkildə qiymətləndirilməsi üzərində deyil, bu potensialın Azərbaycanın milli maraqları naminə istifadəsinə şərait yarada biləcək sağlam iqtisadi sistemin formalaşdırılması məsələləri kontekstində qurulmalıdır. Nəzərə almalıyıq ki, hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da, onun həlledici şərti kimi çıxış etmir.

İqtisadi ideoloji təbliğatın milli maraqlarımıza uyğun olaraq qurulması üçün iqtisadçı alimlərin, müstəqil ekspertlərin iqtisadi problemlərin müzakirəsinə cəlb edilməsi vacibdir. Çox təəssüflər olsun ki, Azərbaycanın iqtisadi-elmi mühiti ilə iqtisadi yönümlü dövlət orqanları arasında böyük bir məsafə var. Bu məsafənin azaldılmasına cəhd göstərilməməsi bir çox hallarda iqtisadi-elmi potensialın kortəbii şəkildə siyasiləşməsinə gətirib çıxarır. Həyata keçirilən iqtisadi islahatların elmi xarakterini və mövcud problemlərə konstruktiv yanaşmanı təmin etmək üçün Azərbaycanın iqtisadi-elmi mühitinin iqtisadi quruculuq prosesində yaxından iştirakına şərait yaradılmalıdır. Nəzərə almaq lazımdır ki, iqtisadçı alimlər ölkə ziyalılarının əsas hissəsini təşkil etməklə yanaşı, həm də iqtisadi islahatların təbliğində və həyata keçirilməsində əsas qüvvə kimi çıxış edirlər.

Azərbaycan dünya təsərrüfat sisteminə daha sıx cəlb olunduqca, ölkəmizin iqtisadi inteqrasiya problemləri daha da aktuallaşır. Bu problemə iqtisadi ideologiya baxımından yanaşılması həm ölkəmizin milli iqtisadi maraqlarının, həm də azad iqtisadiyyat prinsiplərinin nəzərə alınmasını tələb edir. Dünya iqtisadiyyatında liberallaşdırma prosesinin dərinləşdiyi bir vaxtda hər bir ölkənin xarici iqtisadi əlaqələrinin forma və məzmununu, o cümlədən regional strukturunu artıq siyasi qərarlar deyil, dövlət inhisarında olmayan və sərbəst fəaliyyət göstərən bazar müəyyənləşdirir.

Azərbaycanın xarici ticarət dövriyyəsinin regional strukturuna nəzər yetirsək, son illər ərzində bu sahədə mütərəqqi dəyişikliklərin baş verdiyini görərik. Əgər 1990-cı illərin əvvəllərində ölkəmiz dünyanın təxminən 50 ölkəsi ilə xarici ticarət əməliyyatı aparırdısa, indi Azərbaycanın xarici ticarət sahəsində partnyorlarının sayı 187-dir. Bir tərəfdən iqtisadiyyatın liberallaşdırılması, digər tərəfdən də dünya iqtisadiyyatına inteqrasiya prosesi Azərbaycanın xarici ticarət dövriyyəsində “uzaq xaric” adlandırdığımız ölkələrin payını əhəmiyyətli dərəcədə artırmışdır. Bu göstərici 1990-cı illərin əvvəlləri ilə müqayisədə 2017-ci ildə 20 faizdən 85 faizədək artdığı halda, “yaxın xaric” hesab edilən MDB ölkələrinin payı, əksinə, 80 faizdən 15 faizədək azalmışdır. Bu isə öz milli iqtisadiyyatını artıq vahid xalq təsərrüfatı kompleksi çərçivəsində deyil, müstəqil şəkildə və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanaraq formalaşdıran bir ölkə üçün təbii və mütərəqqi meyil kimi qiymətləndirilə bilər. Bu baxımdan Azərbaycanın iqtisadi inteqrasiya probleminə ideoloji aspektdə yanaşıldıqda, bu kimi cəhətlərin nəzərə alınmasını zəruri hesab edirik.

Qloballaşma artıq dünya iqtisadiyyatında yeni mühit formalaşdırmaqdadır. Lakin bu prosesdən bütün ölkələr heç də eyni dərəcədə faydalana bilmir. Məsələn, qloballaşma dünya iqtisadiyyatında böyük payı olan inkişaf etmiş ölkələr üçün əlverişli bazarlar yaratdığı, onların rəqabətqabiliyyətliliyini daha da artırdığı halda, o, inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələr üçün iqtisadi təhlükəsizlik baxımından bəzi problemlər yaradır. Bunu nəzərə alaraq Azərbaycanda milli iqtisadiyyatın inkişafı və ölkəmizin dünya təsərrüfat sisteminə inteqrasiyası iqtisadi təhlükəsizlik prinsiplərini gözləməklə həyata keçirilməlidir.

Bu kimi vəzifələrin ardıcıl yerinə yetirilməsi isə müasir dünya iqtisadiyyatında və siyasətində müşahidə edilən meyilləri nəzərə alan iqtisadi diplomatiyanın qurulmasından asılıdır. Hazırda Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıl həyata keçirilən iqtisadi diplomatiya ölkəmizin milli iqtisadi maraqlarının reallaşmasına xidmət edir.

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni inkişaf mərhələsinin tələb və şərtlərini nəzərə alaraq, Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan 2018-ci il 10 yanvar tarixli iclasında və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan 2018-ci il 29 yanvar tarixli konfransda milli iqtisadiyyatımızın cari və perspektiv inkişafı ilə bağlı sistemli və çoxşaxəli vəzifələr müəyyən etmişdir.*

*Konkret olaraq, qarşıdakı dövr ərzində iqtisadiyyatı şaxələndirməklə dayanıqlı iqtisadi artıma nail olunması, makroiqtisadi sabitliyin qorunması, iqtisadi, o cümlədən institusional islahatların, strateji layihələrin icrasının davam etdirilməsi, qeyri-neft sektorunun və sahibkarlığın dəstəklənməsi, sənaye potensialının daha da gücləndirilməsi, ixracın artırılması və idxalın əvəz edilməsi, aqrar-sənaye kompleksinin və regionların inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, meliorasiya və irriqasiya sahəsində tədbirlərin görülməsi, inflyasiyanın, işsizlik və yoxsulluq səviyyəsinin minimal həddə saxlanılması və infrastruktur layihələrinin icrası hökumətin fəaliyyətinin prioritet istiqamətləri olaraq nəzərdə tutulur.*

*Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin ölkəmizin idarə edilməsi və sosial-iqtisadi inkişafı ilə bağlı aydın və konkret baxışlara, siyasi iradəyə malik olması, dövlət başçısı tərəfindən bütün sahələr üzrə konkret dövlət proqramlarının təsdiqlənməsi və onların artıq icrasına başlanılması müəyyən edilmiş vəzifələrin reallaşmasına təminat verir.*

*Beləliklə, 2003-2018-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların həyatı yaxşılaşıb. Lakin milli iqtisadiyyatını formalaşdırmaqda olan Azərbaycan Respublikası müstəqil və gənc dövlət olaraq iqtisadi dayaqlarını daha da möhkəmləndirməli, yeni dövrün çağırışlarını özünün sosial-iqtisadi həyatında daha çevik nəzərə almalıdır. Azərbaycan xalqı bu vəzifələrin məhz İlham Əliyev tərəfindən daha uğurla həyata keçirilə biləcəyini nəzərə alıb öz seçimini bir qayda olaraq ONUNLA bağlayır, dövlətimizin idarə edilməsini tərəddüd etmədən ONA etibar edir...*

[20] **Ümummilli lider Heydər Əliyevin 25 oktyabr 2002-ci ildə "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təqdimatına həsr olunmuş konfransdakı nitqindən, Aliyev-Heritage.org**

[21] **R.Mehdiyev, "Azərbaycanın özü qədər əbədi" silsiləsindən "Yeni siyasət: inkişafa doğru" kitabı, I cild, Azərbaycan nəşriyyatı, Bakı 2008, səh. 271**

# Prezident İlham Əliyev sosial dövlət modelinin praktik müstəvidə uğurla reallaşmasını təmin edib



Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun "yap.org.az" saytına müsahibəsi

*- Səlim müəllim, Azərbaycanın dinamik inkişaf şəraitində sosial dövlət statusunun güclənməsi baxımından 2003-2017-ci illəri necə xarakterizə edərdiniz?*

- Hər bir təkmil iqtisadi nəzəriyyə iqtisadi artımla sosial inkişafın səmərəli uzlaşdırılmasına və gəlirlərin ədalətli bölgüsünə əsaslanan vətəndaş rifahının təminatı prinsipini makroiqtisadi sabitliyin və tərəqqinin vacib şərti kimi müəyyənləşdirir. Digər tərəfdən, cəmiyyətin çoxaspektli həyat fəaliyyətində vətəndaşın, onun şəxsiyyətinin inkişafı, potensialının tam reallaşdırıla bilməsi, həyati vacib ehtiyaclarının təmin edilməsi üçün geniş imkanların yaradılması inkişafın əsas hədəflərini təşkil edir. Təsirli sosial siyasət olmadan isə inkişafın başlıca amili kimi insanın fəaliyyətində innovativ yaradıcılıq əsaslarının fəallaşdırılması mümkün deyil. Son illər dünya iqtisadiyyatında müşahidə olunan mürəkkəb proseslər sosial sahənin prioritetliyini, iqtisadi dayanıqlığa yönələn islahatların sosial sabitliyin təminatı tədbirləri ilə kombinə olunmuş şəkildə aparılmasını bir daha vacib amil kimi ortaya qoyaraq müxtəlif əhali kateqoriyalarının gəlirləri arasında qütbləşmənin dərinləşməsi, qeyri-bərabərliyin və bunun fəsadlarının daha da güclənməsi kimi problemlərin əksər ölkələr üçün xüsusi aktuallıq qazanması şəraitində dayanıqlı və inklüziv inkişafın resepti kimi təlqin etdi.

Məhz bu kontekstdə Azərbaycanda iqtisadi inkişafla sosial rifahın əlaqələndirilməsi, ölkənin iqtisadi dividendlərinin vətəndaşın rifahına yönəldilməsi, cəmiyyətin tərəqqisində bütün fərdlərin sosial-iqtisadi mənafelərinin bərabər təminatına nail olunması prinsiplərinə istinad edən inkişaf strategiyasının mükəmməl əsaslara söykəndiyi bir daha öz təsdiqini tapır. Bunu şərtləndirən həlledici amil isə ulu öndər Heydər Əliyevin müdrik sosial rifah siyasətinin 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən qlobal çağırışlara uyğun şəkildə uğurla davam etdirilməsi sayəsində respublikamızın yeni tərəqqi və modern dəyişikliklər mərhələsinə daxil olması, ölkəmizdə milli iqtisadiyyatın formalaşdırılması, bazar prinsipləri əsasında gerçəkləşdirilən islahatların əhalinin sosial müdafiəsi tədbirlərinin həmahəngliyinin uğurla reallaşdırılmasıdır.

İqtisadi sistemin əsasını təşkil edən, inkişaf səviyyəsinə görə bütünlükdə cəmiyyətin demokratikliyini, iqtisadiyyatın sosialyönümlüyünü, əhalinin həyat şəraiti səciyyələndirməyə imkan verən sosial-əmək münasibətləri sahəsində aktual vəzifələrin həlli istiqamətində əsaslı uğurlar qazanılmışdır. Bu əsasda 2003-2017-ci illərdə yüksək rifahın həlledici amillərindən olan məşğulluğun daim xüsusi diqqət mərkəzində saxlanılması əhalinin sahibkarlıq fəaliyyəti üçün münbit şəraiti təmin etmiş, eləcə də ölkədə 1,4 milyonu daimi olmaqla, 1,9 milyon yeni iş yerlərinin açılmasına imkan vermişdir.

2003-2017-ci illərdə əhali gəlirlərinin 8,6 dəfə artması ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri kimi əhalinin həyat səviyyəsinin yüksəldilməsi və bu əsasda əhalinin gəlirlərinin dəstəklənməsi tədbirlərinin ardıcıl reallaşdırılmasının əyani təsdiqidir. Bu siyasətin tərkib hissəsi kimi əhalinin sahibkarlıq fəaliyyətindən gəlirləri 10,4 dəfə, əmək ödənişlərindən gəlirləri isə 7,5 dəfə artmış, sosial sahədə dövlətin balanslaşdırılmış iştirak səviyyəsini tənzimləmək məqsədilə sosial xərclərin optimal həddi gözlənilməklə sosial müdafiə və təminat üçün dövlət büdcəsində nəzərdə tutulmuş xərclərin həcmində 10,3 dəfə artım qeydə alınmışdır. Əhalinin həyat səviyyəsinin ildən-ilə yaxşılaşması yoxsulluğun kəskin şəkildə azalması ilə nəticələnmiş və bu sahədə ölkəmizdə əldə olunan müsbət təcrübə Azərbaycanın BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edilməsini, bununla da ölkəmizin sosial inkişaf modelinin artıq beynəlxalq miqyasda bir nümunə kimi qəbul olunmasını şərtləndirmişdir.

Prezident İlham Əliyevin müəyyən etdiyi inkişafın paradiqmal prinsipləri və praqmatik islahatlar kursu ölkəmizdə sosialyönümlü bazar iqtisadiyyatı sisteminə uyğun səmərəli siyasət həyata keçirilməklə cəmiyyət həyatının möhkəm sosial əsaslarının yaradılmasını şərtləndirən, bütün cəmiyyətin ehtiyaclarına maksimum uyğunlaşmanı və vətəndaş məmnunluğunu əsas məqsədə çevirən, hər kəsə öz rifahını və sosial statusunu gücləndirmək imkanı yaradan, adekvat tənzimləyici alətlər və sosial müdafiə tədbirləri vasitəsilə əhalinin gəlirlərini dəstəkləyən, qlobal miqyasda iqtisadiyyatın rəqabət üstünlükləri və modernləşmə imkanlarını müəyyənləşdirən vacib amil kimi insan kaptialının inkişafına hərtərəfli şərait yaradan müasir sosial dövlət modelinin uğurla gerçəkləşdirilməsini təmin etmişdir.

*- Ölkədə həyata keçirilən sosial inkişaf kursu əhalinin sosial müdafiəsində, sosial cəhətdən həssas qruplara dövlət qayğısının artırılmasında hansı mühüm irəliləyişlərə yol açıb?*

- Prezident İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət, qəbul edilən fundamental qərarlar, imzalanan fərman və sərəncamlar, dövlət proqramları ölkədə insan firavanlığının ümumi inkişafının başlıca məramı kimi qəbul edilməsini şərtləndirməklə, dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" bəyanatının əməli şəkildə təsdiqini tapdığını ifadə edən mühüm nailiyyətlərin əldə edilməsinə səbəb olub. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin əhalinin sosial müdafiəsi məsələlərini daim xüsusi diqqət mərkəzində saxlaması əksər ölkələrin getdikcə artan maliyyə təzyiqləri səbəbindən sosial sahədə ciddi ixtisarlar aparmaq zərurəti ilə qarşılaşdığı bir zamanda Azərbaycanda sosial proqramların vaxtında və tam icra edilməsinə, yeni-yeni sosialyönümlü təşəbbüslərin reallaşdırılmasına imkan vermişdir.

Ölkədə həyata keçirilən sosial siyasətin mühüm uğurları sırasında, təbii ki, etibarlı sosial müdafiə sisteminin formalaşması, əhalinin müxtəlif təbəqələrinin, xüsusilə də aztəminatlı ailələrin və sosial cəhətdən həssas insanların həyat səviyyəsinin yüksəldilməsi mühüm yer tutur. Bu gün Azərbaycan kifayət qədər geniş əhali kateqoriyalarını əhatə edən sosial təminat sisteminə malik bir ölkə kimi seçilir və həssas əhali qruplarına münasibətdə Azərbaycan dövlətinin mövqeyi qlobal miqyasda ən humanist yanaşmalara əsaslanması ilə diqqəti cəlb edir. Təsadüfi deyil ki, Dünya Bankının son illərdə apardığı qiymətləndirmələr nəticəsində Azərbaycanda mövcud olan və üç əsas istiqamət üzrə aparılan sosial ödənişlər sistemi geniş əhatəliyə malik olan və əhalinin yoxsul sayıla biləcək hissəsinin 90,1 faizini əhatə edən, yoxsulluğun azaldılmasında mühüm rol oynayan bir sistem kimi dəyərləndirilib.

Sosial ödənişlər sisteminin birinci istiqaməti üzrə sığorta prinsipinə söykənən, mahiyyətinə və miqyasına görə əhalinin sosial müdafiəsinin mərkəzi halqası olan və mühüm makroiqtisadi təsir gücünə malik pensiya təminatı ilə hazırda 1,3 mln. nəfər, başqa sözlə, əhalinin 13,3 faizi əhatə olunur. Ölkəmizdə 2006-cı ildə qurulan müasir sığorta-pensiya sisteminin uğurlu fəaliyyəti, həmçinin həyata keçirilən məqsədyönlü sosial müdafiə tədbirləri əhalinin layiqli pensiya təminatının artırılmasına əsas yaratmaqla, pensiyalarda ildən-ilə artım dinamikasını şərtləndirib. 2006-2017-ci illərdə Azərbaycan Respublikası Prezidenti tərəfindən əmək pensiyasının baza hissəsinin artırılması ilə əlaqədar 9, sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı 11 sərəncam verilib, eləcə də əvvəlki dövrlərdə qazanılmış pensiya hüquqlarının yeni sistemə inteqrasiyası istiqamətində ardıcıl qərarlar qəbul edilib. Nəticədə əmək pensiyasının baza hissəsinin məbləği 4,4 dəfə artmış, pensiyanın sığorta hissəsinin inteqrə olunmuş indeksləşdirilmə göstəricisi 116 faiz təşkil etmişdir.

Pensiya islahatlarının davamı olaraq 2017-ci ildə aparılmış köklü dəyişikliklər nəticəsində pensiya sistemi qeyri-sığorta elementlərindən əsasən təmizlənmiş, sığorta-pensiya sisteminin öhdəlikləri ilə dövlət büdcəsinin öhdəlikləri bir-birindən ayrılmış, fərdi uçot sistemində "açıq hesab" prinsipi tətbiq olunmuş və işləyən pensiyaçılara hər 72 aydan bir fərdi hesablarında yığılmış vəsaitlərdən istifadə edərək pensiyalarını artırmaq imkanı verilmişdir.

Görülmüş tədbirlər nəticəsində əmək pensiyasının orta aylıq məbləği 2003-cü ilə nisbətən 11,3 dəfə artaraq 2018-ci il 1 yanvar tarixinə 208,4 manat olmuş, yaşa görə əmək pensiyasının orta aylıq məbləğinin ölkə üzrə orta aylıq əməkhaqqı məbləğinə nisbəti, yəni əvəzetmə əmsalı 28 faizdən 44,2 faizə yüksəlmişdir. 2017-ci il ərzində əmək pensiyalarının maliyyələşməsinə yönəldilən illik vəsaitin həcmi 3.289,6 milyon manata çatmışdır ki, bu da 2003-cü ilə nisbətən 17 dəfə çoxdur.

Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının statistikasına əsasən, orta aylıq pensiyanın orta aylıq əməkhaqqına nisbətinə görə Azərbaycan postsovet ölkələri arasında ilk ikilikdə, yaşa görə pensiya üzrə əvəzetmə əmsalına görə isə 1-ci yerdə qərarlaşıb. Azərbaycanda yaşlı əhali kateqoriyalarının əhalinin ümumi sayında xüsusi çəkisinin hər 1 faizinə düşən pensiya xərclərinin ÜDM-ə nisbəti 0,5 faiz təşkil edir və əgər İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatlarına nəzər salsaq görərik ki, inkişaf etmiş ölkələr də təqribən eyni səviyyədə göstəriciyə malikdirlər.

Azərbaycan Prezidentinin imzaladığı "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" 9 fevral 2018-ci il tarixli sərəncamı da pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlardan biridir. Bunun nəticəsində əmək pensiyalarının əvvəlki ilin orta aylıq əməkhaqqı artımına uyğun şəkildə cari ilin əvvəlindən 5,7 faiz artırılmağa imkan verib.

Ölkənin davamlı iqtisadi inkişafı şəraitində çoxsaylı yeni iş yerlərinin açılması, habelə iqtisadi fəaliyyəti stimullaşdıran pensiya islahatları sosial sığorta daxilolmalarının əhəmiyyətli artımını şərtləndirib. Bunun əyani ifadəsi kimi 2017-ci il ərzində sosial sığorta haqları üzrə gəlirlər 2003-cü illə müqayisədə 9,4 dəfə artaraq 2,1 mlrd. manat təşkil etmiş, o cümlədən qeyri-büdcə sektoru üzrə 2003-cü ilə nisbətən 1,2 mlrd. manat və ya 8,8 dəfə çox sosial sığorta haqqı daxil olmuşdur. Sosial sığorta daxilolmaları hesabına ildən-ilə özünü göstərən artım pensiyaların vaxtlı-vaxtında maliyyə təminatını həyata keçirməyə imkan vermişdir.

Bu gün ölkədə sosial ödənişlər sisteminin ikinci komponenti kimi kateqorial yanaşma əsasında müxtəlif əhali qruplarına təyin olunan sosial müavinət və təqaüd sistemi fəaliyyət göstərir ki, bu ödənişlərin də mütəmadi artırılması təmin edilir. 2017-ci il ərzində ölkə əhalisinin 4,8 faizinə və ya 482,9 min nəfərə aylıq və birdəfəlik sosial müavinət ödənilmişdir. Onlardan 385 min nəfəri aylıq, 97,9 min nəfəri isə birdəfəlik sosial müavinətlə təmin edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin müxtəlif fərman və sərəncamlarına əsasən 60 min nəfərə Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ödənilmişdir. 2017-ci ildə sosial müavinət alanların sayı 2003-cü illə müqayisədə 329,7 min nəfər, 2005-ci illə müqayisədə təqaüd alanların sayı isə 58,8 min nəfər artmışdır. 2003-cü ildə bu məqsədlər üçün 4 mln. manat vəsait xərcləndiyi halda, 2017-ci ildə 92,7 dəfə çox və ya 370,6 mln. manat sərf edilmişdir. Azərbaycan Respublikası Prezidenti tərəfindən bu ödənişlərin artırılması istiqamətində ardıcıl qərarlar qəbul edilir və bildiyiniz kimi, elə bu günlərdə müxtəlif əhali qrupları üçün nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdləri dövlət başçısının müvafiq fərman və sərəncamları ilə növbəti dəfə artırılmışdır.

Əhaliyə sosial ödənişlər sistemində tamamlayıcı amil qismində üçüncü istiqamət üzrə isə maddi vəziyyət ilə uzlaşdırılaraq ehtiyaclılıq şərti əsasında təyin edilən və aztəminatlı əhalinin minimum maddi tələbatının ödənilməsinə yönəldilən ünvanlı dövlət sosial yardım proqramı həyata keçirilir. Dövlət büdcəsindən maliyyələşdirilən və aztəminatlı əhalinin gəlirlərinin ehtiyac meyarı ilə müəyyən olunan bəlli bir gəlir səviyyəsinin üzərinə çıxarılmasını nəzərdə tutan bu yardım sosial qeyri-bərabərliyin azaldılması, həmin əhali kateqoriyalarının istehlak və xidmətlərə əlçatanlığının artırılması üçün reallaşdırılan mühüm sosial müdafiə tədbiridir. 2017-ci ilin sonuna respublika üzrə ünvanlı dövlət sosial yardımı ilə təmin olunan ailələrin sayı 80,2 min təşkil etmişdir (326,6 min nəfər ailə üzvü). Ötən il ərzində bu məqsədlərə 214,7 mln. manat xərclənmişdir ki, bu da 2006-cı ilin eyni göstəricisi ilə müqayisədə 21,7 dəfə çoxdur. Hazırda əhalinin aztəminatlı hissəsinə hər ay 11,9 milyon manat ünvanlı dövlət sosial yardımı ödənilir.

Prezidentin uğurlu sosial siyasəti Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin rifahının yaxşılaşdırılmasına yönələn tədbirlərin də ildən-ilə yüksələn xətlə davam etdirilməsinə imkan verib. Təkcə son bir ildə bu təbəqədən olan 315 nəfər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzil və fərdi yaşayış evi ilə təmin olunub ki, bu da son beş ilin ən yüksək göstəricisidir. Ümumilikdə isə 2003-cü ildən hazıradək nazirliyin xətti ilə 5.703 nəfər əlil və şəhid ailəsi mənzillə təmin olunmuşdur ki, bu da nazirlik tərəfindən indiyədək mənzillə təmin edilən 6,1 min nəfər əlil və şəhid ailəsinin 93,5 faizi deməkdir.

Hazırda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün bölgələrdə fərdi yaşayış evlərinin, Bakının Nizami rayonunda, habelə İmişli və Şamaxı rayonlarında çoxmənzilli yaşayış binalarının tikintisi, yeni yaşayış binalarından mənzillərin alınaraq təmir etdirilməsi işləri davam etdirilir. Eyni zamanda, bu vaxta qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 5,9 min nəfər imtiyazlı şəxs pulsuz avtomobillə təmin olunmuşdur.

Ölkəmizdə aparılan güclü sosial siyasət dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarının normal həyatının təmin edilməsi üçün onların hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasında da aydın şəkildə özünü göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın yüksək humanizmə əsaslanan təşəbbüsü ilə yaradılmış "Məzun evi" sosial müəssisəsi bu sahədə mühüm addımların atılmasına imkan verib. Müəssisədəki iki yaşayış binasında dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarından ibarət 240 nəfər gənc mənzillə təmin edilib və hazırda müvafiq kateqoriyalardan olan gənclər üçün daha bir yaşayış binasının da tikintisi başa çatmaq üzrədir. "Məzun evi"nin sakinlərinin məşğulluqlarının təminatı, cəmiyyətdə özlərinə layiq yer tuta bilmələri üçün də bütün zəruri işlər aparılır.

Digər tərəfdən, cənab Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq son illərdə Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin, Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün Sosial Sığınacağın, Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsinin, Yetkinlik yaşına çatmamış, görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzinin, Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin, İnsan Alveri Qurbanlarına Yardım Mərkəzinin və s. yaradılması sosial təminat sisteminin daha da gücləndirilməsinə, əhatəliyinin və cəmiyyətin həyatında rolunun artırılmasına səbəb olub.

*- Ölkəmizin əmək bazarında inkişaf meyilləri, işsiz və işaxtaran vətəndaşların səmərəli məşğulluğunun təminatı sahəsində aparılan işlər, xüsusən də icra olunan özünüməşğulluq proqramı, onun perspektivləri barədə məlumat verə bilərsinizmi?*

- Azərbaycan Prezidenti cənab İlham Əliyevin inkişaf strategiyasının başlıca istiqamətlərindən biri əmək resurslarının səmərəli məşğulluq imkanlarının artırılması, iqtisadi inkişaf proseslərində məşğulluq amilinin üstünlük təşkil etməsi, sosial müdafiə siyasətinin məhz bu amil üzərində gücləndirilməsinə nail olunmasıdır.

Bu əsasda Azərbaycanda uğurla reallaşdırılan məşğulluq modeli bazar iqtisadiyyatının qanunauyğunluqları və çoxamilli təsirlərin diktə etdiyi əmək bazarının inkişaf proseslərinin konseptual olaraq düzgün proqnozlaşdırılması və qiymətləndirilməsini, tələb və təklifin balanslaşdırılması üçün zəruri tədbirlərin görülməsini, işçi qüvvəsi təklifinin adekvat qarşılanmasını, o cümlədən 2003-2017-ci illərdə əmək bazarında təklif və tələb arasında tarazlığın saxlanmasını təmin etmiş, əlverişli demoqrafik vəziyyətdən qaynaqlanan işçi qüvvəsinin yüksək təklifi şəraitində əhalinin məşğulluğu davamlı təmin edilməklə işsizlik səviyyəsinin əhəmiyyətli şəkildə aşağı düşməsinə nail olunmuş, eləcə də növbəti illərdə bu müsbət tendensiyaların dayanıqlığı üçün əsaslı zəmin yaradılmışdır. Bütün bunlar 2003-2017-ci illərdə məşğul əhalinin sayının 21,4 faiz, muzdlu işçilərin sayının 24 faiz artması, işsizlik səviyyəsinin isə 9,2 faizdən 5 faizə enməsi ilə nəticələnmişdir.

Müasir dövrdə sürətlə dəyişən iqtisadi şəraitdə əməyə olan tələbatın həcmi və tərkibində davamlı dəyişikliklər baş verməkdədir. Bu isə işəgötürən və işçilərin daha çevik münasibətlərinin, işçi qüvvəsinin keyfiyyət xarakteristikasının əmək bazarının dəyişən tələbləri ilə uzlaşdırılmasının, işçilərin adaptasiyası və sosial müdafiəsi yollarının təkmilləşdirilməsinin vacibliyini diktə edir. Qlobal miqyasda baş verən son maliyyə-iqtisadi böhran aydın şəkildə göstərdi ki, hətta bir ölkə çərçivəsində uzunmüddətli dövr ərzində səmərəli tətbiq olunan məşğulluğun tənzimlənməsi mexanizmi ciddi çətinliklərlə üzləşə bilər və bu problem iqtisadi inteqrasiya və qloballaşma prosesləri nəticəsində daha da dərinləşə bilər. Son illər məşğulluq probleminin kəskinləşməsi ilə üzləşən bir çox ölkələr bu problemin yeni həll yollarını axtarmaq məcburiyyətində qalmışdır. Yeni şəraitdə işçilərin sosial müdafiəsini təmin etməklə yanaşı, əməyin tələb və təklifini səmərəli uzlaşdıra bilən daha çevik dövlət tənzimlənməsi mexanizminin formalaşdırılması qlobal gündəlikdə dayanan prioritet məsələlərdəndir.

Bu baxımdan 2016-2017-ci illərdə postneft dövrünün aktual çağırışlarının ram edilməsi və iqtisadi şaxələndirmənin qısa müddətdə gerçəkləşdirilməsi istiqamətində aparılan sürətli islahatlarla səciyyələnən Azərbaycanda hər il 100 mindən çox gənc işçi qüvvəsinin daxil olduğu əmək bazarında mühüm aktuallıq kəsb edən sabitliyin təmin edilməsinin məhz Prezident İlham Əliyevin uzaqgörən və çevik siyasəti sayəsində mümkünlüyə çevrildiyini xüsusilə qeyd etmək istərdim. Qlobal miqyasda belə ən mürəkkəb sosial-iqtisadi çağırışlardan biri sayılan bu vəzifənin icrası ölkəmizdə həm qısamüddətli effekt verən, həm də uzunmüddətli perspektivə hesablanmış tənzimləyici elementləri əhatə edən səmərəli kompleks tədbirlər proqramının reallaşdırılması hesabına təmin edilmişdir.

Birincisi, ölkədə həyata keçirilən ardıcıl və sistemli islahatlar nəticəsində əmək bazarının inkişafının vacib şərtlərindən olan makroiqtisadi sabitliyə, biznes mühitinin yaxşılaşdırılmasına nail olunmaqla, geniş məşğulluq imkanlarının yaradılması baxımından münbit şərait formalaşdırılmışdır.

İkincisi, düşünülmüş sosial-iqtisadi siyasətə uyğun olaraq, sahibkarlıq subyektlərinə dövlət köməyi və güzəştlərin verilməsi tədbirləri qısa müddətdə biznes və investisiya aktivliyinin yüksəlməsini şərtləndirərək əmək bazarında işçi qüvvəsinə tələbin artmasına yol açmışdır.

Üçüncüsü, aparılan kompleks və sürətli islahatlar nəticəsində regionlarda kənd təsərrüfatının müxtəlif sahələrinin sürətli inkişafı 200 min nəfərdən çox əmək resursunu istehsal prosesinə cəlb etməyə imkan vermişdir.

Dördüncüsü, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq vətəndaşların dövlət şirkətləri tərəfindən sosial məsuliyyətin bölgüsü çərçivəsində əmək fəaliyyətinə, habelə ictimai işlərin təşkili proqramı üzrə yerli icra hakimiyyətləri tərəfindən abadlıq və təmir-tikinti işlərinə cəlb edilməsi gerçəkləşdirilmişdir. Qeyd edim ki, təkcə ötən il bu tədbirlər hesabına 41,4 min nəfər işaxtaran iş yeri ilə təmin olunmuşdur.

Beşincisi, ölkədə işçilərin sosial müdafiəsinin daha da gücləndirilməsi, işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə əmək münasibətləri iştirakçılarının digər əmək hüquqlarının və təminatlarının effektiv müdafiəsinin təmin edilməsi və bu sahədə dövlət orqanları arasında koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının fəaliyyəti qısa müddətdə öz müsbət nəticələrini ortaya qoymuşdur.

Sosial siyasətin vacib elementlərindən biri kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq orqanları tərəfindən aktiv məşğulluq tədbirlərinin də ildən-ilə gücləndirilməsi təmin olunmaqdadır. Belə ki, 2017-ci ildə məşğulluq orqanları tərəfindən 47 min 900 nəfər münasib işlə təmin edilmiş, 1.160 nəfər haqqı ödənilən ictimai işlərə, 3.120 nəfər müvəqqəti xarakterli işlərə cəlb olunmuşdur. İl ərzində ölkənin rayon və şəhərlərində əmək yarmarkalarının, ali təhsil müəssisələrində tələbə və məzunların əmək bazarına inteqrasiyasının dəstəklənməsi məqsədilə "Karyerada ilk addım" devizi altında aktiv məşğulllluq tədbirlərinin təşkili işləri də davam etdirilmişdir.

Ölkəmizdə məşğulluq sahəsində aparılan mütərəqqi islahatlar mötəbər beynəlxalq qurumlar və digər ölkələrin adekvat strukturları tərəfindən də yüksək dəyərləndirilir və böyük maraqla izlənilir. Ötən ilin dekabr ayında Beynəlxalq Valyuta Fondunun işçi heyətinin 2018-ci il üzrə IV Maddə Məsləhətləşmələri çərçivəsində müzakirələr aparmaq üçün ölkəmizə səfərinin yekunlarına dair özünün rəsmi veb-saytında yayımladığı bəyanatda Azərbaycanda yeni işsizlikdən sığorta fondunun yaradılması, pensiya islahatının həyata keçirilməsi, passiv əmək bazarı proqramlarından aktiv proqramlara keçilməsi sosial təminat və əmək bazarı sahələrində mühüm nailiyyətlər kimi qeyd olunaraq yüksək dəyərləndirilib. Digər tərəfdən, 2017-ci ildə ölkəmiz 25 il əvvəl qoşulduğu Beynəlxalq Əmək Təşkilatının Rəhbər Orqanına ilk dəfə üzv seçilmiş, Davos İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləyərək 17-ci yerdə qərarlaşmışdır. Bütün bunlar Azərbaycanda əmək və sosial müdafiə sferasında reallaşdırılan islahatların yüksək qiymətləndirilməsinin, ölkəmizə olan böyük inam və etimadın bariz nümunəsi olmaqla yanaşı, Azərbaycan Prezidentinin bu sahədə apardığı siyasətin alternativsiz olduğunu bir daha təsdiqləyir.

*- Əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası, onların sosial təminatlarının artırılması yönündə hansı addımlar atılıb?*

- Ölkəmizdə əlilliyi olan şəxslərin çoxşaxəli və etibarlı sosial müdafiə sistemi ilə əhatə olunması Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial siyasət kursunun mühüm tərkib hissəsidir və bu əsasda əlilliyin qarşısının alınması, tibbi və sosial reabilitasiyası, əlilliyi olan şəxslərin sosial təminatı, eləcə də onların ictimai həyatın bütün sahələrində iştirakı və layiqli həyat sürmələri üçün şəraitin yaradılması istiqamətində ardıcıl tədbirlər reallaşdırılmaqdadır.

Mühüm sosial proqramlardan biri kimi bu qəbildən olan şəxslərə əmək pensiyaları, sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ödənilir və bu sosial ödənişlər onların gəlirlərinin dəstəklənməsində əhəmiyyətli rol oynayır. Cari ilin əvvəlinə olan məlumatlara əsasən, əlilliyi olan şəxslərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları vasitəsilə hər ay 90,7 mln. manat vəsait ödənilir.

Əlilliyi olan şəxslərin reabilitasiyası sahəsində yeni imkanların yaranması, əldə olunan nanotexnoloji nailiyyətlər bu şəxslərin tibbi-sağlamlaşdırma sferasında, təhsil və peşə hazırlığında innovativ həll yollarının diapazonunu genişləndirməklə onların adaptasiya və sosiallaşma resurslarını möhkəmləndirərək cəmiyyətə inteqrasiya proseslərini xeyli gücləndirir. Bu baxımdan sosial inkişaf siyasətinin əsas istiqamətlərindən biri kimi əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası sahəsində kompleks tədbirlər həyata keçirilir. Ötən 15 ildə dövlət başçısının tapşırığına uyğun olaraq ölkədə bərpa-müalicə şəbəkəsinin əhəmiyyətli şəkildə genişləndirilməsi təmin olunub - Naxçıvan, Şirvan, Lənkəran, Şəki, Sumqayıt, Naftalan, Xaçmaz, Yevlax şəhərlərində əlilliyi olan şəxslər üçün regional bərpa mərkəzləri, Bakı Protez-Ortopedik Bərpa Mərkəzinin Naxçıvan istehsalat sahəsi və Gəncə şəhərində filialı istifadəyə verilib. Həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə son illərdə Bakının Yeni Günəşli yaşayış massivində Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi fəaliyyətə başlayıb. Beləliklə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ölkənin bütün ərazisi üzrə bərpa mərkəzləri şəbəkəsi formalaşdırılıb.

Nazirlik sistemində fəaliyyət göstərən əlillərin bərpa mərkəzləri tərəfindən təkcə son bir ildə 39,8 min nəfər şəxsə xidmət göstərilib, eyni zamanda əlilliyi olan şəxslərə 33 min ədəd protez-ortopedik məmulat və reabilitasiya vasitəsi verilib. Dövlət başçısının xüsusi qayğısının nəticəsi olaraq ölkədə reabilitasiya sisteminin müasir tələblərə uyğun yenidən qurulması istiqamətində də məqsədyönlü addımlar atılıb, Respublika Əlillərin Bərpa Mərkəzində, Uşaq Bərpa Mərkəzində yüksək standartlara uyğun bərpa-müalicə şəraiti yaradılıb və digər bərpa mərkəzlərində də bu istiqamətdə işlər davam etdirilir. Bu il ərzində nazirliyin Yevlax, Naftalan, Sumqayıt şəhərlərindəki bərpa mərkəzlərinin, Mərdəkan Müalicə Pansionatının da əsaslı təmirdən sonra istifadəyə verilməsi nəzərdə tutulur.

Aparılmış islahatlar əlilliyin azalmasına da imkan yaratmışdır. Məsələn, 2017-ci ildə ilkin əlillik təyin olunanların sayı əvvəlki illə müqayisədə 31 faiz azalmış, həmçinin ilkin olaraq əlillik dərəcəsi verilənlərin sayında 26 faiz, ilkin olaraq sağlamlıq imkanları məhdud uşaq hesab edilənlərin sayında isə 49 faiz azalma qeydə alınmışdır.

*- Son illər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələrində geniş vüsət alan və əhaliyə xidmət sahələrinin şəffaflaşdırılmasına imkan verən elektron sistemlərin tətbiqi işləri hansı istiqamətdə davam etdirilir?*

- Azərbaycan Prezidentinin "Müasirləşmək, yeniləşmək siyasətimizin əsas mənasını, bizi inkişafa aparan yolun baş xəttini təşkil edir" prinsipinə uyğun olaraq, ölkədə idarəçilik praktikasının yeni paradiqma və çağırışlara uyğun şəkildə mütərəqqi təcrübələrə və innovativ yanaşmalara söykənən modernləşdirilməsi prosesləri milli əmək və sosial müdafiə sistemini də geniş şəkildə əhatə edir. Dövlət başçısının konkret tapşırıqları əsasında son illərdə nazirliyin fəaliyyət istiqamətləri üzrə əmək, sosial təminat, tibbi-sosial ekspertiza sahələrində genişmiqyaslı islahatlar həyata keçirilərək, müasir beynəlxalq standartlara uyğun idarəetmə metodları yaradılmaqla sosial sferada səmərəliliyin və optimallığın artırılması, həm də əhaliyə xidmət səviyyəsinin keyfiyyətcə yüksəldilməsi və şəffaf müstəvidə qurulması təmin edilmişdir.

Nazirlik sistemi üzrə bu innovasiyaların tətbiqi nəticəsində sosial sahədə 30-a qədər elektron xidmət əhalinin istifadəsinə verilib. Təkcə son bir ildə həmin xidmətlərə "Elektron hökumət" portalı vasitəsilə 9 milyon 341 min dəfə müraciət olunub ki, bu da ölkə üzrə həmin portal vasitəsilə bütün elektron xidmətlərdən istifadənin 40 faizini təşkil edir. Bu göstərici əmək və sosial müdafiə sahəsində elektron xidmətlərə böyük sosial tələbin olduğunu ifadə etməklə yanaşı, eyni zamanda müvafiq dövlət xidmətlərindən istifadə müstəvisində məmur-vətəndaş kontaktlarının aradan qaldırılmasında nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Milli təşəbbüslərin müsbət nəticəsi kimi və yerli mütəxəssis potensialı hesabına əldə olunan bu uğurlu innovativ təcrübələr beynəlxalq miqyasda da yüksək dəyərləndirilir və müasir dünyada qabaqcıl fəaliyyət nümunələri kimi təbliğ olunur.

2016-cı ilin aprel ayında Stokholm şəhərində keçirilən Avropa Regional Sosial Təminat Forumunda Azərbaycanın "Çağrı mərkəzi vasitəsilə avtomatlaşdırılmış pensiya təyinatı" adlı müsbət təcrübəsi müstəqil komissiya tərəfindən xüsusi sertifikata layiq görülüb və Beynəlxalq Sosial Təminat Assosiasiyasının Müsbət Təcrübələr məlumat bankına daxil edilib.

BMT-nin ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının dünya üzrə 467 elektron layihənin təqdim edildiyi və onlardan seçilmiş 345 layihənin iştirak etdiyi "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2017 Mükafatları" müsabiqəsində Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi "İKT Proqramları: E-Məşğulluq" nominasiyası üzrə ən çox səs toplayan ilk 5 layihədən, ümumən müsabiqə nəticəsində səsvermə ilə müəyyən edilən 90 "Çempion layihə"dən biri olub. Azərbaycandan ilk elektron layihə olaraq Beynəlxalq Telekommunikasiya İttifaqının "Çempion layihə" mükafatına layiq görülən Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi bununla 193 ölkəni, 700-ə yaxın texnoloji şirkəti əhatə edən ittifaq tərəfindən İKT-nin tətbiqi üzrə Azərbaycana ilk mükafatı qazandırıb.

Hazırda Azərbaycanın əmək və sosial müdafiə, tibbi-sosial ekspertiza və reabilitasiya sahələrində avtomatlaşdırılmış sistemləri ayrı-ayrı ölkələr tərəfindən qabaqcıl təcrübə nümunələri kimi öyrənilir. Bununla əlaqədar həmin ölkələrin müraciətləri əsasında onlarla təcrübə mübadilələri aparılır. Hətta ötən ilin iyul ayında Prezident cənab İlham Əliyev ölkəmizdə səfərdə olan Avstriyanın federal ailə və gənclər naziri Sofi Karmasini qəbul edərkən avstriyalı nazir Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ona ölkəmizdə elektron hökumətlə bağlı maraqlı layihələr barədə məlumat verildiyini, bu layihələrin Avstriya üçün çox böyük maraq doğurduğunu, gələcəkdə həmin layihələrin öyrənilməsində və tətbiq edilməsində maraqlı olduqlarını bildirib. Azərbaycanın əmək və sosial müdafiə sahəsində avtomatlaşdırılmış idarəetmə və xidmət sistemləri üzrə əldə olunmuş uğurlu təcrübəsini bölüşmək məqsədilə təkcə son bir il ərzində Rusiya Federasiyasından, Ukrayna Respublikasından, Moldova Respublikasından, Əfqanıstan İslam Respublikasından, Tacikistan Respublikasından, Özbəkistan Respublikasından ölkəmizə səfərə gəlmiş nümayəndə heyətləri ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüşlər keçirilərək onlar üçün müvafiq təqdimatlar edilmişdir. Hazırda Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də nümayəndə heyətinin ölkəmizə səfəri davam edir və onlarla təcrübə mübadilələri aparılır.

Biz intensiv avtomatlaşdırma işlərini məşğulluq xidmətləri və işsizlik müavinəti sistemi üzrə davam etdiririk. Bu işlərin başa çatdırılması ilə bir tərəfdən əmək bazarında işçi qüvvəsinə tələbin ödənilməsi prosesinin elektron sistem üzərində daha səmərəli və çevik təşkili, digər tərəfdən məşğulluq xidmətlərinin işsiz və işaxtaranlara daha əlçatan səviyyədə qurulması və onların bu xidmətlərdən daha asan və rahat şəkildə istifadəsi təmin olunacaq.

*- Səlim müəllim, qarşıda nazirlik üçün aktuallıq kəsb edən hansı hədəflər var?*

- Mühüm hədəflərimiz sırasında qeyri-formal məşğulluqdan leqal məşğulluğa keçidin sürətləndirilməsi prosesinə nail olunmasını xüsusi qeyd edərdim. Cənab Prezidentin müvafiq sərəncamı ilə yaradılmış Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının fəaliyyəti bu sahədə xüsusi önəm kəsb edir və əldə olunan müsbət nəticələr vətəndaşların layiqli əmək hüquqlarını reallaşdırmaqla işləyən əhalinin onların sosial rifahı üçün vacib olan sosial sığorta, habelə işsizlikdən sığorta sistemləri ilə daha çox əhatə edilməsini şərtləndirir. Eyni zamanda, aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi və işsizliyin minimum səviyyədə saxlanılması, ailə gəlirlərinin formalaşmasında əməkhaqqının payının artırılması, əmək bazarının tələblərinə uyğun çevik peşə təhsili üçün peşə-tədris mərkəzləri şəbəkəsinin genişləndirilməsi, sosial xidmətlərin mütərəqqi beynəlxalq təcrübədən irəli gələn "sosial işçi modeli" üzrə əhatəliyinin və çətin həyat şəraitində olan şəxslərin problemlərinin həllində səmərəliliyinin daha da yüksəldilməsi və s. kimi hədəflərimiz var. Bu hədəflərə nail olunması yönündə məqsədyönlü işlərin aparılması təmin olunacaqdır.

Ümumilikdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti əhalinin sosial müdafiəsinin gücləndirilməsi, əmək resurslarının məşğulluq imkanlarının artırılması, vətəndaşların əmək və sosial hüquqlarının dolğun təminatı istiqamətində son 15 ildə olduğu kimi, qarşıdakı dövrdə də mühüm nailiyyətlərin əldə olunmasına imkan verəcəkdir.

*Təkrar*

## Bakı Turizm İnformasiya Mərkəzi 2016-cı ildə reklam çap materiallarının və disklərin alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 2 LOT üzrə aparılır:**

**LOT-1** Reklam çap materiallarının hazırlanması və satın alınması;

**LOT-2** CD və DVD disklərin hazırlanması və satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilə il ərzində yerinə yetirilməlidir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 70 ünvanında yerləşən tender komissiyasından ala bilərlər.

**(Əlaqələndirici şəxs: Aybəniz Həsənova**
**Telefon: 012 498 12 44 (əlavə 18)**

**İştirak haqqı:**
**LOT-1** - 500 (beş yüz) manat
**LOT-2 -** 500 (beş yüz) manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.
Bakı Turizm İnformasiya Mərkəzi
**Hesab:** AZ08CTRE00000000000002178306
**VÖEN:** 1700675651

**Adı:** Dövlət Xəzinədarlıq Agentliyi
**Kodu:** 210005
**VÖEN:** 1401555071
**Müxbir hesab:** AZ03NABZ01360100000003003944
**S.W.I.F.T. BİK** CTREAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tednderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi;*
- *iddiaçıların tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *vergi və digər borcların olmaması barədə arayış;*

Qeyd olunmuş sənədlər 8 may 2018-ci il tarixədək təqdim olunmalıdır.

Tender təklifi isə möhürlənmiş ikiqat zərifdə 17 may 2018-ci il tarixdə 17:00-dək təqdim olunmalıdır.

Təklif zərfləri 18 may 2018-ci il tarixdə 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Dövlət Sosial Müdafiə Fondu server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması ilə əlaqədar

### açıq tenderə dəvət edir

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT 1** - *Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması.*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**

**VÖEN (DSMF): 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN(DXA): 1401555071**
**M\H: AZ41NABZ01360100000000003944**
**H\H: AZ46CTRE00000000000007018504**
**SWIFT BİK: CTREAZ22**

**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
3. *İddiaçının bank rekvizitləri haqqında məlumat;*
4. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu orqanından arayış;*
6. *İddiaçının son üç ildəki (2015, 2016, 2017) fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının xidmət göstərəcəyi sahə üzrə lisenziya və sertifikatların təsdiq edilmiş surəti;*
9. *Bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
10. *İxtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
11. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
12. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır).*

**Tenderə aşağıdakı tələblərə cavab verən iddiaçılar dəvət olunur:**

1. *İddiaçının bənzər işlərlə bağlı minimum 5 illik təcrübəsi olmalıdır;*
2. *İddiaçı "Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyəti"nə dair lisenziyaya malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 7 may 2018-ci il tarixdə saat 17:00-dək, ixtisas uyğunluğunun müəyyənləşdirilməsi prosedurundan keçmiş iddiaçılar tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 18 may 2018-ci il saat 17:00-dək, Bakı şəhəri, H.Zərdabi pr., 80 ünvanına təqdim etməlidirlər.

İxtisas uyğunluğunun yoxlanılması proseduruna 11 may 2018-ci il tarixdə saat 10:00-da Bakı şəhəri, H.Zərdabi pr., 80 ünvanında başlanacaqdır. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 21 may 2018-ci il saat 15:00-da Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanında Dövlət Sosial Müdafiə Fondunun Aparatında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq"ASC 2018-ci ildə Bakı şəhəri və Bakı ətrafı ərazisində 233 ədəd KTM-in alınması, quraşdırılması və kabel xətlərinin çəkilməsi üzrə işlərin satın alınması məqsədilə

### açıq tender elan edir

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1**

**Bakı şəhəri və Bakı ətrafı** ərazisində - 233 ədəd müxtəlif güclü KTM-lərin alınması, quraşdırılması və kabel xətlərinin çəkilməsi üzrə işlərin satın alınması - **300 manat**

**Azərişıq ASC**
**VÖEN: 9900069391**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: Kapital Bankın Rabitə filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Bakıxanov küç. 13 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93 daxili (22-83))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (**www.tender.gov.az**).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21 may 2018-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **30 may 2018-ci il saat 16-00-a** qədər Bakı şəhəri, Bakıxanov küç. 13 ünvanına Ümumi İşlər İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 31 may 2018-ci il tarixdə saat 16-00-da Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

# Ermənistanda vətəndaş müharibəsi başlayır

## İşğalçı ölkədə xalq üsyana qalxdı





*Əvvəli 1-ci səh.*



Blokun üzvü Ararat Mirzoyan tribunaya çıxaraq Respublika Partiyasını sərt tənqid edib: "Serj Sarkisyanın üçüncü müddətə hakimiyyətdə qalmasının qarşısını ala, Respublika Partiyasının hakimiyyətinə son qoya və arzularımızda olan ölkəni qura bilərik. Biz azadlıq məşəlini birlikdə yandıracağıq".

Daha sonra deputat hamını "azadlıq məşəli" yandırmağa səsləyib və cibindən tüstü fişəngini çıxararaq yandırıb. Onu blokun digər deputatı Lena Nazaryan da dəstəkləyib. Parlamentinin iclas zalını tüstü bürüyüb.

### Yerevan "Mənim addımım" yürüşünə başladı

Aprelin 13-dən etibarən isə paytaxtda hakimiyyətə qarşı böyük aksiya təşkil edilib. Bu da hakimiyyəti ciddi qorxuya salıb. Elə bunun nəticəsidir ki, Yerevan Dövlət Universitetinin mühafizə xidmətinin əməkdaşları aprelin 13-də keçirilən mitinqə çağırış vərəqələri yayan tələbələrin üzərinə hücum edib. Universitet administrasiyasının rəhbəri Alik Qaribyan tələbələrin üstünə qışqıraraq bildirib: "Siz burada siyasi vərəqələr paylayırsınız? Biz buna imkan verməyəcəyik".

Deputat Lena Nazaryan bu xüsusda bildirib: "Bundan əvvəl "Yelk" fraksiyasının başçısı Nikol Paşinyan "Mənim addımım" yürüşünə başlayıb. Bu aksiyaya yüzlərlə tərəfdar və vətəndaş təşəbbüsünün iştirakçısı qoşulub. Yürüş Gümrüdən başlayıb. İştirakçılar 195 kilometr uzunluğunda 300 min addımlıq yolu qət edərək Respublika meydanınadək gəliblər. Keçirdiymiz mitinqin hədəfi parlamentin bütün çıxışlarını bağlamaq üçün yetərincə adam toplamaq və deputatların Serj Sarkisyanın baş nazir olması üçün səs verməsinin qarşısını almaqdır. Serj Sarkisyanın seçilməsi üçün parlamentin iclası iki dəfə pozularsa, o zaman parlament buraxılacaq və məclisə yeni seçikilər təyin olunacaq".

O, ölkə vətəndaşlarını mühacirətə, durğunluğa qarşı addım atmaq üçün Azadlıq meydanında keçirilən mitinqə qatılmağa çağırıb. Bunun ardınca Ermənistanın əsas radiosu olan İctimai radio müxalifət qüvvələri tərəfindən ələ keçirilərək, 1926-cı ildən ilk dəfə yayımını dayandırıb. Müxalifət nümayəndələri radionun binasına daxil olandan sonra yayım kəsilib. Radionun binasına elektrik enerjisi kəsilib. Rəqəmsal və respublikadaxili "FM" şəbəkəsi formatında efir yayımı bir saatdan artıq dayanıb. Müxalifət nümayəndələri radionun binasını tərk etdikdən sonra rəqəmsal formatda efir bərpa olunub.

Radionun binasını tərk edən etirazçılar küçələrə çıxaraq Sarkisyan rejimi əleyhinə şüarlar səsləndiriblər. Nikol Paşinyan bildirib ki, ölkənin İctimai radiosu Serj Sarkisyanın yaratdığı saxta dövlətin elementidir. Onun sözlərinə görə, radionun ələ keçirilməsində məqsəd informasiya blokadasına etirazdır.

### "Sarkisyanın yenidən ölkəni idarə etməsinə imkan verməyəcəyik"

Dünən Serj Sarkisyanın baş nazir olmaq planlarına etiraz edən müxalifətçilər Yerevandakı Fransa meydanına toplaşıblar. Fransa meydanı paytaxtın mərkəzi meydanlarından biridir. Müxalifətçilər artıq bir neçə gündür ki, bu meydanı tutublar. Onlar burada çadırlar qurublar və onlarla fəal gecəni burada keçirir.

"Asparez" jurnalistlər birliyinin sədri Levon Barseqyan yenidən hamını Fransa meydanına səsləyib və Sarkisyanı yola salmağa çağırıb. O, parlamentdə təmsil olunan partiyaları, o cümlədən hakim Respublika Partiyasından olan deputatları meydana gəlməyə, xalqa qoşulmağa dəvət edib. Aksiya təşkilatçıları bildiriblər ki, cəmiyyəti səfərbər edəcəklər və prezident Serj Sarkisyanın baş nazir vəzifəsinə sahiblənərək yenidən ölkəni idarə etməsinə imkan verməyəcəklər.

### Tələbələr tətil elan edib, küçəni bağladılar

Tələbələr bəyan edirlər ki, ölkə konstitusiyası məqsədli şəkildə dəyişdirilib, prezident üsul-idarəsindən parlament idarəçiliyinə keçidin arxasında məkrli plan dayanır. Burada məqsəd ikinci prezidentlik dövrü başa çatan və üçüncü dəfə prezidentliyə namizədliyini irəli sürməyə hüququ çatmayan Serj Sarkisyana öz hakimiyyətini sürdürmək şansı verməkdir. Onlar bunu "Sarkisyanın 3-cü prezidentlik müddəti" adlandırırlar.

Belə bir vaxtda o da məlum olub ki, Yerevanda etirazçı tələbələrlə polis arasında toqquşma baş verib. Aprelin 16-da Yerevan Dövlət Universitetinin bir qrup tələbəsi Serj Sarkisyanın baş nazir postuna namizədliyinin irəli sürülməsinə etiraz olaraq tətil elan edib. Onlar dərsə girməyiblər və oturaq aksiya keçirirlər.

Tələbələr Yerevanın Baqramyan prospektini bağlayıblar. Bu səbəbdən şəhərin mərkəzi hissəsində nəqliyyatın hərəkəti ifliç olub və tıxac yaranıb. Polis aksiya iştirakçılarını yolu açmağa çağırıb. Tələbələr isə bu tələbə məhəl qoymayıblar. Bu zaman polislə aksiya iştirakçıları arasında qarşıdurma baş verib.

"Mənim addımım" təşəbbüsünün lideri Nikol Paşinyan isə bildirir ki, bu qarşıdurmaların miqyası genişlənə bilər. O, hakimiyyətə xəbərdarlıq da ünvanlayıb. Bəyan edib ki, Ermənistan parlamentinin iclası qanunverici orqanın binasından kənarda olarsa, Yerevana nəzarəti ələ alacaqlar.

O qeyd edib ki, bu halda Serj Sarkisyanın baş nazir təyin edilməsinə etiraz edən aksiya iştirakçıları bütün Yerevanın küçələrini bağlayacaqlar. Onun sözlərinə görə, əsas məqsədləri parlamentin aprelin 17-də keçiriləcək iclasını pozmaq və küçələrdə vətəndaşların olmasını təmin etməkdir. Paşinyan ölkə vətəndaşlarını Yerevandakı körpüləri, küçələri, metroları bağlamağa çağırıb.

Artıq etirazçılar paytaxtın bir sıra vacib küçə və prospektlərini qismən bağlayıblar. Buna cavab olaraq paytaxta əlavə qüvvələr yeridilib. Yaranmış vəziyyət artıq ölkədə vətəndaş qarşıdurmasını istisna etmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 01.03.2018-ci il tarixdə Yasamal rayonu, M.Muxtarov və Ç.Mustafayev küçələrinin kəsişməsində yerləşən 110/35/10 kV-luq "Bayramzadə" yarımstansiyasının və ofis binasının tikintisi işlərinin satın alınması üzrə elan edilmiş açıq tender layihədə dəyişikliklərin olması səbəbindən 23 aprel 2018-ci il tarixindən 06 iyun 2018-ci il tarixinə keçirilir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının İcra katibliyi Azərbaycan Respublikası Milli Məclisinin deputatı
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Məhəmməd Sadıqova əzizi
**ƏNTİQƏ ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Rafael Qafarov və idarə heyətinin üzvləri Milli Məclisin İşlər müdirinin müavini Fazil Səfərəliyevə qardaşı
**ƏDALƏT SƏFƏRƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Hesablama Palatasının rəhbərliyi və kollektivi Milli Məclisin deputatı
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Respublikası Milli Məclisinin deputatı
**ASTAN ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Cəsarət Hüseynova atası
**SƏNAN HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti və Bakı şəhəri 12 saylı hüquq məsləhətxanasının kollektivi məsləhətxananın vəkili Xanlar Qafarova qardaşı
**BƏYLƏR MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qəbələ Rayon Mərkəzi Xəstəxanasının rəhbərliyi və kollektivi səhiyyə nazirinin müavini
**ABBAS VƏLİBƏYOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın İdman kafedrasının müdiri, Həmkarlar İttifaqı Komitəsinin sədri, SSRİ idman ustası, professor
**MUSA İSGƏNDƏR OĞLU MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin İstilik energetikası kafedrasının müdiri, professor, Milli Məclisin deputatı
**ASTAN NUŞRƏVAN OĞLU ŞAHVERDİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Binəqədi rayonu 25 nömrəli şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova həkim-otolorinqoloq
**ƏZİZ HÜSEYN OĞLU BAYRAMLININ**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8809
Sifariş 1033